# Ana-Vətən

Xaqani Ibrahimov

"Elm və təhsil"
Bakı-2020

**Redaktor:** **Nizami CƏFƏROV**
***akademik***

**Rəyçi:** **Nadir MƏMMƏDLİ**
***Filologiya elmləri doktoru, professor***

**Xaqani İbrahimov. Ana – Vətən.**
**Bakı, "Elm və təhsil", 2020, 288 səh.**

"Ana-Vətən" kitabı Heydər Əliyev Fondunun prezidenti, UNESCO və İSESCO-nun xoşməramlı səfiri, Azərbaycanın Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın ictimai-siyasi fəaliyyətindən bəhs edir. Müəllif bu kitab vasitəsi ilə oxucularına Mehriban xanım Əliyevanın xeyirxahlığı, işgüzarlığı və beynəlxalq nüfuzu barədə dolğun, geniş məlumatlar çatdırmağa nail olmuşdur.

**ISBN 978-9952-8380-7-7**

© Xaqani İbrahimov, 2020



## ÖN SÖZ

Təbiət qadına analıq səadəti bəxş edəndə bir böyüklük də ərmağan verir. Onun mərhəmət duyğuları güclənir, məsuliyyəti artır. Harada bir körpə ağlasa, onu özününkü sayır. Harada bir ehtiyaclı ana görsə, ona əl tutmağa can atır.

Dünyanın hər hansı bir yerindən gələn top-tüfəng səsini lap yaxınlıqda hiss edir. Şadlananla sevinməyi, dərdli ilə kədərlənməyi bacarır.

Azərbaycanlı analara bu duyğular böyük saxavətlə verilib, ona ən ali mərhəmət hislərindən daha çox pay düşüb. Bu gün biz bu timsallı ananı Azərbaycanın birinci xanımı Mehriban Əliyevanın nümunəsində görürük.

Azərbaycanın bir xoşbəxtliyi də ondadır ki, Prezidentin belə ömürgün yoldaşı, dostu və silahdaşı, xalqının belə xeyirxahı, qayğıkeşi, analarının və körpələrinin belə həmdəmi, himayədarı var!

Azərbaycanın birinci xanımı, Heydər Əliyev Fondunun prezidenti, UNESCO və İSESCO-nun xoşməramlı səfiri, Milli Məclisin deputatı, Bi-

rinci vitse-prezident... Bu adların hər birinin arxasında böyük məsuliyyət, zəhmət və səriştə tələb edən vəzifələr dayanır. Onların hər birini layiqincə yerinə yetirmək üçün səbir, düçüncə, bilik və təcrübə vacibdir, əməli işlər görmək lazımdır.

Azərbaycanın birinci xanımı bütün bu vəzifələrə ana qəlbi və ana təmkini ilə yanaşır. Başladığı hər yeni layihəyə, keçirdiyi hər bir tədbirə ana qəlbinin odunu, hərarətini qatır. Bütün çıxışlarından ana səsi-sədası gəlir, bütün söhbətlərində ana qayğısı, nəvazişi duyulur. Azərbaycanın birinci xanımının daşıdığı böyük, müqəddəs bir ad var- Ana adı!

Ana adı və missiyası Mehriban xanım üçün çox əzizdir. Ona görə də o, belə deyib: "Əlbəttə, hər şəxsin formalaşmasında ailənin, ailə mühitinin, ailə tərbiyəsinin rolu əvəzsizdir. Ailəyə bağlılıq, ailə dəyərləri, uşaqlara qayğı, böyüklərə hörmət Azərbaycan xalqına məxsus olan ən gözəl xüsusiyyətlərdən biridir...

Hər bir qadın üçün onun ailəsi, onun uşaqları həyatının ən vacib, ən mühüm hissəsidir. Mən özüm üç uşaq anası olaraq analıq missiyasını həyatımın ən vacib missiyası kimi dəyərləndirirəm. Əlbəttə ki, hər bir valideyn arzulayır ki, onun uşağı sağlam, bilikli, savadlı, xoşbəxt böyüsün və bunun üçün əlindən gələni edir"





Azərbaycan xalqının leksikonunda qədim zamanlardan belə bir ifadə var- el anası. Ehtiyacı olanın çətinliyini duymağı bacaran, dərdliyə həmdəmlik edən, yetimi sinəsinə çəkən, qısası bir kəndin, bir obanın camaatına qayğı göstərməyə qadir olan geniş ürəkli xanımlara el anası deyiblər!

Azərbaycanın birinci xanımını, Birinci vitse-prezidentinin bu yöndəki xeyirxahlıq missiyası bir ailənin, kəndin, yaxud şəhərin çərçivəsindən çıxaraq daha geniş miqyas alıb. Mehriban xanım Əliyeva bütün Azərbaycan xalqının xeyirxahı, həmdəmi, qayğıkeşidir. O, hamıya kömək etməyə, yaxşı işlərdə dəstək verməyə, yardım göstərməyə qadir və həmişə hazır olan böyük Anadır!

Mehriban Əliyevanın xeyirxahlıq missiyası təkcə özümüzə deyil, bütün dünyaya bəllidir. Bu missiyanın bəhrələri özünü artıq Yer üzünün ayrı-ayrı guşələrində də göstərməkdədir.

Mehriban xanım Əliyevanın təşəbbüsü və rəhbərliyi ilə reallaşan "Diabetli uşaqlara ən yüksək qayğı" və "Talassemiyasız həyat naminə" layihələri sözügedən xəstəliklərdən əziyyət çəkən insanların, xüsusilə uşaqların pulsuz müayinə olunmasına və müalicə almasına, nəticədə şəfa tapmasına imkan yaradıb. Bu və digər xəstəliklərin aradan qaldırılma-

sına kömək edən neçə-neçə yeni tibb müəssisəsi, o cümlədən Talassemiya mərkəzi istifadəyə verilmişdir.

Bakıda və ölkənin digər regionlarında mütəmadi keçirilən qanvermə aksiyaları, ürək çatışmazlığından, dodaq və damar bitişməzliyi patologiyasından əziyyət çəkən uşaqların əməliyyat olunması, aztəminatlı ailələrin üzvlərinin müayinələri, lazım gəldikdə insanların xarici ölkələrə müalicəyə göndərilməsi... bütün bunlar Azərbaycanın birinci xanımı, Birinci vitse-prezidenti Mehriban Əliyevanın xeyirxah əməlləri nəticəsində baş tutur.

Hələ biz "Uşaq evləri və internat məktəblərinin inkişafı", "Yeniləşən Azərbaycana yeni məktəb", "Təhsilə dəstək" və digər layihələri demirik...

Bir zamanlar uşaq evindəki balaca oğlan və qızların o qədər də yaxşı qidalanmaması, ailələrdə böyüyən atalı-analı yaşıdlarından geyim-keçimdə də geridə qalması hamıya məlum olan həqiqət idi. İndi bu uşaqların heç nəyə ehtiyacı yoxdur! Necə deyərlər, kefləri kök, damağları çağdır. Bunun hamısı Mehriban Əliyevanın zəhməti, səyi nəticəsində mümkün olub. Ancaq uşağı çörəklə, ləziz nemətlərlə doydurmaq, əyin-başını düzəltmək hələ işin yarısıdır. Onun isti nəfəsə, qayğıya ehtiyacı daha çox olur. Siz Mehriban xanımın yetim, yaxud xəstə uşağı necə məhəbbətlə qucağına götürdüyünə, necə istəklə bağrına basdığına diqqətlə baxın! Bu, internatlarda və uşaq evlərində işləyən qadınlara bir nümunə, bizim hamımıza, bütün cəmiyyətə bir mesajdır!





Bir zamanlar uşaq evində böyüyən oğlan və qızların məktəbi bitirəndən, yəni, yetkinlik yaşına çatandan sonra haraya üz tutacağı, harada yaşayacağı da cəmiyyəti narahat edən bir problem idi. Mehriban xanım bu uşaqların da qayğısına bir ana kimi qaldı. Onlar üçün ev tikdirdi...

Nəhayət, Azərbaycanın birinci xanımının xalqımızın həyatındakı son günlərdə qələbə, qürur və bunları bizə bəxş edərək uca şəhidlik mərtəbəsinə yüksəlmiş oğullarımız üçün yaşadığımız kədər dolu olaylara münasibəti barədə Heydər Məscidində Mehriban Əliyevanın adından şəhid olmuş hərbiçilərə ehsan verildi. Tədbirin rəsmi adı belə idi. Əslində isə, Azərbaycanın birinci xanımı öz ciyərparasını itirmiş anaların, körpəsi atasız qalmış gəlinlərin dərdinə şərik çıxması, kədərini bölməsi və bütün bunlarla bahəm onlara təsəlli verməsi, vətən yolunda qəhrəmanlıq göstərmiş əzizləri üçün qürur keçirməli olduqlarını deməsi idi. Bunu deyərkən özünü də qəhər boğdu, kövrəldiyini gizlədə bilmədi. Bu da ana qəlbinə xas olan əlamətdir.

Çətin məqamda, kədərli anda hər kəsin yanında ən yaxın adamı olar. Dərdli insanın göz yaşını həmişə ya bacısı silər, ya da anası. Mehriban

xanım bunu da etdi; böyük Analıq missiyasını bu dəfə də qəlbindən qaynaqlanan bir təbiiliklə yerinə yetirdi...

Araşdırmaçı yazar Xaqani İbrahimovun çapa hazırladlğı " Ana- Vətən " kitabına yazdığım ön sözü burada tamamlayaraq oxucuların diqqətini müəllifin ağır zəhmət hesabına hazırladığı materiallara yönəltmələrini istərdim. Düşünürəm ki, oxucular " Ana- Vətən " kitabını oxuduqdan sonra sərf etdikləri zamana görə təəssüflənməyəcəklər.

*Şahin Aydəmir*





## BİR İNSANIN TALEYİ

Mehriban Arif qızı Əliyeva 1964-cü il 26 avqustda Bakı şəhərində ziyalı ailəsində anadan olmuşdur. O, yazıçı, ədəbiyyatşünas, Azərbaycanın Əməkdar elm xadimi, filologiya elmləri doktoru, professor Mircəlal Paşayevin və görkəmli jurnalist, pedaqoq, əməkdar elm xadimi Nəsir İmanquliyevin nəvəsidir.

Atası Arif Paşayev Azərbaycanın görkəmli alimi, pedaqoq, ictimai xadim, Milli Elmlər Akademiyasının akademiki, Dövlət Mükafatı laureatı, fizika-riyaziyyat elmləri doktoru, professordur. 1996-cı ildən "Azərbaycan Hava Yolları" Dövlət Konserni Milli Aviasiya Akademiyasının rektorudur.

Anası Aida İmanquliyeva şərqşünas, ədəbiyyatşünas, tənqidçi, tərcüməçi, filologiya elmləri doktoru, professordur. Aida İmanquliyeva Azərbaycanda ərəb ədəbiyyatı üzrə ilk elmlər doktoru, ilk professor- qadındır.

Aida İmanquliyeva 1992-ci il 19 sentyabrda vəfat etmişdir...

Mehriban Əliyeva 1982-ci ildə Bakı şəhəri 23 saylı tam orta məktəbi qızıl medalla bitiriərək N.Nərimanov adına Azərbaycan Dövlət Tibb İnstitutunun müalicə-profilaktika fakültəsinə daxil olub.

O, müsahibələrinin birində peşə seçimini bu cür dəyərləndirir:

**"Ağlım kəsəndən bəri başqa alternativim olmayıb. Anam şərqşünas-alim idi. Azərbaycan Elmlər Akademiyasının Şərqşünaslıq İnstitutuna başçılıq etmişdir. Lakin orta məktəbi bitirdikdən sonra sənədlərini tibb institutuna vermişdi; çox istəyirdi ki, həkim olsun. Nəyə görəsə valideynləri onu uzun müddət dilə tutmuşlar və nəticədə o, görkəmli filoloq olmuşdur. Bax onun bu baş tutmamış arzusu mənim seçimimi müəyyənləşdirmişdir. İxtisas seçimimə isə İlhamın anası- həkim oftalmoloq Zərifə xanım təsir göstərmişdir".**

O, 1988-ci ildə İ.M.Seçenov adına 1-ci Moskva Dövlət Tibb İnstitutunu fərqlənmə diplomu ilə bitirib və 1988-1992-ci illər ərzində Moskvada akademik Krasnovun rəhbərliyi altında Göz Xəstəlikləri Elmi-Tədqiqat İnstitutunda işləmişdir.





Mehriban Əliyeva 2005-ci ildə "Eftanaziya və təbabətdə humanizm problemi" mövzusunda dissertasiya müdafiə edərək, fəlsəfə elmləri namizədi alimlik dərəcəsi almışdır.

1983-cü ildə İlham Əliyevlə ailə həyatı qurmuşdur. Leyla, Arzu və Heydər adlı üç övladı vardır.

Həyat yoldaşı İlham Əliyev Mehriban xanımı belə xarakterizə edir:

**"Təbii ki, hər kəs kimi, mənim də anam gəlin tapmağa çalışırdı. Amma Mehribanla tanış olanda özlüyümdə qərara aldım ki, bax, bu qız xoşuma gəlir... Əlbəttə, zahiri görünüş böyük rol oynayır. Amma onun daxili aləmindən gələn və indi də gəlməkdə olan mehribanlıq, yəqin ki, zahiri görkəmi ilə yanaşı daha çox cəlb edirdi".**

Sonradan onun milli ənənələrə bağlı olan digər bir ziyalı Azərbaycanlı ailəsinə gəlin köçməsi, Heydər Əliyev və tibb elmləri doktoru, akademik Zərifə Əliyevanın gəlini olması bu keyfiyyətlərin daha da dərin kök atmasına təsir edib.

**"Ailə mühitini müəyyənləşdirən amillər çoxdur, amma yəqin ki, başlıcası bir ümumi dalğaya köklənən fikir və dəyərlərin birliyidir.**

**Bir-birinə son dərəcə diqqətli münasibət çox vacibdir. Əgər ailədə hər bir kəs özünün vacibliyini və əvəzedilməzliyini duyursa, özünün müdafiə olunduğunu və sevildiyini hiss edirsə- bu yalnız gələcək ailə səadətinin əsası deyil, həm də hər bir məqsədə çatmaq üçün möhkəm bir stimuldur"**- söyləyən Mehriban xanım qadının ailədəki rolu və ailəyə münasibətini hər zaman önə çəkib. "Hər bir qadın üçün onun ailəsi, onun uşaqları həyatının ən vacib, ən mühüm hissəsidir. Mən özüm üç uşaq anası olaraq analıq missiyasını həyatımın ən vacib missiyası kimi dəyərləndirirəm". Mehriban xanım eyni zamanda qadını ailədə sülhün, razılığın və məhəbbətin təminatçısı hesab edir:

> **"Mənim üçün çox vacibdir ki, həyat yoldaşım olduqca dolğun və gərgin iş günündən sonra evə gəlir və burada onu anlayır və dəstəkləyirlər, onu qiymətləndirir və sevirlər".**

Mehriban Əliyeva 1988-1992-ci illər ərzində Moskvada akademik Krasnovun rəhbərliyi altında "Göz xəstəlikləri Elmi-Tədqiqat İnstitutunda işləmişdir.

Aktiv ictimai fəaliyyətə 1995-ci ildə, hal-hazırda rəhbərlik etdiyi Azərbaycan Mədəniyyət Fondunu yaratmaqla başlamışdır. 1996-cı ildə Azərbaycan mədəniyyətinin geniş təbliğ olunması məqsədi ilə üç dildə





(Azərbyacan, İngilis və rus) çap olunan "Azərbaycan- İrs" jurnalını təsis etmişdir.

Müsahibələrinin birində Azərbaycan Mədəniyyəti Fondunun və "İrs" jurnalının yaradılma məqsədlərini Mehriban Əliyeva belə izah etmişdir:

> **"Azərbaycan Mədəniyyətinin Dostları Fondunu yaradarkən onun əsas məqsədi Azərbaycan mədəniyyətini təbliğ etmək, tanıtdırmaq idi. "İrs" jurnalını da mən elə onda təsis etdim. Jurnal, əslində, Fondun fəaliyyətini işıqlandırmaqla məşğul olurdu və müəyyən bir mövzuya həsr edilən hər bir nömrə həm populyar, həm də tədqiqat materialı idi. İftixarla deyə bilərəm ki, Azərbaycan mədəniyyəti barədə bizdən əvvəl hələ heç kim belə şirin yazmayıbdır. Məsələn, miniatürdən və ya memarlıq abidələrindən yazmağı qarşımıza məqsəd qoyduqda, əməkdaşlığa, əslində həm akademiya alimlərini, həm jurnalistləri, həm də sənətşünasları cəlb etmişdik. Fond da, jurnal da kifayət qədər mürəkkəb vəzifələri yerinə yetirməli idilər. O illər**

**müstəqil Azərbaycanın təşəkkül illəri idi. Siyasi, iqtisadi dəyişikliklərlə yanaşı, köhnə ideologiyadan xilasolma prosesi də gedir, stereotiplər dağıdılırdı. Kifayət qədər təlatümlü həmin dövrdə mədəni irsimiz yenidən fikir süzgəcindən keçirilir, əzəli milli ənənələrə və köklərə qayıdılırdı".**

Mehriban Əliyeva 2002-ci ildə Azərbaycan Gimnastika Federasiyasının prezidenti seçilmişdir. Onun prezident seçilməsindən sonra Azərbaycan Gimnastika Federasiyasının fəaliyyəti yenidən qurulmuşdur. Onun beynəlxalq aləmdə artmaqda olan nüfuzu Beynəlxalq Gimnastika Federasiyasının bədii gimnastika üzrə dünya kubokunun "A" kateqoriyalı mərhələsinin (2003), Dünya Kubokunun (2004), 27-ci (2009) və 30-cu (2014) Avropa Çempionatlarının Azərbaycanda keçirilməsinə dair qərarın qəbul olunmasında həlledici rol oynamışdır.

Mehriban Əliyeva Heydər Əliyevin zəngin irsinin öyrənilməsi, onun milli dövlətçilik ideyalarının yeni nəsillərə aşılanması məqsədilə yaradılmış "Heydər Əliyev Fondu"nun prezidentidir.

2004-cü il, may ayının 10-da, Heydər Əliyevin doğum günündə təsis edilmiş Heydər Əliyev Fondunun məqsədi milli-mənəvi dəyərlərin qo-





runması və Azərbaycan mədəniyyətinin geniş təbliğ olunması ilə bağlı işlərin aparılmasına kömək etmək, əhalinin rifahının yüksəldilməsinə yönəldilmiş müxtəlif proqram və tədbirləri, elm, təhsil, mədəniyyət, səhiyyə və idmanın inkişafını təmin edən layihələri dəstəkləmək, uşaq və gənclərin sağlam, milli-mənəvi dəyərlərə sadiq, hərtərəfli biliklərə malik vətəndaş kimi yetişdirilməsi işinə xidmət etmək, Azərbaycanın beynəlxalq nüfuzunun artırılması ilə bağlı tədbirlərin reallaşdırılmasına yardım göstərməkdən ibarətdir.

Heydər Əliyev Fondu fəaliyyəti dövründə müxtəlif sahələri əhatə edən layihələri reallaşdırmağa, dünyanın nüfuzlu təşkilatları ilə əməkdaşlıq etməyə, möhtəşəm beynəlxalq konfrans və festivallar keçirməyə müvəffəq olmuşdur. Fondun həyata keçirdiyi layihələr həm Azərbaycanda, həm də onun hüdudlarından kənarda ictimaiyyət tərəfindən böyük rəğbətlə qarşılanmışdır.

Mehriban Əliyevanın fəaliyyətində idmanın inkişafına da xüsusi önəm verilir. 2004-cü ilin 28 dekabrında Mehriban Əliyeva Azərbaycan Respublikası Milli Olimpiya Komitəsinin IV Baş Məclisində MOK-un icraiyyə Komitəsinə üzv seçilmişdir.

2012-ci il, dekabr ayının 8-də Avropa Olimpiya Komitəsi Baş Assambleyası 2015-ci ildə I Avropa Oyunlarının Bakıda keçirilməsi haqqında qə-

rar qəbul etdi. Birinci Avropa Oyunlarını yüksək səviyyədə keçirmək məqsədi ilə 2013-cü il yanvar 17-də Təşkilat Komitəsi yaradıldı və onun sədri Mehriban Əliyeva təyin olundu. 21 yanvar 2016-cı ildə "Bakı-2015" Birinci Avropa Oyunları Təşkilat Komitasinin sədri Mehriban Əliyevaya Avropa idmanının inkişafında göstərdiyi xüsusi xidmətlərə görə Avropa Olimpiya Komitələrinin İcraiyyə Komitəsinin qərarı ilə Avropa Olimpiya Komitələrinin ən yüksək mükafatı olan Ali Orden təqdim edilmişdir.

2004-cü ildən Yeni Azərbaycan Partiyası Siyasi Şurasının üzvü, 2013-cü ildən partiyanın sədr müavinidir. 2005, 2010-cu illərdə Azərbaycan Respublikasının Milli Məclisinə keçirilən seçkilərdə namizədliyi Yeni Azərbaycan Partiyası tərəfindən 14 saylı Xəzər rayon ikinci seçki dairəsindən irəli sürülmüş və Mehriban Əliyeva rəqiblərinin üzərində inamlı qələbə qazanaraq deputat seçilmişdir.

O, Milli Məclisin deputatı kimi fəaliyyətində əsl peşəkarlıq, siyasi yetkinlik nümunəsi göstərmişdir. **"Siz mənə səs verməklə, sizin və balalarınızın ümidlərinin gerçəkləşməsinə səs vermisiniz"**- deyən Mehriban Əliyeva öz fəaliyyəti ilə sübut etmişdir ki, əzmkarlıq, işləri düzgün qurmaq bacarığı olan yerdə həlli mümkünsüz sayıla biləcək heç bir problem yoxdur.





Mehriban Əliyevanın Milli Məclisin deputatı kimi fəaliyyətində yaddaqalan məqamlardan biri onun ədalət, humanizm və insanpərvərlik ideyalarını rəhbər tutaraq genişmiqyaslı amnistiya aktının qəbul edilməsi təşəbbüsü ilə çıxış etməsidir. 2007-ci il 8 mayda Mehriban xanımın hazırladığı "Azərbaycan xalqının ümumilli lideri Heydər Əliyevin xatirəsinə həsr olunmuş amnistiya haqqında" qərar layihəsinin müzakirəsində o, öz çıxışında qeyd etmişdir ki, **"...səhv etmiş, cinayət törətmiş insanlara bir daha imkan verməliyik ki, onlar azad həyata qayıtsınlar, ailələrinə, yaxınlarına qovuşsunlar, cəmiyyətdə öz yerlərini tapa bilsinlər. Ağır cinayət törətməyən insanları bağışlayaraq, biz həm onları normal həyata qaytarırıq, həm də müstəqil Azərbaycanın humanizm prinsipləri əsasında inkişaf etdiyini nümayiş etdiririk".**

Azərbaycan parlamentarizmi tarixində ilk dəfə olaraq Milli Məclisin deputatı tərəfindən irəli sürülmüş və geniş ictimai dəstək almış bu amnistiya aktı böyük mənəvi-əxlaqi və siyasi məzmun daşımışdır.

O, bu nəcib təşəbbüsü ənənəyə çevirərək 2009 və 2013-cü illərdə də eyni müraciətlə çıxış etmiş və nəticədə 2009-cu ildə 9564, 2013-cü ildə isə təqribən 9000 nəfər azadlığa buraxılmışdır.

**"Həkimlik xüsusi peşədir. Bu, ruh və qəlb peşəsidir. Bu, dərdə şərik olmaq və şəfqət elmidir. Bu, insanların halına yanmaq, ehtiyacı olanlara əl uzatmaq peşəsidir. Bu, altruizmdir. Mənim həyatım elə gəritib ki, artıq çoxdandır öz peşəmlə məşğul olmuram. Amma fəaliyyətimin hər bir sahəsində, xüsusən də Heydər Əliyev Fondunun prezidenti vəzifəsində mən məhz bu prinsiplərə, bu əsasa arxalanmağa çalışıram".**

Azərbaycan dövlətçiliyi tarixində ilk dəfə olaraq "birinci xanım" statusunu məhz Mehriban Əliyeva formalaşdıraraq cəmiyyətin həyatına birinci xanım ənənəsini gətirmişdir.

Azərbaycanın birinci xanımının geniş ictimai-siyasi fəaliyyəti dünya səviyyəsində Azərbaycan qadınının obrazının yaradılmasında əvəzsiz rol oynamışdır.

Müasir dövrdə qadınların cəmiyyət həyatında fəal təmsilçiliyi, gender bərabərliyi kimi məsələlər bütün bəşəriyyət üçün aktuallıq kəsb edir. Eyni zamanda, Azərbaycan dövlətinin bu istiqamətdə atdığı addımlar və əldə olunmuş nailiyyətlər bir çox ölkələr üçün pozitiv nümunə kimi çıxış edir. Bunun qanunauyğun nəticəsi kimi, cəmiyyətimizdə qadınların fəal-





lığı kifayət qədər artıb, onlar bütün sahələrdə yüksək aktivlik nümayiş etdirərək ciddi nailiyyətlər əldə ediblər.

Xüsusi olaraq vurğulamaq gərəkdir ki, Azərbaycan tarixində xalqının, dövlətinin taleyində müstəsna rol oynamış, öz qərarları və atdıqları addımlarla xalqımızın gələcəyinə işıq tutmuş görkəmli qadınlar çox olub. Azərbaycan xanımları bütün dövrlərdə öz istedadı, zəkası, ağlı və iradəsi ilə milli-mənəvi dəyərlərimizin qorunub saxlanılması və yaşadılmasında müstəsna xidmətlər göstəriblər.

Çox sevindirici haldır ki, bu gün də bütün fəaliyyətini xalqımızın, dövlətimizin inkişafına həsr edən işgüzar, cəsarətli, vətənpərvər xanımlar kifayət qədərdir. Azərbaycanın birinci xanımı, Heydər Əliyev Fondunun prezidenti, UNESCO-nun və İSESCO-nun xoşməramlı səfiri, Milli Məclisin üzvü Mehriban Əliyevanın çoxşaxəli fəaliyyəti bu baxımdan müsbət örnək kimi göstərilə bilər.

Mehriban xanım Əliyevanın ali dəyərlərə söykənən fəaliyyəti Azərbaycan xalqının və dövlətinin maraqlarını əks etdirir.

Ümumiyyətlə, Azərbaycanın birinci xanımı, Heydər Əliyev Fondunun prezidenti, UNESCO-nun və İSESCO-nun xoşməramlı səfiri Mehriban Əliyeva Azərbaycanı layiqincə təmsil edən, ölkəmizdə və dünyada xeyriyyəçi, hümanist fəaliyyəti ilə seçilən, həmçinin, mədəniyyətə, idma-

na qayğı ilə yanaşan, elm, təhsil, səhiyyə sahələrində respublikada və beynəlxalq miqyasda böyük işlər görən ictimai-siyasi xadim kimi tanınır.

Azərbaycanın birinci xanımının ali məramlı fəaliyyəti bəhs etdiyimiz ayrı-ayrı sahələrin inkişafında müstəsna rol oynamaqla, ölkəmizin tərəqqisinə mühüm töhfələr vermişdir.

Mehriban xanım Əliyeva, Azərbaycanın birinci xanımı kimi çoxşaxəli və səmərəli fəaliyyəti ilə mədəniyyətlərarası dialoqun təşviqinə fundamental töhfələr vermişdir. Xüsusi olaraq vurğulamaq lazımdır ki, Azərbaycan mədəniyyətinin dünyada təbliğində, eləcə də, mədəniyyətlərarası dialoqun genişləndirilməsində Heydər Əliyev Fondunun BMT-nin ən mötəbər qurumlarından olan UNESCO ilə əlaqələri xüsusi yer tutur. Mehriban xanım Əliyevanın UNESCO ilə əməkdaşlıq çərçivəsindəki fəaliyyəti müxtəlif ölkələrlə mədəni əlaqələrin gücləndirilməsi , sivilizasiyalararası dialoqun genişləndirilməsi yönündə mühüm nailiyyətdir. Bu məqamda qeyd edək ki, məhz Prezident İlham Əliyevin və UNESCO-nun və İSESCO-nun xoşməramlı səfiri Mehriban xanım Əliyevanın səmərəli fəaliyyətinin nəticəsi olaraq muğam və aşıq sənəti, tar ifaçılıq sənəti, eləcə də Azərbaycan xalçası UNESCO-nun "Qeyri-maddi mədəni irs" siyahısına daxil edilmişdir.





Yeri gəlmişkən, Azərbaycan reallıqlarının beynəlxalq miqyasda təbliğ edilməsi, müsbət imicinin möhkəmləndirilməsi istiqamətində görülən işlər kontekstində Mehriban xanım Əliyevanın təşkilatçılıq fəaliyyətinə xüsusi toxunmaq gərəkdir. Onun yüksək təşkilatçılıq bacarığı sayəsində nüfuzlu "Evrovision-2012" mahnı müsabiqəsi Bakıda ən yüksək səviyyədə keçirildi. Bu da ölkəmizin, bütövlikdə Azərbaycan mədəniyyətinin dünyada tanıdılması işinə xüsusi töhfələr vermişdir.

Mehriban xanım Əliyevanın ali dəyərlərə söykənən fəaliyyətindən söz açarkən onun bilavasitə təşəbbüsü ilə uşaq və yeniyetmələrin təhsili və təlimi sahəsində nəhəng layihələrin həyata keçirilməsinə də xüsusi nəzər salmaq lazımdır.

Sirr deyil ki, Azərbaycanın birinci xanımı daim uşaqları diqqətdə saxlayır, xüsusən də valideyn qayğısından məhrum olan, xəstə uşaqların əsl himayəçisi kimi fəaliyyət göstərir. Bir sözlə, Azərbaycanın birinci xanımı Mehriban Əliyevanın təşəbbüsü ilə uşaq və yeniyetmələrin sağlamlığı, təhsili, hərtərəfli inkişafı üçün böyük layihələr həyata keçirilmişdir.

Mehriban xanım Əliyeva, eyni zamanda xeyriyyəçilik fəaliyyəti ilə müasir, müstəqil Azərbaycanda bu sahədə sosial-fəlsəfi təməl qoymaqla yanaşı, gələcək nəsillərə nəcib bir yolun əsas konturlarını göstərmiş olur.

Son illərdə görülmüş xeyriyyə işləri, qazanılmış uğurlar, ilk növbədə, məhz Heydər Əliyev Fondunun prezidenti, UNESCO-nun və İSESCO-nun xoşməramlı səfiri Mehriban xanım Əliyevanın xeyirxahlıq, humanizm, vətənsevərlik hislərinə, milli düşüncəyə söykənən fəaliyyətinin, dünyanın tanınmış bir çox ictimai və mədəniyyət xadimləri tərəfindən də yüksək dəyərləndirilən intellektinin, təşəbbüskarlığının, nüfuzunun, təşkilatçılıq və idarəetmə bacarığının bəhrəsidir. Bir sözlə, xeyriyyəçilik və insanlara kömək etmək, onların problemlərinin həlli ilə məşğul olmaq Mehriban xanım Əliyevanın əsas amalıdır.

Onu da vurğulamaq gərəkdir ki, Azərbaycanın birinci xanımı bir çox beynəlxalq mükafatlara layiq görülmüşdür. Bu isə o deməkdir ki, Mehriban xanım Əliyevanın çoxşaxəli fəaliyyəti dünya səviyyəsində təqdir edilir. Azərbaycanın birinci xanımının bu günədək layiq görüldüyü çoxsaylı beynəlxalq mükafat və təltiflərin bir qismi məhz onun xoşməramlı səfir kimi gördüyü işlər, mədəniyyətlərarası dialoqa verdiyi töhfələrlə bağlıdır. Eyni zamanda, Azərbaycanın birinci xanımı mədəniyyətin təbliği və beynəlxalq mədəniyyət mübadiləsi, elm, səhiyyə, idman, təhsil, texnologiya və ekologiyanın inkişaf işinə verdiyi töhfəyə, həmçinin, ictimai, sosial və mədəni həyatda fəal iştirakına, cəmiyyətin dinamik inkişafına verdiyi mühüm töhfələr sahəsində əvəzsiz xidmətlərinə, ümumdünya mədəni irsinin qorunub saxlanması işinə hərtərəfli dəstəyinə, sosial ədalət və humanizm prinsiplərinə sadiqliyinə görə beynəlxalq mükafatlara layiq görülmüşdür.





Bir sözlə Mehriban xanım Əliyevanın geniş ictimai-siyasi fəaliyyəti dünya səviyyəsində Azərbaycan qadınının müsbət obrazının formalaşmasında əvəzsiz rol oynamışdır.

## MEHRİBAN ƏLİYEVA HEYDƏR ƏLİYEV FONDUNUN PREZİDENTİ KİMİ

**2004**-cü il may ayının 10-da ümumilli lider Heydər Əliyevin irsinin öyrənilməsi və yaratdığı milli dövlətçilik ideyalarını yeni nəsillərə daim aşılamaq məqsədilə yaradılan "Heydər Əliyev Fondu"nun rəsmi açılışı oldu. Həmin gündən Fonda rəhbərliyi Mehriban Əliyeva edir.

Heydər Əliyev Fondu fəaliyyətə başladığı gündən insanlara qayğı və təmənnasız xidməti ilə cəmiyyətdə böyük rəğbət qazanmışdır. Fondun vətəndaşların hər bir müraciətinə həssas münasibəti, milli-mənəvi dəyərlərimizin qorunmasl istiqamətində əzmkar fəaliyyəti, təhsil, səhiyyə, idmanın inkişafı sahəsində dövlətin yürütdüyü siyasətə dəstək verməsi bu qurumun ən ali ideallara xidmət etdiyini təsdiqləyir. Fondun prezidenti Mehriban xanım Əliyevanın xoşməramlı fəaliyyəti xalqımız tərəfindən yüksək qiymətləndirilir və görülən bütün işlər Heydər Əliyev irsinə verilən dəyərli töhfə kimi qəbul edilir...





Azərbaycanın hər bölgəsində Ulu öndər Heydər Əliyevin saysız-hesabsız yadigarı, quruculuq izləri var. Ümumilli liderinə sonsuz məhəbbət bəsləyən xalqımız Heydər Əliyev Fondunu mərhəmət və nicat rəmzi olmaqla yanaşı, onun ideyalarını yaradan möhtəşəm irs məbədi kimi qəbul edir. Qurumun fəaliyyətinin prioritet istiqamətləri xalqın rifahının yüksəldilməsinə yönəlmiş faydalı təşəbbüsləri dəstəkləmək, elm, təhsil, mədəniyyət, incəsənət, səhiyyə və idmanın inkişafını təmin edən layihələrə yardımçı olmaq, milli-mənəvi dəyərlərə sadiq gənclərin yetişdirilməsinə çalışmaqdır. Fond ictimai həyatın ən müxtəlif sahələrində fundamental layihələr həyata keçirir, hər bir vətəndaşın zəruri istək və arzularının gerçəkləşməsinə, problemlərinin həllinə maddi-mənəvi dəstək verir.

Xeyriyyəçiliyin, əl tutmağın sosial-fəlsəfi anlamı haqqında dərin fikir yürütmək, hər halda, uzun araşdırmalar tələb edir. Bu sosial akt özlüyündə dərin məzmun əks etdirməklə yanaşı, gələcək nəsilləri tərbiyələndirmək və istiqamətləndirmək baxımından çox vacib bir məktəb sayılır. Azərbaycan coğrafi və təbiəti etibarilə cəlbedici olduğundan hər zaman düşmən ölkələrin diqqətini çəkib, dövlətimiz tez-tez hücumlara məruz qalıb. Bu baxımdan dövlətimizin sabit əsaslarda inkişaf edərək insanların maddi imkanlarının artmasına və digər maddi vəziyyəti aşağı olan

cəmiyyət üzvlərinə əl tutmasına total təkanverici şərait olmayıb. Xeyriyyəçilik aktları yalnız müəyyən dövrlərdə sayıla biləcək şəxslər tərəfindən aparılıb və kütləvi xarakter almayıb. Bu fəaliyyətin totallaşmaması isə xeyriyyəçilik institutunun zəif inkişafına səbəb olub...

Amma bu gün Azərbaycan stabil əsaslara söykənərək irəli gedir və inkişafına görə lider ölkələr sırasında yer alıb. Maddi vəziyyəti yüksələn insanların sayı isə gündən-günə artır. Lakin xeyriyyəçiliyin bir ənənəyə, güclü bir instituta çevrilməsinə təkan verəcək vasitə lazımdır. Bu vasitə qismində isə bu gün Heydər Əliyev Fondu çıxış edir.

Heydər Əliyev Fondunun öz fəaliyyətində ümumilli liderin humanist ideyalarını rəhbər tutaraq hər bir vətəndaşın müraciətinə həssaslıqla yanaşması ölkəmizdə fəaliyyət göstərən digər qeyri-hökumət təşkilatları, ümumilikdə, bütün strukturlar üçün də nümunə sayıla bilər.

Heydər Əliyev Fondunun prezidenti, UNESCO-nun və İSESCO-nun xoşməramlı səfiri Mehriban xanım Əliyeva respublikada xeyriyyəçilik fəaliyyətinin genişlənməsi üçün ardıcıl və sistemli iş aparır, iş adamlarını bu yöndə fəallıq göstərməyə çağırır. Mehriban xanım Əliyeva haqlı olaraq vurğulayır ki, ölkəmizdə xeyriyyəçilik üçün fəaliyyət meydanı qeyri-məhduddur. Ən mühüm istiqamət yenə də sosial imkanları məhdud olan əhali qruplarına, yəni aztəminatlı vətəndaşlara, əlillərə, kimsəsizlə-





rə, qaçqınlara və məcburi köçkünlərə, təbii fəlakətlərdə və texnogen qəzalardan zərər çəkmiş insanlara müxtəlif şəkildə kömək etməkdir.

Mehriban xanım Əliyeva, eyni zamanda, zəngin mədəni ənənələrimizin qorunub saxlanması, nadir tarixi və memarlıq abidələrinin mühafizəsi, təbii mühitin qorunması, istedadlı gənclərə dəstək, bədən tərbiyəsi və idmanın inkişafına kömək məsələlərini də xeyriyyəçilik fəaliyyətinin üstün istiqamətlərinə aid edir. Onun qənatincə, xeyriyyəçi öz fəaliyyət istiqamətini seçərkən bunu ictimai tələbata uyğunlaşdırmalı və öz qüvvəsini ən kəskin ümdə problemlərin həlli üzərində cəmləşdirməyi bacarmalıdır.

Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyeva Azərbaycanda xeyriyyəçiliyin inkişafına mane olan amilləri də ortaya çıxarıb:

> **"İndiki dövrdə ölkəmizdə vətəndaş cəmiyyətinə xas olan bəzi inkişaf çətinliklərini də görməmək olmaz. Mən bəzən bu məsələnin ifrat siyasiləşdirilməsini və merkantilləşdirilməsini nəzərdə tuturam. Belə hallar xeyriyyəçilik potensialının reallaşdırılması imkanlarını xeyli məhdudlaşdırır. Onu da vurğulamaq istərdim ki, bizim biznes strukturlarının korporativ sosial məsuliyyəti**

**lazımi səviyyədə deyil, onlar çox vaxt öz fəaliyyətlərinin sosial sahədə həllini gözləyən problemlərə lazımınca diqqət yetirmirlər. İctimai əxlaqa xas olan bəzi naqisliklər- şəxsiyyətlərarası etimadın, insanların bir-birinin kədərinə şərik olması və təmənnasızlıq kimi keyfiyyətlərin qıtlığı onların öz vəsaitlərini, qüvvələrini və vaxtını başqalarının naminə, bütövlükdə cəmiyyətin naminə qurban verməyə könüllü hazır olması ruhunun tam üzə çıxmasına mane olur".**

AzərTac dövlət agentliyinə dərin məzmunlu müsahibəsində isə nəcib və mərhəmətli addımları ilə cəmiyyətdə böyük nüfuz sahibinə çevrilmiş Azərbaycanın birinci xanımı Mehriban Əliyeva xeyriyyəçilik məfhumunun fəlsəfi-nəzəri mahiyyətini açıb, bu cür fəaliyyəti şərtləndirən sosial-psixoloji amilləri əsaslandırıb, eyni zamanda, cəmiyyətdə mənəvi harmoniyanın qorunmasına xidmət edən xeyriyyəçiliyi yüksək mənəviyyatdan irəli gələn könüllü fəaliyyət kimi səciyyələndirib:

**"Xeyriyyəçilik- insanların hər hansı direktivlər və göstərişlər əsasında deyil, öz qəlbinin və vicdanının səsi ilə öz vəsaitlərini, qüvvələrini, vaxtını, enerjisini sərf edərək gördüyü xeyirxah işlərdir. Mənə belə gəlir ki, xeyriyyəçilik fəlsəfəsinin əsası ilk növbədə insanların yaxşılıq etməyə çalışması, başqasının dərdinə şərik olmaq, onun halına yanmaq, ehtiyacı olanlara kömək əlini uzatmaq istəyi kimi insani keyfiyyətlərin və qabiliyyətlərin fundamental xarakterinin qəbul edilməsidir. Mənəviyyatın ali qurumlarına görə, xeyriyyəçilik fəaliyyətinin əsas motivi şəxsən özün üçün hər hansı dividentlər və ya səmərə gözləmək deyil, məhz insanlara sevgi və təmənnasız olaraq xeyirxah işlər görmək arzusundan ibarət olmalıdır".**





Məlum olduğu kimi, hər gün Fonda yüzlərlə məktub daxil olur. Bütün müraciətləri müsbət cavablandırmaq mümkün olmasa da, problemlərə diqqətlə yanaşmaq, onların həllinə çalışmaq Fondun iş prinsipidir. İnsanların ümidlərini doğrultmaq və xeyirxahlıq etmək Fondun bütün fəaliyyətində aparıcı istiqamətlərdir. Cəmiyyətin sosial qayğılarına daim diqqət yetirən Heydər Əliyev Fondunun xətti ilə indiyədək 10 minə yaxın insan müayinə olunub, müalicə kursu keçib. Bu dövr ərzində 763 nə-

fər xəstə respublikanın müxtəlif tibb müəssisələrində cərrahiyyə əməliyyatı olunub. Yüzlərlə xəstənin əməliyyat və müayinəsi xarici ölkələrdə aparılıb.

Heydər Əliyev Fondu 2004-cü ildən "Diabetli uşaqlara ən yüksək qayğı" layihəsi çərçivəsində bu xəstəliyə düçar olmuş 14 yaşınadək uşaqları müntəzəm olaraq insulin preparatları və şpris-qələmlərlə təmin edir.

Artıq istifadəyə verilən "Talassemiya Mərkəzi" ölkədə qan xəstəliklərinin müalicə və profilaktikasında əhəmiyyətli irəliləyişə təkan verəcək. Bu mərkəz ən müasir avadanlıqlarla təchiz edilib. Heydər Əliyev Fondu tibb ocaqlarının, uşaq müalicə profilaktika müəssisələrinin yenidən qurulmasında, müasir avadanlıqlarla təchizatında iştirak edir.

"Fresenius Medical Care", "Karl-Storz", " Servier" kimi nüfuzlu şirkətlər tərəfindən Fonda bağışlanmış hemodializ və endoskopik aparatlar və dərman preparatları ölkənin müvafiq tibb müəssisələrində istifadə olunur.

Fond hər il "Yeni il" və "Novruz" bayramlarında uşaq evləri və internat məktəbləri, şəhid, məcburi köçkün ailələrindən olan uşaqlar üçün möhtəşəm bayram şənlikləri, xüsusi tədbirlər təşkil edir. Bütün işlər birbaşa Fondun prezidenti Mehriban xanım Əliyevanın nəzarəti ilə həyata keçirilir.





Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyeva üzərinə götürdüyü şərəfli missiyanı belə dəyərləndirir:

**"İstər UNESCO-nun xoşməramlı səfiri, istərsə də Heydər Əliyev Fondunun prezidenti kimi mənə ehtiyyac olduğunu hiss edirəm. Mənim adıma hər gün 200-dən çox mesaj gəlir. Onların heç biri diqqətsiz qalmır. Mən konkret iş görmək, konkret insanlara kömək etmək istəyirəm. Konkret problemləri həll etmək, yardım edə bildikcə sevinc hissi keçirmək və səndən asılı olmayan səbəblər üzündən nəsə edə bilmədikcə təəssüflənmək, qəzavüqədər, sağalmaz xəstəlik qarşısında bütün gücsüzlüyünü dərk edərkən əziyyət çəkmək, xilas edilmiş bir uşağın təbəssümünü gördükdə isə bir daha sevinmək istəyirəm. Bu mənim seçimimdir".**

Heydər Əliyev Fondunun prezidenti kimi Mehriban xanım Əliyevanın son dövrdə atdığı addımlar, xüsusən də təhsilə, insanların sağlam

həyatının qurulmasına yönəltdiyi böyük diqqət onun vətənpərvərliyinin və xeyirxahlığının danılmaz sübutudur.

Xeyriyyəçilikdən danışarkən, humanizm prinsiplərindən kənar keçmək qeyri-mümkündür. Mehriban xanım Əliyevanın təşəbbüsü ilə 2007-ci il may ayında və 2009-ci il mart ayında Milli Məclisdə qəbul olunaraq dövlət başçısı tərəfindən imzalanan və icrası başa çatan Amnistiya Aktının cəmiyyətdə böyük diqqət və hörmətlə qarşılanması da təsadüfi deyildir. Ulu Öndərin humanist siyasətinə sədaqətin əyani nümayişi olan bu Amnistiya Aktı ilk gündən onun xatirəsinə ehtiramın ifadəsi kimi diqqət çəkib.

Qeyd edək ki, Novruz bayramı münasibətilə amnistiyanın elan edilməsi təklifini irəli sürən millət vəkili Mehriban xanım Əliyeva vurğulamışdı ki, Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin zəngin irsini və siyasi məfkurəsini təşviq edən Heydər Əliyev Fondu onun sosial-iqtisadi, mədəni inkişafa, dünya birliyinə inteqrasiyaya yönəlmiş siyasətinin öyrənilməsinə və bu ideyaların həyata keçirilməsinə dəstək verir:

**"Ulu öndərimizin həyata keçiridiyi dövlət siyasətinin mahiyyətini özündə əks etdirən insanpərvərlik və humanizm ideallarından çıxış edən Heydər Əliyev Fondunun başlıca məqamlarından biri qayğı və yardıma ehtiyyacı olanlara köməyin göstərilməsidir.**

**Məhkum edilmiş şəxslərin və onların ailə üzvlərinin Fonda ünvanlanan müraciətləri ilə əlaqədar aparılan araşdırmalar və tədqiqatlar həmin insanlara da münasibətdə mərhəmətli olmağın zəruriliyini göstərir. Ümumilli liderimizin humanist siyasətinə sədaqət nümayiş etdirərək firavanlıq, əmin-amanlıq və mərhəmət rəmzi olan Azərbaycan xalqının milli bayramı- Novruz bayramı münasibətilə amnistiyanın elan edilməsini təklif edirəm".**





Azərbaycan parlamenti tarixində ilk dəfə olaraq millət vəkili tərəfindən irəli sürülmüş və qəbul edilərək geniş ictimai dəstək almış bu Amnistiya Aktı böyük mənəvi-əxlaqi və siyasi məzmun kəsb edib. Amnistiya Aktı həyata keçirilərək minlərlə insanı azadlığa qovuşdurub, onların qayıtmasını həsrət və intizarla gözləyən yaxınlarının, ailə üzvlərinin hədsiz sevincinə səbəb olub.

Xatırladaq ki, Mehriban xanım Əliyeva 2006-cı ilin sonlarında 51 müsəlman dövlətinin təmsil edildiyi nüfuzlu beynəlxalq mədəni-humanitar

qurumu olan İslam Ölkələri Elm, Təhsil və Mədəni Təşkilatının (İSESKO) xoşməramlı səfiri adına layiq görülüb. ABŞ-Azərbaycan Ticarət Palatasının 10 illiyi münasibətilə Vaşinqtonda keçirilən toplantıda isə Azərbaycan-ABŞ parlamentlərarası əlaqələr üzrə işçi qrupunun rəhbəri kimi Birləşmiş Ştatlar ilə Azərbaycan arasında əlaqələrin tərəqqisinə, ölkəmizdə elm, təhsil, mədəniyyət və səhiyyənin inkişafına şəxsi dəstəyinə görə ona "2006-cı ilin xoşməramlı səfiri" adı verilib.

Genişmiqyaslı xeyriyyəçilik fəaliyyətinə, nəcib və tərəqqipərvər təşəbbüslərinə görə 2004-cü ildə UNESCO-nun, 2006-cı ildə İSESCO-nun xoşməramlı səfiri adına layiq görülən, genişmiqyaslı xeyriyyəçilik fəaliyyətinə, bəşəriyyətin ali ideallarına xidmət sahəsində yüksək nailiyyətlərinə görə isə 2007-ci ildə "Qızıl ürək" beynəlxalq mükafatı, Dünya Səhiyyə Təşkilatının İhsan Doğramacı Ailə Sağlamlığı Fondunun mükafatı, "Əsrlərin xeyriyyəçiləri" Beynəlxalq Fondunun "Yaqut xaç" ordeni ilə təltif olunan Heydər Əliyev Fondunun prezidenti üzərinə götürdüyü şərəfli missiyanı layiqincə yerinə yetirir.

Mehriban xanım Əliyeva İSESCO-nun xoşməramlı səfiri kimi ölkəmizdə, eləcə də onun hüdudlarından kənarda apardığı xeyriyyəçilik işlərinə görə "Əsrlərin xeyriyyəçiləri" beynəlxalq Fondunun "Yaqut xaç" ordenini almış ilk qadındır.





Bununla yanaşı, 2009-cu ildə Mehriban xanım Əliyeva ictimai-siyasi və mədəni həyatında səmərəli fəaliyyətinə görə Heydər Əliyev Mükafatına layiq görülmüşdür.

Belə ki, Fond tərəfindən həyata keçirilən xeyirxah işlər Heydər Əliyev ideyalarına sədaqətin, habelə, bu gün vətən, xalq naminə aparılan məqsədyönlü siyasətə dəstək vermək istəyinin əməli təzahürüdür. Bu, həm də Fondun cəmiyyətdə və ölkəmizdən xaricdə artan nüfuzunun ifadəsidir. Son illərdə görülmüş bütün bu işlər, qazanılmış uğurlar, ilk növbədə Fondun prezidenti, UNESCO-nun və İSESCO-nun xoşməramlı səfiri Mehriban xanım Əliyevanın xeyirxahlıq, humanizm, vətənsevərlik hisslərinə, milli düşüncəyə söykənən fəaliyyətinin, dünyanın tanınmış bir çox ictimai və mədəniyyət xadimləri tərəfindən də yüksək dəyərləndirilən xoş niyyət, təşkilatçılıq və idarəetmə bacarığının bəhrəsidir.

Mehriban xanım Əliyevanın rəhbərliyi ilə Heydər Əliyev Fondu cəmiyyətdə bərabər təhsil imkanlarının yaradılması, gənc nəslin biliklərə yiyələnməsi, ümumilikdə təhsil sisteminin inkişaf etdirilməsi məqsədilə "Uşaq evləri və internat məktəblərinin inkişafı "proqramını, "Yeniləşən Azərbaycana yeni məktəb", "Təhsilə dəstək" layihələrini həyata keçirir.

2005-2014-cü illər ərzində "Uşaq evləri və internat məktəblərinin inkişafı" proqramı çərçivəsində respublika üzrə 32 uşaq müəssisəsi əsaslı şəkildə təmir edilmişdir.

"Yeniləşən Azərbaycana yeni məktəb" proqramı çərçivəsində ölkənin müxtəlif bölgələrində yüz mindən çox şagirdin təhsil aldığı 412 məktəb binası inşa olunmuş və yenidən qurulmuş, "Təhsilə dəstək" layihəsi çərçivəsində isə respublika üzrə 20-dən çox uşaq baxçası əsaslı təmir olunaraq müasir avadanlılqla təchiz edilmişdir.

Azərbaycanda məktəbəqədər təhsil müəssisələrinə artan tələbatı nəzərə alaraq Fond 2014-cü ildə "Məktəbəqədər təhsil müəssisələrinin inkişafı" proqramını həyata keçirməyə başladı. Proqramda müəssisələrin təmiri, yeni binaların inşası, təhsilin, tibbi xidmətin, qidanın keyfiyyətinin yaxşılaşdırılması, qaçqın və məcburi köçkün ailələrinin məskunlaşdığı müəssisələrin aidiyyəti üzrə istifadəyə verilməsinin təmin edilməsi və digər məsələlərin həlli nəzərdə tutulmuşdur.

Fond tərəfindən Gürcüstanda, Hollandiyada, Misirdə, Pakistanda, Rumıniyada, Rusiya Federasiyasında bir sıra məktəblər yenidən qurulmuş, əsaslı təmir olunmuşdur.

2013-cü ildə ABŞ-ın Merilend ştatında yerləşən məktəblərə interaktiv lövhələrin və əlil uşaqlar üçün müvafiq avadanlığın alınmasına maliyyə





yardımı edilmiş, Bosniya və Hersoqovinanın paytaxtı Sarayevoda kor və zəif uşaqlar və gənclər üçün mərkəz yenidən qurulmuşdur.

Təhsil müəssisələrinin dərs vəsaiti və müxtəlif ədəbiyyatla təchizatına xüsusi önəm verilir. Tədrisin keyfiyyətini yüksəltmək məqsədil ilk dəfə olaraq Azərbaycan dilində müxtəlif fənlər üzrə hazırlanan plakatların hər birindən 10 min nüsxə olmaqla 1 milyon 400 min ədəd plakat çap edilmişdir.

Heydər Əliyev Fondu hər il "Təhsilə dəstək" layihəsi çərçivəsində Qarabağ müharibəsi nəticəsində daimi yaşayış yerlərini tərk etmiş qaçqın və məcburi köçkün ailələrindən olan birinci sinif şagirdlərinə çanta və məktəb ləvazimatı hədiyyə edir. Gürcüstanın Azərbaycanlılar yaşayan bölgələrindəki məktəblərə, həmçinin Azərbaycanın Qax, Zaqatala və Balakən rayonlarında tədrisin gürcü dilində aparıldığı məktəblərə də mütəmadi olaraq yeni dərslik və tədris ləvazimatları göndərilir.

Fondun təşəbbüsü ilə paytaxt və regionlarda mütəmadi olaraq qanverme aksiyaları, ürək çatışmazlığından, dodaq və damaq bitişməzliyi patologiyasından əziyyət çəkən uşaqlar üzərində aməliyyatlar aparılır, aztəminatlı ailələrdən olan şəxslərin müayinələri və digər tədbirlər həyata keçirilir. Fondun dəstəyi ilə indiyədək 35 mindən çox insan yerli klinikalarda müalicə edilmiş, 10 minə yaxın xəstə respublikanın müxtəlif tibb

müəssisələrində cərrahiyyə əməliyyatı olunmuş, onların bir qismi müayinə və əməliyyat üçün xarici ölkələrə göndərilmişdir.

Fond tibb müəssisələrinin əsaslı təmiri, yenidən qurulması və inşasında yaxından iştirak edir. Belə ki, fond tərəfindən 2006-cı ildə Türkan qəsəbəsində poliklinikanın və təcili tibbi yardım stansiyasının inşası, Şüvəlan qəsəbəsində 31 saylı Birləşmiş Şəhər Xəstəxanasının əsaslı təmiri, Ucar rayonunun Qazıqumlaq kəndində Akademik Zərifə Əliyeva adına Xəstəxananın əsaslı bərpası, 2008-ci ildə Zirə Müalicə Diaqnostika Mərkəzinin yenidən qurulması, Qala qəsəbəsində ilk xəstəxananın- 29 saylı Birləşmiş Şəhər Xəstəxanasının filialının inşası, 2009-cu ildə Bakıda Psixonevroloji Uşaq Mərkəzinin inşası, "Təbəssüm" uşaq sanatoriyasının əsaslı təmiri və yenidən qurulması, 2011-ci ildə Pirşağı qəsəbəsindəki 34 saylı Şəhər Səhiyyə Kompleksinin yenidən qurulması, Xüsusi Qayğıya Ehtiyacı olan Uşaqlar üçün Reabilitasiya Mərkəzinin inşası, Mərkəzi Neftçilər Xəstəxanasında Cərrahiyyə və Orqan Transplantologiya Mərkəzinin əsaslı təmiri, Mərdəkan qəsəbəsində Səhiyyə Nazirliyinin Uşaq Tibbi Reabilitasiya Xəstəxanasının əsaslı təmiri, 2013-cü ildə "Qayğı" Uşaq Reabilitasiya Mərkəzinin yenidən qurulması, Türkan qəsəbəsində yeni poliklinikanın inşası həyata keçirilmişdir.





Fond səhiyyə sahəsindəki fəaliyyət istiqamətlərinə uyğun olaraq Azərbaycandan kənarda da layihələr həyata keçirir. 2008-ci ilin aprelində Heydər Əliyev Fondu Rumıniyanın İon Pop de Popa Fondu ilə əməkdaşlıq çərçivəsində ürək xəstəliklərindən əziyyət çəkən insanlara yardım göstərmişdir. 2010-cu ilin dekabrında Heydər Əliyev Fondu tərəfindən Yekaterinburqdakı 1 saylı Vilayət Kliniki Xəstəxanasının Uşaq Onkohematoloji Mərkəzinə xüsusi tibbi avadanlıqla təchiz edilmiş "Sobel" markalı təcili yardım maşını hədiyyə edilmişdir. 2012-ci ilin aprelində Pakistanın Heydər-Paxtunxva əyalətinin Qazni Laki Marvat şəhərində yerləşən qadınlar və uşaqlar xəstəxanasında 4 nəfər imkansız xəstənin ürəyində cərrahiyyə əməliyyatı aparılmış, "Edhi Home" xeyriyyə fondunun İslamabadda yerləşən kimsəsizlər evindəki uşaqlara tibbi baxış keçirilmiş və hepatit B virusuna qarşı peyvəndlər edilmişdir. Ümumilikdə, 2012-ci ilin aprel-iyun aylarında Pakistanın müxtəlif bölgələrində 30 mindən çox imkansız insan Hepatit B virusuna qarşı üçmərhələli peyvənd edilmişdir.

Ümumilikdə, 2012-ci ilin aprel-iyun aylarında Pakistanın müxtəlif bölgələrində 30 mindən çox imkansız insan Hepatit B virusuna qarşı üç mərhələli peyvənd edilmişdir. 2012-ci il iyunun 14-də, Beynəlxalq donorlar günündə, Pakistanda talassemiya, hemofiliya və qan xərçəngindən

əziyyət çəkən xəstələrin müalicəsi ilə məşğul olan bir neçə xəstəxananı özündə birləşdirən Həmzə Xeyriyyə Fonduna Heydər Əliyev Fondu tərəfindən xüsusi qanköçürmə və kiçik laboratoriya ilə təchiz olunmuş təcili tibbi yardım maşını və 2000 ədəd qanköçürmə paketi təqdim olunmuşdur. 2012-ci ilin iyununda Peşəvər şəhərində imkansız xəstələrin müalicəsini həyata keçirən göz xəstəxanasının yeni korpusunun tikintisi və göz xəstəliklərindən əziyyət çəkən 120 nəfər imkansız xəstənin əməliyyat olunması üçün maliyyə yardımı edilmişdir.

Ölkə və dünya əhəmiyyətli tarixi abidələrin bərpası, yeni mədəniyyət ocaqlarının yaradılması Heydər Əliyev Fondunun fəaliyyətində mühüm yer tutur. 2004-2014-cü illər ərzində Fond Azərbaycanda və xarici ölkələrdə bu istiqamətdə mühüm layihələr reallaşdırmışdır.

Azərbaycanda fondun dəstəyi ilə 2005-ci ildə Cavad xanın qəbri üzərində məqbərənin ucaldılması, Comərdin məzarı və məzarüstü türbəsinin bərpası, Abdulla Şaiqin ev-muzeyinin bərpası, Xəzər rayonunun Mərdəkan qəsəbəsində kütləvi kitabxana üçün müasir binanın inşaası, 2007-ci ildə Mərdəkan Mədəniyyət Sarayının yenidən qurulması, 2008-ci ildə Qala Arxeoloji-Etnoqrafik Muzey Kompleksinin yaradılması, Gəncə qapılarının ilkin şəkildə qurulması, Ağcabədidə Qarabağ Muğam Mərkəzinin inşaası, 2009-cu ildə Ağdaşda xalq artisti Habil Əliyevin adını





daşıyan Uşaq Musiqi Məktəbinin inşaası, Bakı Müasir İncəsənət Muzeyinin yaradılması, 2010-cu ildə Xəzər rayonunun Türkan və Binə qəsəbələrində yeni mədəniyyət mərkəzlərinin inşaası, 2011-ci ildə Qala Arxeoloji-Etnoqrafiya Muzey Kompleksinin ərazisində Etno-Ekoloji Mərkəzin və Qala Əntiq Əşyalar Muzeyinin yaradılması, 2014-cü ildə Gəncədə Nizami Gəncəvi Muzeyinin inşaası, Məhsəti Gəncəvi Mərkəzinin inşaası, Bakıda Azərbaycan Xalçası və Xalq Tətbiqi Sənəti Dövlət Muzeyi üçün yeni binanın inşaası həyata keçirilmişdir.

Fondun xarici ölkələrdə tarix-mədəniyyət abidələrinin bərpası və yeni mədəniyyət obyektlərinin inşaası sahəsində fəaliyyətinə 2006-cı ildə Gürcüstanın Tiflis şəhərində Azərbaycanın görkəmli şəxsiyyətlərinin-Mirzə Şəfi Vazehin, Mirzə Fətəli Axundovun, Həsən bəy Ağayevin və Fətəli xan Xoyskinin qəbirüstü abidələrinin yenidən qurulması və xiyabanın yaradılması, 2007-ci ildə Parisdə Versal Sarayının parkındakı ümumbəşəri abidələrin bərpası, 2011-ci ildə ikinci Dünya Müharibəsi zamanı yaranmış və dağılmış Berlin qəsrinin bərpası, 2011-ci ildə Romanın Villa Borgeze parkında Nizami Gəncəvinin abidəsinin ucaldılması, Vatikanda Roma katakombalarının bərpası, Moskvada M.İ.Rudomino adına Ümumdünya Dövlət Xarici Ədəbiyyar kitabxanasının atriumunda Azərbaycanın görkəmli yazıçısı, filosofu və humanisti Mirzə Fətəli Axundo-

vun abidəsinin ucaldılması, Parisdə Azərbaycan Mədəniyyət Mərkəzinin yaradılması, 2013-cü ildə Romada Kapitolini Muzeyinin "Filosoflar zalı"nın təmirini misal göstərmək olar.

Azərbaycan xalqının mədəni ənənələri və tarixində dərin köklərə malik olan muğam sənətinin inkişafı və təbliği, Azərbaycanın milli musiqi incilərinin Azərbaycanda tanıdılması Heydər Əliyev Fondunun mədəniyyət sahəsindəki fəaliyyətində mühüm yer tutur.

2005-ci ildə görkəmli Azərbaycan bəstəkarı Üzeyir Hacıbəylinin anadan olamsının 120 illik yubileyi münasibətilə Heydər Əliyev Fondunun təşkilatçılığı ilə muğam müsabiqəsi keçirilmişdir. Qədim muğam sənətinin qorunub saxlanılması, zəngin tarixə malik ifaçılıq sənətinin gələcək nəsillərə çatdırılması, yeni ifaçılar nəslinin yetişdirilməsi məqsədi ilə 2007, 2009, 2011 və 2013-cü illərdə də muğam müsabiqələri təşkil olunmuşdur. Müsabiqə qalibləri Heydər Əliyev Fondu tərəfindən mükafatlandırılmışlar.

Heydər Əliyev Fondunun təşəbbüsü və təşkilati dəstəyi ilə 2007-2012-ci illərdə Bakıda Mstislav Rastropoviç adına Beynəlxalq Musiqi Festivalları, 2009, 2011 və 2013 illərdə "Muğam aləmi" Beynəlxalq Muğam Festivalları, 2009-2013-cü illərdə Qəbələ şəhərində Beynəlxalq Musiqi Festivalları keçirilmişdir.





2010-cu ilin oktyabr ayında Heydər Əliyev Fondunun dəstəyi, Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyinin və Azərbaycan Aşıqlar Birliyinin təşkilatçılığı ilə I Beynəlxalq Aşıq Festivalının təntənəli açılış mərasimi olmuşdur. Fond 2012 Avroviziya Mahnı Müsabiqəsinin Təşkilati Tərəfdaşı olmuşdur.

1945-ci ildə bəstəkar Üzeyir Hacıbəylinin eyniadlı operettası əsasında ağ-qara formatda çəkilmiş "Arşın mal alan" filmi Heydər Əliyev Fondunun təşəbbüsü və dəstəyi ilə dünya kino sənayesinin əsas mərkəzi olan Hollivudda bərpa edilərək rəngli formatda hazırlanmışdır. Filmin premyerası 10 dekabr 2013-cü ildə Heydər Əliyev Mərkəzində olmuşdur.

Heydər Əliyev Fondu bir sıra incəsənət festivalları və sərgilərinin təşəbbüskarı və təşkilatçısıdır. Bu tədbirlər həm Azərbaycanda, həm də onun hüdudlarından kənarda təşkil olunur.

"Mən Azərbaycanı sevirəm" adlı rəsm sərgisi 2004-cü ilin sentyabrında uşaq evlərində və internat məktəblərində tərbiyə alan uşaqların əl işlərindən təşkil olunmuş sərginin məqsədi hamının diqqətini qayğıya daha çox ehtiyacı olan uşaqlara yönəltmək idi.

"Qız qalası" Beynəlxalq İncəsənət Festivalı- UNESCO-nun Ümumdünya irsi siyahısına daxil edilmiş İçərişəhərin ərazisində yerləşən və Bakının rəmzi hesab olunan Qız qalasının dünyada tanıdılması məqsədi-

lə 2010-2014-cü illərdə "Qız qalası" Beynəlxalq İncəsənət Festivalları keçirilmişdir. Festival iştirakçıları Qız qalası maketlərini öz üslublarında bəzəyərək fərqli mədəniyyət və adət-ənənələrin sintezini əks etdirən əsərlər yaradırlar. Bu unikal müəllif işləri dünyanın müxtəlif ölkələrində nümayiş etdirilərək, ümumdünya mədəni irsinin bir hissəsi olan Qız qalasının təbliğində əhəmiyyətli vasitəyə çevrilmişdir. Eyni zamanda, festivalda nəsli kəsilməkdə olan "Qafqaz beşliyi"nə diqqəti cəlb etmək məqsədilə İDEA ekoloji kampaniyası çərçivəsində ceyran maketləri hazırlanmışdır.

Qala Festivalı- Azərbaycan xalqının zəngin tarixi keçmişini, qədim məişət ənənələrini yaşatmaq gənc nəslə tanıtmaq və təbliğ etmək məqsədi ilə 2010 və 2014-cü illərdə Qala Dövlət Tarix Etnoqrafiya Qoruğunun ərazisində Qala Festivalı keçirilmişdir.

"Azərbaycan əcnəbilərin gözü ilə" adlı fotosərgi 2011-ci ilin iyulunda Heydər Əliyev Fondu və BMT-nin İnkişaf Proqramı tərəfindən Müasir İncəsənət Muzeyində keçirilmiş sərgidə Azərbaycanda fəaliyyət göstərən xarici diplomatların və iş adamlarının çəkdiyi 90-dan çox rəngli və ağ-qara fotoşəkillər nümayiş etdirilmişdir. Sərginin maraqlı cəhəti ondan ibarət idi ki, burada yalnız xarici vətəndaşların öz fərdi kolleksiyalarında olan həvəskar fotoşəkillər nümayişə çıxarılmışdır.





Bakıda "Fransa inciləri" sərgisi- 2012-ci ilin martında Azərbaycan Milli İncəsənət Muzeyində Heydər Əliyev Fondunun təşəbbüsü və dəstəyi ilə "Fransa inciləri" mövzusunda sərgi açılmışdır. Sərgidə Fransa mədəniyyətini əks etdirən 400-dək nadir əsər nümayiş etdirilmişdir.

2012-ci ilin mayında Bakıda, Müasir İncəsənət Muzeyində "Afrovision- Afrikadan müasir incəsənət" sərgisinin açılışı olmuşdur. Ekspozisiyada Afrikanın 7 ölkəsini təmsil edən 11 rəssamın 63 əsəri təqdim edilmişdir.

"Tullantıdan sənətə" adlı beynəlxalq sərgisi- 2012-2014-cü illərdə Heydər Əliyev Fondunun "İçərişəhər" Dövlət Tarix Memarlıq Qoruğu idarəsinin və "Təmiz şəhər" ASC-nin birgə təşkilatçılığı ilə Qala Dövlət Tarix Etnoqrafiya Qoruğunda "Tullantıdan sənətə" adlı beynəlxalq sərgi keçirilmişdir. Sərginin əsas məqsədi insanları israfçılıqdan yayındırmaq və onların malik olduğu əşyaları düşünmədən zibil qutularına atmaq vərdişindən çəkinməkdir.

Sərgidə məişət tullantılarından hazırlanmış müxtəlif sənət nümunələri nümayiş etdirilmişdir.

Bakıda "Christie's" hərrac evinin ilk sərgisi- 2012-ci ilin sentyabrında dünyanın məşhur "Christie's" hərrac evi, Heydər Əliyev Fondu və "YA-

RAT" Müasir İncəsənət Məkanı ilə birlikdə Azərbaycanda ilk sərgisini təşkil etmişdir.

"Christie's"in London, Nyu-York və Dubayda keçirdiyi payız satışlarında iştirak üçün seçilmiş müxtəlif sənət əsərləri, əşyalar və eksponatların təqdim edildiyi sərgidə həmçinin "Christie's"in kolleksiyasına daxil olan XVIII əsrə aid Qarabağ xalçası da nümayiş olunmuşdur.

"Üz-üzə" adlı portret sərgisi- 2012-ci ilin oktyabrında Müasir İncəsənət Muzeyində Heydər Əliyev Fondu, Müasir İncəsənət Muzeyi və "Statoil" şirkətinin birgə layihəsi çərçivəsində "Statoil"un Azərbaycandakı fəaliyyətinin 20 illik yubileyi münasibətilə onun incəsənət kolleksiyasında olan müasir əsərlərdən ibarət "Üz-üzə" (Face to Face) adlı portret sərgisi keçirilmişdir. Sərgidə 10 müxtəlif ölkəni təmsil edən 16 fotoqraf, heykəltəraş və rəssamın 63 əsəri nümayiş etdirilmişdir.

"Bacarıqlı əllərin böyük işləri" adlı sərgi- 2013-cü ilin yanvarında Heydər Əliyev Fondu və Müasir İncəsənət Muzeyinin birgə layihəsi əsasında Bakının Nizami rayonunda yerləşən 1 nömrəli uşaq evi sakinlərinin əl işlərindən ibarət "Bacarıqlı əllərin böyük işləri" adlı sərgi təşkil olunmuşdur.

Endi Uorholun əsərlərindən ibarət "həyat, ölüm və gözəllik" mövzusunda sərgi- 2013-cü ilin iyununda Heydər Əliyev Fondunun və Endi





Uorhol Muzeyinin birgə dəstəyi ilə Heydər Əliyev Mərkəzində XX əsrin məşhur rəssamı Endi Uorholun əsərlərindən ibarət "Həyat, ölüm və gözəllik" mövzusunda sərgi keçirilmişdir. Sərgidə rəssamın 100-dək əsəri və qısa filmləri nümayiş etdirilmişdir.

"Ev, doğma ev" sərgisi- 2013-cü ilin aprelində "YARAT!" Müasir İncəsənət Muzeyi Heydər Əliyev Fondu ilə birlikdə Parisdə Azərbaycan Mədəniyyət Mərkəzində müasir Azərbaycan incəsənətinə həsr olunmuş "Ev, doğma ev" ("Home, sweet home") mövzusunda sərgi təşkil etmişdir. Sentyabr-oktyabr aylarında isə sərgi Bakıda Müasir İncəsənət Muzeyində keçirilmişdir. Sərgidə "ev" mövzusu ilə əlaqəli olan rəngkarlıq, fotoşəkil, instalyasiya və heykəltəraşlıq işləri nümayiş etdirilmişdir...

Azərbaycanın dünyada tanıdılması, beynəlxalq nüfuzunun artırılması, Azərbaycan tarixi haqqında məlumatların dünya ictimaiyyətinə çatdırılması Mehriban xanım Əliyevanın prezidenti olduğu Heydər Əliyev Fondunun qarşıya qoyduğu prioritet məsələlərdəndir. 2009-cu ilin noyabr ayında Avropa Parlamentinin mənzil-qərargahında ilk dəfə olaraq Azərbaycan Mədəniyyəti günləri təşkil olunmuşdur. 2010-cu ilin noyabr ayında Londonda "Azərbaycan xalçaları ilə nağıllar aləminə" adlı sərgi keçirilmişdir.

Azərbaycan Respiblikasının dövlət müstəqilliyinin bərpa edilməsinin 20-ci ildönümü münasibətilə Fransada (Paris, 17 fevral 2011), Rusiya Federasiyasında (Moskva,17 may 2011-ci il), Almaniyada (Berlin, 29 sentybar 2011-ci il), Vatikanda (29 noyabr 2011-ci il) və İtaliyada (Roma, 2 dekabr 2011-ci il) tədbirlər keçirilmişdir.

2011-ci il aprelin 18-də Parisdə "Odlar Yurdu Azərbaycanın müasir əsərləri adlı" sərginin açılışı olmuşdur. 2011-ci il iyulun 16-da Fransanın San-Trope şəhərində Heydər Əliyev Fondunun dəstək və təşkilatçılığı ilə II Ramatüel Klassik Musiqi Festivalı çərçivəsində "Azərbaycanın mədəni zənginlikləri" adlı sərgi keçirilmişdir. 2011-ci ili iyulun 17-də Heydər Əliyev Fondunun dəstəyi ilə Azərbaycan musiqiçiləri Fransanın Ramatüel şəhərində keçirilən II Ramatüel Klassik Musiqi Festivalında iştirak etmişlər.

2012-ci ilin yanvarında Londonda "Bakıya uçuş. Müasir Azərbaycan incəsənəti" mövzusunda sərginin açılışı olmuşdur. Layihə çərçivəsində Azərbaycan da daxil olmaqla 7 ölkədə 21 azərbaycanlı müəllifin rəngkarlıq, heykəltəraşlıq, qrafika, foto, video, instalyasiya və performans janrlarında 100-dən çox əsəri nümayiş etdirilmişdir.

2012-2014-cü illərdə Fransanın müxtəlif regionlarında "Qafqaızın mirvarisi olan Azərbaycanın mədəni dəyərləri" layihəsi çərçivəsində sərgi





və konsertlər keçirilmişdir. Sərgilərdə ölkəmizin qədim və zəngin tarixinə, mədəniyyətinə dair eksponantlar- xalça və xalça məlumatları, misgərlik nümunələri, şəbəkələr, Azərbaycan milli geyimləri, milli musiqi alətləri, Heydər Əliyev Fondu tərəfindən fransız dilində nəşr olunmuş ədəbiyyat toplusu nümayiş etdirilmişdir.

Azərbaycan Respublikasının xarici dövlətlərlə diplomatik münasibətlərinin qurulmasının 20-ci ildönümü ilə əlaqədar 2012-ci ildə Heydər Əliyev Fondu silsilə tədbirlər keçirmişdir.

2013-cü ildə keçirilən 55-ci Ümumdünya təsviri incəsənət sərgisi- Venesiya Biennalesində Azərbaycan pavilyonu Heydər Əliyev Fondu tərəfindən təşkil olnumuşdur. "Ornamentlər" devizi altında təqdim olunmuş pavilyonda Azərbaycanı altı rəssam- Butunay Haqverdiyev, Fəxriyyə Məmmədova, Fərid Rəsulov, Rəşad Ələkbərov, Sənan Ələsgərov və Çingiz təmsil etmişdilər.

2013-2014-cü illərdə Fransanın Kann şəhərində təşkil edilmiş Azərbaycan mədəniyyəti günləri çərçivəsində sərgilər və konsetlər təşkil olunmuşdur.

Herdər Əliyev Fondunun dəstəyi ilə 2013-2014-cü illərdə Fransanın paytaxtı və bir sıra şəhərlərində Nizami Gəncəvinin 900 illik yubileyinə həsr olunmuş tədbirlər keçirilmişdir.

2013-cü ildə Almaniyanın Münhen,Ştutqart,Köln və Hamburq şəhərlərində "Azərbaycanı tanıdım" layihəsi çərçivəsində Azərbaycan Mədəniyyəti günləri keçirilmişdir.

Azərbaycanda tolerantlıq ənənələrinin qorunmasına xüsusi əhəmiyyət verən Heydər Əliyev Fondu "Tolerantlığın ünvanı- Azərbaycan" layihəsini həyata keçirmişdir. Layihə çərçivəsində dini abidələrdə, ziyarətgahlarda və tikililərdə təmir-bərpa işləri aparılır, mövzuya aid sərgilər təşkil olunur.

2005-ci ildə Bakının Mərdəkan qəsəbəsində XVI əsrə aid Pir Həsən ziyarətgahında, 2006-cı ildə Bakının Binə qəsəbəsindəki Möhsün Səlim məscidində əsaslı təmir-bərpa işləri aparılmışdır. 2006-cı ildə Gəncədəki Həzrəti Zeynəb məscidi yenidən qurulmuşdur.

2007-ci ildə Bakıdakı Müqəddəs Bakirə Məryəm kilsəsində təmir-bərpa işləri aparılmış, kilsənin asma tavanı bədii şüşələrlə əvəz edilmiş, məbədin fasadı dəyişdirilmişdir.

2008-ci ilin sentyabrında Heydər Əliyev Fondu və Roma Katolik kilsəsi dini icması arasında imzalanmış Anlaşma Memorandumu çərçivəsində Bakıdakı Müqəddəs Məryəm Kilsəsinin asma tavan şüşələri dini mövzuda və klassik vitraj texnikasında işlənmiş bədii şüşələrlə əvəz edilmiş, məbədin fasadında keramik panno yerləşdirilmişdir.





"Tolerantlığın ünvanı- Azərbaycan" layihəsinin digər tərkib hissəsi Bakıda yaşayan yəhudi uşaqları üçün Xabad-Or-Anver Təhsil Mərkəzinin inşasıdır.

2007-2009-cu illər ərzində Azərbaycan ərazisində, bütövlükdə Cənubi Qafqazda və Yaxın Şərqdə ən qədim müsəlman məbədlərindən olan Şamaxı Cümə məscidində əsaslı təmir və yenidənqurma işləri aparılmış, Qəbələdə isə yeni məscid inşa olunmuşdur.

2009-cu ildə Strasburq kafedralının XIV əsrə aid olan beş pəncərəsi bərpa edilmişdir. 1320-1340-cı illərdə salınmış vitraj şüşələrinin üzərində Müqəddəs Məryəmin və İsa peyğəmbərin həyatı əks olunub. 2011-2012-ci illərdə Heydər Əliyev Fondu Fransanın müxtəlif regionlarındakı 20-dək kilsənin bərpasına maliyyə yardımı ayırmışdır. 2013-cü ildə Rusiya Fedrasiyasının Həştərxan şəhərində Müqəddəs Vladimir kilsəsinin qarşısındakı meydanda Knyaz Vladimirin abidəsi ucaldılmışdır.

2013-cü ildə Nyu-Yorkda BMT-nin mənzil-qərargahında və Azərbaycan Mədəniyyət Mərkəzində, 2014-cü ilin aprelində isə Moskvada Yəhudi Muzeyi və Tolerantlıq Mərkəzində "Azərbaycan- tolerantlıq məkanı" adlı fotosərgi keçirilmişdir. Sərgidə "Tolerantlığın ünvanı- Azərbaycan" layihəsi çərçivəsində Azərbaycana dəfələrlə yaradıcı səfərlər etmiş fotoq-

raf Reza Deqatinin Azərbaycanda dini tolerantlığı əks etdirən fotoşəkilləri sərgilənmişdir.

Heydər Əliyev Fondu yerli əhəmiyyətli problemlərin həllində, infrastruktur layihələrin həyata keçirilməsində, xüsusi qayğıya ehtiyyacı olan insanlara kömək edilməsində yaxından iştirak edir.

Fond tərəfindən Şamaxı şəhərində müvəqqəti məskunlaşmış məcburi köçkün ailələri üçün yaşayış binası inşa edilmiş, Salyan şəhərində Qarabağ müharibəsi veteranları, əlil, aztəminatlı və çoxuşaqlı ailələr üçün yeni yaşayış massivi salınmışdır.

2009-cu ildə Bakıda uşaq evlərində tərbiyə almış, yaşı 18-dən yuxarı olan qızlar üçün, 2013-cü ildə isə uşaq evləri və internat məktəblərinin məzunu olan gənclər üçün yaşayış binaları istifadəyə verilmişdir.

2004-2014-cü illər ərzində Heydər Əliyev Fondu Bakının Xəzər rayonu ərazisində bir sıra infrastruktur layihələri- Zirə, Binə, Türkan, Qala və digər qəsəbələrə yolların çəkilməsini, Binə qəsəbəsində yardımçı stansiyanın yenidən qurulmasını, qəsəbələrin su təchizatının yaxşılaşdırılmasını, parkların salınmasını həyata keçirmişdir.

Valideyn himayəsindən, ailə qayğısından məhrum olan uşaqların cəmiyyətə inteqrasiyasını asanlaşdırmaq, asudə vaxtlarını səmərəli təşkil etmək məqsədi ilə Heydər Əliyev Fondu mütəmadi olaraq xeyriyyə aksiyaları keçirir. Aksiyalar çərçivəsində Fond körpələr və uşaq evlərinə, internat məktəblərinə müxtəlif yardım və hədiyyələr göndərir, uşaqlar üçün konsert proqramları və əyləncəli tədbirlər təşkil edir. Fond hər il orta məktəblərdə təhsildə xüsusi ilə fərqlənən uşaq evlərində və internat məktəblərində tərbiyə alan qaçqın və məcburi köçkün ailələrindən olan, yetim və valideyn himayəsindən məhrum olmuş uşaqlar üçün Yeni il və Novruz şənlikləri keçirir. Bundan əlavə, Qurban və Ramazan bayramlarında uşaq evləri və internat məktəblərinə bayram hədiyyələri göndərilir.





2013-cü ildə Heydər Əliyev Fondunun təşəbbüsü ilə 1959-cu ildən fəaliyyət göstərən Şamaxı şəhər İncəsənət Təhsili Mərkəzi üçün yeni bina inşa edilmişdir.

Xarici ölkələrdə də sosial layihələr həyata keçirən Fond Haitidə, İranda, Türkiyədə, Pakistanda zəlzələnin, Rumıniyada təbii fəlakətin nəticələrinin aradan qaldırılmasına yardım etmişdir. 2011-ci ilin sentybrında Fransa prezidenti Nikola Sarkozinin dəstəyi və Fransa Terror Qurbanları Assosiasiyası, eləcə də Beynəlxalq Terror Qurbanları Təşkilatının təşəbbüsü ilə Parisdə terrorizm qurbanlarına həsr olunmuş 7-ci Beynəlxalq konqresin keçirilməsinə maliyyə yardımı edilmişdir. 2012-ci ilin fevralında Bosniya və Hersoqovinanın paytaxtı Sarayevoda yenidən qurulmuş

"Dostluq parkı", 2012-ci ilin sentyabrında Həştərxanda Rusiya-Azərbaycan Dostluq Körpüsü, 2013-cü ildə Rusiyanın Volqoqrad şəhərində "Volqoqrad-Bakı Dostluq Parkı" istifadəyə verilmişdir.

Fond 2007-ci ildən başlayaraq hər il dünyanın bir sıra böyük şəhərlərində Xocalı soyqırımının ildönümü ilə bağlı aksiyalar keçirir. 2013-cü ilin fevralında Parisdə fransız rəssamı Reno Baltzinjerin Xocalı faciəsinə həsr etdiyi rəsm əsəsrlərindən ibarət "Xocalı gecəsi" sərgisinin vernisajı keçirilmişdir.

2012-ci ilin fevralında Fondun təşəbbüsü ilə Sarayevoda Srebrenitsa və Xocalı soyqırımı qurbanlarının xatirəsinə ucaldılmış abidə açılmışdır. 2012-ci ilin martında "Xocalıya ədalət" Beynəlxalq kampaniyası çərçivəsində Bakıda Xocalı faciəsinin 20 illiyinə həsr olunmuş "Sonu olmayan dəhliz" filminin təqdimatı keçirilmişdir. Fond Xocalı soyqırımı qurbanlarının xatirəsinin əbədiləşdirilməsi məqsədilə Bakıda memorial kompleksin yaradılması layihəsini həyata keçirir.

Gənclərin hərtərəfli inkişafına diqqətlə yanaşan Heydər Əliyev Fondu uşaq və yeniyetmələrdə idmana marağın artırılması, onların sağlam ruhda tərbiyə edilməsi istiqamətində müxtəlif layihələr həyata keçirir. Fondun təşəbbüsü ilə inşa olunan orta məktəb və məktəbəqədər müəssisələrdə idman zalları, futbol meydançaları, yeni salınan parklarda mini





stadionlar, idman qurğuları ilə təchiz olunmuş sahələr yaradılır, idmana dair bir sıra əyani vəsaitlər və nəşrlər paylanılır.

2007-2008- ci illərdə Fondun dəstəyi ilə Bakıda Heydər Əliyevin xatirəsinə həsr olunmuş "Prezident kuboku" Beynəlxalq Şahmat Festivalı keçirilmişdir. Dünyanln müxtəlif ölkələrindən şahmatçıların qatıldığı festivallarda beynəlxalq dərəcəli qrossmeysterlər və məşhur idman ustaları da iştirak etmişlər.

Azərbaycan tarixi haqqında məlumatların, o cümlədən Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin, Xocalı soyqırımının, münaqişə nəticəsində Azərbaycana vurulan ekoloji, sosial-psixoloji, iqtisadi və maddi-mənəvi zərərin dünya ictimaiyyətinə çatdırılması Heydər Əliyev Fondunun əsas hədəflərindən biridir. Bu məqsədlə xarici ölkələrdə tədbirlər keçirilir, sərgilər təşkil olunur, müxtəlif dillərdə buklet və kitablar nəşr edilir.

2006-cı ildə Heydər Əliyev Fondu tərəfindən "Qarabağ həqiqətləri" bukletlər toplusu nəşr edilmişdir. "Qarabağ həqiqətləri" silsiləsinin davamı olaraq 2007-ci ildə "Azərbaycana qarşı müharibə: mədəni irsin hədəfə alınması" ("War Against Azerbaijan: Targeting Cultural Heritage") kitabı ingilis dilində nəşr edilmişdir. 2006-cı ildə nəşr olunmuş "Müharibə və tarixi-mədəniyyət abidələrimiz" kitabında Azərbaycanın işğal

olunmuş ərazilərindəki ziyarətgahlar və digər tarixi mədəniyyət abidələri haqqında ətraflı məlulmatlar verilmişdir.

1918-ci ildə Azərbaycan qəzalarında törədilmiş soyqırımı tarixi faktlarla əks etdirən 16 adda üç dildə buklet, 4 adda üç dildə kitab nəşr edilmişdir...

Heydər Əliyev Fondunun həyata keçirdiyi irimiqyaslı layihələr təhsil sahəsində əsaslı dönüşlər yaratmışdır. Təhsil millətin, dövlətin və bəşəriyyətin gələcəyidir. Təsadüfi deyil ki, ümimilli liderimiz Heydər Əliyev elmin və təhsilin inkişafını daim diqqət mərkəzində saxlayır, "Azərbaycanın gələcəyi təhsilli insanların çiyinləri üzərində qurulacaq" deməklə bu sahəni beynəlxalq standartlar səviyyəsinə çatdırmaq üçün bütün imkanlardan səmərəli istifadə edirdi. Böyük dövlət xadimi və uzaqgörən lider olan ulu öndər təhsil sahəsində çox mütərəqqi ənənələr formalaşdırmışdır. Bu gün müstəqil dövlətimizin təhsildə qazandığı nailiyyətlər həmin ənənələrin davamlı özülü üzərində qurulmuşdur.

Azərbaycanın milli-mənəvi dəyərlərinin qorunmasında, elmin, təhsilin, mədəniyyətin və incəsənətin inkişafında, dünya miqyasında tanınmasında ümumilli ilder Heydər Əliyevin mütərəqqi ənənələrinə əsaslanan və ənənələrə böyük sədaqət nümayiş etdirən Heydər Əliyev Fondunun, həmçinin fondun prezidenti Mehriban xanım Əliyevanın fəaliyyəti-





ni xüsusi qeyd etmək zəruridir. Çünki Heydər Əliyev Fondunun təhsil sahəsində ardıcıl olaraq irimiqyaslı layihələr həyata keçirməsi Azərbaycan təhsilini dünya standartları səviyyəsinə qaldırmışdır.

Heydər Əliyev Fondu Azərbaycanın sosial-iqtisadi inkişafının ən mühüm və zəruri sahələrindən biri kimi müəyyən edilmiş təhsil sahəsinin inkişafına daim xüsusi diqqət və qayğı ilə yanaşmış, bu istiqamətdə mühüm əhəmiyyət kəsb edən tədbirlər həyata keçirmişdir. Bütün ölkədə böyük rəğbətlə qarşılanan "Yeniləşən Azərbaycana yeni məktəb" proqramı, "İnternat məktəblərinin inkişaf proqramı", "Dağlıq Qarabağ həqiqətlərinin bütün dünyaya çatdırılması istiqamətində fəaliyyəti", "Təhsilə dəstək", ümumiyyətlə dövlət maraqları baxımından müstəsna əhəmiyyətə malik bir sıra layihələri fond uğurla gerçəkləşdirmişdir.

Heydər Əliyev Fondunun qarşıya qoyduğu hər bir xoşməramı ümummilli liderimiz Heydər Əliyevin ali ideyalarını özündə ehtiva edir. Fondun əsas prioritetləri sırasında elm və təhsilin inkişafına xüsusi yer ayrılması heç də təsadüfi deyildir. Bu sahənin dinamik inkişafı yetişən gənc nəslin təlim-tərbiyəsinin müasir tələblər səviyyəsində qurulması, bu günün uşaqlarının gələcəyin layiqli vətəndaşları kimi yetişməsi yolunda məqsədyönlü işlərin görülməsindən, həqiqi vətənpərvərlikdən irəli gəlir.

Bu baxımdan Heydər Əliyev Fondunun prezidenti, UNESCO və İSESCO-nun xoşməramlı səfiri, Azərbaycanın Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın elm və təhsilin inkişafına xüsusi diqqət və qayğısı onun fəal vətəndaşlıq mövqeyində dayanmasının, xalqına olan sonsuz məhəbbətin hamıya nümunə ola biləcək vətənpərvərliyinin, millətsevərliyinin bariz nümunəsidir. Azərbaycanın birinci xanımı bu nəcib təşəbbüsü və xeyirxahlığı ilə qüdrətli şəxsiyyət Heydər Əliyev tərəfindən əsası qoyulan, hazırda möhtərəm Prezidentimiz İlham Əliyevin böyük müvəffəqiyyətlə davam etdirdiyi konseptual təhsil strategiyasının həyata keçirilməsinə öz layiqli töhfəsini verir. Məhz bunun nəticəsidir ki, Heydər Əliyev Fondu yarandığı gündən ölkəmizin mədəni və humanitar həyatında bir-birinin ardınca çox böyük əhəmiyyət kəsb edən irimiqyaslı layihələr həyata keçirmişdir.

Heydər Əliyev Fondunun təhsillə bağlı qarşıya qoyduğu əsas məqsəd Azərbaycanda bu sahəni inkişaf etdirərək beynəlxalq səviyyəyə çatdırmaqdır. "Yeniləşən Azərbaycana yeni məktəb" ləyihəsi həyata keçiriləndən sonra hətta respublikamızın ən ucqar regionlarında da hər cür ləvazimatla təchiz olunmuş, müasir tələblərə cavab verən məktəblər tikilib istifadəyə verilmişdir. Müasir tipli məktəblərin inşası, tədris prosesində





normal şəraitin yaradılmasının zəruriliyi və digər sahələrdə çoxlu sayda uğurlar qazanılmışdır.

Bir faktı qeyd etməyi vacib hesab edirik; təkcə 2005-ci ildə 100, 200 və 240 şagird yerlik 132 məktəb tikilərək şagirdlərin ixtiyarına verimişdir. "Yeniləşən Azərbaycana yeni məktəb" proqramı çərçivəsində tikilən və infrastrukturu yerli tələbata və imkana uyğunlaşdırılan bu məktəblər ən müasir avadanlıq, istilik sistemi, zəngin kitabxana, əyani vəsait və kompyuter avadanlığı ilə təchiz olunub. Elə həmin il fondun təşəbbüsü ilə xüsusi qayğıya ehtiyacı olan uşaqların təhsil aldığı 23 müəssisə əsaslı surətdə bərpa olunmuşdur. Fondun prezidenti Mehriban xanım Əliyevanın "Yeniləşən Azərbaycana yeni məktəb" layihəsi ilə bağlı ictimaiyyətə ünvanladığı əməkdaşlıq çağırışı böyük rəğbətlə qarşılanmış və qısa zamanda geniş əks-səda doğurmuşdur. Azərbaycanın bölgələrində- dağ kəndlərində, ən ucqar yaşayış məntəqələrində məktəb binalarının tikintisi geniş vüsət almışdır.

Azərbaycanın birinci xanımı çıxışlarının birində bu layihələrin geniş əks-səda doğurmasına münasibət bildirərkən demişdir: "Ölkəmizdə çox böyük əks-səda doğuran "Yenilənmiş Azərbaycana yeni məktəb" proqramıdır. Biz ilk dəfə bu proqramı təqdim edəndə dəyirmi masa keçirmişdik. Çox adam inanmırdı, şübhə ilə yanaşırdı ki, bu necə ola bilər, üç-

dörd ay ərzində 132 məktəb tikiləcək, özü də əksəriyyəti ucqar rayonlarda, ölkəmizin dağlıq rayonlarında inşa olunacaqdır. Amma buz sübut etdik ki, əgər inam varsa, iradə varsa, əgər işləri düzgün qurmaq bacarığı varsa, hər bir problen çox qısa bir zamanda öz həllini tapa bilər". Bu bir daha təsdiqləyir ki, ölkəmizdə gənc nəslin hərtərəfli yetişməsi, savadlanması, həmçinin Azərbaycanın dünya təhsil sisteminə inteqrasiyasına dəstək verilməsi Heydər Əliyev Fondunun fəaliyyətinin prioritetlərindəndir.

Azərbaycanda təhsilin inkişafını beynəlxalq səviyyəyə yüksəltmək üçün bütün imkanlardan yetərincə istifadə edən Heydər Əliyev Fondu nüfuzlu beynəlxalq qurumlarla əməkdaşlığın möhkəmləndirilməsi istiqamətində bütün vasitələrdən səmərəli istifadə edib. Bu baxımdan şəxsən fondun prezidenti Mehriban xanım Əliyevanın fəaliyyətini xüsusi qeyd etmək istərdim. 2004-cü il iyulun 6-da fondun təşəbbüsü ilə Parisdə UNESCO-nun iqamətgahında "Davamlı inkişaf üçün Azərbaycanda təhsil islahatları" mövzusunda beynəlxalq konfrans keçirilmişdir. Əldə olunmuş razılaşmaya əsasən həmin ilin avqust ayında "UNESCO-Azərbaycan: Azərbaycanın təhsil problemləri və perspektivləri" mövzusunda növbəti konfrans təşkil olunmuşdur. Bu nüfuzlu və mötəbər tədbirdə Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyeva çıxış etmişdir. Onun əhatəli və dərin məzmunlu nitqi böyük maraqla qarşılanmışdır.





Azərbaycanda təhsilin inkişafından və qarşıya çıxan problemlərdən söhbət açan fondun prezidenti, həmçinin Ermənistanın Azərbaycana qarşı işğalçılıq siyasətinin təhsil sahəsində də ciddi çətinliklər, problemlər yaratdığını UNESCO-nun baş direktorunun və tədbir iştirakçılarının diqqətinə çatdıraraq demişdir:

**"Biz işğala məruz qalan ərazilərdə əvvəllər mövcud olan təhsil infrastrukturunun qoruyub saxlaya bilmişik. Bu məktəblər qaçqın-köçkün düşərgələrində yerləşir. Biz həm də müəllim kollektivini salaya bilmişik və onlar düşərgədə uşaqların təlim-tərbiyəsi ilə məşğul olurlar. Bu, doğrudan da, nadir bir təcrübədir və mən inanıram ki, bu təcrübədən bütün münaqişə zonalarında istifadə oluna bilər".**

Bundan sonra UNESCO ilə Azərbaycan arasında bir neçə istiqamətdə əməkdaşlıq münasibətləri qurulmuş, bu da təhsilimizin inkişafına, yeni layihələrin həyata keçirilməsinə öz müsbət təsirini göstərmişdir. Biz bu inkişafın təzahürlərini "Təhsil hamı üçün" proqramının yerinə yetirilməsində, "Assosiativ məktəblər", texniki peşə sahəsində əməkdaşlıq, bəzi

ali məktəblərdə UNESCO kafedralarının yaradılması və digər sahələrdə müşahidə edirik. Təhsilin məzmunca yeniləşdirilməsi, orta ümumtəhsil məktəblərində informasiya texnologiyalarının geniş tətbiqi və digər layihələr bu nüfuzlu təşkilatla ikitərəfli əməkdaşlığın, isti münasibətlərin nəticəsi kimi dəyərləndirilir.

Təhsildə müasir informasiya texnologiyalarının tətbiqi sahəsində BMT-nin İnkişaf Proqramı ilə fond arasında imzalanmış saziş də təhsilin inkişafına böyük töhfə vermişdir. Bu sazişin nəticəsi olaraq Azərbaycanda kor və görmə qabiliyyəti zəif olanların informasiya və kommunikasiya texnologiyalarına çıxışını təmin edən layihənin həyata keçirilməsinə başlanılmışdır. Onu da qeyd edək ki, Azərbaycanda yaşayan 320 min əlilin 40 mini kor və görmə qabiliyyəti zəif olan şəxslərdir. Bu kövrək insanların cəmiyyətə qovuşması, onların informasiya kommunikasiyaları vasitəsilə bilik və məlumat almaları üçün imkanlar xeyli genişləndirilmişdir. Heydər Əliyev Fondunun təhsilin inkişafına göstərdiyi diqqət və qayğıdan söz düşəndə internat məktəblərinin və uşaq evlərinin maddi-texniki bazasının gücləndirilməsini, kimsəsiz uşaqlara mənəvi dayaq olmasını qeyd etməmək olmaz. "Uşaq evləri və internat məktəblərinin inkişafı" proqramı çərçivəsində həyata keçirilən tədbirlər uşaq evi və internat məktəblərində mövcud olan problemləri aradan qaldırmış, uşaq müəssisələri əsaslı şəkildə təmir edilmiş, texniki vasitələrlə təmin olunmuşdur.





2006-cı ildə "Yeniləşən Azərbaycana yeni məktəb" proqramının 2-ci mərhələsinə start veriləndən sonra bu mərhələyə Bakı ətrafı qəsəbələrdə yerləşən məktəblər də daxil edildi. Təhsilin inkişafına xüsusi diqqət yetirən Heydər Əliyev Fondu bir daha müasir dünyada hər bir ölkənin inkişafının, onun dünya birliyinə inteqrasiyasının əsasında yalnız mükəmməl təhsilin dayandığını bildirdi. Məhz bunun nəticəsi olaraq 2008-2009-cu tədris ilində fondun təşəbbüsü və dəstəyi ilə ölkədə tikilən yeni məktəb binalarının sayı 237-ə çatdırıldı. Bir sıra məktəblərin açılışında Mehriban xanımın özü şəxsən iştirak edib. Onu da qeyd edək ki, yeni tikilən məktəblər bütün infrastruktura malikdir və ən yeni texniki avadanlıqlarla, kompyuterlə təzhic olunub. Təsəvvür edin ki, uzaq dağ kəndlərində 50-70 il uçuq-sökük binada yerləşən məktəbin yerində yaraşıqlı, zövq oxşayan, kompyuterlə təchiz olunmuş məktəb binası tikilib. Təbii ki, belə diqqət və qayğının nəticəsində burada həm təhsilin keyfiyyətindən, həm də şagirdlərin dərsə davamiyyətindən danışmaq olar.

Sözsüz ki, belə məktəblərdə müəllimlər də böyük həvəslə işləyir, yetişən gənc nəslin təlim-tərbiyəsi ilə böyük ruh yüksəkliyi ilə məşğul olarlar. Bu deyilənlər artıq reallığa çevrilib. Əlbəttə ki, Heydər Əliyev Fon-

dunun prezidenti Mehriban xanım Əliyevanın yorulmaz fəaliyyətinin nəticəsində. Eyni zamanda, birbaşa tədrisin keyfiyyətinə təsir göstərən layihənin həyata keçirilməsi də uğurların qazanılmasında böyük rol oynayıb.

Heydər Əliyev Fondunun təhsillə bağlı həyata keçirdiyi irimiqyaslı layihələr sırasında "Təhsillə dəstək" layihəsi də diqqəti cəlb edir. Qeyd etdiyimiz kimi, birbaşa tədrisin keyfiyyətinin yaxşılaşdırılmasına istiqamətlənmiş bu proqram məktəblərin əyani vəsaitlə və şagirdlərin dərs ləvazimatı ilə təmin olunmasına yönəlib. Hər il keçirilən silsilə aksiyalar təhsil sahəsində qarşıya çıxan bəzi problemlərin aradan qaldırılmasında öz müsbət təsirini göstərib. 2004-cü ildən başlayaraq hər il qaçqın və məcburi köçkün ailələrinin ilk dəfə məktəbə qədəm qoyan uşaqlarına məktəbli çantaları və dərs ləvazimatı fondun dəstəyi ilə hədiyyə olunub. 2008-2009-cu tədris ilində isə Heydər Əliyev Fondu tərəfindən ölkədə 130 min birinci sinif şagirdinə 16 adda məktəbli ləvazimatı ilə təmin olunmuş çanta paylanılmışdır. Bu uşaqlar ilk dəfə sinif otaqlarına daxil olanda partaların üzərində təzə çanta və dərs ləvazimatları görmüşlər. Bu, fondun körpə balalara- birinci sinif şagirdlərinə hədiyyəsi idi.

"Təhsilə dəstək" layihəsində milli azlıqların təhsilinin inkişafına da diqqət nəzərdə tutulub. Ulu öndərimzin adını daşıyan fond irimiqyaslı





proqram və layihələr həyata keçirməklə təhsilin inkişafını beynəlxalq səviyyəyə çatdırıb. Fondun təhsillə bağlı həyata keçirdiyi bu müdrik missiya əslində möhtərəm Prezidentimiz İlham Əliyevin ölkəyə rəhbərlik etdiyi dövrdə təhsil sahəsində görülən işlərin məntiqi nəticəsidir. Dövlət başçısı özü də Azərbaycanın xoşbəxt gələcəyinin təmin olunmasında təhsilin inkişafını prioritet vəzifə kimi qarşıya qoyub və bu istiqamətdə mühüm əhəmiyyətli tədbirlərin həyata keçirilməsinə nail olub. Artıq Azərbaycanda təhsil sistemi beynəlxalq aləmə çox uğurla inteqrasiya olunur. Bunu ölkəmizə rəsmi səfərə gələn görkəmli elm xadimləri də xüsusi vurğulayırlar.

Azərbaycanda uğurla həyata keçirilən təhsil islahatları ölkəmizdə demokratik prosesləri inkişafına xüsusi önəm göstərilməsindən, elmin, təhsilin dəyərlərinin dünya səviyyəsinə çatdırılması istiqamətində görülən işlərin uğurlu nəticəsindən xəbər verir. Heydər Əliyev Fondunun təhsillə bağlı həyata keçirdiyi irimiqyaslı layihələr və nəzərdə tutulan proqramların zaman-zaman reallaşması böyük müəllimlər ordusu olan Azərbaycanı qloballaşan dünyanın dəyərlərinə təhsil və elm sayəsində qovuşduracaq. Təhsilə göstərilən yüksək səviyyəli diqqət və qayğı müstəqil dövlətimizin xoşbəxt gələcəyinə böyük zəmin yaradır və Azərbaycanı dünyanın ən inkişaf etmiş dövlətlərindən birinə çevirəcəkdir.

## MEHRİBAN ƏLİYEVA AZƏRBAYCAN GİMNASTİKA FEDERASİYASININ PREZİDENTİ KİMİ

"Gimnastika" termini b.e.ə. təxminən V əsrdə qədim Yunanıstanda təhsil, hərbi və sağlamlıq üçün kompleks hərəkətləri ifadə edirdi. Qədim yunanlar üçün belə hesab edirdilər ki, gimnastika bədənə çeviklik, güc, çəldlik, qədd-qamət, gözəllik verir, insana igidlik və nəciblik hisləri aşılayır. Yunanlar gimnastik hərəkətlərdən fiziki inkişaf üçün deyil, həm də hərbiçilərin yetişdirilməsində də istifadə edirdilər.

İdman gimnastikasının sürətli inkişafı təşkilatlanma ilə nəticələnib. 1881-ci ildə Beynəlxalq Gimnastika Fedrasiyası yaradılıb.

İdman gimnastikası Azərbaycanda keçən əsrin 30-cu illərindən etibarən inkişaf etməyə başlayıb. 1939-cu ildə Bakıda ilk respublika çempionatı keçirilib. 50-ci illərin sonlarından etibarən isə Azərbaycanda güclü idman gimnastları nəsli yetişmişdi.





Azərbaycanda bədii gimnastikanın yaranma və inkişaf tarixi XX əsrin 40-cı illərinə təsadüf edir. Qızlardan ibarət qrup yaradan Nadejda Merkulova Azərbaycanda bu idman növünün formalaşması istiqamətində uzun müddət fəaliyyət göstərib. Məhz onun rəhbərliyi altında yetişən gimnastlar ümumittifaq və beynəlxalq yarışlarda uğurlar qazanıblar.

Azərbaycanın birinci xanımı, Birinci vitse-prezident Mehriban xanım Əliyeva 2002-ci ildə Azərbaycan Gimnastika Federasiyasının prezidenti seçildikdən sonra ölkəmizdə gimnastikanın bütün növlərinin inkişaf dövrü başladı. Ölkəmiz bir-birinin ardınca gimnastikanın müxtəlif növləri üzrə Dünya Kuboku yarışlarına, dünya və avropa çempionatlarına ev sahibliyi etdi.

İnkişaf dövrünün ilk illərində gimnastikanın yalnız üç növü- bədii gimnastika, akrobatika və kişi idman gimnastikası üzrə məşqlər keçirilirdi. Hazırda gimnastikanın Beynəlxalq Gimnastika Federasiyasının fəaliyyətinə daxil olan 6 yarış növü ölkəmizdə uğurla inkişaf etdirilir.

Azərbaycanın ev sahibliyi etdiyi Bakı-2015 birinci Avropa Oyunlarında bu 6 növün proqramda yer alması yeni inkişaf mərhələsinin başlanğıcı demək idi. 2013-cü ilin sonundan etibarən ölkəmizdə batut qadın idman gimnastikası və aerobika gimnastikası inkişaf etdirilir. 2016-cı ildən etibarən Beynəlxalq Gimnastika Federasiyasıyla razılaşma əsasında

2017-2020-ci Olimpiya dövrü ərzində Azərbaycan Gimnastika Federasiyası gimnastikanın olimpiya növləri üzrə hər il Dünya Kuboku yarışlarına ev sahibliyi edir.

Rəhbərliyin düzgün qərarları və siyasəti sayəsində Azərbaycan Gimnastika Federasiyası 5 il ardıcıl olaraq beynəlxalq reytinqdə 10 ən yaxşı federasiya sırasına daxil olub. 2017 və 2018-ci illərin nəticələrinə əsasən, reytinqdə 1-ci yerdə qərarlaşıb.

Əldə olunan uğurlar, qazanılan nailiyyətlər Azərbaycan Gimnastika Federasiyasının rəhbərliyinin səmərəli fəaliyyətinin bəhrəsidir.

2019-cu ilə batut gimnastikası və tamplinq üzrə Dünya Kuboku yarışları ilə start verildi. Mart ayında idman gimnastikası, aprel ayında isə bədii gimnastika üzrə Dünya Kuboku yarışları keçirildi. May ayında isə iki Avropa Çempionatına ev sahibliyi etdik. Bədii gimnastlar XXXV, aerobika ustaları XI Avropa Çempionatında mübarizə apardılar. Sentyabr ayında isə Azərbaycan Gimnastika Federasiyası bədii gimnastika üzrə 37-ci dünya çempionatına ev sahibliyi etdi...

Azərbaycan Gimnastika Federasiyasının prezidenti Mehriban Əliyevanın qayğısı nəticəsində Bakı müasir gimnastikasına sahib olmuşdur.





Bu vaxta qədər yalnız bədii gimnastika üzrə Avropa çempionatına ev sahibliyi edən Bakıda, 2018-ci ildə gimnastikanın bütün növləri üzrə Avropa çempionatı keçirildi.

Azərbaycan Gimnastika Federasiyası Mehriban Əliyevanın rəhbərliyi altında ölkəmizdə gimnastikanın inkişafı və aktiv irəliləyişinə, gimnastikanın Azərbaycanda ən əsas idman növlərindən birinə çevrilməsinə nail olub. Onun rəhbərliyi altında federasiya böyük uğurlara imza atıb.

Məşhur rusiyalı idmançı, beşqat dünya çempionu, Olimpiya Oyunları mükafatçısı **Yana Batırşina** ölkəmizdə gimnastikanın inkişafından danışarkən demişdir:

> **"Beynəlxalq Gimnastika Federasiyası tərəfindən ilin ən yaxşısı seçilən Azərbaycan Gimnastika Federasiyası bunu haqq edib. Dünyanın ən yaxşısı seçilən Azərbaycan Gimnastika Federasiyası bu ada tam layiqdir. Çünki Rusiya və Azərbaycan digərlərindən çox fərqlənirlər. Onlar dünyada xüsusi yer tuturlar. Moskva və Kazandakı kimi gimnastika mərkəzləri, dünyanın əksər ölkələrində yoxdur. Bakıda isə artıq belə Milli Gimnastika Arenası var. Məni arenanın zalları ilə ta-**

nış ediblər. Sözlə ifadə olunası deyil. Məni təəccübləndirmək çətindir. Bakıda ağzım açıq qaldı.
Əgər əvvəllər Azərbaycan Gimnastları Novoqorskda məşq edib, demək olar ki, orda yaşayırdılarsa, indi buna ehtiyyac yoxdur. Azərbaycanın Birinci xanımı Mehriban Əliyevanın dəstəyi sayəsində bu idman növünün ölkə prezidentinin tapşırığı ilə dövlət səviyyəsində qayğı görməsi çox şey deməkdir. Bu da çox şey gətirir.
Diqqət yetirin ki, 2019-cu ildə həm dünya çempionatı, həm Avropa çempionatı, həm də Dünya Kubokunun mərhələsi Azərbaycanda keçirildi. Bakı demək olar ki, Beynəlxalq Gimnastika Federasiyasını çətin vəziyyətdən çıxardı. Çünki qitə birinciliyini keçirməli olan ölkə bu işin öhdəsindən gəlməyərək  imtina etmişdi. Bakıdakı bütün yarışlar möhtəşəm keçib. Amma məni burda gimnastikanın necə sevilməsi təsirləndirdi. Hər yarışda dolu tribunalar olur. Bu sevgi Azərbaycan gimnastlarının uğurları sayəsində yaranıb. Nəticə olmasa, nə maraq, nə populyarlıq olar".





Azərbaycan Gimnastika Federasiyasının prezidenti Mehriban xanım Əliyevanın rolunu yüksək qiymətləndirən Avropa Gimnastika İttifaqının prezidenti Fərid Qayıbov demişdir:
-Şükür Allaha ki, Azərbaycan Gimnastika Federasiyasının bu cür prezidenti var. Hər kəsə belə rəhbər arzulayıram. Azərbaycanda gimnastikanın inkişafına və bütün uğurlara Azərbaycan Gimnastika Federasiyasının prezidenti Mehriban Əliyevanın siyasəti sayəsində nail olunub.
Azərbaycan Gimnastika Federasiyasının Azərbaycanda gimnastikanın inkişafı üçün nələr etdiyini və Federasiyanın son 16 il ərzində hansı işlər gördüyünü bilirəm. Bu gün heç bir yerdə Azərbaycanda olan gimnastika arenası kimi arena yoxdur. Bu arenada istənilən vaxt istənilən yarışı keçirmək mümkündür.
Bir neçə il əvvəl Beynəlxalq Gimnastika Federasiyasının İcraiyyə Komitəsi ən fəal federasiyların mükafatlandırılması barədə qərar qəbul edib. Fəal

federasiyalar Beynəlxalq Gimnastika Federasiyasının tədbirlərini keçirən, dünya çempionatlarında iştirak edən, beynəlxalq turnirlər üçün iştirak ərizələrini vaxtında göndərən və s. federasiyalar hesab olunur. Bu bəndlərin hər birinə görə xal toplanır, sonra xallar hesablanır. Bu reytinq tərtib edildiyi gündən Azərbaycan Gimnastika Federasiyası həmin siyahıda yer alıb. 148 federasiya arsında birinci olmaq böyük nailiyyətdir. Bu aparılan işlrin göstəricisidir...




















BAKU 2017
ISSF






KASHALATA
cafe










Une




AZERBAÏDJAN

























# AZƏRBAYCAN RESPUBLİKASININ BİRİNCİ VİTSE-PREZİDENTİ MEHRİBAN ƏLİYEVA

Azərbaycanın Birinci vitse-prezidenti Mehriban xanım Əliyeva ayrı-ayrı sahələrdə qarşıya qoyulmuş məqsədlərin gerçəkləşdirilməsinə, milli maraqlardan irəli gələn strateji əhəmiyyətli vəzifələrin reallaşdırılmasına xidmət edən səmərəli fəaliyyəti ilə xalqımızın dərin rəğbətini və sevgisini qazanmışdır.

Mehriban xanım Əliyevanın səmərəli və çoxşaxəli fəaliyyəti milli maraqlara və ümumbəşəri dəyərlərə əsalanır. Bu fəaliyyət eyni zamanda, republikamızın tərəqqisinin sürətləndirilməsi və davamlı xarakter alması, ayrı-ayrı sahələrdə qarşıya qoyulmuş məqsədlərin gerçəkləşdirilməsi, milli maraqlardan irəli gələn strateji əhəmiyyətli vəzifələrin reallaşdırılması baxımından böyük əhəmiyyətə malikdir. Mehriban xanım Əliyeva ölkəmizi beynəlxalq miqyasda təmsil edən, öz fəaliyyəti ilə Azərbayca-

nın davamlı inkişafına müstəsna töhfələr verən ictimai-siyasi xadim kimi tanınır.

Ümumiyyətlə, Mehriban xanım Əliyevanın ictimai-siyasi xadim kimi portret cizgilərini tamamlayan ştrixlər kifayət qədər zəngindir. Mehriban xanım Əliyeva hələ millət vəkili kimi fəaliyyət göstərərkən xalqa və dövlətə ləyaqətlə xidmət edərək milli maraqları daim üstün tutub, sosial məsələlərin həllinə xüsusi diqqət göstərib, mühüm təşəbbüslərlə çıxış edib. Məhz buna görə də seçicilər Mehriban xanım Əliyevanın millət vəkili kimi fəaliyyətini rəğbətlə qarşılayaraq yüksək qiymətləndiriblər.

Mehriban xanım Əliyevanın təşəbbüsü ilə genişmiqyaslı və ictimai əhəmiyyətli layihələr uğurla həyata keçirilib. Eyni zamanda, Milli Məclisdə Amnistiya aktlarının qəbul olunması təşəbbüsü ilə çıxış edib və bunun sayəsində minlərlə məhkum azadlığa qovuşub, yenidən cəmiyyətə intenqrasiya olunub. Bununla yanaşı, Yeni Azərbaycan Partiyasının V Qurultayında Mehriban xanım Əliyevanın partiyanın sədr müavini seçilməsi, partiya və cəmiyyət üçün əlamətdar olmaqla yanaşı, YAP-ın və dövlətimizin daha da gücləndirilməsi baxımından mühüm əhəmiyyətə malik olub.

Prezident İlham Əliyevin 2017-ci il 21 fevral tarixində imzaladığı müvafiq sərəncama əsasən, Mehriban Əliyevanın Azərbaycan Respublikası-





nın Birinci vitse-prezidenti təyin olunması isə yuxarıda sadalanan milli və ictimai məzmunlu işlərin, xalqa xidmət fəlsəfəsinə söykənən çoxşaxəli və səmərəli fəaliyyətinin qanunauyğun nəticəsidir.

Mehriban xanım Əliyeva Azərbaycan Respublikasının siyasi tarixində ilk dəfə yaradılmış Birinci vitse-prezident postunda uğurla fəaliyyət göstərir. Onun fəaliyyəti, onun tərəfindən irəli sürülən təşəbbüslər və reallaşdırılan layihələrin nəticələri həm Azərbaycanda, həm də beynəlxalq miqyasda olduqca yüksək qiymətləndirilir.

Azərbaycanın Birinci vitse-prezidenti Mehriban xanım Əliyeva sosial məsələlərin həllinə xüsusi diqqət göstərir.

Otən iki ildə Birinci vitse-prezident Mehriban xanım Əliyeva dövlət başçısının və ona ümid bəsləyən insanların etimadını layiqincə doğruldub. Azərbaycanın Birinci vitse-prezidenti Mehriban xanım Əliyeva daim sosial məsələlərin həllinə xüsusi diqqət göstərib, mühüm təşəbbüslərlə çıxış edib. Onun təşəbbüsü ilə genişmiqyaslı və ictimai əhəmiyyətli layihələr müvəffəqiyyətlə həyata keçirilir. Əlbəttə, əsas diqqətini sosial məsələlərin, xüsusilə də əhalinin aztəminatlı təbəqələrinin problemlərinin həlli üzərində cəmləşdirən Mehriban xanım Əliyevanın Birinci vitse-prezident kimi ilk müşavirəsini Bakı və Sumqayıt şəhərlərinin yataqxanalarında müvəqqəti məskunlaşmış qaçqın və məcburi köçkün ailələri-

nin köçürülməsinə həsr etməsi bu baxımdan xüsusi vurğulanmalıdır. Bəhs olunan müşavirədə müvafiq qurumlar qarşısında bu sahədə görüləcək işlərlə bağlı konkret vəzifələr qoyan Mehriban xanım Əliyeva yeni mənzillərin, yeni binaların tikilməsi və inşa olunan binaların keyfiyyət standartlarına tam cavab verməsi ilə bağlı göstəriş verdi. İlkin mərhələdə dörd min köçkün ailəsini yeni mənzillə, həmçinin iş yerləri ilə təmin etmək vəzifəsi qarşıya qoyuldu. Qısa zaman ərzində Lökbatan qəsəbəsində məcburi köçkünlər üçün 1026 mənzildən ibarət müasir yaşayış kompleksinin təməlinin qoyulması, qəzalı vəziyyətdə olan binalarda məskunlaşmış məcburi köçkün ailələrinin yeni mənzillərlə təmin olunması layihəsinin icrası çərçivəsində onlara Abşeron rayonunun Masazır və Mehdiabad qəsəbələrində yeni mənzillərin verilməsi, iş adamlarının yardımı ilə 214 ailənin yeni inşa olunmuş və tam təmirli mənzillərə köçürülməsi, eyni zamanda, Masazır, Ramana qəsəbələrində və Xətai rayonunda yeni binaların istifadəyə verilməsi ilə daha 725 məcburi köçkün ailəsinin mənzil şəraitinin yaxşılaşdırılması qarşıya qoyulan vəzifələrin müvəffəqiyyətlə icra edildiyini, görülən işlərin əhəmiyyətini göstərir.

Bundan başqa Mehriban xanım Əliyevanın 2016-cı il Aprel döyüşləri zamanı Azərbaycan Ordusunun yaralanmış bir qrup əsgər və zabitləri ilə görüşü, döyüşlərdə yaralanmış zabit və əsgərlərin yüksək texnologiyalı protezlərlə təmin edilməsi barədə tapşırıq verməsi də xüsusi qeyd edilməlidir.





Əlbəttə sadalananlar Birinci vitse-prezidentin rəhbərliyi və təşəbbüsü ilə görülən işlərin heç də tam siyahısı deyil, amma bütün bunlar Mehriban xanım Əliyevanın cəmiyyətin həssas təbəqəsinin problemlərinin həllini diqqət mərkəzində saxladığını göstərməklə yanaşı, onun fəaliyyətinin humanizm və vətənpərvərlik prinsiplərinə söykəndiyini əks etdirir.

Mehriban xanım Əliyevanın rəhbərlik etdiyi Heydər Əliyev Fondu ölkə miqyasında və beynəlxalq müstəvidə fəaliyyətini uğurla davam etdirir.

Xüsusi olaraq vurğulanmalıdır ki, Mehriban xanım Əliyevanın rəhbərlik etdiyi Heydər Əliyev Fondunun fəaliyyəti Ümumilli liderimizin ideyalarına əsaslanır. Azərbaycanın inkişafına, milli məqsədlərin həyata keçirilməsinə müstəsna töhfələr verir.

Fondun fəaliyyəti ölkənin ictimai həyatının bütün sahələrini əhatə edir. Heydər Əliyev Fondu təhsil, səhiyyə, mədəniyyət, idman, elm və texnologiya, ekologiya, sosial və digər sahələrdə müxtəlif layihələr həyata keçirərək yeni cəmiyyət quruculuğunda fəal iştirak edir, ölkənin sosial-iqtisadi inkişafına öz dəyərli-layiqli töhfəsini verir.

Heydər Əliyev Fondu tərəfindən təhsil sahəsində də əhəmiyyətli təşəbbüslər irəli sürülür və müvafiq layihələr uğurla reallaşdırılır. Başqa

sözlə, Mehriban Əliyevanın rəhbərlik etdiyi Heydər Əliyev Fondu dövlətin təhsillə bağlı strategiyasının həyata keçirilməsində yaxından iştirak edir. Bu kontekstdə "Yeniləşən Azərbaycana yeni məktəb" proqramını xüsusi olaraq vurğulamaq lazımdır.

Qeyd edək ki, bu proqramın müvəffəqiyyətlə icra olunması nəticəsində ölkəmizdə yeni məktəb binaları tikilərək istifadəyə verilib, müxtəlif təhsil ocaqlarının maddi-texniki bazası yaxşılaşdırılıb, eləcə də təhsilin keyfiyyətinin yüksəldilməsinə mühüm töhfələr verilib. Bununla yanaşı, Heydər Əliyev Fondunun dəstəyi ilə Paytaxt Bakıda və regionlarda çoxsaylı uşaq baxçaları, körpələr evi, xüsusi təyinatlı uşaq müəssisələri əsaslı şəkildə və yüksək səviyyədə təmir olunub, bütün növ avadanlıqlarla təchiz edilib.

Fondun "Uşaq evləri və internat məktəblərinə dəstək" layihəsi çərçivəsində çoxsaylı internat və uşaq evləri yenidən qurularaq istifadəyə verilib. Bütün bunlar Mehriban xanım Əliyevanın rəhbərlik etdiyi Heydər Əliyev Fondunun uşaqların, yeniyetmələrin təhsil və sağlamlığı üçün reallaşdırdığı layihələrin böyük əhəmiyyətini ortaya qoyur. Heydər Əliyev Fondunun təşəbbüsü ilə uşaq evləri və internat məktəblərinin məzunu olan gənclər üçün çoxmənzilli yaşayış binalarının inşa olunması da xüsusi əhəmiyyətə malikdir. Fond, eyni zamanda, bu vaxta qədər sağlamlıq müəssisələrinin inşası və yenidən qurulması, müalicə-diaqnostika, reabilitasiya mərkəzlərinin yaradılması, diabetli, talassemiyalı xəstələrə qayğı və onların müalicəsinin təşkil edilməsi, qanvermə aksiyalarının keçirilməsi və bu kimi digər mühüm işlərin altına imza atıb.





Mehriban xanım Əliyeva həm də mədəniyyətimizin, incəsənətimizin, tarixi irsimizin böyük hamisi və təbliğatçısıdır. Təsadüfi deyil ki, Mehriban Əliyevanın rəhbərlik etdiyi Heydər Əliyev Fondu eyni zamanda, milli mədəniyyətimizin qorunması və inkişafı istiqamətində genişmiqyaslı fəaliyyət göstərir, eləcə də Azərbaycanın zəngin tarixi və mədəni irsi dünya ictimaiyyətinə çatdırılır.

Heydər Əliyev Fondu Azərbaycan həqiqətlərinin dünya ictimaiyyətinə çatdırılması istiqamətində də məqsədyönlü və ardıcıl işlər aparır. Xüsusilə də Fondun Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi ilə bağlı yaratdığı internet portalı, müxtəlif dillərdə hazırladığı "Qarabağ həqiqətləri" adlı bukletlər dünya ictimaiyyətinə problemin səbəbləri haqqında kifayət qədər məlumat çatdırıb.

Fondun dəstəyi ilə 2007-ci ildən başlayaraq hər il müxtəlif ölkələrdə Xocalı faciəsinə həsr olunmuş konfranslar, tədbirlər keçirrlir, bu istiqamətdə xüsusi təbliğat aparılır.

Digər tərəfdən, Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyevanın humanitar layihələri sərhəd tanımır. Xeyriyyəçilik tədbirləri bir sıra ölkələri, qitələri əhatə edir.

Mehriban xanım Əliyevanın fəaliyyəti həm ölkə miqyasında, həm də beynəlxalq müstəvidə olduqca yüksək qiymətləndirilir. Bunun göstəricisidir ki, Mehriban xanım Əliyeva indiyədək mədəniyyətin təbliği və beynəlxalq mədəniyyət mübadiləsi, elm, səhiyyə, idman, təhsil, texnologiya və ekologiyanın inkişafı işinə verdiyi töhfəyə, həmçinin ictimai, sosial və mədəni həyatda fəal iştirakına, cəmiyyətin dinamik inkişafına verdiyi mühüm töhfələrə, mədəniyyətimizin dünyada təbliği sahəsində əvəzsiz xidmətlərinə, ümumdünya mədəni irsinin qorunub saxlanması işinə hərtərəfli dəstəyinə, sosial ədalət və humanizm prinsiplərinə sadiqliyinə görə müxtəlif nüfuzlu beynəlxalq mükafatlara layiq görülmüşdür.

Təltif olunduğu çoxsaylı nüfuzlu beynəlxalq mükafatlar- Fransanın "Şərəf legionu" ordeni, UNESCO-nun "Qızıl Motsart", Rusiyanın Yüzilliyin Messenatları Beynəlxalq Xeyriyyə Fondunun "Yaqut xaç" ordeni, II dərəcəli Müqəddəs Mələksima Knyaginya Olqa ordeni onun dünyadakı nüfuzunun göstəricisidir.





## MEHRİBAN XANIM ƏLİYEVA HƏM DƏ ANADIR

Tarixən Azərbaycan qadını azad düşüncəli, təmiz qəlbli, nikbin ruhlu olmuş, elin-obanın yükünü kişilərlə bərabər paylaşmaqla cəmiyyətin inkişafına önəmli töhfələr vermişdir. Türklərin qadına nəcib münasibətini aydın şəkildə ortaya qoyan "Kitabi-Dədə Qorqud" dastanında da qadının cəmiyyətdə tutduğu üstün mövqe özünün real əksini tapmışdır.

XII əsr Şərq intibahının Azərbaycan ulduzu Məhsəti Gəncəvi, XV əsr Ağqoyunluların Sara Xatunu, Qarabağ xanlığının sonuncu varəsəsi- Xan qızı Natəvan, XX əsr Azərbaycan qadınının əldə etdiyi ən yüksək məziyyətləri özündə əks etdirən Zərifə xanım Əliyeva, yeni dövr Azərbaycan elmində önəmli iz buraxmış Aida İmanquliyeva kimi mötəbər xanımlar tariximizin müxtəlif dövrlərində cəmiyyətin və dövlətçiliyin təkamülündə aparıcı qüvvə kimi çıxış etmiş və özlərindən sonrakı nəsillər üçün Azərbaycan qadınının mükəmməl örnəyinə çevrilmişlər.

Tariximizin həssas məqamlarında Azərbaycan xanımlarının göstərdiyi sarsılmaz iradə, əvəzsiz fədakarlıq, sonsuz vətənpərvərlik bugünkü dövlət quruculuğumuzda, cəmiyyətimizin siyasi-iqtisadi, mənəvi-sosial inkişafında yorulmadan çalışan Azərbaycan qadını üçün ilham və enerji mənbəyidir. Bu yaradıcı enerjini xalq və dövlət üçün, bugünkü və gələcək nəsillərin rifahı üçün hərtərəfli real fəaliyyət proqramına çevirmək missiyasını üzərinə götürmüş XXI əsrin ən görkəmli Azərbaycan xanımı isə Mehriban Əliyevadır.

Mehriban Xanım Əliyeva özünün peşəkar fəaliyyəti, zəngin təcrübəsi, böyük humanizmi və hadisələrə genişmiqyaslı baxış bucağı ilə Azərbaycan tarixində qadın hərəkatının yeni bir səhifəsini başlamışdır. Mehriban xanım Əliyeva bu hərəkat tarixində ilk şəxsiyyətdir ki, onun fəaliyyəti təhsildən səhiyyəyə, idmandan mədəniyyətimizin təbliğinə, xeyriyyəçilikdən ətraf mühitin qorunmasına qədər geniş bir fəaliyyət arealını əhatə edir. Onun çoxistiqamətli fəaliyyətinin əsasında xalq sevgisi, vətənpərvərlik, bəşəri ideallara sadiqlik, zərif humanizm dayanır. Mehriban xanım Əliyevanın təşəbbüsü ilə həyata keçirilən tədbirlər təkcə Azərbaycanla məhdudlaşmır, eyni zamanda, beynəlxalq sülh və sabitliyin təmin edilməsində önəmli rol oynayan sivilizasiyalararası dialoq mühitinin





formalaşdırılması, dünya mədəni irsinin qorunması üzrə aktual sahələri əhatə edir

Mehriban xanım Əlieyavnın malik olduğu üstün mənəvi məziyyətlərin nəcib ailə köklərinə dərin bağlılığından qaynaqlanması, onun Vətənimizə, dövlətçiliyimizə və xalqımıza sadiqlik əzmini şərtləndirən əsas amildir. Mehriban Əliyeva ölkənin birinci xanımı olmaqla bərabər, həm də nümunəvi anadır, məsuliyyətli vətəndaşdır, dünyəvi və dini dəyərlərimizə sadiq olan Azərbaycan qadınının yeni simasıdır, ictimai-siyasi xadimdir.

Azərbaycan cəmiyyətində qadın yalnız ailə mühiti ilə məhdudlaşmamış, ictimai həyatla daim fəal olduğundan hər zaman layiqli mövqeyə sahib olmuşdur. Zaman-zaman qadınlarımızın sosial-mədəni mühitdə fəaliyyəti daha da artmış, siyasət, elm, tibb, mədəniyyət və bir çox sahələr üzrə ən yüksək nailiyyətlər qazanmış, ali mərtəbələrədək ucalmışlar.

Azərbaycan qadınlarının ictimai fəallığı elə bir səviyyəyə qalxmışdır ki, bütöv bir qadın hərakatını xatırladır. Əminliklə deyə bilərik ki, hərəkatın aparıcı siması Azərbaycanın birinci xanımı Mehriban Əliyevadır. UNESCO və İSESCO kimi mötəbər beynəlxalq təşkilatların xətti ilə Mehriban xanım Əliyeva Azərbaycan mədəniyyəti tarixinin səsini planetin ən ucqar guşələrinə belə çatdırmışdır. Azərbaycanın adət-ənənələrinin

qoruyucusu, ümummilli problemlərimizin dünya müstəvisinə çıxarılmasında əvəzsiz xidmətləri olan Mehriban xanım Əliyeva ölkə daxilində və xaricdə keçirdiyi görüşlərdə dərin biliyə, geniş intellektə malik olduğunu hər dəfə nümayiş etdirməklə böyük nüfuz qazanmışdır. Azərbaycan qadınları üçün bu bir nümunədir.

Mehriban xanım Əliyeva YAP-ın sədr müavini kimi yüksək siyasi potensiala malik olduğunu əməli fəaliyyətində təsdiqləmişdir. Mehriban xanım Əliyeva həm də həyat yoldaşına sədaqətli, arxa-kömək olan, üç gözəl, yüksək intellektə, əxlaqa malik övladlar böyüdən bir anadır. Mehriban xanım Əliyeva dünyaya sübut etmişdir ki, Azərbaycan qadını modern tələblərə uyğun olan elmə, intellektə, ağıla və müdrikliyə malikdir.

Mehriban xanım Əliyeva Heydər Əliyev Fondunun xətti ilə Azərbaycanın dövlət uşaq siyasətinə xüsusi diqqət yetirərək gənclərə xüsusi qayğı göstərir, onların respublikamızın layiqli vətəndaşları olması, kimsəsiz uşaqların sağlam böyüyüb boya-başa çataraq cəmiyyətə inteqrasiya etməsi və həyatda öz yerlərini tutmaları üçün mərasimlər, bayramar, müxtəlif gərəkli layihələr həyata keçirir.

Bu gün ideal qadın obrazı olan Mehriban xanım Əliyevanın şəxsində və onun yaratdığı şəraitdən yararlanan qadınlarımız dünya səviyyəsində öz sözünü deyə bilir.





Çağdaş dünyamızda inkişaf etmiş və yüksək mədəniyyətə sahib cəmiyyətlər üçün qadın və gender məsələləri çox aktual hesab olunur. Hətta cəmiyyətin kimliyini bir sıra mütəxəssislər onda qadının oynadığı rolla ölçürlər. Qadın cəmiyyətdə hansı rolu oyna bilir? Onun ailədə və geniş sosial-mədəni mühitdə, dövlətin idarə edilməsində, qanunyaratmada, icra strukturunda statusu necədir? Bu kimi sualları cavablandırmaqla konkret cəmiyyətin müasirliyi haqqında da fikir bildirmək olar.

Bunlarla yanaşı, qadının istənilən cəmiyyətdə yeri və rolu, sosial-hüquqi statusu adət-ənənə ilə sıx bağlıdır. Qadına hörmətin yüksək olduğu cəmiyyətdə şəffaflıq, əxlaq, mədəniyyət və ailə tərbiyəsi də güclü olur. Heç şübhəsiz, Azərbaycan bir cəmiyyət və ölkə olaraq bu məsələdə fəxr edə bilər.

Ulu öndər Heydər Əliyev qadınlarla bağlı çox dəyərli fikirlər söyləyib. Onlardan biri belədir:

> **"Azərbaycan qadınları xalqımızın adət-ənənələrini, mədəniyyətini, elmini, intellektual potensialını yüksək səviyyədə təmsil etmişlər və bu, indi də belədir.Qadınlar dövlətimizin, dövlətçiliyimizin, müstəqilliyimizin, bu günümüzün, gələcəyimizin dayağıdır".**

Olduqca dolğun, dərin və əhatəli fikirdir. Xüsusilə Azərbaycanın birinci xanımı və Birinci vitse-prezident Mehriban xanım Əliyeva haqqında düşünəndə, bu müdrik fikirlər yada düşür. Bəli, taleyin xoşbəxtliyidir ki, Azərbaycan xalqının Mehriban Əliyeva kimi övladı, Azərbaycan cəmiyyətinin şansıdır ki, Mehriban Əliyeva kimi nümayəndəsi və Azərbaycan müstəqil dövlətinin uğurudur ki, Mehriban xanım Əliyeva kimi Birinci vitse-prezidenti vardır!

Mehriban xanım ailə başçısı, ictimai fəal, mənəvi-əxlaqi dəyər təmsilçisi və dövlət idarəçiliyində yüksək vəzifə sahibi kimi bir nümunədir.

Vurğulanan kontekstdə Prezident İlham Əliyevin aşağıdakı fikri çox aktualdır. Dövlət başçısı ifadə edib:

> **"Tariximizin hər bir dövründə qadınlarımız cəmiyyətin sarsılmaz mənəvi dayağı olmuş, ölkəmizin bugünkü simasının müəyyənləşməsi üçün böyük fədakarlıqlar göstərmişlər".**

Bu bir həqiqətdir ki, Azərbaycan tarixinin bütün mərhələlərində, xüsusilə ən ağır dövrlərdə qadınlarımız cəmiyyətin sarsılmaz dayağı olublar. Onlar ailədə, cəmiyyətdə və döyüş meydanlarında sədaqətlə həyat yoldaşları ilə çiyin-çiyinə dayanıblar. "Ailənin və xalqın ağbirçəyi" ifadəsi təsadüfən yaranmayıb. Dövlət idarəçiliyində Tomrisi, diplomatiya-





da Sara xatunu olan bir xalqın həyatının bütün səviyyələrində qadın amilinin hansı rolu oynadığına şübhə yoxdur.

Prezident İlham Əliyevin çox dəqiq ifadə etdiyi kimi, **qadınlar "ölkəmizin bugünkü simasının müəyyənləşməsi üçün böyük fədakarlıqlar göstərirlər".** Mehriban xanım Əliyeva məhz bu qüdrətdə olan Azərbaycan qadını nümunəsidir! Eyni zamanda Mehriban xanım həm qadın, həm ana, həm də yeni tipli siyasi təfəkkür daşıyıcısı olan dövlət xadimi kimi Azərbaycan üçün nümunədir, qadınların ictimai fəallığını əks etdirən yeni modelin müəllifidir. Bu statusda Azərbaycanın Birinci vitse-prezidenti və birinci xanımı müasir dünyada nümunəvi fəal qadın və siyasi xadim kimi də qəbul edilir...

## MEHRİBAN XANIM ƏLİYEVA MİLLƏT VƏKİLİ KİMİ

2005-ci ildə Azərbaycanda növbəti parlament seçkiləri keçirildi. Ekspert və müşahidəçilərin diqqəti 14 saylı ikinci Xəzər seçki dairəsinə yönəlmişdi. Onlarla digər dairədə olduğu kimi, burada da ölkə vətəndaşları parlamentdə öz nümayəndələrini seçirdilər. Bu seçki dairəsinə bu cür diqqət sadə şəkildə izah olunurdu: namizədlərin biri ölkənin birinci xanımı, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyeva idi.

Onun seçkilərdəki uğuru heyrətləndirci idi. Bakının Xəzər rayonunun sakinlərinin 90 faizdən çoxu Mehriban Əliyevaya etimad göstərərək ona həmin dairəni Milli Məclisdə təmsil etmək hüququ verdi.

Mehriban Əliyeva öz misilsiz ictimai və siyasi fəaliyyəti ilə xalqın seçilmiş nümayəndəsinin, yəni vəzifəsi ilə ona etimad göstərən insanların maraqlarının müdafiəsində dayanan, onların problemlərinin həllinə kömək edən şəxsin təcəssümünə çevrildi. Seçicilər gördü ki, onların qayğıları ilə maraqlanan deputat necə olmalıdır. Sadə nümunə gətirmək kifayətdir.





2006-cı ilin sentyabrında Birinci xanım, deputat Mehriban Əliyeva Bakının o zaman Əzizbəyov adlanan rayonunda bir sıra təhsil müəssələrinə baş çəkdi. Zirə qəsəbəsindəki 122 saylı yeni orta məktəbin açılışında iştirak etdi. Bu gün Prezident İlham Əliyevin həyata keçirdiyi uğurlu sosial siyasət, eləcə də Heydər Əliyev Fondunun çoxsaylı layihələri sayəsində ölkədə yüzlərlə məktəb və uşaq baxçasının tikildiyi və təmir olunduğu bir vaxtda Zirə qəsəbəsində həmin məktəbin Birinci xanım tərəfindən açılmasına qədər birinci sinif şagirdlərinin qonşu Pirallahı qəsəbəsindəki məktəbə getməyə məcbur olması təəccüblü gələ bilər. Məhz Mehriban Əliyevanın sayəsində bu gün müasir Azərbaycanda bu cür vəziyyəti təsəvvür etmək mümkün deyil. 2006-cı ildə yeni məktəbə getmiş həmin şagirdlər artıq Azərbaycanın təhsil alan, işləyən, ailə quran vətəndaşlarıdır.

Uşaqların bu illər ərzində rahat şəkildə təhsil aldığı Zirə və Bakının digər qəsəbə sakinlərinin Azərbaycanın birinci xanımı Mehriban Əliyevaya nə dərəcədə minnətdar olduqlarını təsəvvür etmək mümkün deyil.

Əlbəttə, Mehriban Əliyevanın Milli Məclisin deputatı kimi fəaliyyəti təkcə Xəzər rayonu ilə məhdudlaşmır. Mehriaban Əliyeva öz fəaliyyəti ilə

əfv etmək, humanizm, insanlara sevgi bacarıqlarını təcəssüm etdirərək insanları tez-tez yaxşılıq etməyə çağırır. Təsadüfi deyil ki, məhz birinci xanımın təşəbbüsü ilə Azərbaycanda dördüncü dəfə genişmiqyaslı amnistiya elan olundu.

2016-cı ildə Milli Məclis tərəfindən təsdiqlənmiş bu akt Respublika Gününə həsr edilmiş və 10 min məhbusa şamil olunmuşdu. 3500-ə yaxın məhbus azadlığa çıxmış, qalanlarının cəzaları yüngülləşdirilmişdi. İlk dəfə Mehriban Əliyevanın təşəbbüsü ilə amnistiya 2007-ci ildə elan olunmuşdu və 7 mindən çox insana şamil edilmişdi.

2009-cu ildəki amnistiya 9 min vətəndaşa aid olunmuşdu. 2013-cü ildə geniş amnistiya ümumilli lider Heydər Əliyevin 90 illiyinə həsr olunmuş və 9 min məhbusu əhatə etmişdi.

Sonuncu amnistiya aktı ilə əlaqədar parlamentdə çıxışı zamanı deputat Mehriban Əliyeva vurğulayıb ki, hər bir insan bağışlanmağa layiqdir:

> **"Hər bir cəmiyyətdə mərhəmət, insanpərvərlik, qayğı kimi hislər əsas yer tutmalıdır. O cəmiyyətharada ki, həm dövlət qurumları, həm vətəndaş cəmiyyəti məhz bu prinsiplər əsasında həm öz həyatını, həm öz fəaliyyətini qurur, demək mümkündür ki, o cəmiyyət inkişaf etmiş və uğurlu cəmiyyətdir. Mərhəmət təkcə çətinliyə düşən insanlara yardım əlini uzatmaq deyil, mərhəmət bəzən çətin və məsuliyyətli qərar qəbul etmək tələb edir. Bir dəfə səhv etmiş insanların bağışlanmaq hüququ var. Bu gün biz onlara yenidən cəmiyyətdə öz yerlərini tutmalarına, layiqli həyat yaşamalarına şans verməliyik".**





Məhz Mehriban Əliyeva Azərbaycanın ən böyük humanitar və xeyriyyə təşkilatı olan Heydər Əliyev Fondunun prezidenti kimi hamıdan yaxşı bilir ki, xeyirxahlıq etmək necə də böyük bir işdir.

Mehriban Əliyeva və onun rəhbərlik etdiyi Fond tez-tez problemlər girdabına düşən, yardım edəcək bir kimsəsi olmayan insanların son ümid yeri olur. Birinci xanım bu məsələlərə diqqətsiz qalmır. Bakının Nizami rayonunun uşaq evinin yetirmələri olmuş Yasəmən və İbrahim Abzatovların məhəbbət hekayəsini xatırlamaq kifayətdir. Bu gənc adamlar üçün Mehriban Əliyeva və onun rəhbərlik etdiyi Fond əsl nağıl reallaşdırdı. Birinci xanım Mehriban Əliyeva bütün ölkədə uşaq evləri və internatların abadlıq işlərini diqqət mərkəzində saxlayır. Bu dəstək ilk növbədə, bu müəssisələrin yetirmələrini əhatə edir. Fond bu uşaqlara uşaq evlərindən ayrılmasından sonra da təhsil almaları, iş tapmaları və ev əldə etmələrinə yardım göstərir.Yasəmən və İbrahim Abzatovla da məhz bu cür oldu...

# AZƏRBAYCANDA TOLERANTLIQ VƏ MULTİKULTURAL SİYASƏTİN İNKİŞAFINDA MEHRİBAN ƏLİYEVANIN ROLU

Multikulturalizm və tolerantlıq Azərbaycanda həyat tərzidir. Bu dəyərərin istər ölkəmizdə, istərsə də beynəlxalq aləmdə qorunub saxlanması və inkişaf etdirilməsi üçün Azərbaycan dövləti çox böyük işlər görür. Bunun nəticəsidir ki, bu gün beynəlxalq aləm, dünya dövlətləri də artıq multikulturalizmin Azərbaycan modelini tanıyır və onu bir nümunə kimi qəbul edirlər. Azərbaycanda multikulturalizmin təbliği təkcə Dövlətin və dövlət qurumlarının işi deyil, eyni zamanda ölkəmizdə fəaliyyət göstərən bir çox fondlar, qeyri-hökumət təşkilatları (QHT) da, bu sahədə dövlət siyasətinin həyata keçirilməsində yaxından iştirak edirlər. Bu təşkilatlar arasında Heydər Əliyev Fondunun və onun rəhbəri Mehriban xanım Əliyevanın xüsusi rolu var.

Mehriban xanım Əliyeva Azərbaycanın mədəniyyətlərarası dialoq, digər millətlərə qarşı tolerantlıq və hörmət kimi bir çox dəyərləri beynəlxalq ictimaiyyətə çatdırmaq istiqamətində gördüyü işlər, həm ölkəmizdə, həm də bütün sivil cəmiyyətlərdə böyük rəğbətlə qarşılanır.





Ölkəmizin birinci vitse-prezidenti, UNESCO-nun xoşməramlı səfiri Mehriban Əliyeva Parisdə, UNESCO-nun baş qərargahında 1999-2009-cu illərdə təşkilatın baş direktoru olmuş Koisiro Matsuuranın anadan olmasının 80 illiyi münasibətilə keçirilən konfransda iştirak etmişdir.

Tədbirdə çıxış edən Mehriban Əliyeva K.Matsuuranın rəhbərliyi altında UNESCO ilə Azərbaycanın münasibətlərinin daha da möhkəmləndiyini, onun iştirakı ilə Azərbaycan Dövlət Xalça muzeyinin, Beynəlxalq Muğam Mərkəzinin təməlinin qoyulduğunu, Müasir İncəsənət Muzeyinin açıldığını və bu gün də həmin mədəniyyət mərkəzlərinin Bakının ən çox maraq doğuran və ziyarət olunan məkanları olduğunu bildirib.

Mehriban xanım Əliyeva qeyd edərək bildirmişdir ki, K.Matsuuranın rəhbərliyi dövründə Azərbaycanın tarixi abidələri olan Bakının İçərişəhər, Şirvanşahlar sarayı, Qız Qalası, habelə Qobustan qayaüstü təsvirləri UNESCO-nun Ümumdünya İrs siyahısına daxil edilib.

Muiqimizin inciləri olan muğam və aşıq sənəti Bəşəriyyətin Qeyri-Maddi Mədəni İrs üzrə Reprezentiv Siyahısına salınıb. K.Matsuuranın səyləri nəticəsində 2004-cü ildə Mehriban xanım Əliyeva UNESCO-nun

şifahi ənənələr və musiqi ənənələri sahəsində xoşməramlı səfiri titulunu alıb.

Çıxışın sonunda Mehriban xanım deyib: **"Əziz cənab Matsuura, biz Azərbaycanla UNESCO arasında ikitərəfli əlaqələrin gücləndirilməsində sizin şəxsi səylərinizi çox yüksək qiymətləndiririk".**

Bu gün multikulturalizm Azərbaycanın dövlət siyasətidir və biz multikulturalizm dəyərlərinin təşviqində UNESCO da daxil olmaqla beynəlxalq ictimaiyyətlə sıx əməkdaşlıq edirik. Bu baxımdan Azərbaycan Prezidentinin təşəbbüsü ilə irəli sürülən, mədəniyyətlərarası və dinlərarası dialoqun təşviq olunmasında həqiqətən də qlobal platformaya çevrilən "Bakı Prosesi" ni xüsusi qeyd etmək lazımdır. Əvvəla, bu, Avropa Şurasına və İslam Əməkdaşlıq Təşkilatına üzv olan ölkələr arasında əməkdaşlıq platforması kimi irəli sürülüb.

Bildiyimiz kimi, 2008-ci ildə Azərbaycan bu iki beynəlxalq təşkilatın üzvü olaraq Bakıda İslam Əməkdaşlıq Təşkilatına və Avropa Şurasına üzv olan ölkələrin mədəniyyət nazirlərinin görüşünü keçirdi və proses bu gün də davam edir. Bu il "Bakı Prosesi"nin 10-cu ildönümü qeyd olunur. Azərbaycan UNESCO ilə sıx tərəfdaşlıq edərək, "Bakı Prosesi" çərçivəsində mədəniyyətlərarası dialoq üzrə 4 dünya forumunu müvəffəqiyyətlə keçirib və bu işi gələcəkdə də davam etdirməyə hazırdır.





Azərbaycanın Birinci vitse-prezidenti UNESCO-nun tədbirlərindəki çıxışı zamanı qeyd edib ki, **"insan potensialının inkişafı UNESCO-nun və Azərbaycanın böyük əhəmiyyət verdiyi əsas sahələrdən biridir. Keyfiyyətli təhsil və mədəniyyət insan inkişafı üçün əsas elementlərdir və bu əhəmiyyəti nəzərə alaraq Azərbaycan "EKSPO-2025" Ümumdünya Sərgisini Bakıda keçirmək üçün namizədlyini irəli sürərək, "insan kapitalının inkişaf etdirilməsi, daha yaxşı gələcəyin qurulması" mövzusunu seçib. Təklifimiz qalib gələrsə, biz bütün dünyanı Bakıya gətirməyə, dialoq və əməkdaşlığın mübadiləsi üçün həqiqətən universal platforma yaratmağa ümid edirik".**

Ölkəmizin birinci vitse-przidenti Mehriban Əliyevanın fəaliyyəti Azərbaycanın dünya mədəni irsinin qorunmasına və proaktiv humanitar siyasətə birbaşa töhfə verərək UNESCO-nun dəyər ideallarına sıx bağlıdır. Bunun sübutu üçün bir neçə faktı diqqətinizə çatdırmaq istəyirik. Məsələn, Azərbaycan 2005-ci ildə Pakistanın Müzəffərabad şəhərində dəhşətli zəlzələnin fəsadlarının aradan qaldırılmasında beynəlxalq ictimaiyyətin səylərinə töhfə olaraq, qızlar üçün yeni məktəb inşa etdirib.

2011-ci ildə UNESCO ilə bağlanan müqavilə əsasında, zəlzələdən əziyyət çəkmiş Haitinin mədəni irsinin bərpasında iştirak edib. Azərbaycanın dünya mədəni irsinin təqdimatı və bərpasına yönələn xeyriyyəçi-

lik fəaliyyəti Almaniyada Berlin qəsri, Versalda qədim abidələr, Fransada aşağı Normandiyadakı kilsə və Luvr muzeyi, müqəddəs Marçelini və Piyetro qədim əlyazmaları və katakombaları, İtaliyada kapitoli muzeyində filosoflar zalı, Bolqarıstanda Trapezitsa muzeyi və digər bu kimi bir çox ölkələri əhatə edib.

Mehriban xanım Əliyevanın Azərbaycan Xalq Cümhuriyyətinin yaranmasının 100 illiyi münasibətilə İtaliyada keçirilən təntənəli tədbirlərdə iştirak etmək üçün İtaliyaya səfəri də əhəmiyyətli olub. Azərbaycanla İtaliya arasında strateji tərəfdaşlıq münasibətlərinin inkişaf etdirilməsi də, səfər gündəliyinin prioritet mövzularından biri idi. Bunula bərabər, səfərin geopolitik aspektləri də xüsusi diqqət çəkir. İtaliyaya bu səfəri də, əvvəlki səfərləri kimi Azərbaycanın sivilizasiyalararası dialoqa verdiyi töhfələrin daha bir təstiqidir. Ən əhəmiyyətli görüşlərdən biri kimi Roma Papası Fransisk ilə görüşü misal çəkmək olar. Görüş zamanı Azərbaycanla Vatikan arasında ikitərəfli əlaqələrin yüksələn xətlə inkişaf etdiyini deyən Mehriban xanım Əliyeva bu əməkdaşlığın mədəni irsin qorunması sahəsində daha da genişləndiyini vurğulayıb. Vatikanın da Azərbaycanla ikitərəfli əlaqələri inkişaf etdirməkdə maraqlı olduğunu bildirən Roma Papası Müqəddəs Roma Katakombalarının Heydər Əliyev Fondunun dəstəyi ilə bərpasını yüksək qiymətləndirib.





Azərbaycanın xalqlar və mədəniyyətlər arasında daha geniş dialoqun qurulmasında cəhdlər göstərməsi ilə dünya dövlətləri arasında seçilməsi Roma Papasının da diqqətindən yayınmayıb. Heydər Əliyev Fondu ilə müqəddəs taxt-tac arasında neçə il öncə razılaşmanın imzalandığı vaxt Roma Papasının Müqəddəs Arxeologiya üzrə Şurasının sədri, Kardinal San-Franko Ravazini bu hadisəni müsəlman dünyasının dünya xristianlığına hədiyyəsi kimi qiymətləndirib. Bu hadisə Vatikanın və Katolik kilsəsinin tarixində müsəlman ölkəsində fəaliyyət göstərən xeyriyyə fondunun xristianlığın dini və maddi irsinin qorunmasına yardım göstərdiyi ilk faktdır.

Lakin Fondun Vatikanda həyata keçirdiyi işlər yalnız katakombaların bərpası ilə məhdudlaşmır. 1475-ci ildə yaradılmış Vatikan Apostol Kitabxanasında saxlanılan əlyazmaların bərpasına da Fond öz töhfəsini verib. Sənədlərin arasında missionerlərin Azərbaycandakı siyasi cərəyanlarla bağlı gizli hesabatları da var. Azərbaycanda təqdim edilən sənədlər arasında IX əsrdən XVIII əsrədək olan dövrü əhatə edən nadir əlyazmalara da rast gəlinir. Onların arasında Nizaminin, Füzulinin, Nəsiminin və digər dünya şöhrətli Azərbaycan şair və mütəfəkkirlərinin nadir əlyazmaları, həmçinin, indiyədək ölkəmizdə məlum olmayan bir çox orta əsr alimlərinin elmin müxtəlif sahələrinə aid qiymətli əsərləri var.

Bildiyiniz kimi, Heydər Əliyev Fondunun əsas fəaliyyət istiqamətlərindən biri də Azərbaycan xalqının mədəni və mənəvi dəyərlərinin qorunub saxlanması və dünyada təbliğidir. Fond müxtəlif ölkələrdə ümumbəşəri əhəmiyyət daşıyan abidələrin bərpasına da böyük töhfə verir. Bu isə Azərbaycanın dünyada dinlərarası və millətlərarası barış ölkəsi kimi təbliğində əvəzsiz rol oynayır. Fondun həyata keçirdiyi "Azərbaycan-tolerantlıq məkanı" layihəsi çərçivəsində müsəlman məscidləri, xristian kilsələri, yəhudi məktəbi və mədəniyyət mərkəzi bərpa olunub. Avropa ölkələrində dünya şöhrətli memarlıq abidələrinin bir çoxu, o cümlədən, Fransadakı Versal sarayı da Fond tərəfindən bərpa edilib. Fondun Vatikanda və Avropanın digər ölkələrində həyata keçirdiyi bərpa işləri dünyada Azərbaycan haqqında əhalisinin əksəriyyətini müsəlmanların təşkil eytdiyi nadir dünyəvi dövlət təsəvvürünün formalaşmasına imkan verir.

Son illər Bakıda dünyanın nüfuzlu dini liderlərinin iştirak etdiyi sammitlərin, Mədəniyyətlərarası Dialoq üzrə Dünya Forumunun və bir sıra beynəlxalq humanitar forumların keçirilməsi ilə Azərbaycan dialoqun, tolerantlığın, insanlar, xalqlar və dövlətlər arasınakı müşahidələrdə qarşılıqlı hörmətin və barışın vacib olduğunu bütün dünyaya bəyan edir.

Sabiq Roma Papası II İohann Pavel tarixdə ilk dəfə Bakıya səfər edərkən Azərbaycanı Şərqlə Qərb arasında qapı, həmçinin, tolerantlıq nümunəsi adlandırıb. Bu gün də Azırbaycan Vatikanın ən yüksək dəyər verdiyi əsas müsəlman ölkəsidir. Bu məqam isə multikultural, tolerant dəyərlərlə çıxış edən Azərbaycanın bütün dünyada, beynəlxalq aləmdə müsbət imicinin formalaşdırılmasında əsas faktorlardan biridir.





> **"Azərbaycanın çıxmillətli və tolerant ölkə olması bizim böyük sərvətimizdir, üstünlüyümüzdür. Azərbaycan onun ərazisində yaşayan bütün millət və xalqların ümumi vətənidir. Ərazimizdə yaşayan azərbaycanlı da, ləzgi də, avar da, kürd də, talış da, udin də, kumık da, başqası da- bütünlükdə, hamısı azərbaycanlıdır. "Azərbaycan" sözü bizi həmişə birləşdirib. Respublikamızın ən başlıca sərvəti əsrlərdən bəri bu torpaqda yaşayan, öz taleyini , öz həyatını bu torpağa bağlayan, müxtəlif millətlərdən olan, müxtəlif dinlərə etiqad edən adamlardır. Ölkə nə qədər çox xalqı birləşdirsə, bir o qədər zəngin olar"**.

Ümummilli lider Heydər Əliyevin söylədiyi bu dəyərli fikirlər, müasir dünyamızda milli-etnik və dini dözümlülük mühiti formalaşdırmaqla nəticələr çıxarmaq üçün olduqca ibrətamizdir.

Azərbaycanda multikulturalizm bir dəyərlər toplusu, etnomədəniyyətlər çələngi kimi tarixən mövcud olmuşdur. Azərbaycan multikultural və tolerantlıq ənənələrini, etnik və milli-dini qruplar arasında gözəl harmonik münasibətləri bütün dünyaya çatdırmaqdadır. Cənab Prezident həmişə qeyd edir ki, multikulturalizm Azərbaycan xalqının həyat tərzidir. Multikulturalizmin daha da inkişaf etməsi üçün dövlət səviyyəsində hər zaman qayğı göstərilir. Tarixə nəzər salsaq, görərik ki, Alban kilsəsinin mövcudluğu, yəhudi icmasının, eləcə də, rus pravoslav icmasının burada məskunlaşması və digər amillər Azərbaycanda xalqların harmonik şəkildə birgə yaşamasının sübutudur.

Mutikulturalizm tədqiqatçısı britanyalı Kənan Malik öz əsərində yazır ki, əgər 30 il bundan əvvəl multikulturalizmə onlarda mövcud olan sosial problemlərin həllinin bir vasitəsi kimi yanaşırdılarsa, indi artıq multikulturalizmə onların cəmiyyətdə mövcud olan sosial problemlərin səbəbi kimi yanaşırlar. Bu cümlədə artıq Qərb ölkələrinin multikulturalizmə münasibəti əks olunub. Doğurdan da Qərb ölkələrində multikulturalizm bir siyasət kimi, ilk olaraq Amerikada, Kanadada, eləcə də Avstraliyada meydana gəlmişdir. Çünki saydığımız ölkələrdə bu müxtəliflik onları tənzimləmək istiqamətində izolyasiya və assimilyasiya siyasətinin iflası, səmərəli olmaması multikulturalizm siyasətinə müraciətinə gətirib





çıxardı. Lakin sonradan bu multikulturalizm vasitəsilə tənzimlənən etnik müxtəliflik müəyyən problemlərin yaranmasına səbəb oldu.

2011-ci ildə ilk dəfə Britaniyanın baş naziri David Kemeron Münhendə keçirilən təhlükəsizlik üzrə toplantıda qeyd etdi ki, multikulturalizm bir siyasət kimi artıq özünü doğrulda bilmir, sonra eyni tərzdə Fransanın keçmiş prezidenti Nikola Sarkozi və Almaniyanın Kansleri Angela Merkel də bu fikirləri dəstəklədi.

Artıq bildiyiniz kimi, Yaxın Şərqdə baş verən münaqişələrlə bağlı, eləcə də, Şimali Afrikada olan iqtisadi tənəzzüllə bağlı həmin yerlərdən son dövrdə Avropaya çoxlu sayda qaçqınlar gələrək, siyasi sığınacaq istəyirlər. Artıq demokratiya, insan hüquqlarından car çəkən Qərb ölkələri açıq şəkildə insan hüquqlarını pozurlar. Varşavada ATƏT-in Demokratik İslahatlar və İnsan Hüquqları Bürosunun insan ölçüsü üzrə illik toplantısında ATƏT-ə üzv olan 57 ölkə ilə bərabər, bir çox qeyri-hökumət təşkilatları iştirak edirdi. Onlar aparıcı Avropa ölkələrinin Britaniya, Almaniya, Fransa, Belçika və s. etnik-dini müxtəlifliyin tənzimlənməsinə dair siyasətini açıq şəkildə tənqid edirdilər. Belə bir möhtəşəm iclasda bu siqnalların verilməsi, doğurdan da, Qərb ölkələrinin ciddi problemlərlə üzləşdiyini göstərir.

Belə bir şəraitdə qaçqınlara və digər etnik-dini qruplara münasibətdə ölkəmiz insan hüquqları və demokratiya baxımından, bir çox ölkələr tərəfindən təqdirəlayiq qarşılanır.

BMT-nin Sivilizasiyalararası Alyansının 7-ci Qlobal Forumunda xanım Əliyeva çıxış edərək dedi:

> **"Biz ən vacib zənginliyimizi qoruyub saxladıq. Bu da insan kapitalı idi. Bütün çadır düşərgələrini ləğv etdik, qaçqın və məcburi köçkünlər üçün qəsəbələr yaratdıq. Gənc nəsil müasir təhsilə də çıxış əldə etdi. Amma bu müvəqqəti müalicədir. Çünki insan qaçqındırsa, heç bir şərait doğma yerini əvəz edə bilməz. Bu problemin həllini tapması, işğal olunmuş torpaqların azad edilməsi, insanların evinə qayıtması lazımdır".**

Mehriban Əliyevanın bu çıxışı yuxarıda sadaladığımız məsələyə bariz nümunədir.

Azərbaycanın multikulturalizm ideyaları sayəsində bu sahədə qazandığı nailiyyətlərlə örnək və nümunəvi ölkəyə çevrilir. Obrazlı şəkildə qeyd etsək, deyə bilərik ki, ölkəmiz "Məğlubedilməz Qala"sını yaradır. Qeyd etmək lazımdır ki, respublikamızın bu sahədə nailiyyətlərinin istinad etdiyi bir mənbə var. Dövlətin siyasəti ilə yanaşı, Heydər Əliyev Fondunun gördüyü işlər əvəzsizdir. Xüsusilə, ölkənin Birinci vitse-prezidenti Mehriban xanım Əliyeva bu sahəyə xüsusi diqqət ayırır.





1996-cı ildə Azərbaycan-UNESCO arasında əməkdaşlıq haqqında Memorandum imzalanmışdır. Azərbaycan-UNESCO münasibətlərinin inkişafında, bu münasibətlərin canlanması və gücləndirilməsində Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyeva əvəzolunmaz rola malikdir. Heydər Əliyev Fondunun təşkilatçılığı və Mehriban xanımın iştirakı ilə 2015-ci il sentyabrın 8-də "Parisin ürəyində Azərbaycan" adlı tədbir çərçivəsində dini tolerantlıq və birgə yaşayış mövzusunda konfrans keçirilmişdir. Sentyabrın 3-dən 9-dək məşhur Luvr Muzeyinin qarşısındakı Pale Royal meydanında ölkəmizin zəngin mədəniyyətini təqdim edən "Azərbaycan şəhərciyi" fəaliyyət göstərib. Həmçinin, dünyaca məşhur fotoqraf Reza Deqatinin "Azərbaycan tolerantlıq ölkəsi" sərgisi nümayiş olunub.

Elə həmin layihə çərçivəsində sentyabrın 8-də Parisdə "Dini tolerantlıq: Azərbaycanda birgə yaşamaq mədəniyyəti" mövzusunda konfrans təşkil olunub. Azərbaycanın Birinci xanımı, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyeva konfransda iştirak edib. O, konfransda çıxış edərək ölkəmizin tarix boyu sivilizasiyaların və mədəniyyətlərin qov-

şağında yerləşdiyini, Azərbaycanda məscidlərin, kilsə və sinaqoqlarla yanaşı mövcud olduğunu, bütün dini azadlıqların təmin edildiyini diqqətə çatdırıb.

Heydər Əliyev Fondunun digər dinlərə də xüsusi diqqət göstərdiyini deyən Mehriban xanım Əliyeva Luvr Muzeyində islam mədəniyyəti bölməsinin təşkilində, yəhudi uşaqları üçün imkanların yaradılmasında, Strasburq və Fransanın digər regionlardakı kilsələrin təmirində Heydər Əliyev Fondunun yaxından iştirak etdiyini bildirib.

Dini qurumlarla iş üzrə Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı Azərbaycanda tolerantlığın dövlət siyasətinin mühüm istiqamətlərindən biri olduğunu deyib. Azərbaycan Dağ Yəhudiləri Dini İcmasının sədri Milix Yevdayev, Bakı Avropa Yəhudiləri Dini İcmasının sədri Gennadi Zelmanoviç Azərbaycan və yəhudi xalqlarının bir yerdə yaşamağın yaxşı nümunəsini nümayiş etdirdiklərini vurğulayıblar.

Fransa Yəhudi Təsisatları Əlaqələndirmə Şurasının nümayəndəsi Jan Pyer Alali, Fransa Müsəlmanları Şurasının vitse-prezidenti Tofiq Septi ölkəmizdə tolerantlıq mühitinin canlı şahidi olduqlarını bildiriblər.

Rus Pravoslav Kilsəsinin Bakı və Azərbaycan Yeparxiyasının arxiyepiskopu Aleksandr, Alban-Udin Dini İcmasının sədri Robert Mobili, Roma-Katolik Kilsəsinin Azərbaycandakı Apostol Prefekturasının ordinari-





si Vladimir Fekete ölkəmizdə bütün dini konfessiyaların fəaliyyətinə bərabər imkanlar yaradıldığını diqqətə çatdırıblar.

Eləcə də qeyd etmək lazımdır ki, Roma katakombasının bərpası, Vatikan Apostil Kitabxanasındakı unikal əlyazmaların bərpası, Roma Katolik Muzeyinin filosoflar zalının təmiri və digər layihələrin təşkili müsəlman ölkəsi olaraq, Azərbaycanın atdığı mühüm addımlardan biridir.

Heydər Əliyev Fondunun bu cür layihələri multikulturalizm sahəsində gözəl təşəbbüs olmaqla yanaşı, mədəniyyətlər və sivilizasiyalar arasında dialoq üçün əsl qlobal nümunədir.

Tarixi İpək Yolunda yerləşən Azərbaycan müxtəlif sivilizasiyaların qovuşduğu məkan olaraq, əsrlər boyu milli-mədəni rəngarənglik mühitinin formalaşdığı ayrı-ayrı millətlərin və konfessiyaların nümayəndələrinin sülh, əmin-amanlıq, qarşılıqlı anlaşma və dialoq şəraitində yaşadığı diyar kimi tanınmışdır. Ölkəmizdə multikulturalizm artıq alternativi olmayan həyat tərzinə çevrilmişdir. Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin yaradılması müasir dövrdə respublikamızda gerçəkləşdirilən siyasətin tolerantlıq prinsiplərinə bu gün də sadiq qalmasının bariz nümunəsidir.

2016-cı il Azərbaycan Respublikasında "Multikulturalizm ili" elan edilməsi haqqında Prezident İlham Əliyevin verdiyi Sərəncamla bu sahəyə ayrılmış diqqət və qayğı özünü göstərir.

Heydər Əliyev Fondunun yaranması ilə aparılan yüksək səviyyəli islahatlar nəticəsində, 2003-2017-ci illər ərzində UNESCO-nun sənədlərində Azərbaycan Qeyri-Maddi Mədəni İrs Siyahısına 13 Qeyri-Maddi Mədəni İrs nümunəsi daxil edilmişdir.

Mehriban Əliyevanın təşəbbüsü və Heydər Əliyev Fondunun təşkilatçılığı sayəsində muğam sənətinin qorunub-saxlanması, zəngin tarixə malik ifaçılıq sənətinin gələcək nəsillərə çatdırılması, yeni ifaçılar nəslinin yetişdirilməsi məqsədi ilə 2005-ci ildən "Muğam televiziya müsabiqəsi" keçirməyə başlandı. 7 noyabr 2003-cü il tarixində Azərbaycan Muğamı UNESCO tərəfindən bəşəriyyətin Qeyri-Maddi İrsinin şah əsəri elan olunmuşdur.

28 sentyabr-2 oktyabr 2009-cu il tarixində Birləşmiş Ərəb Əmirliklərinin ABU-Dabi şəhərində keçirilmiş UNESCO-nun Qeyri-Maddi Mədəni İrs üzrə hökumətlərarası Komitəsinin 4-cü Sessiyası çərçivəsində qəbul edilmiş qərara əsasən, Azərbaycan Aşıq Sənəti UNESCO-nun Qeyri-Maddi Mədəni İrsinin Representativ Siyahısına daxil edilmişdir. Elə eyni sessiyada Novruz çoxmillətli nominasiya (Azərbaycan, Hindistan, İran,





Qırğızıstan, Pakistan, Türkiyə, Özbəkistan) kimi UNESCO-nun Qeyri-Maddi Mədəni İrsin Reprezentativ Siyahısına daxil edilmişdir.

"Ənənəvi Azərbaycan Xalçaçılıq Sənəti" 15-19 noyabr 2010-cu il tarixində Keniyanın Nairobi şəhərində keçirilən UNESCO-nun Qeyri-Maddi Mədəni İrs üzrə Hökumətlərarası Komitəsinin 5-ci sessiyası çərçivəsində qəbul edilmiş qərara əsasən, UNESCO-nun Qeyri-Maddi Mədəni İrsin Reprezentativ Siyahısına daxil edilmişdir.

"Tar və Onun İfaçılıq Sənəti" 3-7 dekabr 2012-ci il tarixində Parisdə keçirilən UNESCO-nun Qeyri-Maddi Mədəni İrs üzrə hökumətlərarası Komitəsinin 7-ci sessiyası çərçivəsində qəbul edilmiş qərara əsasən, "Tar və Onun İfaçılıq Sənəti" , UNESCO-nun Qeyri-Maddi Mədəni İrsin Reprezentativ Siyahısına daxil edilmişdir.

"Azərbaycan Respublikasında Çovqan Ənənəvi Qarabağ Atüstü Oyunu" 2-8 dekabr 2013-cü ildə Bakıda keçirilən UNESCO-nun Qeyri-Madii Mədəni İrs üzrə Hökumətlərarası Komitəsinin 8-ci Sessiyası çərçivəsində qəbul edilmiş qərara əsasən, UNESCO-nun Təcili Qorunmaya Ehtiyacı olan Qeyri-Maddi Mədəni İrs Siyahısına daxil edilmişdir.

"Ənənəvi Kəlağayı sənəti və simvolizmi, qadın ipək baş örtüklərinin hazırlanması və istifadə olunması" 24-28 noyabr 2014-cü il tarixində Parisdə keçirilən Qeyri-Maddi Mədəni İrsin Qorunması üzrə Hökumətlərə-

rası Komitəsinin 9-cu sessiyasında UNESCO-nun Qeyri-Maddi Mədəni İrs üzrə Reprezentativ Siyahısına daxil edilmişdir.

"Lahıcın misgərlik sənəti" 30 noyabr-4 dekabr 2015-ci il tarixində Namibiyada keçirilmiş Qeyri-Maddi Mədəni İrsin Qorunması üzrə Hökumətlərarası Komitəsinin 10-cu sessiyasında UNESCO-nun Qeyri-Maddi Mədəni İrs üzrə Reprezentativ Siyahısına daxil edilmişdir.

"Nazik çörəyin hazırlanma və paylaşma mədəniyyəti: Lavaş, Katırma, Jupka, Yufka 28 noyabr-2 dekabr 2016-cı il tarixlərində Efiopiyanın Əddis-Əbəbə şəhərində keçirilmiş UNESCO-nun Qeyri-Maddi Mədəni İrs üzrə Hökumətlərarası Komitəsinin 11-ci sessiyası çərçivəsində çoxmillətli nominasiya (Azərbaycan, İran, Qazaxıstan, Qırğızıstan və Türkiyə) kimi UNESCO-nun Qeyri-Maddi Mədəni İrsin Reprezentativ Siyahısına daxil edilmişdir.

UNESCO-nun Dünya Yaddaşı Proqramının Beynəlxalq Məşvərət Komitəsinin (İAC) 2017-ci il 24-27 oktyabr tarixlərində keçirilmiş toplantısında 2016-2017 nominasiya dövrü üzrə Məhəmməd Füzulinin "Divan" əlyazmasının surəti Dünya Yaddaş Proqramının Beynəlxalq Reyesterinə daxil edilməsi üçün UNESCO Baş Direktoruna tövsiyyə edilmişdir. Füzulinin "Divan" əlyazmasının surətinin Dünya Yaddaş Proqramının Beynəlxalq Reyesterinə daxil edilməsindən sonra, reyesterdə Azərbaycanın yazılı irsinə aid artıq ölkəmizin "Orta əsrin tibb əlyazmaları" sənədi də daxil olmaqla, iki nominasiya yer alır.





2005-ci ilin payızında UNESCO Azərbaycan Elmlər Akademiyasının Əlyazmalar İnstitutunda mühafizə olunan üç orta əsr tibb əlyazmasını, rəsmi olaraq, "Dünya Yaddaşı" Proqramının Registrinə daxil etdi. Həmin siyahıya dünyanın ən unikal və əvəz olunmaz yazılı abidələri daxildir. Bu qərarı təsdiqləyən Sertifikat Əlyazmalar İnstitutuna UNESCO-nun baş katibi Koişiro Matsuura tərəfindən təqdim edilmişdir.

Dolma (sarma)- Azərbaycanın qədim milli xörəklərindən biridir. Dünyada dolmanın 30-a yaxın növü var. Dolma qədim türk sözü olub, mənaca "dolmaq" felindən götürülüb. Bəzi regionlarda buna "sarma" da deyirlər. Bu da "sarımaq" felindən götürülüb. Qədim istifadə olunan məhsullardan və texnologiyadan asılı olaraq, müxtəlif növləri vardır. 2017-ci ildə Azərbaycanda "Dolma hazırlanması və bölüşdürülməsi ənənəsi mədəni identikliyin göstəricisi" kimi UNESCO-nun Qeyri-Maddi Mədəni İrs Siyahısına salınmışdır.

"Kamança simli musiqi alətinin hazırlanması və ifaçılıq sənəti" UNESCO-nun Qeyri-Maddi Mədəni İrsin Reprezentativ Siyahısına daxil edilmişdir. Bu qərar UNESCO-nun Qeyri-Maddi Mədəni İrsin Qorunması üzrə Hökumətlərarası Komitənin 12-ci sessiyasında Azərbaycan və

İranın birgə təqdim etdiyi nominasiya qəbul edilib. Kamança Azərbaycanın qədim musiqi alətlərindən biridir. "Kamança" adıyla bu alət Azərbaycanda, İranda, Qafqazın müxtəlif ölkələrində tanınır. Misirdə "Kamanqa", Orta Asiyada isə "Qişek" adlanır.

Dəfələrlə UNESCO-dakı konsertlərdə, məhz Azərbaycan musiqiçiləri kamançada ifalar səsləndirib. Azərbaycan Nümayəndə Heyəti adından çıxış edən ölkəmizin UNESCO yanında Daimi Nümayəndəsi, səfir Anar Kərimov bildirib ki, kamança sənəti ölkəmizin sərhədlərindən daha geniş coğrafiyanı əhatə edir. Bu yüzilliklər boyu nəsillərdən nəsillərə ötürülən mədəni mənsubiyyət numunəsidir. Müzakirələr zamanı erməni tərəfi, hər zaman olduğu kimi, kamançaya da sahib çıxmağa çalışaraq təxribatçı çıxışlar ediblər. Onlar kamançanın Azərbaycanın deyil, Ermənistanın qədim musiqi aləti olması ilə bağlı cəfəng iddialar irəli sürüblər. Amma onların təxribatlarının qarşısı alınıb. Azərbaycan nümayəndələri faktlara söykənən dəlilləri əsas gətirərək, kamançanın, məhz Azərbaycana aid olmasını qarşı tərəfin diqqətinə çatdırıblar.

Türkiyənin UNESCO-dakı Nümayındə Heyətinin üzvləri də Azərbaycana dəstək nümayiş etdirib. Musiqişünaslar ermənilərin UNESCO-nun qəbul etdiyi qərara qarşı çıxmasına təəccüblənməyiblər. Çünki bu, ilk hal deyil. Əvvəllər də mənfur qonşularımızın Azərbaycan musiqiçilə-





rinə və musiqi alətlərinə sahib çıxmaq cəhdləri olub. Amma onların bu iddialarının qarşısı həmişə alınıb. Musiqişünaslar deyirlər ki, ermənilər kamançada ifa etməyi birgə yaşadığımız dövrlərdə Azərbaycandan öyrəniblər. Onlar muğamı bilmədikləri üçün azərbaycanlı xanəndənin və tarın ifasını kamançada təkrar edirdilər. Bununla da, onlar bu bilikləri mənimsəyərək kamançanı özlərininki sayır və müxtəlif əsassız iddialar irəli sürürdülər.

2018-ci ildə Təcili Qorunmaya Ehtiyacı olan Qeyri-Maddi Mədəni İrs Siyahısına daxil edilmiş Yallı ənənəvi qrup rəqsləri, xüsusilə, kollektiv çıxışlara əsaslanan rəqs nümunələridir. Yallı rəqs birliyi müxtəlif bayram və tədbirlərdə müstəqil şəkildə və ya planlaşdırılmış qaydada rəqsləri səhnələşdirən təlim keçmiş rəqqaslardan ibarətdir.

2019-cu ilin böyük uğurlarından biri də Bakıda UNESCO-nun Ümumdünya İrs Komitəsinin 43-cü sessiyasında Azərbaycanın "Xan Sarayı ilə birgə Şəkinin tarixi mərkəzi" UNESCO-nun Ümumdünya İrs Siyahısına daxil edilmişdir. Azərbaycanın ən qədim şəhərlərindən olan Şəkinin tarixi hissəsi yüzillər boyu ölkəmizin mədəniyyət mərkəzlərindən biri kimi tanınmışdır. Unikal abidələrlə zəngin Şəki şəhərinin tarixi hissəsinin mühafizəsi və inkişafı daim dövlətin diqqətində saxlanılmışdır.

Dövlət başçısı İlham Əliyev Azərbaycan xalqını təbrik edərək bildirmişdir ki, Şəkinin tarixi mərkəzində keçmişimizi özündə təcəssüm etdirən Şəki Xan Sarayı, karvansaraylar, məscid və minarələr, qədim körpülər, sənətkarlıq emalatxanaları və yaşayış evləri bu gündən etibarən təkcə xalqımızın deyil, bəşəriyyətin mədəni irsi hesab olunur.

**"Azərbaycan sülhsevər, qədim sivilizasiyaya, qədim mədəniyyətə və tarixə malik olan bir ölkədir. Ölkəmizdə dini və ya milli zəmində heç zaman heç bir qarşıdurma olmayıb və bu gün də yoxdur. Əsrlər boyu Azərbaycanda müxtəlif dinlərin, mədəniyyətlərin, millətlərin nümayəndələri sülh, qarşılıqlı hörmət şəraitində yaşayıblar. Təsadüfi deyil ki, bu gün də Azərbaycan dünyada multikulturalizm mərkəzlərindən biri kimi tanınır".**

Ölkənin Birinci vitse-prezidenti Mehriban xanım Əliyeva sentyabrın 25-də Romadakı "Custiniani" Sarayında keçirilən "Azərbaycan Xalq Cümhuriyyətinin yaranmasının 100 illiyi və Azərbaycan Respublikası ilə İtaliya Respublikası arasında strateji tərəfdaşlıq münasibətləri" adlı konfransdakı çıxışında diqqətə çatdırdı. Səslənən bu fikirlər Azərbaycan xalqının ümumbəşər mədəniyyətinə verdiyi töhfənin beynəlxalq miqyasda bir daha etirafıdır.





Qürurverici haldır ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Birinci vitse-prezident Mehriban xanım Əliyeva bu gün dünyaya multikulturalizmin Azərbaycan modelini nümayiş etdirirlər.

Multikulturalizm Azərbaycanda əsrlərdən bəri formalaşan, eyni zamanda, bədii, psixoloji-mənəvi müstəvidən kənara çıxmayan dəyərlər toplusu kimi mövcud olub. Hazırda isə multikulturalizm ölkəmizdə alternativi olmayan həyat tərzidir. Bu gün Azərbaycan dünyada təkcə enerji resursları ilə zəngin olan ölkə kimi deyil, həm də humanizm prinsiplərinə sadiq, tolerant ölkə kimi sevilir.

Bu gün ölkəmizdə başqa xalqların nümayəndələri öz ana dillərində danışır, öz dini inanclarına uyğun ibadət edir, milli adət-ənənələrini yaşadır, heç bir ayrı-seçkiliklə üzləşmədən müxtəlif sahələrdə fəaliyyət göstərərək, ümumi inkişaf prosesinə öz töhfələrini verirlər. Bu mənada, məzmunca multikultural dəyərlər Azərbaycanda tarix boyu mövcud olmuşdur.

Multikulturalizm dəyərləri olmayan məkanda, ayrıseçkilik, islamafobiya, ksenofobiya, antisemitizm kimi təhlükəli amillər meydana çıxır ki, bu da bəşəriyyət tarixində sivilizasiyaların və xalqların fəlakətinə səbəb olub.

Azərbaycan multikulturalizmin bir ölkə çərçivəsində qapalı inkişafını deyil, dünya çərçivəsində dinlərin və mədəniyyətlərin müxtəliflikləri rejimində fəaliyyət göstərməsini reallaşdırır.

Bundan başqa, Mehriban xanım Əliyevanın rəhbərliyi altında fond bir-birinin ardınca davamlı olaraq mühüm layihələr hayata keçirir. Onun təşəbbüsü ilə reallaşan "Mədəniyyətlərarası diqloqda qadınların rolunun genişləndirilməsi", "Qloballaşma şəraitində mədəniyyətlərin rolu", "Çoxmədəniyyətli dünyada sülh şəraitində birgə yaşama", "Azərbaycan-tolerantlıq məkanı" layihələrini xüsusi qeyd etmək olar. Dünya ictimaiyyəti, görkəmli şəxsiyyətlər bu qəbildən olan tədbirlərin keçirilməsini, orada mədəniyyətlərarası dialoqun inkişafına həsr olunmuş məsələlərin müzkirə olunmasını və ən əsası, gerçəkləşdirilməsini böyük rəğbətlə qarşılayırlar.

Bir sözlə müasir dövrdə Azərbaycan özünün multikulturalizm siyasəti və bu sahədə əldə etdiyi nailiyyətlərlə dünya dövlətlərinə, o cümlədən bu sahədə tarixən öz zəngin təcrübəsi ilə tanınan Qərb ölkələrinə nümunə olmaqdadır. Multikultural prinsiplər Azərbaycan kimi kiçik, amma dərin kökə və tarixə malik ölkələr üçün digər təhlükəsizlik prinsipləri qədər vacib və zəruridir. Bu gün qətiyyətlə demək olar ki, Azərbaycan multikulturalizmi ölkəmizin simasının əsas cizgilərindən birinə çevirilmişdir. Azərbaycan multikulturalizminin siyasi banisi Ulu Öndərin arsularından biri də elə bu idi.





# MEHRİBAN ƏLİYEVANIN RƏSMİ XARİCİ SƏFƏRLƏRİ

Azərbaycan Respublikasının Birinci vitse-prezidenti 2018-ci ilin 25-26 sentyabrında İtaliya Respublikasına rəsmi səfər etmişdir. Mehriban xanım sentyabrın 25-də İtaliya Respublikası Senatının sədri xanım Mariya Elizabetta Alberti Kasellati ilə görüşmüşdür. Senatın sədri son illərdə ölkələrimiz arasında bütün istiqamətlərdə, o cümlədən siyasi, iqtisadi, ticarət, qanunvericilik, mədəniyyət, elm-təhsil sahələrində çox böyük nailiyyətlərin əldə olunduğunu vurğuladı.

Mariya Elizabetta Alberti Kasellati Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyi ilə bağlı İtaliya Senatında keçirilən konfransın əhəmiyyətinə toxunaraq qeyd etdi ki, Azərbaycan ötən əsrin əvvəllərində demokratiya, mütərəqqi ideyaların daşıyıcısı kimi mühüm addımlar atıb.

Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyevanın çoxşaxəli fəaliyyətini yüksək dəyərləndirən Mariya Elizabetta Alberti Kasellati dedi ki, Heydər Əliyev Fondu İtaliyada mədəni və humanitar sahələrdə, o cümlədən mədəni abidələrin bərpası ilə bağlı bir sıra layihələr həyata ke-

çirir. Bütün bu işlərə görə Mehriban Əliyevaya minnətdarlığını bildirən Senatın sədri bu əməkdaşlığın gələcəkdə də davam etdiriləcəyinə əminliyini bildirdi.

Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyeva səmimi görüşə görə təşəkkürünü bildirdi. Mariya Elizabetta Alberti Kasellatini bu yaxınlarda Senatın sədri kimi fəaliyyətə başlaması münasibətilə təbrik etdi, ona fəaliyyətində uğurlar arzuladı. Mehriban Əliyeva Azərbaycan-İtaliya əlaqələrinin bundan sonra da uğurla inkişaf edəcəyinə əminliyini bildirdi. Azərbaycanın Birinci vitse-prezidenti Heydər Əliyev Fondunun fəaliyyətinə verdiyi yüksək qiymətə görə İtaliya Senatının sədrinə minnətdarlığını ifadə etdi.

Görüşdə vurğulandı ki, İtaliya Prezidentinin bu ilin iyulunda Azərbaycana səfəri əlaqələrimizin səviyyəsinin göstəricisidir. Bu səfər çərçivəsində aparılan səmərəli danışıqlar əlaqələrimizin inkişafına mühüm töhfə verəcək.

Söhbət zamanı İtaliya şirkətlərinin Azərbaycanda bir sıra iqtisadi layihələrdə uğurla iştirak etdiyi bildirildi. Qeyd edildi ki, rəsmi Roma Azərbaycanın Avropanın, o cümlədən İtaliyanın enerji təhlükəsizliyindəki rolunu yüksək dəyərləndirir. Vurğulandı ki, xalqlarımız arasındakı münasibətlərin yaxınlaşmasına töhfə verən İtaliya ilə Azərbaycan arasındakı mədəni əlaqələr də inkişaf edir.





Səfər çərçivəsində Mehriban Əliyeva Müqəddəs Taxt-Tacın dövlət katibi kardinal Pietro Parolin, Roma Papası Fransisk ilə görüşdü. Vatikanda bərpa edilən Müqəddəs Sebastian katakombalarının açılışında iştirak etdi. Bundan başqa o, Romadakı Custiniani sarayında "Azərbaycan Xalq Cümhuriyyətinin yaranmasının 100 illiyi və Azərbaycan Respublikası ilə İtaliya Respublikası arasında strateji tərəfdaşlıq münasibətləri" adlı konfransda da iştirak etdi...

Sentyabrın 26-da səfər başa çatdı...

Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyevanın İtaliyaya rəsmi səfəri bu ölkənin kütləvi informasiya vasitələri tərəfindən geniş işıqlandırıldı.

İtaliyanın "II Messaggero", "Askanevs", "Scolonne", "Agenzia Nova", "Radioradicale", "Notizie Yahoo", "Comunicazione inform", "Agvilenio", "Prealpina", "Rete Sole" və "Rete 7" kimi kütləvi informasiya vasitələri səfər çərçivəsində Birinci vitse-prezident Mehriban Əliyevanın İtaliya Respublikasının Prezidenti Sercio Mattarella və Senatın sədri xanım Mariya Elizabetta Alberti Kasellati ilə keçirdiyi görüşlərə yer veriblər.

Yazılarda İtaliya Senatının Custiniani sarayında təşkil olunmuş "Azərbaycan Xalq Cümhuriyyətinin yaranmasının 100 illiyi və Azərbaycan Respublikası ilə İtaliya Respublikası arasında strateji tərəfdaşlıq münasibətləri" adlı konfransda Birinci vitse-prezident Mehriban Əliyevanın və Senatın sədri Mariya Elizabetta Alberti Kasellatinin çıxışlarındakı fikirlərə istinad olunub.

Azərbaycan Xalq Cümhuriyyətinin tarixi, Azərbaycanın müstəqillik illərində keçdiyi yol, əldə etdiyi nailiyyətlər və Azərbaycan-İtaliya strateji tərəfdaşlığı, Heydər Əliyev Fondunun iki ölkə arasında humanitar əlaqələrin inkişafındakı rolundan bəhs edib.

Həmçinin İtaliya KİV-ləri Azərbaycan Xalq Cümhuriyyətinin yaranmasının 100 illiyi münasibətilə Romanın Milli Müasir və Çağdaş İncəsənət Qalereyasında təşkil olunmuş rəsmi ziyafət barədə məlumat verib. Ziyafətdə Birinci vitse-prezident Mehriban Əliyevanın və İtaliya hökuməti adından çıxış etmiş iqtisadiyyat və maliyyə naziri Covanni Trianın fikirlərinə yer verilib. Tədbirdə Azərbaycan Xalq Cümhuriyyətinə dair sərgi və sənədli filmin nümayiş olunması da qeyd edilib...

Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın 2019-cu il martın 11-12-də Fransa Respublikasına səfəri proqramının zənginliyi, görüş və danışıqların yüksək səviyyəsi ilə yadda qal-





dı. Azərbaycan-Fransa əlaqələrinin inkişafı baxımından mühüm əhəmiyyətə malik olan bu səfər diplomatik tariximizə yeni səhifə kimi yazıldı. Səfər, eyni zamanda, dünya və Avropa ictimaiyyətində Azərbaycan barədə müsbət imicin formalaşmasından, ölkəmizə və şəxsən Mehriban xanım Əliyevaya böyük diqqət və hörmətdən, nəhayət, Birinci vitse-prezidentin diplomatik məharətindən xəbər verir.

Fransa Qərbin aparıcı, inkişaf etmiş, Avropa İttifaqının lider dövlətlərindən biridir. Paris ənənəvi olaraq Avropa və dünya siyasətinə ciddi təsir göstərir. Cənubi Qafqazda da fəallığı ilə seçilən bu ölkə ATƏT-in Minsk qrupunun həmsədridir. Onun Yerevana təsir imkanları da ayrıca söhbətin mövzusu ola bilər. Fransada erməni diasporu və lobbisinin dövlət siyasətinə göstərdiyi təsir sirr deyil.Onlar Azərbaycan-Fransa əlaqələrini hər vəchlə əngəlləməyə, münasibətlərə kölgə salmağa çalışırdılar. Lakin artıq zaman Azərbaycanın xeyrinə işləyir.

Fransa Azərbaycanla enerji sahəsində fəal əməkdaşlıq edir. "Total" şirkəti "Əsrin müqaviləsi"nin başlanğıcından bu neft kontraktında yer alıb. Parisin Azərbaycanla münasibətlərində diqqətçəkən daha bir məqam kosmik sahədə mövcud əməkdaşlıqdır. Azərbaycan kosmik peyklərini orbitə məhz Fransanın kosmodromundan çıxarır.

Göründüyü kimi, Fransa ilə əməkdaşlığın inkişafı Azərbaycanın xarici siyasətində həmişə prioritet istiqamətlərdən biri olub.

Mədəniyyət sahəsində əlaqələrə gəlincə, ilk növbədə, Heydər Əliyev Fondunun Fransada həyata keçirdiyi humanitar layihələr yada düşür. Artıq bu ölkənin mədəni həyatında Fondun yeri aydın görünməkdədir. Gəlin, xatırlayaq: Parisdə terror qurbanlarına həsr olunmuş 7-ci Beynəlxalq Konqresin keçirilməsinə, Fransanın müxtəlif regionlarındakı 20-dək kilsənin bərpasına yardım, Strassburq kafedralının XIV əsrə aid olan beş vitrininin, Versal Sarayının parkındakı ümumbəşəri abidələrin bərpası, Luvr muzeyində İslam İncəsənəti Departamentinin yaradılması və sair. Kann şəhərində Azərbaycan Mədəniyyəti Mərkəzi yaradıldı. Fransa Dövlət Şərq Dilləri və Mədəniyyətləri İnstitutunda Azərbaycan dili fakültəsi açıldı...

Bu, Fransada Heydər Əliyev Fondunun dəstəyi, bilavasitə Mehriban Əliyevanın təşəbbüsü ilə reallaşdırılan layihələrin heç də tam olmayan siyahısıdır. Təsadüfi deyil ki, birinci xanım Mehriban Əliyevanın Fransa- Azərbaycan əlaqələrinin inkişafına verdiyi böyük töhfələr, mədəniyyət, elm və təhsil sahələrindəki xidmətləri Fransa görüşlərində xüsusi vurğulandı. Bunu Fransanın Baş naziri Eduard Filip, Senatın sədri Jerar Larşe və başqaları dilə gətirdilər.





Xatırlatmaq yerinə düşər ki, bu xidmətlərinə görə brinci xanım Mehriban Əliyeva Fransa Respublikasının "Şərəf Legionunun Zabiti" dövlət ordeni ilə təltif olunub.

Beləliklə Fransa ilə münasibətlərin inkişafı istər siyasi-iqtisadi və humanitar baxımdan, istərsə də ermənilərin anti-Azərbaycan təbliğatının neytrallaşdırılması nöqteyi-nəzərindən müstəsna əhəmiyyət daşıyır. Prezident İlham Əliyevin Fransaya münasibətdə məqsədyönlü, düşünülmüş siyasəti bu ölkənin qapılarını üzümüzə daha geniş açır. Yüksək səviyyəli qarşılıqlı səfərlər ölkələrimiz arasında əlaqələrin möhkəmlənməsinə güclü impuls verir, ona arzu edilən dinamika gətirir.

Birinci vitse-prezident Mehriban Əliyevanın uğurlu Paris səfəri, yüksək səviyyəli görüşləri və danışıqları, ilk növbədə, bu praqmatik, milli maraqlara xidmət edən siyasətdən qaynaqlanır.

Əminliklə deyə bilərik ki, Fransa-Azərbaycan münasibətlərində yeni səhifə açan bu səfər qarşılıqlı əlaqələrin inkişafına ciddi töhfə verdi. Yeri gəlmişkən, bu fikrə Mehriban Əliyeva ilə görüşündə Fransa Respublikasının sabiq Prezidenti Nikola Sarkozi də şərik çıxdı.

Bu gün beynəlxalq miqyasda söz və nüfuz sahibinə çevrilən, etibarlı tərəfdaş kimi qəbul edilən Azərbaycanla əlaqələrin genişlənməsində dünyanın bütün inkişaf etmiş ölkələri kimi, Fransa da maraqlıdır. Bunu

Mehriban xanımın Parisdə keçirdiyi bütün görüşlərdə Fransanın yüksək vəzifəli rəsmiləri də xüsusi vurğulayırdılar.

Birinci vitse-prezident Mehriban Əliyevanın Fransaya səfərini bur neçə aspektdən səciyyələndirmək olar. Dünya Mehriban xanımın Parisdə yüksək hörmət-izzətlə qarşılandığının, ona göstərilən ali diqqətin şahidi oldu. Bu mənzərə Fransa siyasi elitasının Mehriban xanım Əliyevanı nüfuzlu lider kimi qəbul etdiyini göstərir. Həm də onu göstərir ki, Mehriban Əliyeva Qərb ölkələrinin nəzərində müsəlman- Şərq aləminin müasir dünya ilə ayaqlaşan, eləcə də Qərb dəyərlərini dərindən anlayan mütərəqqi ictimai-siyasi xadimdir. Hazırda müsəlman ölkələrində bu statusa malik ikinci bir siyasətçi qadın tapmaq çətindir.

Səfərin digər mühüm aspektlərindən biri, qeyd etdiyimiz kimi, siyasi-iqtisadi, humanitar mövzularda yüksək səviyyəli müzakirələrin aparılması oldu. Birinci vitse-prezidentin aparıcı şirkətlərin rəhbərləri ilə görüşləri və danışıqları Azərbaycanın qeyri-neft sektoruna xarici investisiyanın cəlb edilməsində Mehrian xanım Əliyevaya yüksək inam və etimadın, eləcə də onun şəxsi nüfuzunun göstəricisi kimi diqqət çəkir. Fransanın iqtisadiyyat və maliyyə naziri Bruno Lomerin qeyd etdiyi kimi, Fransa ilə əlaqələr həm də ölkəmizin Avropa İttifaqı ilə yaxınlaşmasına böyük töhfə verə və Azərbaycanın bu təşkilata inteqrasiyası üçün pəncərə rolunu oynaya bilər.





Səfər çərçivəsində keçirilən görüşləri sıralasaq, Fransanın Baş naziri Eduard Filip ilə görüşü ön sıraya qoymaq olar. Ölkələrimiz arasında siyasi, iqtisadi və digər sahələrdə əlaqələrin uğurla inkişaf etdiyini bildirən Fransa Baş nazirinin fikrincə, Azərbaycan böyük iqtisadi potensiala malikdir və ikitərəfli əməkdaşlıq üçün yaxşı perspektivlər var. Azərbaycanın neft və qeyri-neft sektorlarında çalışan fransız şirkətləri daha fəal olmalıdır. Birinci vitse-prezident Mehriban Əliyeva da bu fikirləri bölüşərək iqtisadi sahədə əməkdaşlıq üçün böyük potensialın olduğunu vurğuladı, fransız şirkətlərini ölkəmizdə daha fəal olmağa çağırdı. Humanitar sahədə əməkdaşlıqdan danışarkən Mehriban Əliyeva bildirdi ki, Azərbaycanda fransız dilinə və ədəbiyyatına böyük maraq var. Ölkəmizin 300-dən çox məktəbində fransız dili tədris olunur. Bundan əlavə, Azərbaycan Dillər Universitetində fransız dili və ədəbiyyatı mərkəzi, Bakı Slavyan Universitetində fransız dili mərkəzi, Bakı Fransız Liseyi və Fransız-Azərbaycan Universiteti uğurla fəaliyyət göstərir.

Baş nazirlə təkbətək görüşün detalları tam açıqlanmasa da, səslənən fikirlər Fransanın Azərbaycanla bütün sahələrdə, xüsusən də iqtisadi sa-

hədə əməkdaşlığı daha da genişləndirmək istəyindən xəbər verir və bu, çox mühüm amil kimi diqqətəlayiqdir.

Görüşdən sonra Birinci vitse-prezident Mehriban Əliyevanın və Baş nazir Eduard Filipin iştirakı ilə imzalanan Azərbaycan-Fransa sənədlərinə nəzər yetirsək, artıq bu istiqamətdə real addımların atıldığını görə bilərik.

Məsələn, "Azərbaycan Beynəlxalq Bankı ilə "Rotchild & Cie" bankı arasında strateji əməkdaşlıq haqqında Saziş" imzalandı. Rotşildlərin bank biznesi investisiya-bank xidmətləri, korporativ bank xidmətləri, özəl kapital qoyuluşu, aktivlərin idarə olunması kimi mühüm sahələri əhatə edir.

Yaxud Azərbaycan Respublikası ilə Fransa İnkişaf Agentliyi arasında "Dəmir yolu sektorunun inkişafı proqramı çərçivəsində Şimal-Cənub nəqliyyat dəhlizinin Sumqayıt-Yalama dəmir yolu xəttinin yenidən qurulmasına dair konvensiya", "Əməliyyat Nəzarəti Mərkəzinin yaradılmasına dair araşdırma müqaviləsi" və "Xocahəsən" deposunun siqnalizasiya və telekommunikasiya sisteminin reallaşdırılmasına dair müqavilə" ölkəmiz üçün xüsusi önəmə malik sənədlərdir.

Şimal-Cənub Beynəlxalq Nəqliyyat Dəhlizi ilə Hindistandan və Körfəz ölkələrindən göndərilən yüklərin Azərbaycan ərazisindən keçməklə





Rusiyaya, Qərbi Avropaya, Baltikyanı və Skandinaviya ölkələrinə daşınması nəzərə alınarsa, haqqında söhbət gedən konvensiyanın icrası ölkəmizin iqtisadiyyatına böyük dividendlər gətirəcək.

Əməliyyat Nəzarəti Mərkəzinin yaradılmasına dair araşdırma müqaviləsi, "Xocahəsən" deposunun siqnalizasiya və telekommunikasiya sisteminin reallaşdırılması haqqında müqavilə isə nəqliyyat infrastrukturunun inkişafında mühüm rol oynayacaq.

Azərbaycan iqtisadiyyatının neftdən asılılığını azaltmaq, qeyri-neft sektorunu inkişaf etdirmək istiqamətində ardıcıl və davamlı iş aparır. Fransanın iqtisadiyyat və maliyyə naziri Brüno Lomer ilə görüşdə bu barədə söhbət açıldı. Nazir Azərbaycan iqtisadiyyatının şaxələndirilməsində Birinci vitse-prezidentin mühüm rolunu qeyd etdi.

Mehriban Əliyeva isə öz növbəsində, ölkələrimiz arasında siyasi dialoqun yüksək səviyyədə olduğunu, ancaq mövcud iqtisadi əməkdaşlığın real potensiala cavab vermədiyini vurğuladı. Onun fikrincə, tezliklə konkret layihələrin həyata keçirilməsinə başlanılmalı, cari ildə Azərbaycan-Fransa Hökumətlərarası İqtisadi Komissiyasının növbəti iclası keçirilməlidir. Bu təkliflər fransalı nazir tərəfindən yüksək qiymətləndirildi.

Azərbaycan dövləti üçün prioritet məsələlərdən biri də ətraf mühitin mühafizəsidir. "Suez Groupe" şirkətinin beynəlxalq inkişaf üzrə icraçı

vitse-prezidenti Erik Qebali ilə görüşdə Azərbaycan ilə bu şirkət arasında ətraf mühit, ekologiya və digər sahələrdə əməkdaşlığın perspektivləri müzakirə olundu, ikitərəfli əlaqələrin müxtəlif istiqamətlərdə inkişafı ilə bağlı fikir mübadiləsi aparıldı. Suyun idarə edilməsi və itkilərinə qarşı mübarizə sahəsində ölkəmiz ("Azərsu" ASC) və Fransa şirkəti arasında əlaqələrin müsbət təcrübəsi nəzərə alınarsa, bu əməkdaşlığın perspektivləri heç bir şübhə doğurmur.

Birinci vitse-prezident Mehriban xanım Əliyevanın Fransa səfəri çərçivəsində "Rotschild Global Financial Advisory" şirkətinin rəhbəri David dö Rotşil ilə görüşü də maraqlı məqamlarla yadda qaldı. Belə ki, Rotşildlər XIX əsrdə Azərbaycanda çox məşhur olublar. Bu barədə danışan Mehriban Əliyeva deyib: "Bakı o zaman neft sənayesinin mərkəzi idi və Rotşild qardaşları Bakıya böyük investisiya gətirmişdilər. Bütün bunlar Bakıda neft sənayesini daha da canlandırmışdı. Rotşild qardaşları xeyriyyəçiliklə də məşğul olub, həmçinin Bakıda bir çox gözəl binalar tikilib".

"Ailəmizin sizin ölkənizdəki fəaliyyəti barədə bilirik və hesab edirəm ki, onlar tarixdə iz qoyan fəaliyyət göstəriblər"- deyən "Rotschild Global Financial Advisory" şirkətinin rəhbəri Rotşildlərin Azərbaycandakı fəaliyyətinin tarixi köklərinin olduğunu bildirdi və Mehriban Əliyevanın ölkəmizə səfər dəvətini məmnunluqla qəbul etdi.





Fransa Senatının sədri Jerar Larşe "Milli Assambleyanın sədri Rişar Ferran ilə, həmçinin Fransa-Azərbaycan dostluq qrupunun sədri və müşavirlərlə görüş, aparılan səmərəli danışıqlar isə parlamentlərarası əlaqələr, habelə mədəniyyət, elm, səhiyyə və təhsil sahələrində Azərbaycan-Fransa münasibətlərinin inkişafı baxımından mühüm əhəmiyyət kəsb edir.

Səhiyyə sahəsində gəldikdə, Fransa Milli Xərçəng İnistitutunun təsisçisi və keçmiş prezidenti professor David Hayat ilə görüş çox əlamətdar sayıla bilər. Nəzərə alsaq ki, Birinci vitse-prezident ölkəmizdə səhiyyənin inkişafına hərtərəfli diqqət və qayğı göstərir, bu sahədə Fransa-Azərbaycan əməkdaşlığının yeni istiqamətlərinin müəyyənləşdirilməsi təcrübə mübadiləsinə və iki ölkənin mərkəzləri arasında daha sıx əməkdaşlığın yaradılmasına müştərək layihələrin həyata keçirilməsinə təkan verəcək.

Birinci vitse-prezident Mehriban Əliyevanın Fransaya səfəri iki dövlət arasında mədəni əlaqələrin inkişafı baxımından da çox əhəmiyyətlidir. Bu və digər məsələlər Fransanın birinci xanımı Brijit Makron qədim Azərbaycan mədəniyyəti incilərinin populyarlaşdırılması və beynəlxalq ictimaiyyətə çatdırılması işində Mehriban Əliyevanın müstəsna rolunu yüksək qiymətləndirdi. Onun rəhbərliyi ilə müxtəlif vaxtlarda Fransada keçirilmiş mədəni tədbirlərin əhəmiyyəti vurğulandı. İnamla demək olar

ki, bu görüş ailə və qadın problemləri, gender bərabərliyi, təhsil, ətraf mühitin mühafizəsi məsələlərində əməkdaşlığın dərinləşdirilməsinə xidmət edəcək...

Bütövlükdə, Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyevanın Fransaya səfərini əlamətdar hadisə kimi səciyyələndirmək olar.Bu səfər, heç şübhəsiz, bütün istiqamətlər üzrə dövlətlərarası əlaqələrin inkişafında, o cümlədən ölkəmizin Avropa İttifaqı ilə yaxınlaşmasında, Azərbaycanın Avropa İttifaqına inteqrasiyasında müstəsna rol oynayacaqdır...

Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban xanım Əliyeva 2019-cu ilin 20 noyabrından Rusiya Federasiyasında rəsmi səfərdə olmuşdur.

Azərbaycan regional əməkdaşlığa böyük önəm verir. Rəsmi Bakı işğalçı Ermənistan istisna olmaqla, Rusiya, Türkiyə, Gürcüstan, İran və Qazaxıstanla siyasi, hərbi, ticari və iqtisadi əməkdaşlığı ildən-ilə genişləndirir. Azərbaycan-Rusiya-İran, Azərbaycan-Türkiyə-Rusiya, Azərbaycan-Türkiyə-Gürcüstan formatlarında həyata keçirilən əməkdaşlığı buna bariz nümunə saymaq olar.

Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyevanın Rusiyaya rəsmi səfəri zamanı da ikitərəfli əməkdaşlığın möhkəmləndirilməsi və inkişafı diqqət mərkəzində olmuşdur. Birinci vitse-prezident Rusiya prezidenti Vladimir Putin, bu ölkənin Hökumət sədri Dmitri Medvedev, Rusiya Federal Məclisi Federasiya Şurasının sədri Valentina Matviyenko ilə keçirdiyi görüşlərdə, eyni zamanda X Azərbaycan-Rusiya Regionlararası Forumunda çıxışı zamanı iki ölkə arasında siyasi, iqtisadi-ticarət, turizm, sosial, humanitar və mədəni sahələr üzrə əlaqələrin inkişaf etdirilməsinin zəruruiliyini vurğulayıb.





**"Son illərdə bizim humanitar əməkdaşlığımız əhəmiyyətli dərəcədə fəallaşıb. Təhsil sahəsində əməkdaşlığı xüsusi vurğulamaq istəyirəm. Bakıda Lomonosov adına Moskva Dövlət Universitetinin və Seçenov adına Birinci Moskva Dövlət Tibb Universitetinin filialları uğurla fəaliyyət göstərir. Bu ildən etibarən Azərbaycan Diplomatik Akademiyasının və Moskva Dövlət Beynəlxalq Münasibətlər İnstitutunun ikili magistr diplomları proqramının birgə icrasına başlanıb. Ölkəmizin 338 məktəbində tədris rus dilində aparılır. 50 məktəbdə Təhsil Nazirliyinin rus dilinin intensiv tədrisi üzrə pilot layihəsi həyata**

**keçirilir. Azərbaycanın 14 dövlət ali məktəbində rus bölmələri var. Rusiyada 11 mindən çox azərbaycanlı tələbə təhsil alır"- deyə Mehriban xanım Əliyeva bildirib.**

**"Mehriban Əliyevanın Rusiyaya rəsmi səfəri çox böyük ictimai-siyasi əhəmiyyət daşıyır. Rusiyanın ali rəhbərliyi ilə keçirilən görüşlər buna əyani sübutudur. Bu çox vacib məqamdır".** Bunu Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyevanın Rusiyaya ilk rəsmi səfərinin yekunlarını qiymətləndirən Rusiya Siyasi Tədqiqatlar İnstitutunun direktoru, politoloq Sergey Markov demişdir.

O, son illər Rusiya ilə Azərbaycan arasında münasibətlərin daim yüksəlişdə olduğunu söyləyib:

**"İki ölkənin prezidentləri arasındakı şəxsi münasibətlər hər kəsə məlumdur. Rusiyada Mehriban Əliyevaya da böyük hörmət bəsləyirlər. Bizim ölkədə Mehriban Əliyeva həm Birinci vitse-prezident, həm də böyük ictimai-siyasi xadim kimi sevilir. O, Azərbaycan və Rusiya arasında nəhəng humanitar layihələrə imza atıb. Fikrimcə, Mehriban Əliyevanın bu səfərinin məqsədi**





**həm də onun iki ölkə arasında həyata keçirdiyi humanitar layihələrə yeni təkan verməkdir. Bu səfərin əhəmiyyəti həm iki ölkə rəhbərliyinin sistemli işinin nəticəsindən ibarətdir və iki ölkə arasında bütün sahələrdə münasibətlərin dərinləşməsinə istiqamətlənib".**

Rusiyalı siyasi ekspert Mehriban Əliyevanın X Rusiya-Azərbaycan Regionlararası Forumunda Azərbaycan nümayəndə heyətinə rəhbərlik etməsinin vacibliyini də vurğulayıb:

**"Uzun illərdir, fəaliyyət göstərən bu forum Azərbaycanla Rusiya arasında yüzlərlə layihə həyata keçirib, hazırda da keçirməkdədir. Forumun özü çox uğurlu layihədir. İki ölkə arasında iqtisadi və humanitar sahədə nəhəng işlər görülür. Belə bir tədbirdə Mehriban xanımın iştirakı və nümayəndə heyətinə rəhbərlik etməsi rəsmi Bakının Moskva ilə təkcə iqtisadi deyil, həm də siyasi münasibətlərə nə qədər önəm verdiyinin göstəricisidir".**

Rusiyalı politoloq Mehriban Əliyevanın Moskvaya rəsmi səfərinin geosiyasi əhəmiyyətindən də danışıb:

**"Bakı ilə Moskva münasibətlərini daha bir üst səviyyəyə qaldırmaq fikrindədir. Hesab edirəm ki, Mehriban Əliyevanın rəsmi səfərinin geosiyasi əhəmiyyəti məhz münasibətləri daha bir üst səviyyəyə qaldırmağa hesablanıb".**

**"Mehriban Əliyevanın rəsmi səfəri Azərbaycanın Rusiya üçün nə qədər əhəmiyyətli ölkə olduğunu göstərdi"**. Bunu isə Rusiya-Azərbaycan Parlamentlərarası Dostluq Qrupunun sədri, Rusiya Liberal Demokrat Partiyasından olan deputat Dmitri Savelyev bildirib.

**"Rusiyada yaxşı anlayırlar ki, Azərbaycan Qafqazda ən etibarlı qardaş və tərəfdaş ölkədir. Mehriban Əliyevanın səfəri bu tezisi bir daha təsdiqlədi. Azərbaycanın Birinci vitse-prezidentinin Rusiya-Azərbaycan regionlararası forumunda iştirakı isə bu tədbirlərin çəkisini daha da qaldırdı. Bu onu göstərir ki, regionlararası forum artıq yeni səviyyəyə qalxıb. Foruma Azərbaycanın Birinci vitse-prezidentinin gəlməsi Rusiya üçün böyük fəxr və məsuliyyət idi. Bütün bunlar Rusiya-Azərbaycan münasibətlərinin hansı səviyyəyə çatdığını nümayiş etdirdi".- deyə rusiyalı deputat vurğulamışdır.**





Mehriban Əliyevanın noyabrın 22-də Rusiya Federasiyasının Prezidenti Vladimir Putinlə görüşündə ona RF-nin "Dostluq" oredeninin təqdim olunması Moskva-Bakı münasibətlərinin nə dərəcədə yüksək zirvələrə qalxdığını göstərdi. Rusiya Prezidenti Novo-Oqaryovadakı iqamətgahında Mehriban Əliyeva ilə görüşərkən, ilk növbədə, Azərbaycan Prezidenti ilə böyük etimada əsaslanan mehriban münasibətlərin olduğunu bəyan etdi. Eyni zamanda, ölkələrimiz arasında ticari-iqtisadi əlaqələrin artan həcmindən məmnun olduğunu bildirdi. Onun sözlərinə görə, bu ilin doqquz ayı ərzində əmtəə dövriyyəsi 26 faiz artıb. V.Putin Azərbaycanda rus dili və mədəniyyətinə münasibətin qorunub saxlanmasını yüksək qiymətləndirdi.

Mehriban xanım Əliyeva isə Moskvanın onun üçün yaxın doğma şəhər olduğunu, tələbəlik illərinin burada keçdiyini dedi. Rusiyanın yüksək dövlət mükafatı- "Dostluq" ordeni ilə təltif edildiyinə görə təşəkkürünü bildirdi və Prezident İlham Əliyevin salamlarını Prezident Vladimir Putinə çatdırdı.

Mehriban xanım Rusiya ilə Azərbaycan arasında humanitar sahədə münasibətlərin yüksək səviyyədə olduğunu, Azərbaycanda rus mədəniyyətinə, rus dilinə çox böyük hörmət bəslənildiyini qeyd etdi:

**"Bakıda M.V.Lomonosov adına Moskva Dövlət Universitetinin, İ.M.Seçenov adına Moskva Dövlət Birinci Tibb Universitetinin filialları uğurla fəaliyyət göstərir..."**

Mehriban Əliyeva Moskvaya rəsmi səfəri çərçivəsində Rusiya Hökumətinin sədri Dmitri Medvedev və Federasiya Şurasının sədri Valentina Matviyenko tərəfindən də hərarətlə qarşılanıb. Azərbaycanın Birinci vitse-prezidenti Moskavanın Xalq Təsərrüfatı Nailiyyətləri Sərgisində yenidən qurulmuş "Azərbaycan" pavilyonunun açılış mərasimində iştirak və çıxış edib. Bütün bunlar şimal qonşumuz Rusiyanın Azərbaycanla yüksək səviyyəli münasibətindən xəbər verir.

Azərbaycanın Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın Rusiya Federasiyasına rəsmi səfərini şərh edən deputat (sabiq) Elmira Axundov aşağıdakıları bildirib:

-Bütün Azərbaycan Mehriban Əliyevanın Birinci vitse-prezident statusunda Rusiyaya ilk rəsmi səfərini maraqla və diqqətlə izləyirdi. Hesab edirik ki, bu səfər həm Azərbaycan və Rusiya arasında ikitərəfli münasi-





bətlərin inkişafı, həm də Birinci vitse-prezidentin özü üçün çox mühüm idi. Mehriban xanım tez-tez səfərlərdə olur; o, müxtəlif ölkələrdə Azərbaycan mədəniyyətinin səlahiyyətli nümayəndəsi qismində çıxış edir, yüksək vəzifəli şəxslərlə görüşlər keçirir. Lakin qeyd etmək istəyirəm ki, onun Birinci vitse-prezident kimi dövlət xadimi qismində dost ölkəyə rəsmi səfəri ilk dəfədir ki, həyata keçirilir.

Bu səfər Mehriban Əliyevanın dünya siyasət arenasında təqdimatı qismində çox mühüm oldu. O, Azərbaycan və Rusiya arasında ikitərəfli münasibətlərin yüksək səviyyəsini nümayiş etdirdi. Hərçənd Mehriban Əliyeva Azərbaycanın ikinci şəxsidir, bununla belə, Azərbaycan Prezidenti İlham Əliyev kimi, onu ehtiram və hörmətlə qarşıladılar. Bu, birincisi, ölkələrimizin liderləri İlham Əliyev və Vladimir Putinin əsasını qoyduqları dövltələrimiz arasında etimadın, əməkdaşlığın, dostluğun yüksək göstəricisidir. İkincisi isə Mehriban Əliyevanın özünün dünyanın siyasi xəritəsində qazandığı nüfuzun göstəricisidir.

Birinci vitse-prezidentin həm Baş nazir, həm Prezident, həm də Rusiya Federasiya Şurasının sədri tərəfindən qəbul edilməsi unikal hadisədir. Düşünürəm ki, heç bir dövlət xadimi həmin vəzifədə bu cür yüksək səviyyəyə layiq görülməyib. Bu səfər göstərdi ki, Azərbaycanın siyasi

üfüqündə yeni lider meydana çıxıb və güclü dövlət olan Rusiyanın xadimlərinin də bunu etiraf etməsi olduqca mühümdür.

Səfərə gəldikdə, o, özünün zəngin proqramı, dinamizmi, dörd gün ərzində keçirilən tədbirlərin bolluğu ilə seçildi. Səfər rəsmiyyət çərçivəsində həyata keçmədi və Azərbaycan-Rusiya əlaqələrinə öz töhfəsini verdi, gələcək perspektivləri müəyyən etdi. Əlamətdar hadisələrdən biri Moskvada mühüm ikitərəfli görüşlər keçirən ölkəmizin aparıcı nazirlərinin iştirakı ilə təşkil olunan X Azərbaycan-Rusiya Regionlararası Forumu oldu.

Mehriban Əliyevanın Moskvaya səfəri çərçivəsində əhəmiyyətli hadisələrdən biri XTNS-də "Azərbaycan" pavilyonunun açılışı oldu. RF Federasiya Şurasının sədri Valentina Matviyenkonun qeyd etdiyi kimi, bu pavilyon Azərbaycanın Moskavada qeyri-formal mədəniyyət nümayəndəliyi olacaq.Baş verən hadisənin miqyasını tam qiymətləndirmək çətindir, çünki 80 ildən sonra biz Moskvaya yeni keyfiyyətdə qayıtdıq. XTNS-i ildə milyonlarla insanın ziyarət etdiyini nəzərə alsaq, o, bizim uğurlarımız, mədəniyyət, iqtisadiyyat və digər sahələrdə nailiyyətlərimizi nümayiş etdirmək üçün böyük beynəlxalq meydançaya çevriləcək.

Bütün bunlar Azərbaycanın unikal milli pavilyonun bərpasında ən fəal şəkildə iştirak edən Heydər Əliyev Fondunun sayəsində baş verib. Səfərin gedişində baş vermiş ən xoş hadisə isə Mehriban Əliyevaya ikitərəfli əməkdaşlığın inkişafına verdiyi töhfəyə görə "Dostluq" ordeninin təqdim edilməsi oldu. Mehriban xanımı təltif edən Rusiya Prezidenti Vladimir Putin qeyd etdi ki, bu, formal mükafat deyil, Birinci vitse-prezident böyük xidmətlərinə, Azərbaycan və Rusiya arasında əməkdaşlığa, hər şeydən əvvəl humanitar sahədə əlaqələrə böyük töhfəsinə görə bu mükafata layiq görülüb. Biz Bakıda M.V.Seçenov adına Birinci Moskva Dövlət Tibb Universitetinin açıldığını bilirik. Bütün bunlar isə Azərbaycanın birinci xanımının iştirakı olmadan həyata keçirilə bilməzdi. Onun rus dilinin qorunub saxlanılması, ölkəmizdə rus mədəniyyətinin və eyni zamanda, Rusiyada Azərbaycan mədəniyyətinin təbliği istiqamətində səyləri göz qabağındadır...

## HEYDƏR ƏLİYEV FONDUNUN AZƏRBAYCANIN XARİCİ SİYASƏTİNDƏ OYNADIĞI ROL

2003-cü ilin oktyabrında xalqın böyük əksəriyyətinin səsi ilə Prezident seçilən İlham Əliyev yeniliklərə həssaslıqla yanaşan, rasional keyfiyyətləri özündə cəmləşdirən dövlət başçısı kimi xarakterizə edilir.

Regional və beynəlxalq əməkdaşlığı prioritet seçən Prezident İlham Əliyev Ulu öndər Heydər Əliyevin müəyyənləşdirdiyi strateji kursun mürəkkəb geosiyasi şəraitini qısa müddət ərzində reallığa çevirdi. Azərbaycan həm daxili siyasətdə, həm də beynəlxalq birliyə inteqrasiya olunmaqda əməli nəticələr əldə etdi, ictimai-siyasi sabitlik davamlı xarakter aldı.

Azərbaycan dünyada bənzəri olmayan iqtisadi inkişafa nail olmaqla, regionda və dünyada aparıcı dövlətlərdən birinə çevrildi. Davamlı sosial-iqtisadi inkişaf regionların dinamik tərəqqisinə stimul verdi. Ölkədə





demokratik proseslər dərinləşdi və bununla da Azərbaycanın beynəlxalq birliyə inteqrasiyası keyfiyyətcə yeni mərhələyə yüksəldi.

Hər bir müstəqil dövlət xarici siyasətində milli maraqlarını ön planda tutur. Azərbaycan Respublikası da xarici siyasətində aşağıdakı vəzifələri həyata keçirməkdədir: ölkənin müstəqilliyini, suverenliyini, ərazi bütövlüyünü, təhlükəsizliyini qorumaq və bunları beynəlxalq təhlükəsizlik sistemi ilə əlaqələndirmək; mənafeyi Azərbaycanın milli maraqları ilə, həmçinin dövlətçilik maraqları ilə uyğun gələn ölkələrlə sıx əməkdaşlıq qurmaq, müttəfiqlik etməklə beynəlxalq sistemdə mövqeyini möhkəmləndirmək; regionda baş vermiş hər hansı bir gərginliyin və ya münaqişələrin aradan qaldırılmasına səy göstərmək Azərbaycanın Qərb və Şərq qovşağında yerləşməklə mühüm strateji-coğrafi mövqeyindən bəhrələnərək ölkə iqtisadiyyatının müxtəlif sahələrinin inkişafını sürətləndirmək, xalqın mənafeyinə uyğun xarici iqtisadi siyasət yeritmək, ölkə iqtisadiyyatını beynəlxalq iqtisadi sistemdə uğurlu təmsil etmək; xarici ölkələrlə elmi, mədəni, humanitar əlaqələr qurmaq və beynəlxalq təşkilatlarda fəal iştirak etmək.

Müstəqil Azərbaycan dövlətinin xarici siyasətinin ən mühüm strateji istiqamətlərindən biri də Qərbin və Şərqin aparıcı ölkələri ilə münasibət-

lərin tənzimlənməsi və bu ölkələrlə əməkdaşlıq və tərəfdaşlıq prinsiplərinə əsaslanan qarşılıqlı əlaqələrin yaradılmasıdır.

Digər ölkələrlə elmi, mədəni, humanitar əlaqələr qurmaq xarici siyasətimizin ən mühüm istiqamətlərindən olmaqla Azərbaycan Respublikasının nüfuzunun artmasına, beynəlxalq arenada uğurlar əldə etməsinə xidmət edir.

Bu baxımdan Azərbaycanın xarici siyasətinin uğurla reallaşması istiqamətində Mehriban xanım Əliyevanın rəhbərlik etdiyi Heydər Əliyev Fondunun xidmətləri əvəzsizdir. 2004-cü il mayın 10-da təsis edilmiş, Ulu öndərin adını daşıyan və onun siyasi məfkurəsini rəhbər tutaraq bütün dünyada Ümummilli liderimizin azərbaycançılıq fəlsəfəsini təbliğ edən fond fəaliyyətə başladığı gündən ölkə hüdudlarından kənarda müxtəlif sahələri əhatə edən bir sıra proqram və layihələri reallaşdırmışdır. Bu baxımdan Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyeva əməli fəaliyyətini gerçəkləşdirdiyi bütün sahələrdə qarşısına qoyduğu məqsədləri reallaşdırmaq üçün yüksək idarəetmə məharəti, professionallıq göstərməklə effektiv nəticələr əldə edir. Mehriban xanım Əliyeva Azərbaycan mədəniyyətinin xaricdə təbliği istiqamətində də çox geniş fəaliyyət göstərir.





Heydər Əliyevin dövlətçilik konsepsiyasının tərkib hissəsi olan azərbaycançılıq ideyasının həyata keçirilməsi və Azərbaycan lobbisinin gücləndirilməsi məqsədilə o, səfərləri zamanı ölkəmizin ABŞ-dakı səfirliyində Amerikanın müxtəlif ştatlarında təhsil alan azərbaycanlı tələbələrlə, həmçinin ABŞ-Azərbaycan Ticarət Palatası nəzdində olan Azərbaycan Ticarət və Mədəniyyət Mərkəzində Amerikada yaşayıb fəaliyyət göstərən azərbaycanlı və amerikalı incəsənət xadimləri ilə də əhəmiyyətli görüşlər keçirir. Səfərin nəticələri müstəqil Azərbaycan dövlətinin xarici siyasət maraqlarının təmin olunmasında onun müstəsna rolunu və peşəkarlıq səviyyəsini bir daha göstərir.

Azərbaycan xalqının mədəni irsinin keşiyində duran Heydər Əliyev Fondunun təşəbbüsü ilə "İçərişəhər" tarixi memarlıq qoruğu və "Qobustan" qayaüstü abidələri Dünyanın Mədəni İrsi Siyahısına salındı. Heydər Əliyevin Azərbaycan muğamını qiymətləndirmə konsepsiyasına uyğun olaraq Mehriban xanım Əliyevanın səyi nəticəsində mədəni-mənəvi irsimizin əzəmətli abidəsi olan muğam UNESCO-nun Qeyri-Maddi İrs Siyahısına daxil edildi.

Beynəlxalq səviyyəli elmi əlaqələr yaratmaq ölkənin xarici siyasətinin əsas vəzifələrinə daxildir. Heydər Əliyev Fondu təhsilin inkişafı sahəsində UNESCO ilə əməkdaşlıq çərçivəsində bir sıra uğurlara imza at-

mışdır. Belə ki, fondun təşəbbüsü ilə UNESCO-nun iqamətgahında "Davamlı inkişaf üçün Azərbaycanda təhsil islahatları" mövzusunda konfrans keçirilmiş, eləcə də fond ilə BMT-nin İnkişaf Proqramı arasında imzalanmış sazişə əsasən kor və görmə qabilliyəti zəif olan insanların İKT-yə çıxışını təmin edən layihələrin icrasına başlanılmışdır.

Müasir dünyanın qlobal problemlərinin həllində elmin inkişafı dövrün tələblərinə cavab verməli, ümumbəşəri inkişafı sürətləndirməli, insanların təhlükəsizliyinə və normal yaşayışına xidmət etməlidir. Bu vəzifələrin icrasına nəzarət isə yeni elm sahəsi olan bioetikanın başlıca məqsədidir.

Azərbaycanda bu elm sahəsi kifayət qədər gənc olsa da, artıq böyük nailiyyətlərimiz var. Azərbaycanın Birinci xanımı, UNESCO-nun və İSESCO-nun xoşməramlı səfiri, Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyevanın təşəbbüsü ilə UNESCO-nun Beynəlxalq Bioetika Komitəsinin sessiyasının Şərqi Avropada, ilk dəfə olaraq 2011-ci ilin may-iyun aylarında Bakı şəhərində keçirilməsi bunun bariz nümunəsidir.

Bu gün önəmli bir məsələ də xüsusi olaraq vurğulanmalıdır ki, elmin tərəqqisi və ən yeni texnologiyaların insanın gündəlik həyatına tətbiqi ilə əlaqədar yaranan etik və hüquqi problemləri araşdıran, elmlərarası tədqiqat sahəsi olan və ənənəvi etikanın, hüququn, fəlsəfənin elementlərini özündə birləşdirən bioetika elminin mürəkkəb problemlərindən birini Azərbaycanda ilk dəfə elmi cəhətdən araşdırıb, tədqiq edən ilk alim də məhhz ölkəmizin birinci xanımı Mehriban Əliyeva olmuşdur. Məhz bu əməli fəaliyyətin nəticəsidir ki, bu gün Azərbaycan cəmiyyətində əsrlərdən bəri davam edən etik müzakirələr bu səviyyədə yeni bir meyar qazanmış, hər şeyin hüquq çərçivəsində tənzimlənməsi xüsusiyyətlərini əhatə edərək yeni texnologiyalar, siyasət və əxlaqi məsələləri ehtiva edən bir müstəvidə öz prinsiplərinə uyğun yönləndirilən bioetikaya maraq geniş vüsət almışdır.

"Orta əsrlər əlyazmalarında tibb və əczaçılıq" mövzusunda Heydər Əliyev Fondunun Vaşinqton Elmlər Akademiyası ilə birgə keçirdiyi konfransın da nəticəsi Azərbaycan üçün çox uğurlu oldu. Azərbaycanın zəngin əlyazmalar irsinin mühüm bir hissəsi Dünya Yaddaş Proqramına daxil edildi. Bu sahədə görülən əməli işlərdən biri kimi AMEA Əlyazmalar İnstitutunda saxlanan Cürcani, İbn-Sina, Əbül-Qasım və Əl-Zəhraviyə məxsus nadir əlyazmaların Dünya Yaddaşı Proqramına salınması dünya tibb elminin inkişafına Azərbaycanın tarixi töhfəsini bütün dünyaya nümayiş etdirdi.

Azərbaycan Avropa Birliyi sisteminə siyasi, iqtisadi, mədəni sahələrdə inteqrasiyası xarici siyasətin prioritet istiqamətlərindən olduğu üçün son dövrlərdə bir sıra Avropa dövlətlərində Azərbaycanın qeyd edilən sahələri ilə bağlı keçirilən tədbirlər əhəmiyyətlidir. Bu baxımdan Heydər Əliyev Fondunun vitse-prezidenti, "Bakı" jurnalının təsisçisi və baş redaktoru Leyla Əliyeva qədim Roma şəhərində "Bakı" jurnalının təqdimat mərasimində bildirmişdi ki, ötən ildən ingilis dilində nəşr olunmağa başlayan jurnal hazırda Roma, Paris, Berlin və Nyu-Yorkda yayımlanır. Nəşrə 2007-ci ildə Moskvada, rus dilində başlayan "Bakı" jurnalı artıq beynəlxalq aləmdə kifayət qədər tanınan, böyük reytinqə malik mətbu orqana çevrilmişdir. Bundan əvvəl Moskvada və Londonda təqdimat mərasimləri keçirilən jurnalın ingilis dili versiyası indi Avropada kifayət qədər geniş oxucu auditoriyasına malikdir.

"Öz mədəniyyət və tarixinə hörmət edən xalq digər xalqların da mədəniyyət və tarixinə hörmət edəcəkdir" fikrini əsas tutan Mehriban Əliyevanın rəhbərliyi ilə fond bu sahədə ardıcıl fəaliyyət göstərir. Heydər Əliyev Fondu tərəfindən Romada təşkil edilən Azərbaycan mədəniyyəti günləri italyan xalqına Azərbaycanı daha da yaxından tanımaq imkanı verdi. Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyeva Romada dahi Nizami Gəncəvinin abidəsinin ucaldılmasına Roma meri Gianni Alemannoyadan dəstəyin alınmasına təşəbbüs göstərərək müsbət nəticə əldə etmişdir. Bütünlükdə fond tərəfindən xaricdə keçirilən tədbirlər bir daha sübut edir ki, mədəniyyətlərarası dialoq platformasının yaradılmasında strateji məkan funksiyasını həyata keçirən Azərbaycan artıq mədəni dəyərləri, zəngin musiqisi ilə dünyanın diqqətini çəkir və bu cür tədbirlərin gələcəkdə də davam etdirilməsi Azərbaycanın xarici siyasətinin uğur əldə etməsində mühümdür.





Azərbaycanın mədəniyyətini, tarixini, incəsənətini əks etdirən sərgi və eksponatların nümayişi, bu sahədə çoxsaylı və qiymətli nəşrlər yüksək təşkilatçılıq qabiliyyətinin, həm də göstərilən sahələrə peşəkar səviyyədə müdaxilə bacarığının ifadəsidir.

Qeyd edək ki, Ermənistan tərəfindən həyata keçirilən separatizm və işğalçılıq siyasətinin qarşısının alınması, bu məqsədlə bölgədə və dünyada müttəfiqlərin qazanılması, hərbi təcavüzün nəticələrinin aradan qaldırılması Azərbaycanın xarici siyasətində mühüm istiqamətlərdəndir. Bu məqsədlə 2007-ci il dekabrın 4-də Azərbaycan-ABŞ parlamentlərarası əlaqələr üzrə işçi qrupunun rəhbəri kimi Mehriban Əliyeva Birləşmiş Ştatlara səfəri çərçivəsində Azərbaycan diplomatiyası tarixində aktuallığı ilə fərqlənən məsələlərin müzakirə olunduğu bir sıra görüşlər keçirmişdir.

Bu görüşlərdə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli, "Azadlığa dəstək aktı"na 907-ci düzəlişin aradan qaldırılması, Azərbaycanın geostrateji mövqeyi, ölkənin hazırki durumu ətrafında müzakirələr aparılmışdır.

Xarici ölkələrdə erməni təcavüzkarlarının bəşəriyyət əleyhinə cinayətləri haqqında dəqiq informasiyanın yayılması Azərbaycanın birinci xanımı, UNESCO və İSESCO-nun xoşməramlı səfiri Mehriban xanım Əliyevanın və "Xocalıya ədalət" beynəlxalq kompaniyasının təşəbbüskarı Leyla xanım Əliyevanın fəaliyyətinin prioritet xəttidir.

Azərbaycanın xarici siyasətinin əsas istiqamətlərinə ölkəmizin Qərb və Şəqrin qovşağında yerləşməklə mühüm strateji-coğrafi mövqeyindən bəhrələnərək, ölkə iqtisadiyyatının müxtəlif sahələrinin inkişafını sürətləndirməsi də aiddir. Bu məqsədlə İstanbulda keçirilmiş ikinci "İşgüzarlıq, dəyərlər və inkişaf" adlı sammitdə Leyla Əliyevanın təşəbbüsü yüksək qiymətləndirilmişdir.

İslam Əməkdaşlıq Təşkilatının (İƏT) üzvü olan ölkələrdə gənclərin işgüzarlığının perspektivlərinə müsbət təsir göstərmək məqsədilə İƏT-in Gənclər Forumunun təşkilatçılığı ilə sammitin tərkib hissəsi olaraq "İnkişaf çağırışlarına yeni nəslin cavabı: İƏT Gənc İş Adamları Şəbəkəsi-İƏT-in üzvü olan ölkələrdə gənc işgüzarlar üçün yeni platforma" mövzusunda təşkil olunmuş xüsusi paneldə İƏT Gənlər Forumunun mədəniyyətlərarası dialoq üzrə baş əlaqələndiricisi Leyla Əliyevanın təşəbbüsü ilə irəli sürülən "Dünyanı dəyişə biləcək 10 gənc müsəlman" adlı beynəlxalq mükafatın təqdimatı keçirilmişdir.





Gənc İş Adamları Şəbəkəsi İƏT-in üzvü olan ölkələrdə fəaliyyət göstərən gənc iş adamları üçün birgə platforma rolunu oynamaqla onlar arasında biznes məlumat mübadiləsi aparmağa, iqtisadiyyatın inkişafına töhfə verə biləcək biznes fəaliyyətinin stimullaşdırılmasına, o cümlədən qlobal səviyyədə innovativ ideya və təcrübə mübadiləsinin həyata keçirilməsinə imkan yaradır...

Göründüyü kimi, Heydər Əliyev Fondunun fəaliyyəti Ümummilli lider Heydər Əliyevin dövlət siyasətinin bütün istiqamətlərində davam edir və Azərbaycanın xarici siyasətinin uğurla formalaşdırılmasına öz töhfəsini verir. Sülhün bərqərar olmasında, Azərbaycan mədəni irsinin dünya ictimaiyyətinə çatdırılmasında, ərazi bütövlüyünün bərpasına istiqamətlənmiş fəal xarici siyasət strategiyasının formalaşdırılmasında, mədəniyyətlərarası dialoqun təşkili və inkişafında, idmanın inkişaf etdirilərək Azərbaycanı beynəlxalq səviyyədə yüksək kürsülərdə tanıtmasında, Ulu öndərin banisi olduğu azərbaycançılıq məfkurəsinin qorunması və təbliğində, Azərbaycan diaspor təşkilatlarının fəaliyyətinin güc-

ləndirilməsində və Azərbaycan lobbisinin səmərəli fəaliyyətinin təşkilində Mehriban xanım Əliyevanın rəhbərlik etdiyi Heydər Əliyev Fondu adını daşıdığı Ulu öndərin ideyalarını həyata keçirməklə onun siyasi kursunu davam etdirir.

Azərbaycanın xarici əlaqələrinin coğrafiyasının əhəmiyyətli dərəcədə genişləndirilməsi, beynəlxalq aləmdə nəzərə çarpan və hörmət edilən ölkəyə çevrilməsi və xarici siyasət məqsədlərinin daha da təkmilləşdirilməsi kimi vəzifələr fondun prezidenti Mehriban xanım Əliyevanın mühüm fəaliyyət istiqamətidir. Bütün bu xüsusiyyətlər isə onu dünya vətəndaşına çevirmişdir.

Aqillərin "milli problem həmin millətə aid olan fərdin şəxsi probleminə çevrildikdə, o, millətlə eyniləşir. Elə o vaxtdan da dünya vətəndaşı olur" kimi ifadə etdiyi fikir məhz Mehriban Əliyevanın simasında öz mənasını ehtiva edir.





# AZƏRBAYCAN MƏDƏNİYYƏTİNİN HAMİSİ MEHRİBAN ƏLİYEVA

Hər kəs həyata, Yer kürəsinə bir missiya üçün gəlir, xeyirxah, işıqlı əməllərin daşıyıcıları, missiyaçıları da Böyük Yaradanın Yer üzünə bir ərməğan, öz bəndələrinə bir lütfüdür. Onlar ancaq və ancaq bu əməllər üçün doğulmuşlar, yaranmışlar, yaradılmışlar- bir sözlə, seçilmişlərdir. Belə xeyirxah, işıqlı, nurlu əməl sahiblərindən, bu missiyanı yerinə yetirmək üçün seçilmiş olanlardan biri də Azərbaycanın Birinci xanımı, Birinci vitse-prezidenti, UNESCO və İSESCO-nun xoşməramlı səfiri, Heydər Əliyev Fondunun prezidenti, Mehriban xanım Əliyevadır.

Məşhur və hər kəsə yaxşı tanış olan bir kəlam var: "dünyanı gözəllik xilas edəcək". Bu kəlam uzun illər öncə söylənilmiş olsa da, bizcə bu gün kiçik bir dəyişiklik etməyə ehtiyac yaranıb. Əgər bu məşhur kəlam "Dünyanı qadınlar və gözəllik xilas edəcək" şəklində redaktə edilərsə, bütün qadınların timsalında tam anlamıyla məhz Mehriban xanımı xarakterizə etmiş olarıq. Çünki bu xanım mərhəmət, şəfqət, xeyirxahlıq, xi-

laskarlıq təcəssümüdür. Uzun illərdən bəri yerinə yetirdiyi, şərəflə daşıdığı missiya bunu qətiyyətlə və birmənalı şəkildə söyləmək üçün tam əsas verir. Elə bir xoş, işıqlı, nurlu, xeyirxah əməl yoxdur ki, orada Mehriban xanımın adı, imzası olmasın. Harada xeyirxah, işıqlı əməllər, fəaliyyətlər varsa, orada Mehriban Əliyeva adı və soyadı, imzası da var.

Bu yerdə bir qədər keçmişə ekskurs etmək lap yerinə düşərdi. Mehriban xanım 2004-cü ildə Azərbaycan şifahi xalq ədəbiyyatının və musiqi irsinin qorunub saxlanılması və inkişaf erdirilməsi sahəsində yorulmaz səylərinə görə dünyanın nüfuzlu və önəmli beynəlxalq qurumlarından olan UNESCO-nun xoşməramlı səfiri adına layiq görülmüşdür. Əslində isə o, gördüyü işlərə görə UNESCO-nun ən fəal xoşməramlı səfirləri sırasındadır. Onun fəaliyyəti nəticəsində UNESCO-nun qərargahında Azərbaycanın böyük şəxsiyyətlərinin yubileyləri qeyd olunur, Azərbaycan mədəniyyətini təbliğ edən çoxlu sayda tədbirlər keçirilir. UNESCO-nun baş katibi Koişiro Matsuuranın iştirakı ilə Azərbaycanla təşkilat arasında təhsil sahəsində əməkdaşlığa dair Memorandum imzalanıb. Bakıda UNESCO ilə təhsil sahəsində beynəlxalq konfrans keçirilib. Bakıda Beynəlxalq Muğam Mərkəzi yaradılıb. Azərbaycanın bu ecazkar, əlçatmaz musiqisinin, mədəniyyət incisinin inkişafı, dünyaya tanıdılması istiqamətində ciddi addımlar atılıb.





Azərbaycanda dünyanın müxtəlif bölgələrindən gələn muğam ifaçılarının iştirakı ilə Beynəlxalq Muğam Müsabiqəsi keçirilib. Muğamın daha geniş təbliği nəticəsində dünya bu böyük musiqi ilə daha yaxından tanış olmaq imkanı qazanıb. Azərbaycanın qədim musiqi növlərindən olan əsrarəngiz Muğam, UNESCO-nun qeyri-maddi irs siyahısına salınıb. Mehriban xanımın rəhbərliyi ilə hazırlanan və məşhur muğam ustalarının valehedici ifalarının toplandığı Qarabağ xanəndələri albomu bu gün bütün dünyada onu bircə dəfə dinləyənləri ömür boyu öz sehrində saxlayır. Azərbaycanın dünyanın ən qədim yaşayış məskənlərindən biri olduğunu açıq şəkildə göstərən Qobustan abidələrinin UNESCO-nun dünya mədəni və təbii irsinin qorunması siyahısına daxil olmasında da onun böyük xidmətləri, əməyi, zəhməti var...

Mehriban xanımın titanik fəaliyyəti, Azərbaycan naminə fədakar və yorulmaz fəaliyyəti təkcə bununla və bunlarla məhdudlaşmır, kifayətlənmir. O, daim gecə-gündüz Azərbaycan həqiqətlərinin dünyaya çatdırılması axtarışındadır, bu işində də əsl fədakalıq, əsl vətəndaşlıq nümunəsi sərgiləyir. Onun UNESCO xətti ilə keçirilən tədbirlər çərçivəsində Azərbaycanın Ermənistan tərəfindən işğal olunmuş ərazilərində Azərbaycan xalqına məxsus tarixi, mədəni və dini abidələrin dağıdılmasını qeyd etmədiyi bir çıxışını xatırlamaq çətindir, mümkünsüzdür. Mehri-

ban xanım təkcə çıxışlarında deyil, rəhbərlik etdiyi təşkilatların fəaliyyətində də Azərbaycan həqiqətlərinin dünyaya çatdırılması istiqamətində böyük işlər görür. Dünyanın demək olar ki, bir çox dillərində Azərbaycan həqiqətləri adlı kitablar nəşr olunub ki, burada Qarabağın tarixi, Ermənistanın Azərbaycan ərazilərini işğal etməsi, Xocalıda törətdikləri soyqırım, erməni terror təşkilatlarının dinc azərbaycanlılara, Türk insanına qarşı vəhşilikləri barədə geniş məlumatlar öz əksini tapır. Bundan başqa Heydər Əliyev Fondu Xocalı şəhərində Ermənistanın törətdiyi soyqırımı dünya ictimaiyyətinə çatdırmaq üçün bir neçə dildə film də hazırlayıb.

Dünyanın çoxlu sayda ölkələrində Fondun dəstəyi ilə Xocalı soyqırımının ildönümündə böyük tədbirlər keçirilir. Xocalı soyqırımını anladan foto və "Xocalı uşaqların gözü ilə" adlı rəsm sərgiləri nümayiş olunur. Mehriban Əliyevanın rəhbərlik etdiyi Fond erməni iftiralarını, Azərbaycan həqiqətlərini, Ermənistanın işğal etdiyi ərazilərdə törətdiyi vəhşilikləri, təkcə Azərbaycana deyil, bütün insanlığa məxsus olan dini, tarixi və mədəni abidələrin dağıdılmasını özündə əks etdirən çoxlu sayda kitablar nəşr etdirərək, dünya ictimaiyyətində doğru məlumatların çatdırılması istiqamətində böyük işlər görür.





Yuxarıda da bəhs etdiyimiz kimi, Mehriban xanım Əliyeva UNESCO ilə yanaşı, həm də Müsəlman, İslam dünyasını özündə birləşdirən İslam Əməkdaşlıq Təşkilatının (İƏT) ən böyük qurumu olan İSESCO-nun da xoşməramlı səfiridir və bu vəzifədə də Müsəlman dünyasını layiqincə təmsil edir. Sivilizasiyalararası dialoq daxil olmaqla, müxtəlif sahələrdə genişmiqyaslı fəaliyyətinə, qayğıya ehtiyacı olan uşaqlara göstərdiyi diqqətinə, onların yaşayış şəraitinin yaxşılaşdırılmasına, təhsilə, həmçinin İslam aləmində görülən işlərə böyük dəstəyinə görə 2006-cı il noyabrın 24-də İSESCO-nun xoşməramlı səfiri adına layiq görülmüş Mehriban Əliyevanın gördüyü işlər təşkilat tərəfindən ən yüksək səviyyədə qiymətləndirilib. Bu yerdə onu da xatırlatmağa dəyər ki, Azərbaycanın paytaxtı Bakı şəhəri hələ 2009-cu ildə İslan Dünyası Paytaxtı elan edilib.

Azərbaycanın bu gün Qərblə Şərq, Qərblə İslam Dünyası arasında önəmli, etibarlı körpü rolu oynamasında, sivilizasiyalar və mədəniyyətlərarası diqloq sahəsində Azərbaycanın bir çox ölkələrə nümunə olması haqqında dünya ictimaiyyətinin müsbət təsəvvürünün formalaşmasında Azərbaycan Prezidenti İlham Əliyevlə yanaşı, əlbəttə ki, Mehriban xanımın da böyük xidmətləri var. Təsadüfi deyil ki, Amerika Birləşmiş Ştatlarının nüfuzlu "WASHINGTON TIMES" qəzetində dərc olunan məqa-

lədə də Mehriban xanımın müsəlman qadınlar üçün ən yaxşı nümunə olduğu qeyd olunmuşdur.

Mehriban xanım Əliyeva, 1995-ci ildə təsis etdiyi Azərbaycan Mədəniyyətinin Dostları Fondunun prezidenti kimi də Azərbaycan mədəniyyətinin geniş təbliğ olunması istiqamətində böyük işlər görüb. Məsələn, Mehriban Əliyevanın 1996-cı ildə təsis etdiyi və 3 dildə (Azərbaycan, ingilis və rus) çap olunan "Azərbaycan-İrs" jurnalı Azərbaycan mədəniyyətinin təbliğ olunması istiqamətində önəmli bir addım olub.

Mehriban Əliyevanın təşəbbüsü və dəstəyi sayəsində Azərbaycanın bir çox tarixi, dini və mədəni abidələri bərpa olunub. Cavad Xan Türbəsi, Comərd Qəssab Türbəsi, qədim dövrlərə aid Hamam Kompleksi və bir çox tarixi, dini və mədəni abidələri buna misal göstərmək olar. O, Azərbaycan gəncliyinin öz tarixinə, mədəniyyətinə bağlı olmasına və buna sahiblənməsinə, gəncliyin yüksək vətənpərvərlik ruhunda yetişməsinə böyük önəm verir və diqqət yetirir.

Heydər Əliyev Fondu xalqın milli varlığını özündə yaşadan hər bir maddi-mənəvi və intellektual irsə böyük həssaslıqla yanaşır, milli mədəniyyətimizin dünya arenasına çıxmasında və təbliğində yaxından iştirak edir. Fondun prezidenti Mehriban xanım Əliyeva UNESCO-nun xoşməramlı səfiri kimi ilk çıxışında Azərbaycanın dünya mədəniyyətinə Üzeyir Hacıbəyov, Qara Qarayev, Səttar Bəhlulzadə, Mstislav Rastropoviç kimi böyük sənətkarlar verdiyini qeyd edərək bu cür şəxsiyyətlər yetirən xalqımızın, həqiqətən də, böyük xalq olduğunu vurğulamışdı:

**"Öz milli mənliyimizi, mədəniyyətimizi qoruyub saxlamaqla yanaşı, biz dünya mədəniyyət xəzinəsinə 1300 illiyi UNESCO çərçivəsində qeyd olunmuş "Kitabi-Dədə Qorqud" eposu, şifahi və qeyri-maddi irs inciləri siyahısına daxil edilmiş Azərbaycan muğamı kimi töhfələr verə bilmişik. Bu gün, yüksək texnologiyalar, qloballaşma və inteqrasiyası dövründə qeyri-maddi irsin qorunub saxlanılması xüsusi əhəmiyyət kəsb edir. Bütün bəşəriyyət qeyri-maddi irsin qorunmasında çox maraqlıdır. Bu məsələdə UNESCO-nun rolu şübhəsiz ki, çox böyükdür. Muğam da, aşıq yaradıcılığı da, milli musiqi alətlərimizin bənzərsiz melodiyaları da Azərbaycan xalqının bu günə qədər qoruyub saxladığı və gələcək gün naminə qorumağa borclu olduğumuz irsin yalnız bir hissəsidir.**

**Azərbaycan Mədəniyyətinin dostları Fondunun fəaliyyəti məhz bu məqsədə xidmət edir. Xoşməramlı səfir kimi mənim bütün gələcək fəaliyyətim də bu məqsədə xidmət edəcəkdir".**

Heydər Əliyev Fondu ulularımızdan bizlərə yadigar qalmış mədəniyyət incilərimizin qorunması, bu sərvətin heç bir itkiyə məruz qalmadan gələcək nəsillərə əmanət edilməsi üçün məqsədyönlü və konkret fəaliyyət planına malikdir. Fondun prezidenti Mehriban xanım Əliyevanın Bakıda "Qafqaz xalq ənənələri evi"nin yaradılması ilə bağlı UNESCO qarşısında irəli sürdüyü təşəbbüsü bu planın tərkib hissəsi kimi nəzərdən keçirilə bilər.

Belə bir qurumun təşkili Qafqaz xalqlarına məxsus mədəni irsin qorunması, təbliği baxımından böyük faydalar vəd edir. Bu təşəbbüs eyni zamanda, həm də böyük siyasi əhəmiyyətə malikdir. "Qafqaz xalq ənənələri evi"nin yaradılması Avropa Birliyinin təşəbbüsü ilə Qafqaz regionunda həyata keçirilən "Yeni Qonşuluq Siyasəti"nin icrasına müəyyən töhfə verməklə bərabər, həm də zaman-zaman Azərbaycan mədəniyyət incilərini oğurlayıb öz adlarına çıxan ermənilərin bu hərəkətlərinin qarşısını almış olardı.





"Qarabağ xanəndələri" albomu fondun son illər həyata keçirdiyi uğurlu layihələrdən biridir. Əslində, bütün Azərbaycana məxsus muğamlarımızın toplandığı alboma niyə məhz "Qarabağ xanəndələri" adının seçilməsinin arxasında dayanan incə siyasi məqamı sezməmək mümkün deyil. UNESCO xətti ilə hazırlanmış alboma "Qarabağ xanəndələri" adının seçilməsi ilə bütün dünyaya Qarabağın əzəli və əbədi Azərbaycan torpağı, muğamın isə bu torpağın dünyaya bəxş etdiyi nadir sənət nümunəsi olduğu bir daha nümayiş etdirilir.

Azərbaycanın birinci xanımının rəhbərliyi altında "Qarabağ həqiqətləri" kitabının çapa hazırlanması Azərbaycanın, Qarabağın tarixi keçmişinin öyrənilməsi və təbliği baxımından son dərəcə böyük əhəmiyyət daşıyır. Azərbaycanda bir neçə muğam məktəbinin aparıcı muğam məktəblərindən sayıldığını diqqətə çatdıran Mehriban xanım Əliyeva bu məktəbin hazırda böyük təhlükə qarşısında qaldığını, bu janrın gənc ifaçılarının sayının xeyli azaldığını bildirib. Bu mənada "Qarabağ xanəndələri" layihəsi əslində həm də siyasi əhəmiyyəti olan layihədir.

Heydər Əliyev Fondu tərəfindən 2008-ci ildə hazırlanan "Muğam ensiklopediyası" qədim musiqi irsimizin qorunması və inkişafı yolunda sanballı nəşr kimi dəyərləndirilir. Fondun dəstəyi ilə Beynəlxalq Muğam Mərkəzinin inşası, 2005-2007-ci illərdə respublika muğam müsabiqələri-

nin, 2009-cu ildə dünyanın 11 ölkəsinin iştirak etdiyi Beynəlxalq Muğam Festivalının keçirilməsi qədim ifaçılıq ənənələrini inkişaf etdirərək gənc istedadlı xanəndələri üzə çıxarmaq və muğam sənətini dünyada təbliğ etmək məqsədi daşıyır.

Azərbaycanın görkəmli alimlərinin, yazıçı və bəstəkarlarının yubileylərinin keçirilməsi, "Kitabi-Dədə Qorqud" dastanının 1300 illiyinin beynəlxalq miqyasda qeyd olunması, UNESCO-nun "Dünya maddi irs siyahısı"na İçərişəhərin Şirvanşahlar Saray Kompleksinin, Qobustan Qoruq Muzeyinin və Atəşgahın da daxil edilməsi, tarixi mədəniyyət abidələrinin bərpası "Azərbaycan Mədəniyyətinin Dostları" Xeyriyyə Fondunun fəaliyyətinin təqdirəlayiq məqamları kimi vurğulanmalıdır. Mehriban xanım Əliyevanın Azərbaycan muğamlarının öyrənilməsi və təbliği ilə bağlı fəaliyyəti onun mənəvi dəyərlərə bağlılığının əyani təsdiqidir.

Heydər Əliyev Fondunun həyata keçirdiyi kompleks tədbirlər həm də xalqın milli kimliyini, mədəniyyətini, keçmişini, milli varlığını özündə yaşadan Azərbaycan folklorunun inkişafına, onun nümunələrinin toplanması və nəşri işinə ciddi təkan verir.

Folklor hər bir xalqın unudulmaz keçmişidir. Müasir qloballaşma dövründə keçmişi, zəngin milli irsi olmayan xalq isə beynəlxalq münasibətlər sisteminə qoşula və mədəniyyətlərarası dialoq prosesində öz sö-





zünü deyə bilməz. Folklorda təkcə tarix yaşamır; bu mənəvi aləmdə xalqın bədii düşüncəsi də, müdrikliyi də, tarixin ən sərt dönəmlərində formalşmış həyat tərzi də, adət ənənələri, dövlətçilik təfəkkürü də qorunub mühafizə olunur.

Azərbaycan xalqının tarixi keçmişi ilə bağlı ən böyük həqiqətlər bizim nağıllarımızda, dastanlarımızda, laylalarımızda, sayaçı sözlərimizdə, holavarlarımızda və digər folklor nümunələrimizdə yaşayır.

Mehriban Əliyevanın rəhbəri olduğu Heydər Əliyev Fondu dünyanın ən mötəbər mədəniyyət qurumları ilə əməkdaşlıq çərçivəsində ölkəmizdəki tarixi abidələrin qorunması üçün həyata keçirilən tədbirlərdə də fəal iştirak edir.

Azərbaycan mədəniyyəti dünyada ən qədim mədəniyyətlərdən biri hesab edilir və ölkədə əsrlər boyu yaşayan xalqların müxtəlif adət-ənənələrini özündə birləşdirir. Bu ilkin şərtlər əsrlər boyu ölkədə fəlsəfi-ədəbi fikrin, poeziyanın və memarlığın, habelə, ölkənin maddi və mənəvi irsinin rəmzi olan təsviri sənətin çiçəklənməsinə gətirib çıxarmışdır. Qeyd olunan mədəniyyət formaları Azərbaycanın özünəməxsusluğunun əsasını təşkil edir və Azərbaycan xalqının həyatında mühüm əhəmiyyət daşıyır. Belə bir mədəniyyəti özündə ehtiva edən Azərbaycanın tarixi dönəmlərində yaşamış simaların əsərlərində xalqımızın adət və ənənələri,

onun bəşəri mahiyyət daşıyan dəyərləri öz əksini tapmışdır. Belə ədəbi nümunələr Azərbaycan klassik sənətində kifayət qədərdir ki, bunlar yenidən nəşr edilərək xalqa, eləcə də dünya ədəbiyyatına təqdim edilir. Bu istiqamətdə Heydər Əliyev Fondunun gördüyü işlərin əhəmiyyəti müstəsnadır.

Heydər Əliyev Fondu dünya şöhrətli mütəfəkkir, ensiklopedik biliyə malik görkəmli Azərbaycan alimi Məhəmməd Nəsirəddin Tusinin "Əxlaqi-Nasiri" kitabını latın qrafikası ilə yenidən nəşr etdirilməsi Azərbaycan mədəniyyətinə öz töhfəsini vermiş oldu. Böyük elmi miras qoyub getmiş alimin irsinin dərindən öyrənilməsi, əsərlərinin nəşri ulu öndər Heydər Əliyevin daim diqqət mərkəzində olmuşdur. Mütəfəkkir alimin anadan olmasının 800 illik yubileyi ərəfəsində ümummilli lider 13 iyun 2000-ci il tarixli fərmanı ilə yubileyin dövlət səviyyəsində qeyd olunması ilə yanaşı, onun çoxşaxəli yaradıcılığının hərtərəfli tədqiqini vacib məsələlərdən biri kimi qeyd etmişdi.

Əsrlər boyu Orta və Yaxın Şərqdə mənəviyyat və əxlaq qaynağı hesab olunan "Əxlaqi-Nasiri" kitabında Məhəmməd Nəsirəddin Tusinin insan, ailə, cəmiyyət, əxlaq, din, ictimai münasibətlər barədə dolğun təsəvvürləri, etik-fəlsəfi fikirləri yer almışdır. Əsərin tərcüməsində müəllifin yazı ruhu mümkün qədər qorunub saxlanmışdır. Nəfis tərtibatla, rəngarəng





miniatürlərlə nəşr olunmuş bu kitab oxuculara Nəsirəddin Tusi dühasını tanıtmaqla yanaşı, həm də müasir cəmiyyət həyatında aktuallığını itirməyən mövzulara diqqət çəkmək baxımından müstəsna əhəmiyyət daşıyır.

Kitabın fars dilindən tərcümə olunaraq təqdim edilməsi Heydər Əliyev Fondunun milli-mənəvi dəyərlərimizə olan münasibətinin təzahürüdür.

Mədəniyyətimizə olan diqqətin təzahürünün davamı olaraq Heydər Əliyev Fondu Şərq ölkələrində sevilən və məşhur olan "Qobusnamə" kitabını rus dilində nəşr etdirmişdir. Tərbiyə və etikanın vacib məsələlərini əhatə edən kitab yüzilliklər boyu müdrik məsləhətləri ilə aktuallığını qoruyub saxlamışdır.

1802-1803-cü illərdə Cənubi Azərbaycan ərazisində yerləşən Gilan dövlətinin padşahı Keykavus tərəfindən yazılmış "Qabusnamə" orta əsrlərdə hökmdarların, din xadimlərinin, elm adamlarının, müəllimlərin masaüstü kitabı olmuşdur. Həmin dövrdə hər bir savadlı və mədəni insanın ailəsində qorunub saxlanılan kitab gənc nəslin tərbiyəsində mühüm rol oynamış, nəsildən-nəslə ötürülən mənəviyyat qaynağı və əxlaq dərsliyi kimi qiymətləndirilmişdir.

Belə bir dəyərlərin məcmusunun qeyri-xalqların ədəbiyyatına daxil edilməsi Azərbaycanın qədim mədəniyyəti, tarixi ilə onları tanış etmək və xalqımıza məxsus xüsusiyyətlərin təbliğinə təsirini göstərməkdədir.

Rus oxucusuna təqdim olunan "Qabusnamə" Şərq və onunla qırılmaz tellərlə bağlı olan Azərbaycan mədəniyyəti, tarixi, fəlsəfəsi haqqında təsəvvür yaratmağa imkan verir. Rəngli illüstrasiya və nəfis tərtibatlı kitab 1000 nüsxə tirajla nəşr olunmuşdur.

"Qabusnamə" Heydər Əliyev Fondunun müxtəlif səpkili nəşrlər guşəsini bir daha zənginləşdirmişdir. Fondun dəstəyi ilə müxtəlif dillərdə Azərbaycan həqiqətlərindən, Qarabağ muharibəsinin əsl mahiyyətindən bəhs edən kitablarla yanaşı, milli-mənəvi qaynaqlarımız, tarixi keçmişimiz, tanınmış şəxsiyyətlər haqqında nəşr olunan kitablar buranın qonağı olan xarici dövlət nümayəndələrinə də Azərbaycan haqqında təsəvvür yaratmaq məqsədi daşıyır. Fond Azərbaycanın klassik yazıçılarının, tədiqatçı alimlərin əsərlərini müxtəlif dillərdə nəşr etdirir, xarici ədəbiyyat nümayəndələrinin dilimizə çevrilərək nəşrinə dəstək verir.

Belə əsərlərdən soraq gətirən nümunələr Azərbaycan tarixini saxtalaşdırmaq, ona müxtəlif donlar geyindirməyə çalışanların qarşısında bir çəpərdir. Tarixi sənədlər nə qədər geniş şəkildə təbliğ olunarsa, Azərbaycan tarixi də dünyaya bir o qədər faktlar, sənədlər əsasında təqdim olunar.

Fondun təkrar nəşr və tərcümə etdirdiyi hər iki əsər bədii gücü ilə yanaşı, Azərbaycan fikrini, elmini, mədəniyyətini, tarixini, adət və ənənələrini geniş ictimaiyyətə təqdim edən vəsait kimi əhəmiyyətlidir.





## XARİCİ MƏTBUAT MEHRİBAN ƏLİYEVADAN YAZIR...

Qardaş Türkiyə Cümhuriyyətinin "Türkiyə" qəzeti ötən ilin sonlarında Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyeva haqqında geniş məqalə dərc etmişdir.Jurnalist Yücel Koçun qələmə aldığı məqalə "Qardaş ölkədə nələr olur? Mehriban Əliyeva ilə birlikdə Azərbaycanda dəyişiklik rüzgarı?" adlanır.

Məqalədə qeyd olunur ki, Azərbaycan Prezidenti İlham Əliyev ictimaiyyətdən yüksələn səslərə biganə qalmadı. Birinci vitse-prezident vəzifəsinə Mehriban Əliyevanın gətirilməsi ilə dəyişikliyin düyməsinə basıldı. Ölkədəki köhnə vərdişlər bir tərəfə qoyulur və tamamilə başqa siyasət aparılır.

Müəllif yazır: "Sənəti, mədəniyyəti, mənəvi kodları, dərin tarixi və ədəbiyyat bazası ilə Azərbaycan Qafqazın göz bəbəyidir.

Azərbaycan torpaqları Ermənistan tərəfindən işğal edilən, saysız-hesabsız sınaqlardan çıxan və bütün itkilərə baxmayaraq, sistemini, dövlət ənənəsini nizama salmağı bacaran bir ölkədir...

Azərbaycan erməni lobbisi və dünyadakı dəstəkçilərinin gücünə baxmayaraq, torpaqlarındakı işğalı dünya ictimaiyyətinə çatdırmaq üçün ciddi layihələrə imza atıb. Dövlət başçısı İlham Əliyevin siyasi iradəsi, mövqeyi və duruşu bu məsələdə Azərbaycanı addım-addım uğura aparır.

Gürcüstan, Ermənistan və Ukrayna nümayəndələrinə baxsaq, Rusiya ilə ciddi qarşıdurma yaşayan qüvvələrin ətrafdakı ölkələri alətə çevirdiyinə və çevirəcəyinə diqqət yetirsək, Azərbaycanın hazırki siyasi addımlarının mənasını təhli etmək daha asan olacaq.

İran və Rusiya ilə qonşu olması səbəbindən də Azərbaycanın mövqeyi və rolu fərqli prizmalarda şərh olunmalıdır. İran əhalisinin böyük bir hissəsinin Azərbaycan türklərindən ibarət olması isə İranın Azərbaycanın siyasi həyatına necə sirayət etmək cəhdlərini göstərir.

Neft yataqlarının Azərbaycanı böyük şahmat oyunlarının mərkəzi halına gətirməsi də Azərbaycanın bu vəziyyətdə özünü necə qoruya bildiyini dərk etməmiz üçün ciddi ipucları verməkdədir. Bu vəziyyət Prezident İlham Əliyevin balanslı siyasətinin necə dizayn edildiyinin də göstəricisidir.





Unutmamaq lazımdır ki, Azərbaycan kimi əvvəlki siyasi durumu ilə hesablaşaraq, yeni siyasi formanı mənimsəmək ərəfəsində olan bütün dövlətlər üçün bu keçid dövrü uzun və məşəqqətli olur.

Sosial təminatların hələ də yerbəyer edilməməsinin problemlərə səbəb olması təbiidir və bu, həm ətrafdakı dövlətlərin, həm də Qafqaz və xüsusilə, dərdi neft olan qərbli qüvvələrin zaman-zaman istifadə etmək istədiyi prosesdir.

Ölkədəki müxtəlif səslərin olması də təbiidir. Bu, Azərbaycan dövlətinin problemlərinin kökündən həlli üçün vacib alətdir. Sovetlər Birliyindən çıxış mərhələsində də Azərbaycandakı bu ictimai birlik mühüm rol oynamışdı.

Azərbaycan iqtisadi cəhətdən gücləndi, dəyişikliyin davamlı hala gətirilməsi üçün Prezident Əliyevin ciddi həmlələri gündəmdədir. Lakin hazırda iqtisadi və siyasi cəhətdən həll edilməyən problem var.

İdarəedici kadrların xalqla münasibətlərində sıxıntılar mövcuddur və təəssüf ki, xalqdan qopmuş səslərin çıxmasına səbəb olan təxribatçı aksiyalar müşahidə olunur. Bu, sadəcə müxalif düşərgədə daha çox gələcəyini Qərblə birlikdə olmaqda görən bəzi mərkəzi yerlərdə görülməməkdədir. Hökumət daxilində möhkəmlənmiş köhnə fikirli kadrların, illərdir,

vəzifədən getməmək üçün sərf etdiyi enerjini də diqqətdən kənarda saxlamaq olmaz.

Prezident Əliyev ictimaiyyətin necə bir dəyişiklik istəməsinə sözün həqiqi mənasında qulaq asmaq siyasətini genişləndiməyə başladı. Lideri və ya Dövlət başçısını ayaqda saxlayacaq tək şeyin öz xalqı ilə müttəfiq olmaq olduğunu bilir. Sosial media və bütün medianı, xalqdan gələn səsləri və hətta ən ucdakı marginal səsləri belə eşitməyin, bu səslərə qulaq asmağın və meydana çıxan çatışmazlıqlardan istifadə etməyə çalışan güclərin əlindən alınmasının lazım olduğunu görə bilmək bir siyasətçi və Dövlət başçısı üçün böyük bacarıqdır.

Uzun illər ölkənin idarəçiliyində olmuş, yaşları xeyli irəliləmiş şəxslər xalqda ciddi etiraza səbəb olurdu. Yeni nəslə qapı açmaq, günümüzün dəyərləri içərisində öz milli dəyər və kimliyini qorumaq refleksini möhkəmləndirmək olduqca vacibdir. Bunu xüsusilə Birinci vitse-prezidentlik vəzifəsinə təyin olunan Mehriban Əliyevanın müəyyənləşdirdiyi yol və metod daha da irəliyə apardı...

Uzun zamandır, Heydər Əliyev Fonduna rəhbərlik edən Mehriban Əliyeva Avropa və dünyada ciddi mədəni və sosial layihələrə verdiyi dəstəklə diqqəti özünə çəkdi.





Azərbaycana beynəlxalq səviyyədə ciddi qarşılığı olan layihələri əsas gətirərək, dünyadakı Azərbaycan əleyhdarı olan lobbilərlə mübarizə aparmaq səylərini davam etdirdi. Hər tərəfdən mühasirəyə alınan Azərbaycanda baş verənlərin dünyaya çatdırılması üçün mədəni layihələrlə mühasirələr yarılmağa başlandı. Mehriban Əliyevanın Birinci vitse-prezidentliyə təyinatını bu sahələrdəki uğurlarının nəticəsi kimi dəyərləndirmək bizi gerçək nəticələrə aparır.

Xalq arasında böyük nüfuzu olan Mehriban Əliyeva fərqli bir yolu sınaqdan keçirməyə başladı.

Toplumdakı fərqli siyasi qrupları, hətta narazı səsləri belə "mərkəzə çəkmə, onları dinləmə və etiraz etdikləri məsələlərin çarəsini tapmaq" siyasəti xanım əfəndinin siyasi ağıl istehsal etmək sahəsində bacarığını da göstərilmiş oldu.

Azərbaycan yenidən və daha fərqli bir dəyişiklik modelinə keçdiyini son aylarda atdığı addımlarla açıq nümayiş etdirir. İdarəçilikdən getməsi mümkün olmayacaq deyilən şəxsləri pensiyaya göndərmək forması isə dövlət ənənəsi baxımından yeni bir duzəni ortaya qoyur.

"Sovetlər Birliyi dağılsa da, hələ də şüurlarda bolşevik təfəkkürü hökm sürməkdədir. Gələnin gedəni yox etməsi siyasəti üzərində qurul-

muş bolşevik baxış bucağı Azərbaycanın gələcəyi üçün qorxunc hadisədir..."

... Azərbaycandakı yeni dəyişiklik küləyi ölkəni böyük fəlakətdən xilas edəcək mahiyyətdədir. Uğurlu olması isə əvvəlcə Azərbaycan, sonra isə Türkiyə üçün həyati məna kəsb edir.

Prezident Əliyev ilə Birinci vitse-prezident Mehriban Əliyevanın bu həmlələri "böyük fəlakət ssenariləri"ni həm Azərbaycandakı ictimai qrupların, həm də Türkiyənin dəstəyi ilə iflasa uğratmış olacaq. Unutmamalıyıq ki, Azərbaycan Türküstana qədər uzanan yolun ən vacib halqasıdır və Türkiyə üçün ən etibarlı limandır. Bu limanı başqa xəyallara mərkəz etmək istəyən, Azərbaycanı əhatəyə almış bütün güclərin, İslam və Türk dünyasının önəmli məhək daşının tarazlığını pozmaq cəhdləri "demokratiyaya azadlıq" mesajları ilə bəzənsə də, faciənin tam özüdür!

Azərbaycan ictimaiyyəti öz problemlərini, daxildə öz dəyərləri və öz dövlətinin ağlı ilə həll edə biləcək siyasi, mədəni və ənənəvi bazaya malikdir...

***

Brüsseldə nəşr olunan və geniş beynəlxalq oxucu auditoriyasına malik "Diplomatic World" jurnalı da 2019-cu ildə Azərbaycanın birinci vitse-prezidenti Mehriban Əliyevaya həsr olunmuş "Müasir Azərbaycan tarixinin böyük qadını" sərlövhəli məqalə dərc etmişdir.





2019-cu il fevralın 21-də Azərbaycanın Birinci xanımı, Heydər Əliyev Fondunun prezidenti, Azərbaycan Mədəniyyət Fondunun rəhbəri, Azərbaycan Gimnastika Federasiyasının prezidenti, UNESCO və İSESCO-nun xoşməramlı səfiri Mehriban Əliyevanın ölkənin Birinci vitse-prezident vəzifəsinə təyin edilməsinin ikinci ildönümü tamam olub. Ölkədə keçirilmiş çoxsaylı mühüm tədbirlərin, həmçinin beynəlxalq idman tədbirlərinin təşkili, vətəndaşların həyat tərzinin yaxşılaşdırılması istiqamətində atılmış bir sıra inqilabi addımlar məhz onun adı ilə bağlıdır.

Mehriban Əliyeva Azərbaycan Prezidenti İlham Əliyevin 2017-ci il 21 fevral tarixli Sərəncamı ilə Birinci vitse-prezident təyin edilib. Həmin dövrdən ölkə tarixində yeni səhifə açılıb. Mehriban Əliyevanın bu vəzifəyə təyin edilməsi ilə Azərbaycanın sosial-siyasi həyatında ciddi dəyişikliklər başlayıb. Bu gün dövlət başçısı İlham Əliyevlə birgə, Birinci vitse-prezident Mehriban Əliyeva da ölkənin tərəqqisi üçün çalışır, ciddi səylər göstərir. Həyata keçirilən əsaslı islahatlar nəticəsində əhalinin rifahı yüksəlir, əməkhaqları, pensiyalar, sosial müavinətlər artırılır.

Daxili islahatlarla yanaşı, xaricdə Azərbaycanın nüfuzunun artması üçün də ciddi addımlar atılır. Bu, dövlətin xarici siyasətində prioritetdir.

Konkret olaraq, Azərbaycan tarixinin, mədəniyyətinin, musiqisinin və incəsənətinin xaricdə tanıdılmasında ən böyük rol məhz Mehriban Əliyevaya məxsusdur. Son illər beynəlxalq arenada Azərbaycanın mədəniyyət sahəsində nüfuzu həqiqətən də çox artıb. Məhz Birinci vitse-prezidentin təşəbbüsü ilə Azərbaycanın zəngin tarixi və mədəniyyətinin Rusiya, İtaliya, Fransa, Çin daxil olmaqla, müxtəlif ölkələrdə tanıdılması üçün uğurlu siyasət aparılır. Ötən ilin dekabrında Pekində təşkil olunmuş Azərbaycan-Çin dostluq konserti buna bariz nümunə sayıla bilər. Belə tədbirlərin təşkilinin təməlində Heydər Əliyev Fondu ilə Xarici Ölkələrlə Dostluq üzrə Çin Xalq Assosasiyası arasında 2017-ci ilin noyabrında imzalanmış dostluq memorandumu dayanır.

Azərbaycanın Birinci vitse-prezidenti ötən il Fransa və İtaliyada səfərdə olub, orada rəsmi görüşlər keçirib. Məhz Mehriban Əliyevanın fəaliyyəti sayəsində bu gün İtaliya və Fransa ictimaiyyəti Azərbaycan mədəniyyətinin zəngin tarixi haqqında daha geniş məlumata malikdir. Onun İtaliyaya 2018-ci ilin sentyabrında etdiyi səfər zamanı Romada "Azərbaycan Xalq Cümhuriyyətinin yaranmasının 100 illiyi və Azərbaycan Respublikası ilə İtaliya Respublikası arasında strateji tərəfdaşlıq münasibətləri" adlı konfrans da təşkil olunmuşdu. Ötən ilin mayında isə Heydər Əliyev Fondunun təşkilatçılığı ilə Parisdə Azərbaycan Xalq Cümhuriyyətinin 100 illik yubileyinə həsr edilmiş "Şərqin birinci dünyəvi parlamentli respublikası: dəyərlər və irs" adlı elmi konfrans keçirilib.





Mehriban Əliyeva Azərbaycan tarixi və mədəniyyətinin xaricdə tanıdılması istiqamətində göstərdiyi səylərlə yanaşı, Avropa ölkələrinin və digər dövlətlərin tarixi və mədəni irsinin qorunması işinə də diqqət ayırır. Məsələn, Heydər Əliyev Fondu indiyədək müxtəlif ölkələrdə abidələrin, tarixi binaların və muzeylərin bərpasına yardım göstərib. Fond Strasburqda Kafedral Kilsəsinin, Versaldakı bəzi obyektlərin, həmçinin Müqəddəs Marçelinio və Pietro katakombalarının, Romadakı Kapitolini Muzeyinin "Filosoflar zalı"nın və digər tarixi abidələrin bərpasını maliyyələşdirib. Onun bu təşəbbüsləri beynəlxalq ictimaiyyət tərəfindən təkcə müsəlman qadınının deyil, həm də müsəlman dünyasının xristianlığın müqəddəs abidələrinin qorunub saxlanmasına töhfəsi kimi qəbul edilir.

Mehriban Əliyeva təkcə müsəlman və xristian aləminə aid tarixi-mədəni abidələrin müdafiəçisi deyil. Mehriban Əliyevanı insanların, xüsusilə köməyə və qayğıya ehtiyyacı olan uşaqların yanında tez-tez görmək mümkündür. Heydər Əliyev Fondu Novruz, Yeni il, Qurban bayramlarında, həmçinin digər mühüm günlərdə uşaqlar üçün müxtəlif tədbirlər təşkil edir. Azərbaycanın Birinci vitse-prezidenti bəzən hətta öz ad gününü uşaq evində keçirir. Ciddi xəstəliklərdən (onkoloji xəstəliklər, ta-

lassemiya və s.) əziyyət çəkən uşaqlar, çoxuşaqlı ailələr, aztəminatlı insanlar, Ermənistanın təcavüzü nəticəsində doğma evlərindən qovulmuş məcburi köçkünlər Mehriban Əliyevanın qayğısını hər zaman hiss edirlər. Bir sözlə, birinci xanım öz səlahiyyətlərindən Azərbaycan vətəndaşlarına, köməyə ehtiyacı olan şəxslərə yardım göstərmək üçün istifadə edir. Bu ilin yanvar-fevral aylarında Mehriban Əliyeva Qarabağ müharibəsi zamanı əlil omuş şəxslərə və digər qrup insanlara da yardım əlini uzadıb. Məsələn, Birinci vitse-prezidentin bu ilin fevralında verdiyi tapşırığa əsasən, yaralanmış hərbiçilərin yüksək texnologiyalı protezlərlə təmin olunması proqramı çərçivəsində daha bir qrup Qarabağ müharibəsi əlili protezləşməyə cəlb edilib. Bundan əlavə o, Azərbaycan Hərbi Hava Qüvvələrinin əfsanəvi pilotu olmuş Aleksey Şvarevin ailəsinə yardım göstərib. A.Şvarev 1995-ci ildə Azərbaycan Silahlı Qüvvələrinin sıralarından təqaüdə çıxıb və bu gün Ukraynada yaşayır. Onun qızı Yuliya Şvareva onurğa beynində ependioma xəstəliyindən əziyyət çəkir. Bu xəstəliyin müalicəsi bahalı olduğundan, ailənin klinikaya böyük məbləğdə borcu yaranmışdı. Hətta borcun ödənilməsi üçün ailə evini satmaq haqqında düşünürdü. Mehriban Əliyeva bundan xəbər tutan kimi, döyüşçü zabitin ailəsinə maddi yardımın göstərilməsi barədə tapşırıq verib.





Bu da son deyil. Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyeva bu ilin fevralında Ucar rayonunun Qaracalı kənd sakini, ağır mənzil-məişət şəraitində yaşayan ikinci qrup Qarabağ müharibəsi əlili Şöhrət Qasımov üçün fərdi ev tikilməsi tapşırığını da verib. Bundan başqa, Bərdə rayonunda azyaşlı oğlu ilə birgə çətin şəraitdə yaşayan, Hepatit B və onkoloji xəstəliklərdən əziyyət çəkən Nazilə Musayevanın əməliyyat olunması və gələcək müalicəsi ilə bağlı bütün xərclər Heydər Əliyev Fondu tərəfindən təmin edilmişdir.

Bir sözlə, Azərbaycanın birinci xanımı xeyirxahlığı və humanizmi ilə ölkənin adını bütün dünyada ucaldır. O, öz nümunəsi ilə müasir Azərbaycan qadınının gözəlliyini, köməyə və qayğıya ehtiyacı olan şəxslərə sonsuz məhəbbətini, tolerantlığını, humanistliyini nümayiş etdirir. Bu gün Azərbaycan qadını Mehriban Əliyevanın nüfuzu ilə, həmçinin qayğısı və köməyə ehtiyacı olan insanlara sevgisi ilə qürur duyur, ondan nümunə götürür.

Heydər Əliyev Fondunun maliyyə dəstəyi ilə ölkədə yüzlərlə bağça, uşaq evi, park, məktəb, idman kompleksi, dini abidə tikilib və ya bərpa olunub. Fond təhsil, ətraf mühit, səhiyyə, informasiya və kommunikasiya texnologiyaları, idman sahələrində də fəaldır. Həmçinin "Tolerantlığın ünvanı-Azərbaycan" layihəsi çərçivəsində musiqi festivalları təşkil

edir, tarixi əhəmiyyətə malik dini-mədəni abidələrin bərpasını həyata keçirir.

Sonda bir məqamı xatırlatmaq yerinə düşərdi: 1918-ci il mayın 28-də yaradılmış Azərbaycan Xalq Cümhuriyyəti Şərqdə qadınlara seçki hüququ vermiş ilk ölkə olub. Azərbaycan bu mənada ABŞ və Avropanın bir çox ölkəsini belə qabaqlayır.

Bu gün Azərbaycan qadınları ölkənin inkişafında, çiçəklənməsində fəal iştirak edirlər. Onlar ölkənin bütün sahələrində, bütün səviyyələrdə ciddi rol oynayırlar. Bu məsələdə Azərbaycanın Birinci vitse-prezidenti, birinci xanım Mehriban Əliyevanın xidmətləri danılmazdır. Bu gün güclü ictimai-siyasi xadim olan Mehriban Əliyeva nümunə götürüləcək şəxsdir. Qərb KİV-ləri xüsusilə postsovet məkanında birinci xanım institutunun əhəmiyyəti və rolunun Mehriban Əliyevanın sayəsində artdığını yazır ki, bu da təsadüfi deyil.

***

2018-ci il mart ayının 6-da "Newtimes.az" portalı maraqlı bir məqalə dərc etmişdir. Məqalə belə adlanır: "Mehriban Əliyeva: böyük uğurların izi". Oxucuların marağına səbəb olacaq bu məqaləni də dəyişiklik etmədən kitabımızda yerləşdiririk:





-Müasir dünyada qadınların sosial-siyasi sahədə fəaliyyətinə, onların hüquqlarının qorunmasına və ictimai fəallıqlarının yüksəldilməsinə ciddi diqqət yetirilir. Eyni zamanda, hər bir cəmiyyətin həyatında qadınların tarixən özünəməxsus yeri olub. Azərbaycanda qadınların yeri və rolu həmişə böyük olub.

Azərbaycanlı qadınlar sülh yaradıb, qan davalarını dayandırıblar. Bütün cəmiyyətdə mehribanlığın bərqərar olmasına ciddi töhfələr veriblər. Müasir mərhələdə isə Azərbaycan qadınları dövlətin idarə edilməsində keyfiyyətcə yeni səviyyədə iştirak edir, siyasi, elmi, təhsil, iqtisadi, mədəni və başqa sahələrdə daha aktiv fəaliyyət göstərirlər. Bu mənada Azərbaycanın Birinci xanımı və Birinci vitse-prezidenti Mehriban xanım Əliyeva bütün qadınlar üçün örnəkdir.

Mehriban xanımın həyat fəaliyyəti üzərində geniş dayanmağa böyük ehtiyac duyuruq.

Azərbaycan cəmiyyətində qadınların həmişə öz yeri olub. Azərbaycanlılar üçün qadın hər şeydən öncə ana, həyat yoldaşı və bacıdır. Azərbaycan qadınlarının Vətəni kişilərlə birgə, çiyin-çiyinə qorumasının da saysız-hesabsız nümunələri vardır. Bununla yanaşı, tariximizdə qadınların dövlət işlərində, siyasətdə və diplomatiyada da böyük nümunə yaratdığı məlumdur.

Müstəqillik dönəmində qadınlar cəmiyyətin bütün sahələrində fəal çalışırlar. Mehriban xanım Əliyeva isə fəaliyyəti ilə sözün həqiqi mənasında bütün dünya qadınları üçün örnək ola bilər.

Təsadüfi deyil ki, Prezident İlham Əliyevin 21 fevral 2017-ci il tarixli sərəncamı ilə Mehriban xanım Əliyevanın Azərbaycan Respublikasının Birinci-vitse prezidenti vəzifəsinə təyin edilməsi cəmiyyət tərəfindən böyük razılıqla qarşılandı. Uzun illərdir ki, çoxşaxəli fəaliyyəti ilə Mehriban xanım müstəqil dövlətin və xalqın inkişafına böyük töhfələr verib. Azərbaycanın Birinci xanımının fəaliyyətini beynəlxalq təşkilatlar da yüksək dəyərləndirirlər.

Faktlarda bunu aydın görə bilərik. Belə ki, Mehriban xanım 2004-cü ildə UNESCO-nun, ondan cəmi iki il sonra İSESCO-nun xoşməramlı səfiri adına layiq görüldü. 2007-ci ildə "Qızıl ürək" beynəlxalq mükafatını alıb. Həmin ildə Dünya Səhiyyə Təşkilatının İhsan Doğramacı adına Ailə Sağlamlığı Fondunun mükafatına layiq görülüb. 2009-cu ildə Fransanın "Şərəf legionu" ordeninə və UNESCO-nun "Qızıl Motsart" medalına layiq görülüb. Mehriban xanım müxtəlif din mənsublarına xoş münasibət və qayğı göstərməklə də beynəlxalq aləmin diqqətini çəkib. Bu səbəbdəndir ki, Mehriban xanıma "Əsrlərin xeyriyyəçiləri" Beynəlxalq Fondunun "Yaqut Xaç" ordeni verilib. Rus Pravoslav Kilsəsi onu II dərəcəli Müqəddəs Mələksima Knyaginya Olqa ordeni ilə təltif edib.





Təbii ki, bir azərbaycanlı qadının həm ölkə daxilində, həm də beynəlxalq aləmdə yüksək qiymətləndirilməsi çox sevindiricidir. Mehriban xanım Əliyeva ilə bağlı daha önəmlisi, onun dövlət, millət və bəşəriyyət əhəmiyyətli proqramlar həyata keçirməsidir. Konkret desək, Azərbaycanın birinci xanımı dünya miqyasında qiymətləndirilən fəaliyyət göstərməkdədir.

Mehriban xanımın həyat yoluna nəzər saldıqda, daim mədəniyyət, xeyriyyə, qayğı, yardım etmə kimi humanist fəaliyyətdə olduğuna tam əmin oluruq. Uzun illərdir ki, Heydər Əliyev Fondunun Prezidenti kimi, vətənpərvərliyə, humanizmə, mərhəmətə, şəfqətliyə əsaslanan proqramları ilə böyük maraq doğurub. Fond Azərbaycanla yanaşı, regionda, Rusiya Federasiyasında, Asiya ölkələrində, Avropada çox humanist məzmunlu mədəniyyət layihələri reallaşdırmaqla böyük rəğbət qazanıb.

Bu xüsusda Heydər Əliyev Fondunun Gürcüstanda kilsələrə təmənnasız yardım etməsini vurğulamamaq mümkün deyil. Fondun birbaşa dəstəyi ilə Parisdəki Luvr muzeyində İslam incəsənəti bölməsinin yaradılmasını ayrıca qeyd etmək lazımdır. Versal sarayında isə Mehriban xanım tarixi incəsənət abidələrinin bərpası işlərini təşkil edib. Bunlardan

başqa, ikinci Dünya müharibəsi nəticəsində dağıdılmış Berlin qalasının və Vatikan arxivində saxlanılan nadir əlyazmaların da bərpasını Fond həyata keçirib. Vatikanda yerləşən qədim heykəllərin bərpası barədə italyanlar indi də razılıq hissi ilə danışırlar.

Roma şəhərində yerləşən Kapital Muzeyində "Filosoflar zalı"nı bərpa edən Heydər Əliyev Fondu bu sahədə ən böyük nailiyyətlərə belə imza ata bildiyini sübut edib.

Azərbaycanın Birinci xanımı ilk növbədə milli maraqların keşiyində duran xadimdir. Məhz Mehriban xanımın birbaşa təşəbbüsü ilə ənənəvi milli musiqinin, ədəbiyyat və poeziyanın inkişafı ilə bağlı olduqca mühüm proqramlar həyata keçirilir.

Azərbaycan muğam sənətinin dünayda tanıdılması üçün layihələr həyata keçirilib. Dünyanın müxtəlif ölkələrindən dəvət olunan tanınmış musiqiçilərin iştirakı ilə təşkil edilən musiqi festivalları və gecələri, ümumiyyətlə, mədəniyyətin sosial əhəmiyyətli yer tutan tədbirlərdəndir.

Mehriban xanım Əliyeva Azərbaycan mədəniyyəti, elmi və incəsənətinin bütün sahələrinə qayğı göstərir. Onun təşkilatçılığı ilə ölkənin tanınmış alimləri və incəsənət xadimlərinin təbliği istiqamətində əvəzedilməz proqramlar reallaşır. Bu sırada "Kitabi-Dədə Qorqud" dastanının 1300 illiyinin beynəlxalq miqyasda qeyd olunmasını, UNESCO-nun





"Dünya irs siyahısı"na İçərişəhər Şirvanşahlar Saray Kompleksi ilə birgə daxil edilməsini ayrıca qeyd etmək gərəkdir. O cümlədən Nəsirəddin Tusinin anadan olmasının 800 illik yubileyinin keçirilməsini vurğulamaq lazımdır.

Mehriban xanım məşhur şərqşünas alim Mirzə Kazımbəyin də 200 illik yubileyini keçirib. Bunlardan başqa, tanınmış rəssam Səttar Bəhlulzadənin, məşhur yazıçı və pedaqoq Mir Cəlal Paşayevin, akademiklər Yusif Məmmədəliyev və Musa Əliyevin 100 illik yubileylərinin keçirilməsinin də müəllifi məhz Mehriban xanım Əliyevadır.

Təbii ki, bütün bunlar həm də Azərbaycan mədəniyyətinin təbliğinə əvəzsiz töhfələr verir. Eyni zamanda dünya mədəniyyətinin bir hissəsi olan milli mədəniyyətimizin digər mədəniyyətlərlə qarşılıqlı əlaqəsinə daha geniş imkanlar açır və Azərbaycan mədəniyyətinə qəsd etmək istəyənlərin əl-qolunu bağlayır. Sirr deyil ki, bədnam qonşularımız daim Azərbaycan mədəniyyət nümunələrini öz adlarına çıxarmağa çalışıblar. Deməli Mehriban xanım milli mədəniyyətin təbliğatçısı olmaqla yanaşı, həm də onun fəal qoruyucusudur.

Yuxarıda vurğulananlardan aydın olur ki, Mehriban xanım Əliyevanın fəaliyyətinin digər mühüm aspekti mədəniyyətlər arasında əlaqələrin inkişaf etdirilməsidir. Heydər Əliyev Fondu konkret olaraq musiqi

təhsili və müxtəlif mədəniyyətlər arasında əlaqələrin inkişaf etdirilməsi ilə bağlı mühüm proqramlar reallaşdırır. Bununla da Mehriban xanım dünya mədəniyyətinin inkişafında, sivilizasiyalararası dialoqun möhkəmlənməsində böyük rol oynamış olur.

Doğrudan da, faktlar göstərir ki, milli mədəniyyətin qorunmasına və mədəniyyətlərarası əlaqələrin inkişafına böyük töhfələr verən Mehriban xanım həm də yüksək səviyyədə sivilizasiyalar və dinlərarası dialoqun reallaşması üçün böyük əmək sərf edir. Azərbaycanın Birinci xanımı sülh və tolerantlığın yayılması, bütün dünyada humanist dəyərlərin bərqərar olması üçün müntəzəm tədbirlər həyata keçirir.

Hələ 2005-ci ildə Parisdə UNESCO-nun 60 illiyinə həsr edilmiş "Sivilizasiyalararası dialoq" həftəsi çərçivəsində çıxış edən Mehriban xanım Azərbaycanın qlobal mədəni dialoqa töhfəsini verməyə hazır olduğunu ayrıca ifadə etmiş, Azərbaycanın Şərqlə Qərbin qovşağında yerləşən ölkə kimi bunun üçün geniş imkanlara malik olduğunu vurğulamışdı. Həmin sözlər Azərbaycanın Birinci xanımının keçirdiyi yüksək səviyyəli beynəlxalq tədbirlərdə öz ifadəsini tapmışdır.

2008-ci il iyunun 10-11-də Bakıda"Mədəniyyətlərarası dialoqda qadınların rolunun genişləndirilməsi" mövzusunda böyük tədbir keçirdi. 2009-cu ildə isə Bakı İslam mədəniyyətinin paytaxtı elan edildi. 2011-ci





ilin aprelin 7-8-də Bakıda Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumu yüksək səviyyədə təşkil edildi. Bütövlükdə mədəniyyətlərarası dialoqa həsr edilmiş bir neçə möhtəşəm beynəlxalq tədbirə Azərbaycan paytaxtı ev sahibliyi edib.

Mehriban Əliyevanın idmanın inkişafına verdiyi töhfələr hamıya məlumdur. Azərbaycanın Birinci xanımı 2002-ci ildən Azərbaycan Gimnastika Federasiyasının Prezidentidir. 2003-2004-cü illərdə ölkə beynəlxalq gimnastika yarışlarına ev sahibliyi edib. 2015-ci ildə isə Mehriban xanım Azərbaycanda birinci Avropa Oyunlarının və bədii Gimnastika üzrə Beynəlxalq Kubok yarışının uğurla keçməsində böyük rol oynayıb. O, "Eurovision" mahnı müsabiqəsi və IV İslam Həmrəyliyi Oyunları kimi mötəbər yarışların yüksək səviyyədə keçirilməsi işinə də bilavasitə rəhbərlik edib.

Yeri gəlmişkən onu da demək zəruridir ki, Mehriban xanımın idmana böyük diqqət yetirməsi təsadüfi deyil. Azərbaycan gənclərinin hərtərəfli inkişafı üçün çalışan Mehriban xanım gənc nəslin intellektual və fiziki inkişafı istiqamətində mühüm işlər görür. İndi hər bir Azərbaycan vətəndaşı tez-tez eşidir ki, Mehriban xanım təhsil, elm, incəsənət sahələrində müntəzəm olaraq proqramlar reallaşdırır. Yeni məktəblər inşa etdirir, təlim-tədris prosesinə lazımi şərait yaratmağa böyük dəstək verir. Bu as-

pektdə Heydər Əliyev Fondunun təşəbbüsü ilə həyata keçirilən "Yeniləşən Azərbaycana yeni məktəb" layihəsini ayrıca vurğulamaq lazımdır. Bu layihə çərçivəsində 2005-ci ildə 132 məktəb tikilib. 2006-cı ildə isə bu rəqəm 100 olub. Onların hamısı müasir tədris avadanlıqları ilə təchiz olunub.

Heydər Əliyev Fondunun "Təhsilə dəstək" layihəsi də həyata keçirdiyi işlərlə diqqəti çəkib. Bu layihə çərçivəsində qaçqın, məcburi köçkün ailələrindən olan birinci sinif şagirdlərinə çanta və məktəb ləvazimatı hədiyyə edilir, Qax, Zaqatala, Balakən rayonlarında tədrisin gürcü dilində aparıldığı məktəblərə yeni dərslik və tədris ləvazimatları göndərilir. Bu bağlılıqda Gürcüstanda yaşayan azərbaycanlı birinci sinif şagirdləri üçün də dərsliklərin və ləvazimatların çatdırılmasının xüsusi əhəmiyyəti olduğunu vurğulamalıyıq.

Azərbaycanın Birinci xanımı təhsil sahəsində beynəlxalq əməkdaşlığa ciddi diqqət yetirməkdədir. Belə ki, UNESCO-nun diqqətinin ölkənin təhsil problemlərinə cəlb olunması istiqamətində çox faydalı addımlar atılır. Məsələn, "Təhsil hamı üçün" proqramı reallaşdırılır ki, onun da çərçivəsində texniki-peşə sahəsində əməkdaşlıq, inkluziv təhsil layihəsi, ali məktəblərdə UNESCO kafedralarının yaradılması və digər sahələr üzrə çox əhəmiyyətli tədbirlər həyata keçirilir. Bunlar təhsilin məzmun-





ca yeniləşdirilməsinə və məktəblərdə informasiya texnologiyalarının geniş tətbiqinə ciddi töhfələr verir. Deyilənlərlə yanaşı, məhz Mehriban xanımın zəhməti sayəsində UNESCO Azərbaycanda məcburi köçkün və qaçqın ailələrində yaşayan uşaqların təhsil problemləri ilə bağlı müxtəlif layihələr hazırlayıb. Bu layihələrə təşkilatın baş direktoru rəhbərlik edir.

Mehriban xanım Əliyevanın həyat fəaliyyətini təhlil edən tədqiqatçılar bir məqamı xüsusi vurğulayırlar: Mehriban xanım təbiətən böyük humanist şəxsiyyətdir! Bu keyfiyyətin cilalanmasında və inkişafında Azərbaycanın Birinci xanımının böyüdüyü ailənin rolu çox böyük olmuşdur. Heç də təsadüfi deyil ki, Mehriban xanım 4 dəfə- 2007, 2009, 2013 və 2016-cı illərdə amnistiya təşəbbüsü ilə çıxış edib. Bu, Mehriban xanımın insan hüquq və azadlıqlarına necə həssaslıqla yanaşdığının təsdiqidir. Azərbaycan parlamentarizmi tarixində ilk dəfə olaraq Milli Məclisin deputatı tərəfindən irəli sürülən bu təşəbbüs geniş ictimai dəstək qazanıb. Çünki amnistiya aktı qanunverici tərəfindən ifadə olunan humanizm və mərhəmət hissinin mücəssəməsidir.

Azərbaycanın Birinci xanımı gənclərin fiziki və mənəvi sağlamlığı, milli-genetik ruhunun qorunması aspektində də çox səmərəli layihələr həyata keçirib. Onların sırasında sosial yönümlü layihələr ayrıca yer tutur. Bu bağlılıqda səhiyyə sahəsinə yardımların göstərilməsi önəm daşı-

yır. Mehriban xanım bu sahənin infrastrukturunun yeniləşdirilməsi və vətəndaşlara göstərilən tibbi xidmətin səviyyəsinin yüksəldilməsi üçün əhəmiyyətli addımlar atır. O, xüsusilə tibbi yardıma böyük ehtiyacı olan aztəminatlı vətəndaşlara yüksək diqqət və həssaslıqla yanaşır. Belə ki, "Diabetli uşaqlara ən yüksək qayğı" və "Talessemiyasız həyat naminə" layihələri cəmiyyətdə böyük rəğbətlə qarşılanıb. Mehriban xanım bu xəstəliklərdən əziyyət çəkən körpələrin və uşaqların şəfa tapmasına imkan yaradıb. İndi Talassemiya Mərkəzi minlərlə insanın ümid yerinə çevrilib.

Azərbaycanın Birinci xanımının humanistliyinə bir sıra xarici ölkələrə göstərdiyi yardımlar da dəlalət edir. ABŞ, Türkiyə, Rumıniya, Rusiya və başqa ölkələrdə Heydər Əliyev Fondu öz filialları vasitəsilə təbii fəlakətlərdən (zəlzələdən, torpaq sürüşmələrindən, yanğınlardan) ziyan çəkən insanlara yardımlar etməkdədir.Məsələn, 2012-ci il iyunun 14-də - Beynəlxalq Donorlar Günündə Pakistanın Həmzə Xeyriyyə Fonduna Heydər Əliyev Fondunun adından laboratoriya ilə təchiz olunmuş bir təcili tibbi yardım avtomobili verilib. Həmzə Xeyriyyə Fondu talassemiya, hemofiliya və qan xərçəngindən əziyyət çəkən xəstələrin müalicəsi ilə məşğul olan bir neçə xastəxananı özündə birləşdirir. Bunlarla yanaşı Mehriban xanım Pakistanda zəlzələ nəticəsində tamamilə dağılmış qızlar məktəbinin yenidən inşasına öz töhfəsini verib.





Bunlardan başqa, təbii fəlakətlərdən əziyyət çəkmiş Rumıniyaya və Haitiyə Azərbaycanın Birinci xanımının təşəbbüsü ilə yardımlar göstərilib. Azərbaycanın terrordan çox əziyyət çəkdiyini nəzərə alaraq, Heydər Əliyev Fondu 2011-ci ilin sentyabr ayında Fransa Terror Qurbanları Assosiasiyasına maliyyə yardımı edib. Həmin yardım Parisdə terror qurbanlarının7-ci beynəlxalq konfransının təşkili üçün ayrılıb...

Bütün bunlar Mehriban xanım Əliyevanın bir insan, şəxsiyyət və dövlət xadimi kimi necə yüksək keyfiyyətlərə malik olduğunu sübut edir. Deyilənlərlə yanaşı, Azərbaycan üçün həyati əhəmiyyətli hadisələr sırasında Mehriban xanımın Birinci vitse-prezident təyin edilməsi də xüsusi yer tutur. Bu təyinat, həm Mehriban xanımın şəxsi həyat fəaliyyətində, həm də Azərbaycan dövlətçiliyinin inkişafında ciddi bir hadisədir.

Məlumdur ki, vitse-prezidentlik institutu dünyanın bir sıra inkişaf etmiş ölkələrində mövcuddur. Azərbaycanda bu idarəetmə institutunun məhz indi tətbiq edilməsi əsasını Ulu öndər Heydər Əliyevin qoyduğu müstəqil dövlətçilik kursunun Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirməsinin əlamətidir. Şübhə yoxdur ki, vitse-prezidentlik institutu ölkəmizdə dövlət idarəçiliyini yeni səviyyəyə yüksəltməyə xidmət

edəcəkdir. Dövlət başçısının bütün sahələrdə həyata keçirdiyi strateji əhəmiyyətli islahatların daha çevik və yüksək səmərəliliklə həyata keçirəcəyinə böyük əminlik vardır. Azərbaycan xalqı bilir ki, dövlətimizin inkişafı etibarlı əllərdədir. Mehriban xanım Əliyeva da artıq Birinci vitse-prezident kimi bu istiqamətdə böyük işlər görür.

Mehriban xanımın Birinci vitse-prezident olması Azərbaycanda qadınların idarəetmədə geniş təmsil olunmalarının konkret göstəricilərindən biridir. Bütün dünya görür ki, ölkənin uğurla idarə edilməsində yüksək intellekt və ədalət nümunəsi olan azərbaycanlı qadın son dərəcə fəal iştirak edir. Bu sahədə Azərbaycanın Birinci xanımı bir nümunə kimi qəbul edilə bilər.

Birinci vitse-prezident kimi, Mehrban xanım siyasi idarəetməyə daha çox bağlı olan şəxsə çevrilib. Şübhəsiz ki, bu günə qədər Mehriban xanımın topladığı təcrübə, həyata keçirdiyi böyük layihələr onun artıq idarəetmədə də çox yüksək hazırlıqlı olduğunu göstərir. Bu bağlılıqda çox əhəmiyyətli bir məqamı da qeyd etməliyik. Məsələ ondan ibarətdir ki, Mehriban xanım Əliyeva Azərbaycanın "ağıllı güc"ünü təmsil edən şəxsiyyətlərdəndir. İndi dünyanın yüksək inkişaf etmiş dövlətləri üçün "ağıllı güc" faktoru aparıcı rol oynayır. Mehriban xanım da bütün fəaliyyəti boyu elm, mədəniyyət, incəsənət, humanizm, xeyriyyəçilik, şəfqətlilik kimi sahələrdə çox aktivlik göstərib. Azərbaycanın Birinci xanımı həm elmi dərəcəyə malikdir, həm də öz fəaliyyətində rasionallığı başlıca prinsiplərdən biri kimi tətbiq edir.





Məhz bütün bu kimi keyfiyyətlərə görə, Mehriban xanımın Azərbaycanın dünyada yüksək və qədim mədəniyyətə, müasir demokratik və ədalətli idarəetmə metoduna malik müstəqil dövlət kimi tanınmasında böyük xidmətləri vardır. Tam əminik ki, Birinci vitse-prezident kimi Mehriban xanım Əliyeva bundan sonra da var gücü ilə Azərbaycanın müstəqil dövlətçiliyi, millətin sosial-mədəni inkişafı, milli dəyərlərin qorunub saxlanması və inkişaf etdirilməsi naminə çalışacaqdır.

***

2016-cı il, avqust ayının 23-də Rusiya Federasiyasının Həştərxan vilayətində çıxan "Volqa" ictimai-siyasi qəzetində Azərbaycanın birinci xanımı Mehriban Əliyeva haqqında "Xeyirxahlıq rəmzi" sərlövhəli məqalə dərc olunmuşdur. Həmin məqalənin də oxucular tərəfindən maraqla qarşılanacağını düşünürük:

-Məşhur adamlar haqqında yazmaq çətindir. Öz ölkəsinin hüdudlarından uzaqlarda da məşhur olan insan barədə təzə nə demək olar? Axı Azərbaycanın birinci xanımı Mehriban Əliyevanı həqiqətən bütün dün-

yada tanıyırlar. Hər halda çox məşhur və eyni zamanda, bizə tanış olmayan bu qadının portretinə bəzi ştrixlər əlavə etməyə çalışacağıq.

Hər bir ensiklopediyada oxumaq olar ki, Mehriban Əliyeva-azərbaycanlı ictimai və siyasi xadim, Azərbaycan Prezidenti İlham Əliyevin xanımı, Azərbaycan Milli Məclisinin deputatı, Azərbaycan-Fransa Parlamentlərarası Əlaqələr üzrə işçi qrupun rəhbəri, Heydər Əliyev Fondunun və Azərbaycan Mədəniyyət Fondunun prezidenti, Azərbaycan Gimnastika Federasiyasının prezidenti, UNESCO və İSESCO-nun xoşməramlı səfiridir. Bəs bu statuslar siyahısının arxasında nə dayanır? Müasir, məlahətli, qeyri-adi dərəcədə gözəl qadını xeyriyyəçiliklə və ictimai fəaliyyətlə məşğul olmağa məcbur edən nədir? Təkcə həyat yoldaşının-Azərbaycan Prezidenti İlham Əliyevin vəzifəsinə "uyğun olmaq" istəyimi? Onun xarici görkəmi ilə bütün bu işlərdə iştirak etmədən də buna uyğun olmaq mümkün idi. Lakin mənə elə gəlir ki, hər bir insanın məqsədlərinin müəyyən yuxarı həddi, müəyyən həyat oriyentri var. İnsan öz həyatını ona müvafiq qurur. Əgər birisi mənzil-maşın-əmək haqqı şəklində firavanlıqla kifayətlənirsə, digəri üçün çox vacibdir ki, onun ətrafında xoşbəxt insanların sayı mümkün qədər çox olsun. Mehriban xanım məhz bu cür xadimlərdəndir. O, məhz bunu istəyir. Buna görə də mədəniyyət, səhiyyə, elm, təhsil, idman, ekologiya sahələrində çoxsaylı huma-





nitar layihələrdə iştirak etməklə çox böyük sayda insana kömək edir. Bunu açıq ürəklə, təmiz qəlblə edir- bunu yalnız xeyirxah insanlar edə bilər. Yeri gəlmişkən, bu gözəl qadının adının mənası da "xeyirxahlıq, şəfqət, səmimiyyət, açıqlıq" deməkdir.

Mehriban xanım ixtisasca həkimdir, vaxtilə məşhur Seçenov İnstitutunu fərqlənmə diplomu ilə bitirib. İllər keçəndən sonra ona Seçenov adına birinci Moskva Tibb Universitetinin fəxri professoru adı verilib və Mehriban Əliyeva bu münasibətlə keçirilən təntənəli mərasimdəki çıxışında həkimlik peşəsi barədə çox qiymətli sözlər söyləyərək deyib: "Bu, ürək və qəlb peşəsidir. Bu, başqasının halına yanmaq və şəfqət elmidir. Bu, başqasının iztirablarına şərik olmaq bacarığı, köməyə ehtiyacı olan insana yardım əli uzatmaq bacarığı, altruizmidir.

O, özünün hər bir fəaliyyətində, o cümlədən Heydər Əliyev Fondunun prezidenti vəzifəsində də məhz bu prinsiplərə əsaslanaraq çalışır, Heydər Əliyev Fondu 2004-cü ildə yaradılıb. Fondun işinin ilk günlərindən onun fəaliyyətinin prioritet istiqamətləri müəyyən edilib: təhsil, səhiyyə, gənc nəslə kömək, ətraf mühitin qorunması, Azərbaycanın zəngin mədəni irsinin təbliği, mədəniyyətlərarası əməkdaşlıq sahəsində layihələr. Fondun dəstəyi ilə Azərbaycanın ucqar bölgələrində 200 müasir məktəb tikilib, səhiyyə sahəsində layihələr, o cümlədən ürək-damar xəs-

təliklərindən əziyyət çəkən, dayaq-hərəkət aparatında problemləri olan uşaqlara kömək layihələri həyata keçirilib, musiqi festivalları və idman bayramları təşkil edilir, istedadlı gənclər fəal dəstəklənir. Bütün bunlar Fondun ölkə daxilindəki fəaliyyətinin az bir hissəsidir. Lakin Heydər Əliyev Fondu xarici ölkələrdə- Pakistanda, Rumıniyada, İtaliyada, Fransada, Haitidə də layihələr həyata keçirir. Heydər Əliyev Fondunu Rusiya, xüsusən Həştərxan vilayəti ilə sıx münasibətlər bağlayır.

Heydər Əliyev Fondunun dəstəyi ilə regionumuzda nə işlər görüldüyünü biz həştərxanlılar yaxşı bilirik. İki dövlət arasında dostluq münasibətləri kontekstinə Privolje körfəzi, sahil küçəsi, Heydər Əliyev adına park, yeni Dostluq körpüsü, uşaqlar üçün oyun şəhərciyi- Həştərxan uşaqlarının sevimli istirahət yeridir. Eyniadlı məbədin yaxınlığında abadlaşdırılmış meydanda mələksima Knyaz Vladimirin abidəsi, əsaslı təmir edilmiş 11 nömrəli orta ümumtəhsil məktəbi, bu yaxınlarda ilk sakinlərini qəbul etmiş yeni gözəl uçaq baxçası, Nərimanov şəhərindəki park... Fondun bizim regionda həyata keçirdiyi və həyata keçirməkdə davam etdiyi bütün bu dəyişikliklərin ilham mənbəyi Heydər Əliyevi həmişə məşhurlaşdıran xeyirxah işləri ləyaqətlə davam etdirən Mehriban Əliyevadır.





Heydər Əliyevin adını daşıyan 11 nömrəli orta məktəbin şagirdləri və müəllimləri artıq neçə ildir ki, yay və qış tətillərini Bakıda keçirir, ən yaxşı şagirdlər Fonddan təqaüd alırlar.

Kişilər məni bağışlasın, amma dostluq münasibətlərinin bu cür davamını yalnız qadın təklif edə bilərdi. Mehriban xanım həmişə müxtəlif bölgələrdə uşaqların necə yaşamasına, onların nəyə ehtiyacı olmasına, bir qadın və ana kimi onun fikrincə bu uşaqları nə ilə sevindirmək olacağına fikir verir. 11 nömrəli məktəbin direktoru Tatyana Tixomirova deyir: "Bakıda keçirilən tətillər elə bir bayramdır ki, bizim uşaqlar onu bəlkə də ömürlük yadda saxlayacaqlar. Bu bayramı yalnız səxavətli və xeyirxah ürəkli insan hədiyyə edə bilər. Şübhə yoxdur ki, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyeva məhz belə insandır. Bizim məktəbə göstərdiyi daimi diqqətinə görə sağ olsun"

Məsəl var: "Dostunun kim olduğunu de, mən sənin kim olduğunu deyim". Eyni qayda ilə birisinin uşaqlarını tanıyanda həmin adamın özü barəsində mühakimə yürtmək olar. Əliyevlər cütlüyünün üç övladı və artıq dörd nəvələri var. Bütün uşaqlar yaxşı tərbiyə və təhsil alıblar. Lakin Həştərxanlılar Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyevanı şəxsən tanıyırlar. Mehriban xanımın böyük qızı bir neçə dəfə Həştərxana gəlib

və onun səfərləri həmişə regionun həyatında və iki ölkənin qarşılıqlı münasibətlərində mühüm hadisələrlə əlamətdar olub. Həştərxanlılar Leylanı əslində öz həmyerliləri hesab edirlər.

Gözəl Leyla Fondun işində anasının əsas köməkçisidir. Əgər Mehriban xanım bizim regionda Fondun fəaliyyətinə nəzarət etməyi qızına həvalə edirsə, deməli, ona tam etibar edir. Etimad isə yalnız yaxın insanlara, sənin fəaliyyət xəttini qəbul edən, sənin hərəkətlərini bəyənən, birgə məqsəd və vəzifələri anlayan insanlara göstərilə bilər. Mehriban xanım ləyaqətli qız tərbiyə edib, ona gözəllik və ağıl ilə bərabər, həm də laqeydlikdən uzaq ürək bəxş edib. Əliyevlərin üç övladı onları tanıyanların hamısına xeyirxahlıq və sevgi bəhrəsi verən bir ağacın budaqları kimidir. Mehriban xanımın analıq sevgisi əsas işini görüb: o, öz uşaqlarına insanları sevməyi və bu sevgini bölüşməyi öyrədib, çünki bu hiss olmasa xeyirxah işlər görmək mümkün deyil.

Mehriban Əliyevanın "sandığında" nüfuzlu mükafatlar az deyil. 2005-ci ildə o, "İlin qadını" adına layiq görülüb. Mehriban Əliyeva "Şərəf Legionu" ordeni ilə təltif edilib. O, dünyada "Yaqut Xaç" ordeni ilə mükafatlandırılmış ilk qadındır. Azərbaycan Prezidentinin xanımı bu mükafatı "Yüzilliyin mesenatları" Beynəlxalq Xeyriyyə Fondundan alıb. Lakin Mehriban





Əliyevanın özünün dediyi kimi o, həyata keçirdiyi geniş xeyriyyəçilik fəaliyyətinə görə ona təqdim edilmiş "Qızıl ürək" Rusiya mükafatını bütün başqa mükafatlardan artıq qiymətləndirir. Ona "Birlik ulduzları" nominasiyasında dövlətlərarası mükfat da verilib. Bu təltifə əlavə edilən pul mükafatını Mehriban xanım doğma Seçenov İnstitutunun elmi bazasının inkişafına yönəldib.

Onun çoxsaylı təltifləri arasında "Həştərxan vilayəti qarşısında xidmətlərinə görə" ordeni də var. Azərbaycanın Birinci xanımına bu ordeni 2014-cü ilin oktyabr ayında Həştərxan vilayətinin qubernatoru Aleksandr Jilkin təqdim edərək vurğulayıb ki, regionun Fond ilə əməkdaşlığı gözəl mehriban qonşuluq münasibətləri nümunəsidir. Bu nümunə sübut edir ki, müxtəlif millətlərdən olan insanlar, müxtəlif ölkələrin nümayəndələri bir dildə-sülh və dostluq dilində danışa bilərlər.

Mehriban xanımdan soruşsanız ki, onun üçün əsas təltif nədir, cavabında eşidərsiniz: insanların hörməti. Planetimizin müxtəlif guşələrindən minlərlə insan Mehriban xanıma həqiqətən çox qiymətli olan bu hədiyyəni bəxş edir- onun tükənməz xeyirxahlığına, səmimiyyətinə və dünyamızı yaxşı, daha təmiz və daha gözəl etməyə çalışdığına görə.

Avqustun 26-sı Mehriban Əliyevanın doğum günüdür. Adətən qadınlar öz yaşlarını gizlədir. Biz də bu ənənəni pozmayacağıq, hərçənd hansı tarixi desək, ona inanmaq çətindir. Mehriban xanım çox gənc görünür, o, qeyri-adi dərəcədə gözəldir (bəlkə də gəncliyində olduğundan da gözəldir), onun gözlərindən nur yağır. Gözlərin nurlu olması isə xoşbəxtliyin ən dəqiq əlamətidir. Qoy bu xoşbəxtlik uzun müddət davam etsin! Doğum gününüz mübarək, Mehriban xanım!





## DAR GÜNÜN HƏMDƏMİ

Mehriban xanım Əliyevanın bir fikri onun ürəyinin nə qədər nəcib və xeyirxah olduğundan xəbər verir: "Mən əminəm ki, cəmiyyətdə bütün ağır, çətin problemləri xeyirxahlıqla, insansevərliklə, mərhəmətlə həll etməyə çalışmaq lazımdır".

Onu hamı sevir. Vətəninə və xalqına sonsuz məhəbbətinə... O, doğma Azərbaycanın ən böyük təəssübkeşlərindən biri, millətimizin xoşbəxt gələcəyinə hesablanan bir çox layihələrin müəllifidir.

Birinci xanım adını şərəflə daşımaq, dünya birliyində Azərbaycanın mövqeyini hər zaman qorumaq, uşaqdan böyüyə qədər hamının qayğısına qalmaq, cəmiyyətimizdəki problemlərin həllinə öz qətiyyəti və cəsarəti ilə nail olmaq... Bir sözlə, son dərəcə məsuliyyətli, həm də gərgin fəaliyyət sferası... Bütün bunlar onun həyatının ayrılmaz parçası, həm maraqlı anları və məqamlarıdır. Elə buna görə də o, xoşbəxtdir. Çünki onun ipək kimi ürəyi var.

"Mən nəyi deyirəmsə, çalışıram onu həyata keçirim" deyən Azərbaycanın Birici xanımı Mehriban Əliyevanın fəaliyyətində başlıca meyar deyilən sözün həyatda öz təsdiqini tapmasıdır. Bu, xalqımızın Ümumilli lideri Heydər Əliyevin yürütdüyü siyasətin əsas prinsiplərindən olmaqla onun qurduğu siyasət məktəbinin ən uğurlu yetirmələrindən olan Mehriban Əliyevanın da fəaliyyətində başlıca meyara çevrilib. Bu meyarın təməlində isə müasir Azərbaycanın və hər bir azərbaycanlının həyatında və taleyində silinməz iz qoymuş böyük simanın, dahi şəxsiyyətin əməllərinin yaşadılması və gənc nəslə ötürülməsi dayanır.

Mehriban Əliyevanın özü isə böyük müəlliminə olan hörmətini və ehtiramını bu cür ifadə edir:

**"Səksən il sürən bu şərəfli həyat hər birimizin taleyində silinməz iz qoyub. Prezident Heydər Əliyevin fəaliyyəti nəticəsində biz bu gün müstəqil, günü-gündən güclənən, inkişaf edən, dünya birliyində layiqli yer tutan Azərbaycanda yaşayırıq. Heydər Əliyev nailiyyətləri, Heydər Əliyev qələbələri və zirvələri Azərbaycanın tarixində və Azərbaycan xalqının ürəyində əbədi yaşayacaq və gələcək nəsillər üçün mərdlik, müdriklik, vətənpərvərlik nümunəsi olacaq".**





Mehriban Əliyevanın fəaliyyətində əsas rolu ölkənin birinci xanımı olmaq satusu və yaxud da ictimaiyyət arasında daha çox olmaq elementi oynamır. Mehriban Əliyeva Prezidentin həyat yoldaşı kimi dövlət başçısının məsuliyyətini onunla birgə bölüşür. Bu, çətin olduğu qədər də şərəflidir. Xalq bu amili yetərincə dəyərləndirir. Görünən və təbii ki, həyatda təsdiqini tapan əsas məqam odur ki, Mehriban Əliyeva yalnız özünü və ailəsini yox, həm də ölkəsini və xalqını təmsil etməyin nə qədər mühüm və məsuliyyətli olduğunu anlayır. Sözlər, hərəkətlər və ən nəhayət onun fəaliyyəti... Bütün bunlar son dərəcə dəqiq ölçülüb, biçilib. Mehriban Əliyeva bütün fəaliyyəti ilə təsdiqləyir ki, o, ailəsi qədər xalqına da layiq xanımdır.

2003-cü ildə Prezident seçkilərində bütün rəqiblərinə qalib gələrək siyasi mübarizədən uğurla çıxan İlham Əliyevin yanında olan, dövlət başçısının həyata keçirdiyi fəaliyyətdə yardımçı funksiyasını şərəflə yerinə yetirən Mehriban Əliyeva Azərbaycanda ilk dəfə birinci xanım institutunun formalaşması yolunda qətiyyətli addım atdı. O addım ki, qısa zaman kəsiyində birinci xanım olmağın nümunəsini bütün dünyaya nüma-

yiş etdirdi və beynəlxalq diqqəti Azərbaycana yönəltdi. Təbii ki, bu məsələdə Mehriban Əliyevanın fəaliyyəti həlledici oldu.

2004-cü ildə Heydər Əliyev Fondunun təsis edilməsi və fəaliyyətə başlaması Azərbaycanda böyük ənənələri və tarixi olan xeyriyyəçilik məktəbinin yenidən dirçəlməsi və yaşadılması ilə müşayiət olundu. Bu hərəkatın önündə isə Heydər Əliyev Fondunun Prezidenti Mehriban Əliyeva gedirdi. O, fəaliyyətinin elə ilk dövrlərində sübut etdi ki, əlçatmaz xəyalların və arzuların reallaşması insan fenomeninin gücünə mümkündür. Ona görə də bu, Mehriban xanım üçün təkcə yüksək vəzifə borcu kimi qalmadı, özünü insani mənada daha geniş əks etdirdi. Bu fəaliyyət vətənsevərliyə, iradəyə və qüdrətə kökləndi. Bir sözlə, Heydər Əliyev Fondunun yaradılması Azərbaycan dövlətinin cəmiyyətə ünvanlanan ali məqsədlərinin reallaşdırılması yolunda tarixi nailiyyətə çevrildi.

Yarandığı gündən fondun qarşısına qoyduğu məqsədlər xüsusi çəkisi ilə fərqləndi. Mehriban Əliyevanın rəhbərlik etdiyi fond cəmiyyəti narahat edən, Azərbaycan vətəndaşlarının həyatı, sağlamlığı, təhsili ilə bağlı olan bütün sahələrə diqqət yönəltdi. Məqsədlər o qədər aydın və ali oldu ki, qısa vaxtda Heydər Əliyev Fondu yardıma ehtiyyacı olan hər bir kəsin ümid yeri və istinadgahına çevrildi.





Uşaqlar... Onların hər zaman himayəyə və qorunmağa ehtiyacı var. Azərbaycanın birinci xanımı Mehriban Əliyeva da nəcib missiyası ilə bütün Azərbaycan uşaqlarının ən böyük dostu və ən böyük himayədarıdır. Valideyn himayəsindən məhrum olan uşaqları hər zaman diqqətdə saxlayan Mehriban xanım əslində, bu addımları ilə Azərbaycanın xoşbəxt gələcəyinin yanında olduğunu hər dəfə təsdiqləyir. Rəhbərlik etdiyi Heydər Əliyev Fondunun həyata keçirdiyi "Uşaq evlərinin və internat məktəblərinin inkişafı" proqramı bu kateqoriyadan olan uşaqların həyat şərtlərinin dəyişməsi, onların hər zaman diqqət və qayğı ilə əhatə olunmasına geniş imkanlar açdı.

Mehriban Əliyeva həm də Azərbaycan mədəniyyətinin təbliği və inkişafı istiqamətində həyata keçirilən nəhəng layihələrin müəllifi kimi çıxış edir. O, milli mədəniyyətimizin ən böyük hamisi kimi Azərbaycan musiqisinin təbliğinə xüsusi diqqət yetirir. O, bir vaxtlar məhv olmaq təhlükəsi qarşısında qalan muğam sənətinin yenidən həyata qayıtmasında, onun layiq olduğu yerdə dayanmasında əvəzsiz xidmətləri ilə diqqət çəkdi. UNESCO-nun "bəşəriyyətin şifahi və qeyri-maddi irsinin şah əsərləri" siyahısına daxil edilən və Azərbaycan mədəniyyətinin vizit kartı, xalqımızın malik olduğu milli mədəniyyətin koloriti, hər birimizin

mənəvi zövqü və qidası olan muğamın yaşadılması da məhz Mehriban Əliyevanın xidmətləri sayəsində mümkün oldu.

Bu gün Azərbaycan musiqisinin, mədəniyyətinin inciləri dünyanı gəzir, xalqımızı və ölkəmizi dünyada təbliğ edir. Bu sənət nümunələri Azərbaycanın nə qədər zəngin mədəniyyətə sahib olduğunu göstərir. Görkəmli Azərbaycan alimlərinin, şairlərinin və elm adamlarının xaricdə təbliğinə xüsusi diqqət yetirən Mehriban Əliyevanın səyləri nəticəsində zəngin musiqimizin nadir nümunələri də dünya tamaşaçılarını heyran qoyur.

İndi Azərbaycan da möhtəşəm konsert proqramlarının, beynəlxalq festivalların keçirildiyi məkan kimi dünyanın diqqətini cəlb edir. Dünya musiqi xəzinəsinin inciləri Azərbaycana gəlir. Dünya şöhrətli sənətkarların, musiqi xadimlərinin Azərbaycanda verdikləri konsertlər, Bakıda və bölgələrdə reallaşan beynəlxalq musiqi festivalları ölkəmizin mədəni dəyərlərə sadiqliyini bir daha nümayiş etdirir. Heydər Əliyev Fondunun təşəbbüsü ilə Qəbələdə keçirilən Beynəlxaq Musiqi Festivalının timsalında deyə bilərik ki, Azərbaycan dünya musiqi irsinin ən dəyərli nümunələrini yaşatmağa və onları layiqincə qiymətləndirməyə qadir ölkədir və Azərbaycanın malik olduğu dəyərlər bu sahədə də ölkəmizə layiq olduğu yerdə dayanmağa imkan verir. Mehriban Əliyeva öz fəaliyyəti ilə sübut edir ki, xalqları bir-birinə yaxınlaşdıran ən mühüm bağlardan biri mədənəiyyət və incəsənətdir.





Mehriban Əliyeva ictimai xadim kimi də Azərbaycan cəmiyyətinin problemlərinə diqqətlə yanaşır, ictimaiyyətin narahatlığına səbəb olan məsələlərin həllində ortaya əsl vətəndaş mövqeyi qoyur. O, millət vəkili kimi öz seçicilərinin problemlərini heç vaxt diqqətdən kənarda qoymamış, seçildiyi dairənin sosial çatışmazlıqlarının həllində mühüm rol oynamışdır. Onun rəhbəri olduğu Heydər Əliyev Fondu parlamentə əfv fərmanlarının imzalanması ilə bağlı müraciətlər etmişdir. Mehriban Əliyevanın üzərinə götürdüyü bu nəcib və xeyirxah missiyası onu da təsdiqləyir ki, xeyirxahlıq və haqq-ədalət amallarına xidmət etməklə təmənnasız, fədakar bir həyat nümunəsi göstərmək kimi əməllər heç vaxt unudulmur. O, özü isə bu haqda belə deyir:

**"Allahın insana verdiyi ömür hər bir şeydən uca və dəyərlidir. Hər bir insan ləyaqətlə, azad yaşamağa layiqdir. Eyni zamanda, hər bir insan öz ömrünün, taleyinin hökmdarıdır. Səhv etmiş, yolunu azmış insanlara həyatda yeni şans verməklə, onları bağışlayıb cəmiyyətə qaytarmaqla biz onlara yenidən həyatın, azadlığın dəyərini dərk etməyə,**

**öz səhvlərini anlayıb doğru yola qaytarmağa kömək edirik. Mərhəmətlilik, genişqəlblilik, xeyirxahlıq, bağışlamaq bacarığı hər zaman ən ali və insani keyfiyyətlər kimi qiymətləndirilmişdir".**

Azərbaycanın birinci xanımına, Birinci vitse-prezidentinə beynəlxalq miqyasda diqqət yetərincə böyükdür. Bu da Mehriban Əliyevanın və onun rəhbəri olduğu Heydər Əliyev Fondunun Azərbaycanda və xaricdə həyata keçirdiyi uğurlu missiya ilə bağlıdır. Çünki Mehriban Əliyeva dünyada baş verən proseslərə biganə qalmır, o, bəşəriyyəti və insanlığı narahat edən ciddi problemlərin həllinə çalışır. Onun Azərbaycanda təşkil etdiyi beynəlxalq forumların, konfransların mövzusu qlobal məsələlərə, müdafiəyə daha çox ehtiyacı olan təbəqələrin- qadınların və uşaqların hüquqlarının qorunmasına həsr olunur.

**"Həyatda hər bir kəsin yerini və taleyini tarix müəyyənləşdirir. Odur ki, nə böyük, nə də kiçik rollar olmaz. Öz həyat kitabını yazmağa ancaq sənin şəxsi və dərk edilmiş məsuliyyətin imkan verir. Kimsənsə elə də olmalısan. Bax, budur bizim həyatımız!"** deyən Mehriban Əliyeva Azərbaycan tarixinə xalqına sonsuz məhəbbəti, gördüyü əzəmətli quruculuq işlərinin miqyası və xeyriyyəçilik əməlləri ilə daxil olub. Çünki Mehriban Əliyeva həyat yolunu və fəaliyyət dairəsini özü müəyyənləşdirib. O, xeyirxahlıq yolunu seçib, yardıma ehtiyacı olan hər kəsin yanında olmaq onun həyat amalıdır.





İnsanlarda daha çox alicənablığı, ləyaqəti, səmimiyyəti, mehribanlığı, ağıl və peşəkarlığı qiymətləndirən Azərbaycanın birinci xanımı, Birinci vitse-prezident xarici mediada bu cür təqdim olunur:

"Bizim mürəkkəb və ziddiyətli dünyamızda qadın olmaq çətindir. Gözəl qadın olmaq daha çətindir. Mütləq əksəriyyətin fikrincə, həm gözəl, həm də ağıllı olmaq, demək olar ki, mümkün deyil. Amma həyatda istisnalar olur. Söhbət birinci ledidən gedəndə, bu xüsusilə xoşdur".

Bir sözlə, Azərbaycanın birinci xanımı, Birinci vitse-prezidenti, Prezident İlham Əliyevin ən yaxın silahdaşı kimi xalqımızın rifahı naminə çətin və gərəkli yoldadır.

Koronavirus (COVİD-19) pandemiyası ilə əlaqədar xüsusi karantin rejiminin tədbiq olunduğu dövrdə dövlət tərəfindən həyata keçirilən tədbirlərə dəstək məqsədilə Heydər Əliyev Fondunun başladığı sosial aksiya bir daha sübut edir ki, çətin gündə, dar məqamda dost kimdir, düşmən kim. "Biz birlikdə güclüyük" şüarı ilə keçirilən aksiyanın məqsədi karantin rejimi dövründə aztəminatlı və digər həssas kateqoriyadan olan ailələri və onlara sosial yardım göstərmək istəyən şəxsləri bir araya gətirmək və bu işdə vətəndaş həmrəyliyini genişləndirməkdir.

Bu ilin aprel ayının 28-dən layihə çərçivəsində Fondun "Regional inkişaf" İctimai Birliyinin Könüllüləri tərəfindən Bakı, Gəncə şəhərlərində, Lənkəran, Masallı, Cəlilabad rayonlarında aztəminatlı və digər həssas kateqoriyadan olan ailələrə ərzaq sovqatları paylanmışdır.

Ərzaq bağlamaları layihə üzrə istifadəyə verilmiş "bizbirlikdəgüclüyük.az" portalına daxil olan müraciətlər əsasında ünvanlara çatdırılmışdır.

Qeyd edək ki, portalın məqsədi karantin rejimi dövründə aztəminatlı və digər həssas kateqoriyadan olan ailələri və onlara yardım göstərmək istəyən şəxsləri virtual məkanda bir araya gətirmək və bu işdə vətəndaş həmrəyliyini genişləndirməkdir.

Layihənin əsas donoru Heydər Əliyev Fondudur. Aksiyanın əsas dəstəkləyicisi Azərbaycan Dövlət Neft Şirkəti və "Pasha Holding" MMC-dir.

Layihəyə bu günədək Bakı Şəhəri İcra Hakimiyyəti, Azərbaycan Həmkarlar İttifaqları Konfedrasiyası, "Yeni Həyat" Şirkətlər Qrupu, "Kontakt Home" mağazalar şəbəkəsi, "Kristal Abşeron" MTK, "Plane Construction" MMC, "FAB Boya və Kimya Sənayesi" MMC, "Tekfen" şirkəti, "Azəralüminium" MMC, "Fortis" MTK, "Leading Supplhy Solitions" MMC və "İmproteks" MMC dəstək göstərib...





Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyevanın may ayının əvvəlində Pandemiya ilə əlaqədar xalqa müraciəti çox böyük maraq doğurdu. Müraciətdə deyilir:

**-Hörmətli həmvətənlər!**

**Sizinlə ölkəmizdə COVİD-19 epidemiyasının hazırkı vəziyyəti ilə bağlı fikirlərimi bölüşmək istəyirəm. Keçdiyimiz yolu dəyərləndirərək bu gün artıq deyə bilərik ki, bu şiddətli virus hücumu başlayanada onun real miqyasını, təhlükə dərəcəsini və törədə biləcəyi fəsadları qiymətləndirmək və dərk etmək üçün çox az məlumat var idi. Bir şey aydın idi- bütün imkanları səfərbər etmək və qəti tədbirlər görmək lazım idi. Əminliklə təsdiqləyə bilərik ki, ölkəmiz bu vəzifənin öhdəsindən şərəflə gəldi. Həm azərbaycanlı, həm də beynəlxalq ekspertlərin fikrincə, Azərbaycan epidemiyanın ilk və olduqca təhlükəli mərhələsindən ən az sayda itkilərlə çıxan dövlətlər sırasında yer alıb. Biz ən əsas məsələlərə- virusun sürətli yayılmasının qarşısını almağa, epidemiya ilə mübarizənin bütün aspektlərini əlaqələndirən peşəkar komanda yaratmağa,**

lazımi texniki və insan resurslarını birləşdirməyə müvəffəq olduq.
Sərt karantin tədbirləri sayəsində koronavirusun yayılma sürətini azaltmağı bacardıq. Səhiyyə sistemi qısa müddət ərzində təhlükəli epidemiyaya qarşı effektiv müqavimət strategiyası işləyib hazırladı. Şəhərlərin və kəndlərin həyat təminatı obyektlərinin işçiləri təxirəsalınmaz məsələləri həll edirdilər. Kiçik və orta biznesə dəstək, habelə əhaliyə sosial yardım məqsədilə dövlət tərəfindən dəyəri 3 milyard manatdan çox olan proqram paketləri hazırlanıb həyata keçirilir.
Bir sözlə, vaxtında görülmüş və düşünülmüş tədbirlər sayəsində ölkəmiz özünü, həqiqətən də, faciəli ssenaridən qurtara bildi.
Əməyi uğurlarımızın qarantı olan hamıya və hər kəsə dərin minnətdarlığımı bildirmək istəyirəm.
Çətin sınaq günlərində xalqımız bir daha ən yaxşı xüsusiyyətlərini nümayiş etdirdi və bu, sonsuz təşəkkürə layiqdir. Biz öz vətənimizin təhlükəsizliyinin qayğısına qalırdıq və qalırıq, təhlükəsizliyə qarşı yenilməz birlik





nümayiş etdiririk. Əziz həmvətənlərim, biz birlikdə xəstəliyin məhvedici dərəcədə tez yayılmasından öz evimizi qoruya bildik. Buna görə çox sağolun!
Bizim cəsarətli tibb işçilərimizə- həkimlərə, tibb bacıları və qardaşlarına, laborantlara, xəstəxana və klinikaların texniki heyətinə, gecə-gündüz insanların həyatı və sağlamlığı naminə mübarizə aparmağa davam edən hər kəsə bir daha səmimi və sonsuz təşəkkürümü ünvanlayıram.
Polislərə və daxili qoşunların hərbi qulluqçularına dərin təşəkkürümü bildirirəm. Axı bu çətin günlərdə asayişi, təhlükəsizliyi və karantin tədbirlərinə əməl olunmasını məhz onlar təmin edirlər.
Heydər Əliyev Fondunun, “Regional İnkişaf” İctimai Birliyinin bütün əməkdaşlarına, sosial işçilərə və könüllülərə təşəkkür edirəm. Bu məsələyə laqeyd yanaşmayan bütün insanlara, yaxınlarına kömək göstərən, xeyirxahlıq edən hamıya münnətdaram. Uca Tanrı yaxşı əməl sahiblərinin savabını artıracaqdır!
Əziz dostlar!

Müsbət nəticələr sayəsində biz təcrid rejiminin müəyyən dərəcədə yumşaldılmasına imkan verə bilərik. Bir sıra dövlət qurumlarının və özəl biznes sektorunun fəaliyyəti bərpa olunur. Daha əvvəl tədbiq olunan bəzi karantin tədbirləri ləğv edilir. Bu, o deməkdirmi ki, hər şey arxada qaldı və biz gündəlik həyatımıza geri dönə bilərik? Əfsuslar olsun ki, həmin vaxt hələ gəlib çatmayıb. Bəli, biz ilk döyüşdə qalib gəldik, amma pandemiya ilə müharibə hələ davam edir- bizim ölkəmizdə və bütün dünyada. Bütün ölkələrə və xalqlara bu qədər bəla və əzablar yaşadan virus hələ məğlub olmayıb. O, əvvəlkidək hamı üçün ciddi təhlükə olaraq qalır və əvvəlkitək bizim aramızdadır.

COVİD-19-a qarşı vaksinin nə zaman hazırlanacağını və xəstəliyin tez və effektiv müalicə üsulunun nə vaxt yaranacağını bu gün dəqiqliklə heç kim deyə bilmir. Hələ ki, bu, baş verməyib, hamımız dərk etməli və qəbul etməliyik ki, biz bu yeni reallıqla yaşamalıyıq. Biz heç bir halda sayıqlığımızı itirməməli, ümidverici rəqəmlər fonunda səhlənkarlığa imkan verməməliyik. Belə vəziyyətlə





nail olduğumuz nəticələri sıfıra endirərək itirmək yolverilməzdir. Laqeydlik hər birimizə, bizim yaxınlarımıza, bizim ölkəmizə real təhlükə törədəcəkdir. Biz hamımız yeni qaydalarla yaşamağa öyrənməliyik. Əslində bu qaydalar elə də çətin deyil- məsafə saxlamq, qoruyucu vasitələrdən istifadə etmək, tez-tez əlləri yumaq. Tərəzinin digər gözündəki həyat və sağlamlığımızdır. Yeni acı həqiqət budur və bununla Prezidentdən başlayaraq siravi vətəndaşlaradək hamı hesablaşmaq məcburiyyətindədir.

Əziz həmvətənlər!

Şübhəsiz ki, COVİD-19 adlı qorxulu hekayənin geridə qalacağı gün gələcək. Çox ümidvaram ki, həmin gün uzaqda deyil. Amma hələ ki, o gün gəlməyib, hörmətli qardaşlar və bacılar. Xahiş edirəm sayıq və intizamlı olun, yeni qayda və tələblərə tam ciddiyətlə yanaşın. Özünüzdən və yaxınlarınızdan muğayat olun! Bizim sevimli vətənimizi, bizim Azərbaycanımızı qoruyun!

## "İNSANIN VƏ İNSANLIĞIN ÖZÜ- MEHRİBAN ƏLİYEVA"

Azərbaycanın Birinci vitse-prezidenti Mehriban xanım Əliyeva haqqında çox məqalələr yazılıb; istər xaricdə, istər Azərbaycanda. Hamısının da dəyəri çox yüksəkdir, amma onların içərisində biri ruhən daha şirin təsir bağışlayır. Biz bu şirinliyi duyduğumuz üçün istədik kitabımızın oxucularının öhdəsinə həmin-"İnsanın insanlığın özü-Mehriban Əliyeva" məqaləsini olduğu kimi təqdim edək. "525-ci qəzet"in 28 avqust 2018-ci il tarixində işıq üzü görmüş bu məqalənin müəllifi millət vəkili, professor Jalə Əliyevadır.

İnsanlar həyatda təxminən üç qrupa bölünür: insanlar var ki, dünyaya səssiz-səmirsiz gəldikləri, xüsusi fəaliyyəti ilə seçilmədikləri, yadda qalmadıqları kimi, gedişləri də eləcə səssiz-səmirsiz, izsiz-tozsuz olur. İnsanlar var ki, gəlişləri də, gedişləri də dünyaya bir bəla, bir qara ləkədir, cəhənnəm əzabından başqa bir şey deyil. Sanki dünyanı qana çalxalamaqdan həzz alırlar. Amma insanlar da var ki, insanlıq adına şərəf,





hörmət gətirirlər. Onların yer üzərinə, dünyaya gəlişləri sanki Tanrının insana, insanlığa, bəşəriyyətin təhlükəsizliyinə, əmin-amanlığına, tərəqqisinə, çiçəklənməsinə bir lütfüdür. Börük Yaradan onları məhz elə bir vaxtda, elə bir çalxantılı məqamda Yer üzərinə göndərir ki, onların varlığına, mövcudluğuna böyük ehtiyac duyulur...

Kürreyi-ərz, bəşəriyyət, məhz belələrinə, insanlıq adına şərəf gətirənlərə teşnə olur. Tarixən belə insanlar çox olub. Yəqin ki, Dünya və insanlıq var olduqca, yaşadıqca, bu missiyanın daşıyıcıları olan insanlar da var olacaqlar.

Belə insanlardan- dünyaya gəlişi, atdığı addımlar, misilsiz fəaliyyətləri, danılmaz xidmətləri ilə insanlıq adına hörmət, şərəf gətirən, insanlığı insan gözündə göylərə ucaldan seçilmişlərdən, könüllərdə taxt qurmuş, qəlblərdə heykəl ucaltmış şəxsiyyətlərdən biri də Mehriban xanım Əliyevadır! Bəli, bəli, Mehriban xanım Əliyeva... Keçmiş deputat həmkarımız (əslində isə o hər zaman millətinin vəkillərindən biri olaraq qalacaq. O, bu statusu 12 illik titanik deputatlıq fəaliyyəti ilə əbədi olaraq qazanıb), Heydər Əliyev Fondunun Prezidenti, UNESCO və İSESCO-nun xoşməramlı səfiri, ölkənin Birinci xanımı və Birinci vitse-prezidenti Mehriban xanım Əliyeva!

1993-cü ilin məlum iyun hadisələrindən və Azərbaycan xalqının təkidli tələblərindən sonra ikinci dəfə hakimiyyət başına gələn və bu gəlişi ilə Azərbaycanı növbəti dəfə sıxıntılardan, çətinliklərdən, oddan-alovdan qurtaran Böyük Xilaskar Heydər Əliyevin ikinci iqtidarı dövründən, xüsusilə də, 2000-ci illərin əvvəllərindən başlanan Böyük Yol, Müqəddəs Missiya inamla, öz hədəfləri doğrultusunda uğurla davam etməkdədir. Bu yol Mehriban Əliyeva yolu, bu missiya Mehriban Əliyeva missiyasıdır. İşıqlı bir yol... şərəfli bir missiya... Bu illər ərzində Azərbaycanda elə bir sahə, elə bir proses olmayıb və qalmayıb ki, orada Mehriban xanımın izi, əməyi, xidməti, zəhməti olmasın. Azərbaycanın qazandığı bütün zəfərlərdə, imza atdığı bütün uğurlarda Mehriban xanımın xüsusi rolu, əməyi və payı var. O, hər bir sahəyə, hər bir prosesə, Azərbaycanın naminə görülən hər bir işə öz töhfəsini verib və verməkdədir.

Mehriban xanım haqqında çox yazılıb, çox deyilib. Onun haqqında nəinki saatlarla, günlələ, hətta həftələrlə, aylarla danışmaq, yazmaq olar. Düşünürük ki, yenə də kifayət etməz, kəlmələr yetməz. Əslində Mehriban xanımın bütün bunlara, xüsusi tərifə, geniş təqdimata heç ehtiyacı da yoxdur. Məsəl var ki, deyirlər görünən dağa nə bələdçi?! Amma və lakin... Bizlərin, Azərbaycan cəmiyyətinin, gələn hər yeni nəslin onu yaxından və dərindən tanımasına ehtiyac var. Çünki bu, elə bir humanist





fəaliyyət, elə bir işıqlı yol, elə bir müqəddəs missiyadır ki, insanlıq bunu mütləq bilməli, öyrənməli, əxz etməli, mənimsəməli və sonda əməlində, fəaliyyətində tətbiq etməlidir...

...Elə son bir illik fəaliyyətini... Ötən ilin əvvəllərində ölkə prezidenti cənab İlham Əliyev tərəfindən böyük etimada layiq görülən, Birinci vitse-prezident təyin edilən Mehriban xanım bir ildən bir qədər artıq müddətlik yeni fəaliyyətin dönəmində növbəti uğurlara imza atıb. Birinci vitse-prezident təyin olunduqdan cəmi bir neçə gün sonra məhz Mehriban xanımın təşəbbüsü və iştirakı ilə Bakının Qaradağ rayonunun Lökbatan qəsəbəsində Ermənistan-Azərbaycan münaqişəsi nəticəsində öz doğma yurd yerlərindən, ata-baba ocaqlarından didərgin düşənlərin, eyni zamanda, Qarabağ müharibəsində iştirak etmiş, yaralanmış, əlil olmuş və Şəhidlik zirvəsinə ucalmış Vətən fədailərinin və onların ailə üzvlərinin-minlərlə insanın mənzil şəraitinin yaxşılaşdırılması üçün yeni şəhərciyin təməlatma mərasimi düzənləndi. Və tam bir il sonra əməli fəaliyyətin nəticəsi... Həmin şəhərciyin təntənəli açılış mərasimi... Mehriban Əliyeva daim Qoşa Qanad kimi birgə addımladığı həyat yoldaşı- ölkə prezidenti cənab İlham Əliyevlə həmin şəhərciyin açılışında iştirak etdi... Bu insanların sevincinə sevinc qatmaqdan, onları həyatın minbir əzab- əziyyətindən qurtarmaq, onlara yaşamaq eşqi bəxş etməkdən böyük nə ola bilər

ki?! Bax, Mehriban xanım insanlığın belə bir humanizm daşıyıcısı, mərhəmət nümunəsidir!

...Yaxud başqa bir misal, başqa bir ibrətamiz nümunə... Atalarımızın daha bir yaxşı deyimi var: əl tutmaq Əlidən qalıb... Yəni, bu, heç də sadəcə maddi dəstək anlamında deyilmiş bir məsəl deyil. Burada daha çox mənəvi dəstək, mənən arxa-dayaq durmaq nəzərdə tutulub. Eyni zamanda, bu deyim əlbəttə ki, maddi dəstək anlamını da özündə ehtiva edir. Kimsəsiz, köməksiz, yardıma ehtiyacı olanlara kömək etmək, onları sevindirmək... Bu missiya Mehriban xanımın fəaliyyətinin ən başlıca prioritetlərindən biri olub və olmaqdadır. Bu yerdə xatırladım ki, hələ də əsrlərdən üzü bəri davam edən növbəti Müqəddəs Qurban bayramının təsiri, xoş duyğuları altındayıq... Bu bayram paylaşma, yardımlaşma, əl tutma, könül sevindirmə bayramıdır... Mehriban xanım hər il olduğu kimi, bu il də yardıma, köməyə, dəstəyə ehtiyacı olan insanları bir daha sevindirdi. Rəhbərlik etdiyi Heydər Əliyev Fondu vasitəsilə yüzlərlə insana mənəvi-maddi dayaq oldu, onlara Qurban əti, bayram sovqatı paylatdırdı. Yenə də bir el məsəli yada düşür: sağ əlin verdiyini sol əl bilməsin gərək. Mehriban xanım da bu yardımını sakitcə, televiziya kanallarından kənar, jurnalist qələmindən uzaq bir şəkildə etdi. Bax Mehriban Əliyeva insanlığın belə bir təvazökarlıq daşıyıcısı, şərəf nümunəsidir!





... Mehriban xanım hər il olduğu kimi, son bir il ərzində də ölkə prezidenti ilə birgə paytaxt Bakıda, eləcə də son illər siması büsbütün dəyişən, gözəlləşən Azərbaycanın müxtəlif bölgələrində səfərlərdə, açılışlarda oldu, öz xeyir-duasını verdi... Həmçinin, Azərbaycanda keçirilən ölkəmizin növbəti dəfə uğurlu şəkildə ev sahibliyi etdiyi tədbirlərdə, beynəlxalq toplantılarda, idman yarışlarının açılış, mükafatlandırma, bağlanış mərasimlərində iştirak etdi. Bunlardan birinə misal kimi artıq son bir neçə ildə ölkəmizdə keçirilən və bütün dünyaya öz möhtəşəmliyi ilə səs salan Formula-1 yarışlarını göstərmək olar. Cəmi bir neçə ay öncə Azərbaycan, doğma Bakımız növbəti dəfə Formula-1 yarışlarına ehtişamlı şəkildə ev sahibliyi etdi. Həmin yarışın açılış, mükafatlandırma, bağlanış mərasimlərində dövlətimizin başçısı ilə yanaşı, Azərbaycan idmanının (əslində isə sağlam ruhlu, sağlam düşüncəli, sağlam bədənli Azərbaycan cəmiyyətinin formalaşmasının) böyük himayədarı olan Mehriban xanım Əliyeva da iştirak etdi, yarışın qaliblərinə mükafatları öz əlindən təqdim etdi. Bax Mehriban xanım insanlığın belə bir sadəlik daşıyıcısı və səmimilik nümunəsidir!

...Daha bir misal... Bugünlərdə, 20 iyul tarixində ölkəmizdə MDB ölkələri Daxili İşlər Nazirləri Şurasının növbəti 5-ci toplantısı keçirildi. Yüksək səviyyəli toplantıda iştirak etmək üçün ölkəmizə gəlmiş rəsmi

şəxsləri qarşılayan və qəbul edərkən söhbəti, müzakirəni yenə də Azərbaycanın ən ağrılı məsələsi olan Ermənistan-Azərbaycan münaqişəsinə, işğal olunmuş ərazilərdən terorçuluğun və narkotik vasitələrin yayılması üçün istifadə cəhdlərinə, onların yolverməzliyinə yönəltdi... Ümimiyyətlə, Qarabağ məsələsi, Ermənistanın təcavüzü, işğal faktı, üzləşdiyimiz faciələr, törədilən soyqırımı aktları, onların olduğu kimi dünyaya, bəşəriyyətə çatdırılması, həqiqətin, reallıqların qəbul və etiraf etdirilməsi deyərdim ki, Mehriban xanımın və onun illərdir rəhbəri olduğu Heydər Əliyev Fondunun fəaliyyət istiqamətinin bir nömrəli hədəfi və başlıca ana xəttidir. Bu istiqamətdə görülən işlər, göstərilən xidmətlər, çəkilmiş zəhmətlər və təbii ki, onların məntiqi və əməli nəticəsi, bəhrəsi də ortadadır, gözlərimizin önündədir... Artıq dünya kimin kim olduğunu anlamaqda, işğalçı ilə işğala məruz qalanı fərqləndirməkdə, ayırmaqdadır. Mehriban xanım tam adıçəkilən görüşdə də bir daha Ermənistanın Azərbaycan torpaqlarını hələ də işğal altında saxlamasına, münaqişənin həllinə bütün vasitələrlə əngəl törətməkdə davam etməsinə diqqəti cəlb etdi və münaqişənin həllinin, sülhə, təhlükəsizliyə təhdid olan bütün davranışların aradan qaldırılmasının vacibliyini bəyan etdi: "Sizin diqqətinizi Azərbaycanın Dağlıq Qarabağ bölgəsində bir sıra xarici şirkətlərin qanunsuz iqtisadi fəaliyyət faktlarına yönəltmək istərdim. Hazırda Azərbaycanın işğal olunmuş ərazilərində qanunsuz iqtisadi fəaliyyət həyata keçirən





177 xarici hüquqi şəxs aşkar edilib. Bununla yanaşı, 710 xarici vətəndaş işğal olunmuş ərazilərə gəlib. Dağlıq Qarabağ Azərbaycanın ayrılmaz hissəsidir, ölkəmizin ərazi bütövlüyünu bütün dünya tanıyıb. Buna görə də bu cür pozuntular, bu cür hərəkətlər Azərbaycan qanunvericiliyinin kobud şəkildə pozulması deməkdir. Bununla yanaşı, son illərdə bu ərazilərdə narkotiklərin becərilməsi və sonradan transferi üçün istifadə olunması faktları mövcuddur. Bu da sözsüz ki, böyük narahatlıq doğurur. İstər xarici şirkətlər tərəfindən, istərsə də ayrı-ayrı şəxslər tərəfindən bu cür hərəkətlər Azərbaycan qanunvericiliyinin kobud şəkildə pozulmasıdır və bizim dövlətimiz həmin hərəkətlərin dayandırılması və qarşısının alınması üçün bütün qanuni tədbirləri görür və gələcəkdə də görəcəkdir. Əlbəttə, bu cəhətdən biz interpolun dəstəyinə çox bel bağlayırıq. Mən bir daha təcrübənizi bölüşdüyünüzə, bizim birgə işimizə dəstək verdiyinizə görə təşəkkür etmək istəyirəm və əminəm ki, gələcəkdə uğurla əməkdaşlığımızı davam etdirəcəyik!" Bax, Mehriban Əliyeva insanlığın belə bir ləyaqət daşıyıcısı, cəsarət nümunəsidir!!!

# ƏTRAF MİHİTİN QORUNMASINDA MEHRİBAN ƏLİYEVANIN ROLU

Son illər ölkəmizdə həyata keçirilən sosial-iqtisadi inkişaf strategiyası ekoloji problemlərin operativ yoluna qoyulmasına, ətraf mühitin mühafizəsi istiqamətində ardıcıl və səmərəli tədbirlərin görülməsinə əlverişli şərait yaratmışdır. Siyasi arenada və dövlətçilik fəaliyyətində təkrarsızlığı ilə şöhrətlənən Ulu öndər Heydər Əliyevin təbiətə, gözəlliyə vurğunluğu, ətraf mühitə biganəlik və utilitar münasibət göstərənlərə qarşı barışmazlığı və qətiyyəti bu gün Azərbaycan Prezidenti İlham Əliyevin də fəaliyyətinin başlıca stimuluna çevrilmişdir. Dövlət başçısı, eləcə də Heydər Əliyev Fondunun prezidenti, UNESCO və İSESCO-nun xoşməramlı səfiri Mehriban xanım Əliyevanın təşəbbüsü və dəstəyi ilə reallaşdırılan layihələr Azərbaycanda ekoloji problemlərin tezliklə yoluna qoyulacağına inam yaradır.

İnsanların sağlam təbii mühitdə yaşaması və təbii sərvətlərdən xalqımızın rifahının yaxşılaşdırılması naminə səmərəli istifadə edilməsi ölkədə aparılan sosial islahatların mühüm tərkib hissələrindən biridir. Ölkə





rəhbərliyinin ekologiya ilə bağlı məsələləri daim diqqət mərkəzində saxlaması ətraf mühitin yaxşılaşdırılması istiqamətində aparılan işlərə böyük təkan vermiş, bu sahədə iri layihələr uğurla həyata keçirilmiş və hazırda da davam etdirilir.

Azərbaycan Prezidenti İlham Əliyevin hələ 2010-cu ili ekologiya ili elan etməsi ölkə vətəndaşlarının, ekoloji problemlərin həlli ilə məşğul olan dövlət qurumlarının və qeyri-hökumət təşkilatlarının, hüquq mühafizə orqanlarının, kütləvi informasiya vasitələrinin qarşısında mühüm vəzifələr qoymuşdur. Biz hamılıqla Azərbaycanın flora və faunasının qorunması qayğısına qalmalı, torpaqlarımızın məhsuldar, sularımızın təmiz, havamızın saf olması üçün əlimizdən gələni etməliyik. Biz bütün bu işləri hansısa kampaniya xatirinə görməməli, vətəndaşlıq vəzifəsinə çevirməliyik.

Son yüzillikdə iqtisadiyyatın bütün sahələrinin sürətli inkişafı insan fəaliyyətinin ətraf mühitə təsirinin artması və təbii sərvətlərin həddindən artıq istismarı ilə nəticələnmişdir. Respublikamız müstəqillik əldə etdikdən və bazar iqtisadiyyatı yolunu seçdikdən sonra ölkəmizdə ətraf mühitin mühafizəsi sahəsində yeni ekoloji siyasət formalaşdırılmışdır. Müasir dövrdə yaranmış ekoloji durumu və sosial-iqtisadi vəziyyəti nəzərə alaraq respublikamızın ekoloji siyasətinin üç əsas istiqamətini bu

cür müəyyənləşdirmək olar: ekoloji təhlükəsizliyin təmin olunmasını əsas götürərək ətraf mühitin çirklənməsinin minimuma endirilməsi və mühafizəsinin tənzimlənməsi məqsədilə davamlı inkişaf prinsipləri üzrə mütərəqqi üsulların tətbiq edilməsi; indiki və gələcək nəsillərin tələbatını ödəmək məqsədilə təbii sərvətlərdən səmərəli istifadə etmək, alternativ, qeyri-ənənəvi metodlar vasitəsilə tükənməyən enerji mənbələrindən yararlanmaq və enerji effektivliyinə nail olmaq; qlobal ekoloji problemlər üzrə milli səviyyədə tələbatların qiymətləndirilməsi, həlli yollarının müəyyənləşdirilməsi, beynəlxalq təşkilatlarla əlaqələrin genişləndirilməsi, eləcə də milli potensial imkanlardan istifadə etməklə həyata keçirilməsinin təmin edilməsi.

Ölkəmizdə ekoliji vəziyyətin sağlamlaşdırılması istiqamətində əsas hədəfləri də xatırlatmaq istərdik. Bunlar su ehtiyyatlarının çirklənməsinin qarşısının alınması, biomüxtəlifliyin qorunması, yaşıllıqların artırılması, atmosfer havasının mühafizəsi, torpaqların deqradasiyasının qarşısının alınması, o cümlədən neft və digər tullantılarla çirklənmiş torpaqların təmizlənməsi, bərk sənaye və məişət tullantılarının, o sıradan təhlükəli tullantıların idarə olunmasının təkmilləşdirilməsini əhatə edir.

Hazırda Azərbaycan Respublikası üçün aktual olan ekoloji problemlərin davamlı inkişaf prinsipləri əsasında, müvafiq dövlət proqramları





çərçivəsində həll edilməsi istiqamətində ardıcıl tədbirlər görülür. Ötən müddət ərzində Azərbaycan Prezidentinin sərəncamları ilə təsdiq olunmuş "Ekoloji cəhətdən dayanıqlı sosial-iqtisadi inkişafa dair", "Hidrometeorologiyanın inkişaf Proqramı", "Yay-qış otlaqlarının, biçənəklərin səmərəli istifadə olunması və səhralaşmanın qarşısının alınmasına dair" proqramlarda nəzərdə tutulmuş tədbirlərin həyata keçirilməsi davam etdirilmişdir.

Mövcud ekoloji problemlərin həll edilməsi üçün Ekologiya və Təbii Sərvətlər Nazirliyi tərəfindən betnəlxalq təşkilatlarla, donor ölkələrlə əlaqələrin genişləndirilməsinə xüsusi əhəmiyyət verilir. Belə ki, BMT-nin İnkişaf, Ətraf Mühit, Sənayenin İnkişafı proqramları, NATO, ATƏT, Qlobal Ekoloji Fond, Avropa İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatı, Ümumdünya Səhiyyə Təşkilatı, İqtisadi Əməkdaşlıq Təşkilatı, Dünya Bankı, Asiya Bankı, Ümumdünya Vəhşi Təbiət Fondu və digər təşkilatlarla əməkdaşlıq davam etdirilir. Bununla bərabər müvafiq sazişlər əsasında inkişaf etmiş ölkələrlə ikitərəfli əməkdaşlığa, ətraf mühit sahəsində beynəlxalq müqavilələrə qoşulmağa böyük diqqət yetirilir. Azərbaycan Respublikası bugünədək 20 ekoloji konvensiyaya qoşulmuş, müvafiq protokollar imzalanmışdır.

Azərbaycan Respublikası Prezidentinin "Xəzər dənizinin çirklənmədən qorunması üzrə bəzi tədbirlər haqqında" sərəncamına əsasən yaradılmış modul tipli çirkab sutəmizləyici qurğulardan ibarət "Xəzər dənizinin ekoloji mühitnini mühafizəsi sistemi"nin fəaliyyəti nəticəsində Abşeron yarımadasının Bilgəh, Buzovna, Mərdəkan, Pirşağı, Nardaran, Novxanı və Sumqayıt sahilboyu ərazilərində bataqlaşmış sahələrin və çirkab gölməçələrin əksəriyyəti qurudularaq ekoloji tarazlıq bərpa olunmuşdur. Bu istiqamətdə 2008-2009-cu illərdə gündə 6140 kubmetr çirkab sutəmizləmə gücündə 16 stansiya istismara verilmişdir. Dövlət başçısının "Əhalinin ekoloji cəhətdən təmiz içməli su ilə təminatının yaxşılaşdırılması üzrə bəzi tədbirlər haqqında" sərəncamına əsasən mərkəzləşmiş şəkildə təmiz suya ehtiyacı olan ən ucqar yaşayış məntəqələrinin də tez bir zamanda təhlükəsiz içməli su ilə təmin edilməsi istiqamətində işlər davam etdirilir. Proqram çərçivəsində 12 rayonun 122 kəndində işlər yekunlaşmış, əlavə olaraq 18 rayonun 62 kəndində modul tipli sutəmizləyici qurğuların quraşdırılması prosesi də həyata keçirilmişdir.

"Azərbaycan Respublikasında ekoloji vəziyyətin yaxşılaşdırılmasına dair 2006-2010-cu illər üçün Kompleks Tədbirlər Planı"nın icrası ilə əlaqədar bir sıra layihələr uğurla həyata keçirilmişdir. Heydər Əliyev adına Beynəlxalq Hava Limanının ətrafının ekoloji vəziyyətinin yaxşılaşdırılması məqsədilə Texniki İqtisadi Əsaslandırma hazırlanmış, əvvəllər Sədərək və Binə ticarət mərkəzlərinin fəaliyyət göstərdiyi ərazilərin yaxşılaşdırılması, təbii landşaftın bərpası və istirahət parkının salınması təmin edilmişdir.





Sumqayıt şəhərinin ətraf mühitinin ciddi çirklənməsinə səbəb olan 56422 kubmetr civə tərkibli toksiki tullantılar 2007-2009-cu illərdə görülmüş tədbirlər nəticəsində Təhlükəli Tullantılar Poliqonuna daşınaraq zərərsizləşdirilmiş və bu proses hesabat ilinin ortalarında tamamilə başa çatdırılmışdır.

"Magistral avtomobil yollarını mühafizə zolaqlarının yaşıllaşdırılması haqqında" və "Bakı şəhərinin yaşıllaşdırılması sahəsində əlavə tədbirlər haqqında" sərəncamların icrası ilə əlaqədar yolların estetik görünüşünün yaxşılaşdırılması və mühafizə zolaqlarının eroziyadan mühafizəsi məqsədilə Ələt-Hacıqabul magistralı ətrafında 172 min ağac və gül kolları əkilmişdir. Oxşar nəticələr paytaxtı Heydər Əliyev adına Beynəlxal Hava Limanı ilə birləşdirən yollarda da əldə edilmişdir. Zığ-Heydər Əliyev adına Beynəlxalq Hava Limanı boyu 196 hektar ərazidə mürəkkəb meşəbitmə şəraitində, neft məhsulları, yod, bromla çirklənmiş torpaqlarda salınmış əkinlərə lazımi xidmətin təmin edilməsi hesabına 80 faiz bitiş alınmışdır. Eyni zamanda, Koroğlu dairəsi- Heydər Əliyev adına Bey-

nəlxalq Hava Limanı yolu boyunca 25 minədək müxtəlif növ ağaclar əkilmiş, 20 min kvadratmetr sahədə qazon döşənmiş, 23 min kvadratmetr sahədə qazon toxumu səpini aparılmışdır.

Azərbaycan Respublikası Prezidentinin Bakı və onun ətrafında 3 milyon ağacın əkilməsi barədə təşəbbüsü ilə əlaqədar geniş miqyaslı işlər aparılmaqdadır. Bununla bağlı Abşeron yarımadasının müxtəlif ərazilərində yaşıllaşdırma məqsədi ilə yerlər müəyyənləşdirilmiş, Bayıl yamacı-20-ci Sahə arası, Zığ gölü-Heydər Əliyev adına Beynəlxalq Hava Limanı arası ərazilərin, Zığ gölü ətrafının, həmçinin Səngəçal ətrafının yaşıllaşdırılması layihələri həyata keçirilmişdir. Daxili imkanlar hesabına 150 hektar sahədə torpaqhamarlama işləri aparılmışdır. Azərbaycan Respublikası Prezidentinin "Zooloji parkın yaradılması haqqında" sərəncamının icrası ilə əlaqədar tender keçirilmiş və müvafiq tədbirlər görülmüşdür.

2009-cu il ərzində ölkə ərazisində atmosfer havası, yağıntılar, torpaq, səth suları, o cümlədən ətraf mühitdə gedən proseslərin qiymətləndirilməsi və proqnozlaşdırılması, həmçinin ətraf mühitin vəziyyətinə dair məlumatlar bazasının yaradılması həyata keçirilmiş, operativ və rejim məlumatlarının hazırlanması və onların yayımlanması təmin edilmişdir.

2009-cu il ərzində xüsusi mühafizə olunan təbiət əraziləri şəbəkəsinin genişləndirilməsi və qorunması istiqamətində işlər davam etdirilmişdir.





Samur-Yalama Milli Parkının yaradılması ilə əlaqədar xarici şirkətlərin iştirakı ilə açıq tender keçirilmiş, Balakən-Zaqatala regionunda ölkə tarixində ilk biosfer rezervatın yaradılması istiqamətində mühüm addımlar atılmışdır. Ölkə tarixində ilk dəfə olaraq ceyranların tarixi ərazilərinə reintroduksiya olunması və həmin ərazilərin mühafizəsi məqsədi ilə Xızı-Abşeron rayonlarının ərazisində Dövlət Təbiət Yasaqlığının yaradılması ilə əlaqədar müvafiq tədbirlər görülmüşdür. Bundan əlavə Naxçıvan MR ərazisində Arpaçay Dövlət Təbiət Yasaqlığı, Lerik rayonu ərazisində Rvarud Dövlət Təbiət Yasaqlığı yaradılmışdır. Həsən Əliyev adına Ordubad Milli Parkının ərazisi 30666,4 hektar genişləndirilmiş və parkın adı dəyişdirilərək akademik Həsən Əliyev adına Azərbaycan Respublikasının Zəngəzur Milli Parkı adlandırılmışdır.

Ətraf mühitin mühafizəsi və təbii ehtiyatlardan səmərəli istifadə olunması, ekoloji tarazlığın qorunması və davamlı inkişafın təmin edilməsi sahəsində təsadüfi qərarlar qəbul edilməsinin qarşısının alınması məqsədilə Dövlət Ekspertiza Xidməti fəaliyyət göstərir.

Azərbaycan Respublikası Prezidentinin sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında ekoloji vəziyyətin yaxşılaşdırılmasına dair 2006-2010-cu illər üçün Kompleks Tədbirlər Planı" çərçivəsində Abşeron yarımadasında uzun illər ərzində neft və neft məhsulları ilə çirklən-

miş torpaq sahələrinin rekultivasiyası ilə əlaqədar təqdim olunmuş layihə sənədləri hazırlanaraq həyata keçirilmişdir.

Son illərdə həyata keçirilən ardıcıl tədbirlər nəticəsində xüsusi mühafizə olunan təbiət ərazilərinin sahəsi ölkə ərazisinin 4,5 faizdən 10,3 faizə qədər çatdırılıb, 893 min hektar- 9 milli park, 11 qoruq və 24 yasaqlıq ərazisi salınmışdır. Bu istiqamətdə son 12 il ərzində 130 min hektar sahədə meşə bərpa işləri aparılıb və yeni meşələr salınıb. 100 milyon ədəd ağac əkilib, 300 milyon ədəd əkin materialı yetişdirilib və 2000 ton toxum tədarük edilib.

Heydər Əliyev Fondunun ekologiyanın, ətraf mühitin qorunmasına xidmət edən "Hərəmiz bir ağac əkək" layihəsi də bu sahəyə böyük töhfələr verib. Fondun prezidenti Mehriban xanım Əliyevanın təşəbbüsü ilə həyata keçirilən bu layihə çərçivəsində ölkəmizdə hektarlarla sahə yaşıllaşdırılmışdır.

Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyevanın təşəbbüsü ilə 2011-ci il iyulun 12-dən fəaliyyətə başlayan İDEA-Ətraf Mühitin Mühafizəsi üzrə Beynəlxalq Dialoq Kompaniyası çərçivəsində ölkəmizdə ətraf mühitin qorunması sahəsində görülən işlər Azərbaycanda ekoloji problemlərə verilən dəyərin göstəricisidir.





Bu gün ölkəmizdə ekoloji problemlərin həllinə, ətraf mühitin mühafizəsi məsələlərinə daha çox diqqət yetirilir. Milli parkların yaradılması işi uğurla davam etdirilir və təbii ehtiyatların qorunması üçün uzun müddətli dövlət planları nəzərdə tutulub.

Ekologiya və Təbii Sərvətlər Nazirliyi hər il 5 iyun- Dünya Ətraf Mühitin Mühafizəsi Günü ərəfəsində ətraf mühitin qorunması, təbiətdən, yeraltı sulardan, minelar xammal ehtiyatlarından və yerüstü sərvətlərdən səmərəli istifadə edilməsi, onların bərpası və mühafizəsi, bioloji müxtəlifliyin qorunub saxlanılması məqsədi ilə müxtəlif tədbirlər həyata keçirilir. Keçirilən tədbirlərin məqsədi insanların ətraf mühitin mühafizəsinə münasibətini dəyişmək, ictimaiyyətin diqqətini ictimai problemlərin həllinə yönəltmək, əhalinin bu sahədə şüur və təfəkkürünü inkişaf etdirməklə təbiəti qorumağın mümkünlüyünü diqqətə çatdırmaqdır.

## HEYDƏR ƏLİYEV MƏKTƏBİNİN YETİRMƏSİ

Bütün fəaliyyətini bu prinsiplər əsasında quran Azərbaycanın Birinci vitse-prezidenti,Heydər Əliyev Fondunun prezidenti,Yeni Azərbaycan Partiyasının Sədr müavini,UNESCO-nun və İSESCO-nun xoşməramlı səfirinin gördüyü işlər beynəlxalq səviyyədə yüksək dəyərləndirilir.

**"Mənə göstərdiyiniz yüksək etimada görə Sizə dərin minnətdarlığımı bildirirəm.Bu vəzifəyə təyin olunmaqla öhdəmə düşən məsuliyyətin ciddiliyini tam şəkildə dərk edirəm və inanıram ki, cənab Prezident, Sizin və mənə inanan bütün insanların etimadını doğrultmağı bacaracağam".**

Mehriban xanım Əliyeva bu fikirləri dövlətimizin başçısı İlham Əliyevin sərəncamı ilə Azərbaycanın Birinci vitse-prezidenti təyin edildikdən sonra Təhlükəsizlik Şurasının keçirilən iclasında bildirmişdir.





Mehriban xanım Əliyevanın çoxşaxəli fəaliyyəti onun bu təyinatını şərtləndirdi. Möhtərəm Prezidentimiz İlham Əliyev həmin iclasda bu fikirləri bildirmişdir: "Bax, bu, çoxşaxəli fəaliyyət və eyni zamanda, uğurlu fəaliyyət mənim bu qərarı qəbul etməyimdə əsas rol oynamışdır. Eyni zamanda, qeyd etməliyəm ki, Mehriban Əliyeva çox peşəkar, bilikli, təcrübəli, prinsipial, çox xeyirxah bir insandır.Təsadüfi deyil ki, Azərbaycan xalqı ona rəğbət və sevgi ilə yanaşır.Sadalıdığım bütün bu amilləri nəzərə alaraq, mən bu qərara gəldim və bu gün Mehribanın həyatında yeni dövr başlayır. Əminəm ki, o, bundan sonra da ölkəmizin inkişafına öz dəyərli töhfəsini verəcəkdir".

Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun Prezidenti, YAP-ın Sədr müavini, UNESCO-nun və İSESCO-nun xoşməramlı səfiri Mehriban xanım Əliyevanın təhsilin, səhiyyənin, mədəniyyətin, idmanın inkişafı, həqiqətlərimizin təbliği, milli-mənəvi dəyərlərimizin qorunması, dünya xalqlarının mədəniyyətinə inteqrasiyası istiqamətində gördüyü işlərin miqyası o qədər genişdir ki, onları bir məqalədə əhatə etmək qeyri-mümkündür.Mehriban Əliyevanın rəhbərlik etdiyi Heydər Əliyev Fondu missiyasına uyğun olaraq müasir, müstəqil Azərbaycan dövlətinin qurucusu, ulu öndər Heydər Əliyev irsinin öyrənilməsi və təbliği istiqamətində gördüyü işləri, həmçinin ictimai-si-

yasi fəaliyyətini də nəzərə alsaq onun dövlətimiz və xalqımız qarşısında xidmətlərinin ölçüyəgəlməz dərəcədə böyük olduğunu bir daha görərik.Ölkə daxilində və dünya arenasında həyata keçirdiyi layihələrin əhəmiyyətini nəzərə alan ölkə Prezidenti İlham Əliyev Mehriban xanım Əliyevanı Vətənimizin ən ali mükafatı-"Heydər Əliyev mükafatı" ilə təltif edərkən bildirmişdir ki, Fondun bütün təşəbbüsləri milli ruha əsaslanır: "Modernləşmə, müasirləşmə, dünya birliyinə inteqrasiya, Azərbaycanın milli maraqlarının müdafiə edilməsi, Azərbaycanın olduğu kimi dünyaya təqdim edilməsi- bütün bu şərəfli funksiyalar bu Fondun üzərinə düşür".

İllər keçdikcə görülən işlərin miqyası daha aydın görünür. Azərbaycan Respublikasının Birinci vitse-prezidenti,YAP-ın Sədr müavini, UNESCO-nun və İSESCO-nun xoşməramlı səfiri, Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyevanın hər kəsə gələcəyi ilə bağlı düzgün seçim etməsinə yardımçı olan müsahibələrinin birində "İnsanlarda hansı keyfiyyətlərə qiymət verirsiniz?" sualına cavabını xatırlamaqla bugünkü uğurlarına yol açan ümumiləşdirməni aparmış olarıq. Mehriban xanım həmin suala cavabında bildirmişdir:





**"Saflığa və mənliyə, səmimiliyə və xeyirxahlığa, ağıla və peşəkarlığa.Heç bir ifadədə süniliyi qəbul etmirəm. Təəssüf ki, müasir həyat quruluşu çox şeyi yox edir, insana yeni-yeni bilik, bacarıq, imkan verərək, bəzən onun mənəvi tamlığını tapdalayır.Uğurun, firavanlğın arxasınca qaçmaq, bunlara nəyin bahasına olursa olsun, nail olmaq istəyi insanları tanınmaz dərəcədə dəyişir, bu da məyusluq gətirir.**

**Düzdür, illər ötdükcə mən insanların zəifliklərinə və bir çox şeylərə daha dözümlü yanaşmağa başlamışam. Lakin özüm üçün yolverilməz saydığım şeylərə görə, başqalarını da bağışlaya bilmərəm. Xoşbəxtlikdən məni həm ailəmdə, həm də peşəkar fəaliyyətimdə yalnız parlaq, pozitiv, səmimi və xeyirxah insanlar əhatə edir.Onlarla ünsiyyət həmişə sevinc gətirir".**

Azərbaycanın beynəlxalq əhəmiyyətli tədbirlər üçün ideal məkan seçilməsində Mehriban Xanım Əliyevanın xidmətləri böyükdür. Mehriban xanım Əliyevanın gördüyü işlər təkcə ölkəmizdə deyil, dünya miqyasında təqdir olunur. Ayrı-ayrı dövlətlər, beynəlxalq təşkilatlar tərəfindən.

müxtəlif mükafatlara layiq görülməsi, eyni zamanda, Azərbaycanın bu və ya digər ölkələrlə, təşkilatlarla əlaqələrinin inkişafına verdiyi töhfələrdən irəli gəlir.Mehriban xanım Əliyeva 2004-cü il avqustun 13- də Azərbaycanın şifahi xalq ədəbiyyatının və musiqi irsinin qorunub saxlanılması və inkişaf etdirilməsi sahəsindəki fəaliyyətinə görə UNESCO-nun xoşməramlı səfiri adına, 2005-ci il iyunun 9-da ictimai, messenatlıq və xeyriyyəçilik fəaliyyətinə, həmçinin, təhsil və mədəniyyət müəssisələrinin dəstəklənməsinə, Rusiya və Azərbaycan xalqları arasında dostluğun möhkəmlənməsinə sanballı töhfələrinə görə Rusiyanın "Yüzilliyin messenatları" Beynəlxalq Xeyriyyə Fondunun "Yaqut Xaç" ordeninə, sivilizasiyalararası dialoq daxil olmaqla, müxtəlif sahələrdə genişmiqyaslı və fədakar fəaliyyətinə, qayğıya ehtiyacı olan uşaqlara diqqətinə, onların yaşayış səraitinin yaxşılaşmasına, təhsilə, həmçinin, İslam aləmində görülən işlərə böyük dəstəyinə görə 2006- cı il noyabrın 24- də İSESCO-nun xoşməramlı səfiri adına, 2007-ci ildə bəşəriyyətin ali ideyalarına xidmətdə qazandığı görkəmli nailiyyətlərə görə "Qızıl ürək" beynəlxalq mükafatına, 2009-cu ildə Azərbaycanın ictimai –siyasi və mədəni həyatında səmərəli fəaliyyətinə görə "Heydər Əliyev mükafatı"na, həmçinin, iki mötəbər mükafata- Fransa dövlətinin "Şərəf legionu" ordeninə və UNESCO-nun "Qızıl Motsart" medalına, eyni zamanda, Krans Montana





Forumunun Qızıl medalına, Polşa Respublikasının "Xidmətlərə görə" Böyük Komandor Xaçı ordeninə, İslam Mədəni İrsinin dünyada geniş təbliği Azərbaycanda və ölkə hüdudları xaricində nəcib xeyriyyə fəaliyyəti, təhsilə, tibbə verdiyi böyük töhfələrə görə Küveyt dövlətinin Fəxri diplomuna, Azərbaycanda "Heydər Əliyev" ordeninə, Rusiyada Müqəddəs Mələk Sima Knyaginya Olqa ordeninə, İtaliyanın "Xidmətlərinə görə" Böyük Xaç Kavaleri ordeninə layiq görülüb.

Mehriban xanım Əliyeva Azərbaycan-Rusiya münasibətlərinin inkişaf etdirilməsi və möhkəmləndirilməsindəki xidmətlərinə görə Rusiya Prezidenti Vladimir Putinin fərmanı ilə Rusiya Federasiyasının "Dostluq" ordeni ilə təltif olunub.

Göründüyü kimi, təltiflərinin hər biri Mehriban xanım Əliyevanın çoxşaxəli fəaliyyətinin ayrı-ayrı istiqamətlərinə bələdçilik edir. Xeyriyyəçilik, humanizm Mehriban xanım Əliyevanın fəaliyyətinin əsasını təşkil edir. Qayğı, mərhəmət, sosial öhdəlik kimi keyfiyyətləri hər kəsin yaddaşına həkk etdirməyə xidmət edən layihələrin müəllifi kimi çıxış etmək Mehriban xanım Əliyevanın fəaliyyətinin əsas istiqamətlərindəndir. Onun timsalında insanlığa sevgini, ehtiyacı olanlara mərhəmət və şəfqəti görürük. Mehriban xanımın bu sahədəki fəaliyyətini təhlil etdikdə bir daha əminliklə deyirik ki, Azərbaycanda müasir xeyriyyəçilik institutu-

nun əsası Mehriban xanım Əliyeva tərəfindən qoyulub. O, attığı addımları ilə gələcək nəsillərə nəcib bir yolun əsas konturlarını göstərir. Mehriban xanım Əliyeva müsahibələrinin birində bu fikri açıqlayır ki, müasir Azərbaycanda xeyriyyəçilik institutunun inkişaf perspektivləri ilk növbədə, ölkəmizin gələcək iqtisadi inkişafı, sosiomədəni modernləşməsi, vətəndaş cəmiyyətinin möhkəmlənməsi və cəmiyyətimizin mənəvi tərəqqisi ilə bağlıdır. Təbii, cəmiyyətin demokratikləşməsi və humanistləşməsi yolu ilə irəlilədikcə, ölkəmizə xeyriyyəçiliyin tərəqqisi yolundakı mənəvi-əxlaqi maneələr də aradan qalxacaq. Əlbəttə ki, bu vacib sektorda Mehriban xanım Əliyevanın əsasını qoyduğu ənənələr və nümunəvi fəaliyyət müasir Azərbaycan xeyriyyəçilik institutunun daha da inkişafına yeni imkanlar açır, stimul verir. Onun 2017-ci ildə Azərbaycanın Birinci vitse-prezidenti kimi təqdimatı mərasimində söylədiyi bu fikirləri də xatırlatmaq istərdik:

**"Mən əminəm ki, vəzifədən aslı olmayaraq, insan öz yolunu, peşəsini seçəndə hər hansı bir işinə, əməyinə vicdanla yanaşmalı, qarşısına aydın məqsədlər qoyub, bu məqsədlərə nail olmağa çalışmalı, söz və işlərində bütöv olmalıdır".**





Bu prinsiplərə söykənərək uğur səhifələrinin sayını artıran Heydər Əliyev Fondunun fəaliyyətini belə səciyyələndirmişdir:

**"Rəhbərlik etdiyim Heydər Əliyev Fondu artıq 13 ildir ki, öz fəaliyyətini humanizm prinsipləri əsasında qurub. Biz bu illər ərzində bir çox irimiqyaslı layihələr icra etmişik. Biz Azərbaycanın ictimai və siyasi həyatında fəal iştirak edirik. Biz infrastruktur layihələri icra edirik. Eyni zamanda, biz 13 il ərzində ayrı-ayrı insanların problemlərinə heç zaman biganə qalmamışıq. İnsanlarla ünsiyyətdə olmaq, Onları dinləmək və eşitmək, köməyə ehtiyyacı olana kömək etmək, mənəvi dəstək vermək Heydər Əliyev Fondunun hər bir əməkdaşının birbaşa vəzifəsidir. Hesab edirəm ki, bu, dövlət qurumlarında çalışan bütün insanların əsas borcu və vəzifəsidir. Gündəlik fəaliyyətimizdə insansevərlik, mərhəmət, qarşılıqlı hörmət, mehribançılıq unudulmamalıdır. Əksinə, məhz bu mənəvi dəyərləri uca tutaraq ən yüksək qələbələr əldə etmək, ən böyük zirvələrə qalxmaq olar".**

Bu fikirlər Mehriban xanım Əliyevanın fəaliyyətinin əsasını təşkil edən prinsiplərin ümumiləşdirilmiş ifadəsidir.

İnsan amilinə yüksək dəyər verilən ölkəmizdə amnistiya aktlarının qəbulunda Mehriban xanım Əliyevanın təşəbbüskar kimi çıxış etməsi ictimaiyyət tərəfindən böyük rəğbətlə qarşılanır. Təbii ki, bu, onun humanistliyindən, mərhəmətindən irəli gələn addımlardır. "Hər bir cəmiyyətdə mərhəmət, insanpərvərlik, qayğı kimi hislər əsas yer tutmalıdır. O cəmiyyətdə ki, həm dövlət qurumları, həm vətəndaş cəmiyyəti məhz bu prinsiplər əsasında həm öz həyatını, həm öz fəaliyyətini qurur, demək olar, o cəmiyyət inkişaf etmiş, uğurlu cəmiyyətdir. Mərhəmət təkcə çətinliyə düşən insanlara yardım əlini uzatmaq deyil. Mərhəmət bəzən çətin və məsuliyyətli qərar qəbul etməyi tələb edir. Bir dəfə səhv etmiş insanların bağışlanmaq hüququ var. Bu gün biz yenidən cəmiyyətdə öz yerlərini tutmaları, layiqli həyat yaşamaları üçün onlara şans verməliyik" söyləyən, Ümumilli lider Heydər Əliyevin ədalət və inasanpərvərlik ideyalarını davam və təbliğ etdirən Mehriban Əliyevanın təşəbbüsü ilə həyata keçirilən amnistiya aktları sayəsində yenidən cəmiyyətə qayıdan insanlar bu xeyirxahlığı humanizm prinsiplərinin qələbəsi kimi dəyərləndirirlər.

Heydər Əliyev Fondu: Sosial-mədəni, humanitar layihələrin təşəbbüskarı Mehriban xanım Əliyevanın siyasi xadim kimi formalaşmasında ulu öndər Heydər Əliyev siyasi məktəbinin rolu inkar edilməzdir. Ulu





öndər Heydər Əliyev irsinin təbliği məqsədi ilə 2004-cü ildə fəaliyyətə başlayan Heydər Əliyev Fondu təhsil, səhiyyə, mədəniyyət, idman, elm və texnologiya ekologiya, sosial və digər sahələrdə müxtəlif layihələr həyata keçirərək yeni cəmiyyət quruculuğunda fəal iştirak edir, ölkənin sosial-iqtisadi inkişafına öz töhfəsini verir. Yarandığı gündən qarşısına qoyduğu ali məqsədlərin gerçəkləşdirilməsi naminə inamla çalışan, qısa müddətdə strateji əhəmiyyət daşıyan bir sıra layihələri gerçəkləşdirən Heydər Əliyev Fondu 15 ildə cəmiyyətdə xeyirxahlıq ünvanına çevrilib. Fondun fəaliyyəti, eyni zamanda, insan və vətəndaş hüquq və azadlıqlarının müdafiəsinin yüksək səviyyədə təminatına yönəlib, qısa müddətdə bu sahədə böyük işlər görülmüşdür.

Mehriban xanım Əliyeva 2005-ci ildən Azərbaycan Respublikası Milli Məclisin deputatı olub. O, deputat kimi fəaliyyət göstərdiyi müddətlərdə çox böyük işlər görüb, təmsil etdiyi rayonun sosial-iqtisadi problemlərinin həlli istiqamətində mühüm addımlar ataraq, seçicilərinin yüksək etimadını qazanıb.

## AZƏRBAYCAN QADININA YENİ NÜFUZ QAZANDIRAN XANIM LİDER

Azərbaycan xalqının xilaskarı, müstəqil dövlətimizin qurucusu və memarı Heydər Əliyev hər zaman, hər an istənilən Azərbaycan vətəndaşının dadına çatır.

Heydər Əliyev Fondunun prezidenti, UNESCO- nun xoşməramlı səfiri Mehriban xanım Əliyeva haqqında bu sətirləri yazarkən məhz ümummulli liderimizin zəngin irsinə müraciət edərək onun Azərbaycan həqiqətləri barədə söylədiklərindən sitat gətirdik. Bu, həqiqətən belədir.Bəzi dövlət məmurları sadəcə öz iş gününü qanunun tələb etdiyi şəkildə başa vurmaqla kifayətlənirlər. Ancaq elə siyasətçilər, elə dövlət adamları var ki, onlar təkcə vəzifə borclarını yerinə yetirmir, həm də cəmiyyət üçün gərəkli adama çevrilir, xalqın problemlərinin həllinə yardımçı olur, insanların dərd-sərinə şərik çıxırlar.

Haqqında söhbət açmaq istədiyimiz siyasi xadim, Azərbaycan qadınına yeni nüfuz qazandıran Mehriban xanım Əliyeva da məhz ümummilli





liderimizin dediyi kimi, cəmiyyət üçün gərəkli olan dövlət adamlarındandır. Onun bütün fəaliyyəti xalqa xidmət etmək amalı üzərində qurulub.Gördüyü bütün işlər sübut edir ki, xanım Əliyeva, sözün həqiqi mənasında, Azərbaycan cəmiyyəti üçün həddən artıq gərəkli bir insandır.

Təkcə bir məqamı yada salmaqla Mehriban xanımın gündəlik işi barədə təsəvvür yaratmaq olar:

**"İstər UNESCO-nun xoşməramlı səfiri, istərsə də Heydər Əliyev Fondunun prezidenti kimi, mənə ehtiyac olduğunu hiss edirəm.Mənim adıma hər gün 200-dən çox məktub gəlir.Onların heç biri diqqətsiz qalmır. Mən konkret iş görmək, konkret insanlara kömək etmək istəyirəm. Konkret problemləri həll etmək, yardım edə bildikdə sevinc hissi keçirmək və səndən asılı olmayan səbəblər üzündən nəsə edə bilmədikdə təəssüflənmək, qəzavüqədər, sağalmaz xəstəlik qarşısında bütün gücsüzlüyünü dərk edərkən əziyyət çəkmək, xilas edilmiş bir uşağın təbəssümünü gördükdə isə bir daha sevinmək istəyirəm. Bu mənim seçimimdir".**

Bu sətirlərin müəllifi Mehriban Əliyevadır. Çox ağır bir seçimdir. Hamının dərdinə şərik olmaq seçimi heç kəsə asan gəlməsin. Ancaq Azərbaycan qadınlarının tarix boyu göstərdiyi mərdlik və mərdanəlik xüsusiyyətləri, Vətən, torpaq, xalq naminə göstərdiyi qəhrəmanlıq nümunələri sübut edir ki, bizim xanımlar ən ağır döyüşlərdə də, ən çətin problemlərin həllində də kişilərlə bərabər xalqın və dövlətin xidmətində olmuşdur. Herodotun " Tarix" kitabında bəhs etdiyi Tomris ana da, Nizami Gəncəvinin vəsf etdiyi Bərdə hökmdarı Nüşabə də, "Kitabi Dədə Qorqud" dastanının qadın qəhrəmanları da sübut edir ki, Azərbaycan qadınının çox qədim və şərəfli keçmişi olub. Bu gün həmin tarixin yeni və şərəfli səhifələri yazılır.

Yeri gəlmişkən, Fransa paytaxtında UNESCO-nun dünya miqyaslı tədbirində çıxış edən Mehriban xanım Əliyevanın nitqini dinləyərkən düşünürsən ki, xalqımızın yeni Nüşabəsi yetişir. Ulu Nizaminin vəsf etdiyi Bərdə hökmdarı Nüşabə böyük fateh İsgəndəri öz ağıl və kamalı ilə susdura bilmişdi. Qılınc çalıb ölkələr fəth edən İsgəndər Nüşabənin məntiqi qarşısında məğlub olduğunu etiraf etmişdi. Nüşabələr və Tomrislər nəvəsi olan Mehriban xanım Əliyeva isə dünya səviyyəli beynəlxalq tədbirlərdə öz polad məntiqi ilə ölkəmizin bədxahlarını susdura bilmiş, Azərbaycanın qeyri- maddi mədəniyyət nümunələrinin məhz beynəlxalq təşkilatlar səviyyəsində mühafizə edilməsi zərurətini ortaya qoymuş, öz təklifini təsdiq etdirmişdi. UNESCO-nun baş katibinin " Bizim xanım Əliyevanın təklifi ilə razılaşmağımız o təklifin dərin arqumentlərə və möhkəm məntiqə əsaslandığına görədir",- etirafı da heç kəsin yadından çıxmayıb.





Xanım Əliyevanın ictimai-siyasi fəaliyyətində əsasən üç mühüm sahə daha qabarıq istiqamət kimi özünü göstərir.Birinci: Azərbaycanın maddi və qeyri-maddi mədəniyyət nümunələrinin qorunub saxlanılması, beynəlxalq aləmdə təbliğ edilməsi və gələcək nəsillərə daha möhtəşəm şəkildə çatdırılması üçün adı çəkilən sahənin inkişaf etdirilməsi. İkincisi: Ölkənin gələcəyi olan uşaqların sağlam böyüməsinə nail olunması və ümumulikdə cəmiyyətin hər bir fərdinin fiziki cəhətdən sağlamlığına yardım edilməsi. Üçüncü: Müstəqil dövlətimizin sabahını quracaq yeni nəslin müasir dünyanın tələblərinə uyğun şəkildə təhsil alması üçün zəmin yaradılması.

Mehriban xanım Əliyevaınn Azərbaycan Mədəniyyətinin Dostları Fondunun sədri kimi, Heydər Əliyev Fondunun prezidenti kimi, UNESCO-nun xoşməramlı səfiri kimi bu üç istiqamətdə fəaliyyəti olduqca uğurludur. Onun adı çəkilən hər üç postu tutmasında nəticə etibarilə qazanan Azərbaycan xalqı oldu. Bəs bu üç istiqamətli fəaliyyət dairəsini

reallaşdırmaq üçün konkret olaraq hansı tədbirlər həyata keçirilmişdir? Gəlin,bu barədə faktların dili ilə söhbət açaq.

Birinci sahə.2004-cü il may ayının 10-dan – ümummilli liderimiz Heydər Əliyevin doğum günündən fəaliyyətə başlayan Heydər Əliyev Fondu milli-mənəvi dəyərlərimizin qorunması və Azərbaycan Mədəniyyətinin Dostları Fondu ilə birlikdə bir neçə uğurlu layihə həyata keçirmişdir.Ötən il milli musiqi sənətimizin incilərindən olan muğamın inkişafı və təbliği ilə bağlı çox ciddi addımlar atılmışdır.Məhz Mehriban xanım Əliyevanın təşəbbüsü ilə görkəmli muğam ustalarının iştirakı ilə " dəyirmi masa" keçirilmiş və Bakı şəhərində beynəlxalq Muğam Mərkəzinin yaradılması qərara alınmışdır. Maraqlı məqamlardan biri də odur ki, adı çəkilən mərkəzin təməl daşının qoyulmasında UNESCO – nun Baş direktoru Kouşiro Motsuura da iştirak etmişdi.Fikrimizcə, Azərbaycan mədəniyyəti, xüsusən muşamsevərlər üçün bu, çox böyük ehtiram idi. Ancaq Azərbaycan muğamsevərləri və muğam ustaları Mehriban xanım Əliyevanın bu istiqamətdə atdığı növbəti addımı daha böyük məmnunluq və alqışlarla qarşıladılar. Belə ki, xanım Əliyevanın təşəbbüsü ilə " Qarabağ xanəndələri " musiqi albomu nəfis şəklildə nəşr edildi və " Gülüstan " sarayında albomun təntənəli təqdimat mərasimi keçirildi. Həmin tədbirdən sonra xalq artisti, görkəmli muğam ustası Habil Əliyev





jurnalistlərlə söhbətində demişdi: - Adətən belə bir ifadə işlədilir ki, filankəs xalqa atalıq elədi, filankəs filan adama ata kimi qayğı göstərdi. Ancaq indi deyə bilərik ki, Mehriban xanım Əliyeva Azərbaycan muğamına həqiqətən ana qayğısı göstərdi, analıq elədi. Biz muğam ifaçıları heç zaman Mehriban xanımın həmin diqqətini və qayğısını unuda bilməyəcəyik. Əksinə, muğamın təbliği və inkişafı sahəsində məsuliyyətimiz bundan sonra daha da artacaq ". Digər muğam ustası, Bakı Musiqi Akademiyasının professoru Arif Babayev isə öz fikirlərini daha kövrək şəkildə ifadə etmişdi : - Mən əvvəlcə fikirləşdim ki, " Qarabağ xanəndələri " albomunun bu şəkildə tərtib edilməsi və təqdimatının keçirilməsi muğam sənətinə qayğıdır.Sonra düşündüm ki, yox, bu, Qarabağa ayrılan diqqətin nəticəsidir. Daha sonra isə fikrimi yenə də dəyişərək dedim ki, yox, bu, Azərbaycan mədəniyyətinə böyük qayğı və diqqətin təzahürüdür. Nə olsun ki, gəncdir bu xanım, sözün həqiqi mənasında, millət təəssübünü çəkən çox böyük bir ürəyin sahibidir. Halal olsun ona təmsil etdiyi ailələrin çörəyi".

Bütün bunlar Azərbaycan mədəniyyətinə ölkə daxilində göstərilən qayğının çox cüzi bir hissəsidir. Ancaq mədəniyyətimizin beynəlxalq aləmdə təbliğ edilməsi üçün daha böyük addımlar atılmışdır. Məsələn, fondun dəstəyi ilə fransanın paytaxtında dahi Azərbaycan bəstəkarı

Üzeyir Hacıbəyovun 120, dünya şöhrətli kimyaçı – alim Yusif Məmmədəliyevin isə 100 illik yubileyləri keçirilmişdir. Həm Avropada , həm də Azərbaycanda böyük ehtiramla sevilən dünya şöhrətli musiqiçilər Mstislav Rastropoviç və Qalina Vişnevskayanın 50 illik birgə fəaliyyətinə həsr edilmiş albom və disklər hazırlanmışdır.

Rostropoviçin,Şestokoviçin və Bülbülün yubileyinə həsr edilmiş beynəlxalq festivallar da bu qəbildəndir. Fondun rəhbərliyi təkcə Parisdə və ya digər Avropa şəhərlərində yubiley, festival və ya digər tədbirlər keçirilməsi ilə kifayətlənmir, bu qəbildən olan tədbirlərin paytaxtının məhz Azərbaycan paytaxtına köçürülməsi üçün də mühüm addımlar atır.Həmin addımlardan birinin nəticəsi kimi Bakıda " Fərqli mədəniyyətlərin qovuşuğu " adlı beynəlxalq sərgi – konfrans, aprel ayında " Azərbaycan : keçmişin və bu günün sivilizasiyalararası dialoqu " və " Orta əsr əlyazmalarında tibb və əczaçılıq " mövzusunda Birinci Konfrans keçirilmişdir. Bu tədbirlərdə çoxsaylı mötəbər qonağın və onlarca xarici KİV təmsilçisinin iştirakı etdiyini nəzərə alsaq, Azərbaycanın beynəlxalq aləmdə nə dərəcədə təbliğ edilməsi barədə təəssürat yaratmış olarıq. Fondun qonşu ölkələrdəki müxtəlif fondlarla əlaqələrinin genişləndirilməsi də Azərbaycan mədəniyyətinin təbliği və inkişafı istiqamətində həyata keçirilən tədbirlərdəndir. Məsələn, Rusiya Federasiyasında fəaliyyət göstə-





rən " Puşkin kitabxanası " Fondu ilə yaranmış əməkdaşlıq 200 ildən çox davam etmiş birgə yaşayış yolunu keçmiş iki xalqın – rusların və azərbaycanlılarln bir – birini daha da yaxından tanımasına kömək etmişdir. Ümummilli liderimiz Heydər Əliyev dönə - dönə tövsiyə edirdi ki, bizim xalqımız öz yaxın qonşuları ilə mədəni əlaqələri daim qoruyub saxlamalı və inkişaf etdirməlidir.

İkinci sahə. Ölkənin gələcəyi olan uşaqların sağlam böyüməsinə nail olunmasına və ümumilikdə cəmiyyətin hər bir fərdinin fiziki cəhətdən sağlamlığına yardım edilməsi məqsədilə Heydər Əliyev Fondu bir neçə böyük proqram və layihələr hazırlamış və onları uğurla reallaşdırmışdır. Məsələn, fondun rəhbərliyi 40 min soydaşımızın vəziyyətini nəzərə alaraq "Kor və görmə qabiliyyəti zəif olan insanlar üçün informasiya kommunikasiya texnologiyalarına çıxışın təmin edilməsinə dair " layihə hazırlamışdır. Üç mərhələdən ibarət olan həmin layihə BMT – nin İnkişaf Proqramı ilə birlikdə həyata keçirilmişdir. Diqqət yetirin, Heydər Əliyev Fondu ehtiyacı olan azərbaycanlıların probleminin həll edilməsinə BMT kimi mötəbər bir beynəlxalq təşkilatın müvafiq qurumunu da cəlb edir.

Fondun yaradılmasından cəmi yarım il sonra – 2004 – cü ilin dekabrında " Diabetli uşaqlara ən yüksək qayğı " layihəsinin təqdimatı keçirildi. Təqdimatdan dərhal sonra fondun rəhbərliyi Azərbaycan Diabet Cə-

miyyəti və Danimarkanın müvafiq nüfuzlu şirkəti ilə birlikdə layihənin icrasına başlanıldı. Yuxarıda qeyd etdiyimiz məqamı bir daha yada salırıq. Diqqət yetirin, diabetli uşaqlara qayğı göstərmək üçün Avropanın ən nüfuzlu əczaçılıq şirkəti Azərbaycana dəvət edilir. Fond bu layihə əsasında fəaliyyətini 2005 – ci ildə daha da genişləndirmiş, ölkədəki 14 yaşınadək 310 diabetli uşağa çox yüksək səviyyədə qayğı göstərilmişdir.

Fondun səhiyyə sahəsində həyata keçirdiyi növbəti layihə " Talassemiyasız həyat naminə " adlanır. Bu mövzuda keçirilən " dəyirmi masa " da beynəlxalq əməkdaşlıq imkanları müzakirə edilmişdir. Geniş diskussiya və müzakirələrdən sonra fondun " Talassemiyasız həyat naminə " proqramı çərçivəsində müasir avadanlıqla təchiz olunmuş Talassemiya Diaqnostika Mərkəzinin yaradılması qərara alınmışdır. Artıq mərkəzin tikintisi həyata keçirilmişdir...

Beləliklə, Heydər Əliyev Fondunun prezidenti, UNESCO – nun və İSESCO – nun xoşməramlı səfiri, Birinci vitse – prezident Mehriban xanım Əliyevanın ictimai – siyasi fəaliyyəti barədə, qismən də olsa, söz aça bildik.

Sonda ümummilli liderimiz Heydər Əliyevin məşhur bir ifadəsini yada salmaq istərdik :





**" Həyatda heç kəs kiminsə yerini tuta bilmir. Allah hər kəsə özünün tuta biləcəyi yeri müəyyən edibdir ". Bu baxımdan ulu Yaradan Mehriban xanım Əliyevaya çox sadə və çox adidir: " Xalqa xidmət etmək ". Məsuliyyətli, şərəfli və ehtirama layiq bu missiyanın yerinə yetirilməsində Mehriban xanım Əliyevaya daha böyük nailiyyətlər arzulayırıq. Yazımıza humanist əməlləri ilə həyat klitabını yazmış Mehriban xanım Əliyevanın öz qeydləri ilə yekun vurmaq istərdik. Xanım Əliyeva yazır : " Həyatda hər bir kəsin yerini və taleyini tarix müəyyən edir. Odur ki, nə böyük, nə də kiçik rollar olmur. Öz həyat kitabını yazmağa ancaq sənin şəxsi, dərk edilmiş məsuliyyətin imkan verir. Bu kitabda hər kəs özünü şəxsi həyatının və dünyanın qurub – yaradıcısı, yaxud dağıdıcısı kimi təcəssüm etdirir ".**

# MEHRİBAN ƏLİYEVA QƏLBİNİN SİYASƏTİ

Son əlli ildə qadınların siyasətdə rolunun artması müşahidə olunur.Ölkəsinin sosial – humanitar və mədəni modernləşməsinin ilhamvericisi olan Azərbaycanın birinci xanımı da müasir dünyanin görkəmli lider qadınları sırasındadır.

Heç şübhəsiz, sonrakı dövrlərin tarixçiləri Mehriban Əliyeva fenomenini maraqla öyrənəcəklər. Bizim üşün isə bir sıra aspektlərin harmonik vəhdətindən yaranan bu fenomenin genezisini başa düşmək əhəmiyyətlidir.

Heç şübhəsiz, sonrakı dövrlərin tarixçiləri Mehriban Əliyeva fenomenini maraqla öyrənəcəklər. Bizim üçün isə bir sıra aspektlərin harmonik vəhdətindən yaranan bu fenomenin genezisini başa düşmək əhəmiyyətlidir.

Bir tərəfdən Azərbaycanda Mehriban Əliyeva kimi liderin formalaşmasını taleyin qisməti hesab etmək olar. Obyektiv desək, onun təşəbbüs və təklifləri müxtəlif sivilizasiya platformalarının qovuşuğunda yerləşən





Azərbaycanın sosial-humanitar və mədəni modernləşməsinin hərəkətverici amilinə çevrilib.

Digər tərəfdən, bu fenomenin milli siyasi məkanda formalaşması faktı dünya trendinə tam uyğundur.Axı, Avrasiyanın şərqinin siyasi tarixi baxımından " Əliyeva amili " qadınların inqilabi şəkildə siyasətə qoşulmasının və onların dünya ölkələrinin çoxunun idarəçilik strukturlarına yol tapması imkanlarının genişlənməsinin qanunauyğun nümunəsidir. Bu mənada Azərbaycan Avrasiyanın tarixən təşəkkül tapmış " qadın siyasəti " dairəsində özünün mövcudluğunu bir daha diqqətə çatdırır.

Heydər Əliyev Fondu Mehriban Əliyevanın rəhbərliyi ilə əslində, Azərbaycanın qeyri- institusional inkişaf vasitəsinə çevrilib. Fond öz layihələri ilə səhiyyə, elm və təhsil sahələrində dövlət siyasətini tamamlayır, informasiya kommunikasiyaları və ətraf mühitin mühafizəsi sahələrində ölkə üçün pilot layihələr işləyib hazırlayır.

Mehriban Əliyeva UNESCO- nun xoşməramlı səfiri və Bakıda birinci Avropa Oyunlarının Təşkilat Komitəsinin rəhbəri kimi misilsiz fəallığı və nüfüzu dünya səviyyəli, genişmiqyaslı bu idman hadisəsinin təşkilində böyük rol oynayıb, bu Avropa ideyasına güclü təkan və yeni Avrasiya meyarı verdi.

Birinci xanımın Azərbaycan paytaxtının memarlıq simasının dəyişməsində rolunu da diqqətdən kənarda qoymaq olmaz. Dünyanın ən yaxşı arxitektorları tərəfindən həyata keçirilən, Bakını həqiqətən dəbdə olan müasir şəhərə çevirən bir sıra layihələr Mehriban Əliyevanın şəxsi iştirakı sayəsində mümkün olub.

Beləliklə o, öz işində iki istiqaməti- Azərbaycanın kompleks humanitar " brendi " kimi dünyada irəliləməsini və ölkənin sistemli sosio- mədəni inkişafını uğurla sintezləşdirə bilib. Onun rəhbərliyi ilə bu iki proses, necə deyərlər, çiyin-çiyinə irəliləyir.

Sevindirici haldır ki, bu işlə sadəcə təyin edilmiş məmur deyil, fəal həyat mövqeyi, bitib-tükənməyən enerjisi və güclü xarizması olan mütərəqqi əqidəli bir insan məşğul olur. Ən başlıcası isə unutmayaq ki, indiki halda söhbət üç övlad tərbiyə etmiş cazibədar xanımdan gedir.Gözəllik ilə xeyirxahlığın vəhdəti onun hər addımını sosial reallığı dəyişən yaradıcılığa çevrilir. Görünür, Mehriban Əliyeva fenomeninin sirri də elə bundadır...

Məşhurluq pop-ulduzların, aktyorların və siyasətçilərin çoxuna xas olan yetərincə geniş yayılmış fenomendir. Şərti reytinqlərdə mövqe uğrunda mübarizə heç kəsi təəccübləndirmir.Bu oyunun süni şəkildə şişirdildiyini hamı başa düşür. Xalq arasında populyar olmaq isə başqa məsələdir.Bu, ani konyukturanın təsirinə uymayan tamamilə başqa materiyadır.





Nə üçün sadə azərbaycanlılar ölkənin birinci xanımını sevirlər? Onlar Mehriban Əliyevanın timsalında " yaxasını kənara çəkən " funksioner deyil, onların istəkləri ilə maraqlanan, protokol çərçivəsindən kənara çıxmağı, hər bir ciddi problemə münasibət bildirməyi bacaran insan görürlər. Maraqlı fakt: nisbətən kiçik ölkədə o, hər gün " yerlərdən " təqribən 300 məktub alır. Ona yazırlar, çünki bilirlər ki, müraciət edib yardım, dəstək, yaxud məsləhət ala bilərlər. Azərbaycan Prezidentinin xanımı ölkə daxilindəki səfərlərdə daim onu müşayiət edir. Yəni o, necə deyərlər, göz qabağındadır və bununla da iqtidarla cəmiyyətin qarşılıqlı əlaqələrinə öz töhfəsini verir. Həm də bu, necə deyərlər, canlı töhfədir və buna görə də xalqın gözündə inzibati kommunikasiyaların standart " mexaniki " strukturlarından daha qiymətlidir, çünki xeyirxahlıq və şəfqət insanın daxilindən gəlməlidir, yoxsa ictimaiyyət onu qəbul etməyəcək. İnsanlar hiss edirlər ki, birinci xanım onların qayğıları ilə yaşayır.

Özü də bu,elə bir haldır ki, xarizmatik və cazibədar şəxsiyyət yüksək dərəcədə ziyalılıq ilə vəhdət təşkil edir. Mehriban Əliyeva istər aldığı tərbiyəyə, istər əsil-nəcabətinə, istərsə də təhsilinə görə Azərbaycanın sovet dövrü mühitindən çıxıb. İndi dünyada bu səviyyəli başqa birinci xa-

nım tapılar. Bu məziyyətlərə malik olan elita nümayəndələri adətən soyuqqanlı olur, xalqın problem və qayğılarını ürəklərinə yaxın buraxmamağa çalışırlar. Həqiqətən, çətindir, amma Mehriban Əliyeva başqasının dərdinə ürəkdən şərik olmağı bacarır. Bunu rola girməklə imitasiya etmək mümkün deyil. Onun təbiəti belədir.

Mehriban xanımın formalaşdığı mühit Azərbaycanın tarixi ilə ayrılmaz şəkildə bağlıdır.Mehriban Əliyeva fenomeni başqa amillərlə yanaşı, həm də iki konkret ailənin – Paşayevlər ilə Əliyevlərin qohum olmasının nəticəsidir. Mehriban xanımın babası, görkəmli Azərbaycan yazıçısı və ədəbiyyatşünas alim Mir Cəlal Paşayev əslən Cənubi Azərbaycandan idi. Anası Aida İmanquliyeva tanınmış ərəbşünas olub, Azərbaycan Elmlər Akademiyasının Şərqşünaslıq İnstitutuna başçılıq edib. Mehriban Əliyevanın həyat yoldaşının, Prezident İlham Əliyevin atasının təqdimata ehtiyacı yoxdur. Heydər Əliyev müasir müstəqil Azərbaycanın qurucusudur. Bu fakt çox şeyə dəlalət edir...

Bu ailələr milli elitadır. Azərbaycanda onlarla səmimi qəlbdən fəxr edirlər. Özü də çox sadə bir səbəbdən-ölkəyə və xalqa görə məsuliyyət yükü real şəkildə onların çiynindədir. Onlar sınaqların və itkilərin ağrı-acısının nə demək olduğunu bilirlər.Çox vaxt görürsən ki, naz-nemətin çoxluğu elitanı zəiflədir. Bu ailələr isə əksinə, şəxsi enerjiləri ilə islahatları sürətləndirir və stimullaşdırırlar. Heç şübhəsiz, söhbət müasir Azərbaycan tarixinin rassionar şəxsiyyətlərdən gedir.





Mehriban Əliyeva Azərbaycanın və postsovet məkanının ayrılıqda götürülən tarixi baxımından müstəsna, amma qlobal proseslər baxımından obyektiv qanunauyğun fenomendir. Söhbət son 50 ildə qadınların siyasətdə rolunun artmasından gedir. Bu prosesin başlanğıcını Sirimavo Bandaranaike qoyub. O, 1960-cı il iyulun 21-də Şrilankada dünyada ilk qadın Baş nazir olub. Onun rəhbərliyi ilə ada müstəmləkə asılılığından və müharibədən xilas olub. Sonra o, daha iki dəfə Baş nazir seçilib.

Qadınların siyasətə gəlişi nəticəsində Asiyada və bütövlükdə dünyada çoxsaylı maraqlı və mütərəqqi dəyişikliklər baş verib: Hindistanın Baş naziri İndira Qandi; ən yeni tarixdə müsəlman əhalinin üstünlük təşkil etdiyi bir ölkədə-Pakistsnda ilk qadın hökumət başçısı Binəzir Bhutto; Filippində Asiyada ilk qadın prezident Kori Akino. Yəni, Asiya qitəsində siyasətin feminizasiyası məlum prosesdir.

Mehriban Əliyevanın adı, şübhəsiz ki, bundan sonra da müasir dünyanın görkəmli lider qadınları sırasında olacaq. Özü də taleyin ona nə kimi gələcək hazırlamasından asılı olmayaraq. Kim bilir, bəlkə o, ölkəsində "şaquli " siyasi xətt boyunca yüksələcək, bəlkə də " üfüqi " sosial-

humanitar layihələrin sayı artdıqca onun rolu da güclənəcək. İstənilən halda o, Azərbaycanın yetkin qeyri-rəsmi lideridir.

Şəksiz ki, onun izi diplomatiya dünyasında da qalacaq. Azərbaycanın birinci xanımı sivilizasiyaların qlobal dialoquna həqiqətən müstəsna töhfə verib.Mehriban xanım Qərbdə Şərqin qeyri-rəsmi elçisidir və klassik Qərb dəyərlərinin " vətəni " olan Avropanı Asiyada və öz vətənində təmsil edir. Birinci xanımın rəhbərliyi ilə Heydər Əliyev Fondu Avropada islam-xristian dialoqunda böyük rol oynamağa başlayıb.

Vatikanın tarixində ilk dəfədir ki, müqəddəs xristian abidələrinin bərpasına müsəlman ölkəsində fəaliyyət göstərən bir təşkilat kömək edir. Azərbaycanın özündə Fondun təşəbbüsü ilə katolik və kilsələri, sinaqoq təmir edilir.

Azərbaycanın öz üzərinə götürdüyü sivilizasiyalararası körpü rolu o qədər də sadə məsələ deyil. Baxın, tarixən mədəniyyətlərin və sivilizasiyaların " qovuşduğu yer " kimi inkişaf edən bir regionda-Yaxın Şərqdə indi nələr baş verir? Praktiki olaraq Yaxın Şərqin heç bir yerində uzunmüddətli sülh yaratmaq mümkün olmur. Azərbaycan tamamilə başqa nümunədir. O göstərir ki, müxtəlif sivilizasiyaların və mədəniyyətlərin platformaları arasındakı sərhəddə əmin-amanlıq hökm sürə bilər.

Ənənələrin əhəmiyyətli rol oynadığı hər hansı digər ölkə kimi, Azərbaycan da liderin, prezidentin siyasi zirvədə nə kimi rol oynamasından asılıdır.Prezident İlham Əliyevin sərt və prinsipial siyasi xətti Azərbaycanın modernləşməsinin şəksiz xeyrinədir. Onun siyasəti elitanı stimullaşdırır,onu daim sərvaxt saxlayır. Belə olan halda birinci xanımın rolu nədən ibarətdir?





Onun rolu Prezidentin xanımı barədə adi təsəvvürlərdən xeyli yüksəkdir. Demokratiyanın Azərbaycan modelinin indiki mərhələdə inkişafı Prezidentin yanında kimin olmasından, onun komandasının şəxsən kimlərdən ibarət olmasından və ömür-gün yoldaşı Mehriban xanım kimi ən yaxın asılıdır. O, İlham Əliyevin sərtliyini müəyyən mənada yumşaldır və eyni zamanda, sosial sahədə ölkə üçün " riskli" görünən maraqlı layihələrin həyata keçirilməsi baxımından onun hakimiyyətini gücləndirir, eləcə də iqtidarla cəmiyyətin birbaşa əlaqəsini emosional cəhətdən dolğunlaşdırır.

Nəzərə almaq lazımdır ki, o, ölkəsinin siyasi meydanında formal statusuna görə də yetərincə nüfuzlu simadır, hakim Yeni Azərbaycan Partiyası sədrinin müavinidir.

Azərbaycanı başa düşmək, bu ölkəni duymaq istəyirsinizsə, onda Mehriban xanım Əliyevanı da yüksək qiymətləndirməlisiniz. Azərbaycanın sistemli sosial-iqtisadi inkişafında onun rolunu danmaq və ya diqqətdən kənarda qoymaq olmaz.Cəsarətlə deyə bilərik ki, o, Azərbaycanın tarixində daim yaşayacaqdır.

## MƏCBURİ KÖÇKÜNLƏRİN YAXIN DOSTU

Azərbaycanın Birinci vitse-prezidenti Mehriban xanım Əliyeva məcburi köçkün ailələri ilə daim sıx əlaqədə olur,onların gündəlik problemlərinin həll olunması istiqamətində səylərini əsirgəmir.Birinci vitse-prezident kimi fəaliyyətə başladığının ilk ilində Hökumətin qəzalı vəziyyətdə məskunlaşmış məcburi köçkün ailələrinin yeni mənzillərlə təmin olunması layihəsinin icrası çərçivəsində Abşeron rayonunun Masazır qəsəbəsində yeni mənzillərin verilməsi mərasimində iştirak etmişdir.

Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban xanım Əliyeva mərasimdə çıxış etmişdir:

-Hörmətli mərasim iştirakçıları,əziz dostlar.İlk növbədə sizin hər birinizi müqəddəs Ramazan bayramı münasibətilə ürəkdən təbrik edirəm. Bütün Azərbaycan xalqına əmin-amanlıq,yeni-yeni uğurlar arzulayıram.

Ramazan ayı dünya müsəlmanlarını sülh və birlik yoluna, xeyirxah əməllərə, saf niyyətlərə, mərhəmətə və mənəvi kamilliyə dəvət edir. Ramazan ayı bizim hər birimizi ehtiyacı olan, çətinliklərlə üzləşən insanla-





ra yardım etməyə dəvət edir. Bugünkü görüşümüz bu baxımdan rəmzi məna daşıyır. Ermənistanın işğalçı siyasətindən əziyyət çəkən soydaşlarımızın bir qismi bu gün yeni mənzillərlə təmin olunur, onların yaşayış şəraiti yaxşılaşır. Sizin həyatınızda yeni dövr başlayır. Sizin həyat tərziniz yaxşılaşacaq. Mən bu münasibətlə sizi ürəkdən təbrik edirəm, yeni mənzillərinizdə sizə xoşbəxt ömür arzulayıram.

**Ermənistanın artıq 20 ildən çoxdur ki, davam edən işğalçı siyasəti nəticəsində ölkəmizdə bir milyon qaçqın və məcburi köçkün mövcuddur. Bu insanların problemlərinin həlli, onların yaşayış şəraitinin yaxşılaşdırılması, iş, təhsil, tibb və digər xidmətlərlə təmin edilməsi Azərbaycan dövlətinin daim diqqət mərkəzindədir. İyirmi ildən çoxdur ki, bu sahədə ardıcıl olaraq bütün lazımi tədbirlər həyata keçirilir, addımlar atılır. Bildiyiniz kimi,- baxmayaraq ki, müstəqilliyimizin ilk illərində dövlətimiz böyük çətinliklərlə üzləşmişdir,- Azərbaycan Hökuməti ölkəmizdə mövcud olan bütün çadır şəhərciklərini qısa bir zamanda ləğv etmişdir. Azərbaycanda məcburi köçkün ailələri üçün 100-dək müasir**

**yaşayış kompleksi inşa olunmuşdur. Bu qəsəbələrdə bütün lazımi infrastruktur yaradılmışdır. Qəsəbələr məktəb və bağçalarla təmin olunmuşdur. Dörd yüz mindən çox məcburi köçkün iş yeri ilə təmin edilmişdir. Bu gün də soydaşlarımızın işlə təmin olunması sahəsində dövlət proqramları həyata keçirilir. Bir daha qeyd etmək istəyirəm ki, bu, Azərbaycan dövləti üçün ən ağır, ən vacib problemdir. Azərbaycan dövləti bu problemin həlli üçün bütün lazımi tədbirləri görür və bu siyasət bundan sonra da davam etdiriləcəkdir.**

Mən öz fəaliyyətimdə sosial problemlərin, xüsusilə də qaçqın və məcburi köçkün ailələrinin problemlərinin, çətinliklərinin həllinə xüsusi diqqətlə yanaşıram. Birinci vitse-prezident vəzifəmdə ilk müşavirəm məhz bu problemlərin həllinə yönəlmişdir. Bizim qarşımızda duran məqsəd ilkin mərhələdə Bakı və Sumqayıt şəhərlərində yararsız, qəzalı, yarımçıq tikilmiş binalarda məskunlaşmış dörd min məcburi köçkün ailəsini yeni mənzillərlə təmin etməkdir. Bunun üçün bütün lazımi göstərişlər verilib, artıq tədbirlər görülür və əminəm ki, biz bu məqsədimizə nail olacağıq. Bu ilin may ayında Qaradağ rayonunun Lökbatan qəsəbəsinin yaxınlığında 1026 ailəlik yeni yaşayış qəsəbəsinin təməli qoyuldu. Bu qəsəbədə bütün lazımi infrastruktur- tibb məntəqəsi, 600 şagird yerlik məktəb, uşaq bağçası inşa olunacaq. Burada artıq inşaat işləri başlayıb. Əminəm ki, işlər qısa bir zamanda başa çatdırılacaq və bu gün çox ağır vəziyyətdə yaşayan daha 1026 məcburi köçkün ailəsi yeni mənzillərlə təmin olunacaq.





Azərbaycan dövləti tərəfindən bu tədbirlərin icrası üçün, ümumilikdə, 6 milyard manatdan çox vəsait ayrılmışdır. Bu gün Azərbaycanda qaçqın və məcburi köçkünlərə dövlət tərəfindən ayrılmış vəsait nisbət etibarilə dünyanın ən yuxarı göstəriciləri arasındadır. Azərbaycan dövlətinin bu sahədə əldə etdiyi nailiyyətlər, bizim təcrübəmiz artıq dünyada bir model kimi qəbul olunur.

Bir daha qeyd etmək istəyirəm ki, bu gün Azərbaycan qüdrətli, güclü dövlətdir və qarşıda duran məsələlərin həlli üçün lazımi addımlar atılır, bütün lazımi tədbirlər həyata keçirilir. Çox xoşdur ki, dövlətlə yanaşı, biznes strukturları da, iş adamları da bütün cəmiyyətimiz üçün vacib olan bu problemə biganə qalmayıb və onlar da bu ağır problemin həllinə öz töhfələrini verməkdədirlər.

**Bu gün Xəzər rayonunun Şüvəlan qəsəbəsində yarasız binada və Xətai rayonunda yarımçıq tikilmiş**

**binada məskunlalmış 214 ailə Masazır və Mehdiabad qəsəbələrində yeni inşa olunmuş və tam təmirli mənzillərə köçürülür. Məhz iş adamlarının yardımları ilə bu gün 214 ailənin yeşayış şəraiti yaxşılaşacaq. Fürsətdən istifadə edərək, həmin şirkətlərə dərin minnətdarlığımı bildirirəm. Hesab edirəm ki, bu çox təqdirəlayiq bir haldır. Ümidvaram ki, digər iş adamları, ölkəmizdə faəliyyət göstərən digər biznes strukturları da gələcəkdə bu təşəbbüsə qoşulacaqlar. Bu, bizim cəmiyyətimizin birliyinin göstəricisidir, eyni zamanda, Azərbaycanın ən gözəl ənənələrindən biri olan xeyriyyəçilik ənənəsinin davamıdır.**

Mən hesab edirəm ki, ölkəmizdə fəaliyyət göstərən biznes strukturları, iş adamları, özəl sektor sosial məsuliyyət haqqında ciddi düşünməli və cəmiyyətimizi narahat edən problemlərin həllində fəal iştirak etməlidirlər. Xüsusilə də onlar bizim hər birimiz üçün ən ağır problem olan qaçqınların və məcburi köçkünlərin yaşayış şəraitini yaxşılaşdırmaq işində iştirak etməlidirlər.





Azərbaycan dövləti öz vətəndaşlarına, xüsusən də sizlərə- böyük çətinliklərlə üzləşən qaçqın və məcburi köçkün ailələrinə hər zaman diqqətlə yanaşır, öz qayğısını göstərir. Hər bir azərbaycanlının ən böyük arzusu torpaqlarımızın işğaldan azad edilməsi, Azərbaycanın ərazi bütövlüyünün bərpa olunmasıdır. Hamımızın arzusu budur ki, hər bir qaçqın və məcburi köçkün doğma yurduna, doğma torpağına qayıtsın. Arzumuz budur ki, işğaldan azad olunan kəndlərimiz, şəhərlərimiz bərpa edilsin, yeni qəsəbələr salınsın və insanlar normal həyat tərzinə qayıtsınlar. Dövlətimiz bunun üçün əlindən gələni edir. Biz isə bu yolda birlik nümayiş etdirməliyik və inanmalıyıq ki, qarşımızda duran bütün məqsədlərə mütləq çatacağıq.

Mən bir daha sizin hər birinizi ürəkdən təbrik edirəm, sizə can sağlığı və yeni uğurlar arzulayıram. Çox sağolun...

Mehriban Əliyevanın çıxışından sonra söz alan Füzuli rayonundan məcburi köçkün Rafiz Kərimov dedi:

-Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban xanım Əliyeva, hörmətli mərasim iştirakçıları. İcazə verin, hamınızı Ramazan bayramı münasibətilə təbrik edim, sizə cansağlığı, xoşbəxtlik arzulayım.

Hörmətli Mehriban xanım, Sizin həm ölkə daxilindəki, həm də xaricdəki əməli fəaliyyətiniz Azərbaycan xalqının gözü qabağındadır.

Müstəsna hal olaraq qeyd edim ki, xarici ölkələrdə Azərbaycan tarixinin, mədəniyyətinin, incəsənətinin təqdim edilməsində şəxsən Sizin Azərbaycan vətəndaşı kimi böyük xidmətləriniz olmuşdur və bunun sayəsində Azərbaycan bu gün sülhsevər bir ölkə kimi, idman, mədəniyyət mərkəzi kimi tanınır.

**Mehriban xanım, biz 20 ildən çoxdur ki, Xəzər rayonunun ərazisində məskunlaşmışıq. Çətinliklərlə də rastlaşmışıq, problemlərimiz də olub. Lakin Sizin deputat olarkən də gördüyünüz işlər məhz bizim gözümüzün qabağında olub. İstər səhiyyə, istər elm sahəsində, istər ərazidə olan yeni quruculuq işlərində,- mən hamısını bir-bir sadalayıb vaxtınızı almaq istəmirəm,- məktəbindən, baxçasından, yolundan tutmuş hamısında Sizin əməyiniz var və fəaliyyətiniz olub. Buna görə də bir daha Sizə minnətdarlığımızı bildiririk...**

Qarabağ müharibəsi vetreranı Rafiz Kərimov ulu öndər Heydər Əliyevin rəhbərliyi ilə Horadiz əməliyyatında,Füzuli rayonunun 20 kəndinin və Cəbrayıl rayonunun Cocuq Mərcanlı kəndinin azad olunmasında şəxsən iştirak etməsindən fəxr hissi keçirdiyini bildirdi. Bu siyasətin bu





gün də davam etdirildiyini deyən Rafiz Kərimov bu bayram günlərində ikiqat sevinc yaşadıqlarına görə bir daha məcburi köçkünlər adından Mehriban Əliyevaya minnətdarlıq etdi. "Bizim arzumuz vətənə,yurdumuza qayıtmaqdır",-deyən Rafiz Kərimov Prezident İlham Əliyevin rəhbərliyi altında Cocuq Mərcanlı ətrafında,Lələtəpə və digər ərazilərdə olan qələbələrin tezliklə təkrarlanacağına ümid etdiyini,bu gün Lələtəpədə ucalan üçrəngli bayrağımızın tezliklə Qarabağın bütün şəhərlərində, o cümlədən doğulduğu Füzuli rayonunda dalğalanacağına əminliyini ifadə etdi.

Şuşadan olan məcburi köçkün Vüsalə Fətəliyeva paytaxtın Xəzər və Xətai rayonlarında qəzalı binalarda yaşayan insanların mənzil şəraitini yaxşılaşdırdığına görə Birinci vitse-prezident Mehriban Əliyevaya minnətdarlıq edərək dedi:

-Hörmətli Mehriban xanım,Siz bu missiyanı Heydər Əliyev Fondunun,Mədəniyyət Fondunun rəhbəri olandan və Qarabağ həqiqətlərini dünyaya çatdırandan başlamısınız. Siz bir rəhbər kimi Qarabağın mədəniyyətini,musiqisini,idmanını,xalçalarını,rəsm əsərlərini, Qarabağa aid olan hər şeyi öz dili ilə dünyaya çatdırdınız ki,bütün dünya Qarabağın keçmişini tanısın,onun sahib olduğu torpaqların yiyəsi olduğunu bir daha bilsin. Bu, böyük,çətin məsələ idi. Bu missiyanı davam etdirərək Siz

bütün Azərbaycanda,o cümlədən məcburi köçkünlərin həyatında vacib olan "Yeniləşən Azərbaycana yeni məktəb" layihəsini reallaşdırdınız ki,bu,insanların bilikli və savadlı olmaları,dünya həqiqətlərini həm dərk etmələri,həm yaymaları üçün önəmli şərt idi.

**Sizin Birinci vitse-prezident kimi ilk müşavirənizdə dediyiniz bir fikri xatırlatmaq istəyirəm. Siz dediniz ki, insanların rifah halının yaxşılaşması üçün onların mənzillə təmin olunması vacib şərtdir. Ancaq bu,onların torpaqlarına qayıtmaları üçün əsas vasitə deyil. Hər kəs öz doğma yurduna qayıdacaq və bunlar müvəqqəti ünvanlar olacaq. Siz yekun nitqinizdə söylədiniz ki,insanların həyatı üçün iki amil vacib şərtdir. Birincisi mənzil,ikincisi isə iş. Bu böyük bir reallıq idi və bu reallığı hamıya qismət etdiyiniz üçün Sizə dərin təşəkkür edirik...**

Vüsalə Fətəliyeva adlı digər məcburi köçkün qeyd etdi ki,Mehriban Əliyeva hər zaman Qarabağ mövzusuna böyük önəm verib,bu mövzunun ölkəmizdə keçirilən bütün təbirlərdə,həmçinin Qarabağ atlarının timsalında İslam Həmrəyliyi Oyunlarında qabardılmasına diqqətlə yanaşıb. Prezident İlham Əliyevin rəhbərliyi ilə yenidən bərpa olunan Cocuq Mərcanlıda tikilən Şuşa Məscidinin bənzərinin bütün qaçqın və məcburi köçkünlərdə öz doğma yurdlarına qayıdacaqlarına inam yaratdığını deyən Vüsalə Fətəliyeva çıxışında Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyevanın rəhbərliyi ilə həyata keçirilən "Xocalıya ədalət!" kampaniyasının uğurlarından danışdı.





Laçın rayonundan olan məcburi köçkün Zabilə Cəfərova çıxış edərək dedi:

-Hörmətli Mehriban xanım,Azərbaycanın Birinci vitse-prezidenti kimi qaçqın və məcburi köçkünlərə göstərdiyiniz xüsusi qayğıya görə onların adından Sizə dərin minnətdarlığımı bildirirəm. Sizin bizə göstərdiyiniz qayğının nəticəsidir ki,bu yaxınlarda- 2017-ci il may ayının 30-da Qaradağ rayonu ərazisində köçkünlərin yaşayışının yaxşılaşdırılması üçün 1026 nəfərlik ailənin yaşayış kompleksinin təməli qoyulub. Bu gün də bu tədbirin təşkili biz məcburi köçkünlərin hədsiz sevincinə səbəb oldu.Bizi o ağır,şəraitsiz vəziyyətdən bu yeni rahat mənzillərə köçürməklə hər birimizin ailəsinə sevinc bəxş etdiniz. Əlbəttə, bu öz doğma yurd-yuvalarından didərgin düşmüş insanlar üçün lazımdır. Biz bilirik ki,bu ünvanlarda müvəqqəti məskunlaşırıq. Əminik ki,cənab Prezidentin və Sizin yürütdüyünüz siyasət nəticəsində biz tezliklə Qarabağa, öz doğma yurdlarımıza qayıdacağıq. Dünyanın heç bir yerində qaçqın və köçkün-

lərə bizdəki qədər qayğı göstərilmir.Biz qaçqın və məcburi köçkünlər hər zaman Sizin və Prezidentimizin diqqət və qayğısını görürük.

Zabilə Cəfərova Birinci vitse-prezident Mehriban Əliyevanın rəhbərliyi altında həyata keçirilən çoxşaxəli fəaliyyətindən danışdı,onun Azərbaycan mədəniyyətinin inkişafı və digər sahələrdə gördüyü işlərin ölkəmizin tanıdılmasına xidmət etdiyini vurğulayaraq dedi:

-Biz Azərbaycan xanımları Sizinlə fəxr edirik və Sizi özümüzə nümunə götürürük. Siz savadınızla, zövqünüzlə,davranışınızla,sadəliyinizlə və təşkilatçılıq qabiliyyətinizlə nümunəsiniz. Bir daha məcburi köçkünlər adından Sizə təşəkkür edir və bundan sonrakı fəaliyyətinizdə yeni-yeni uğurlar,möhkəm cansağlığı,xoşbəxtlik arzu edirəm...

**Laçın rayonundan olan digər məcburi köçkün Əmirxan Zeynalov da çıxışında Mehriban Əliyevanın rəhbərliyi ilə həyata keçirilən işlərin ölkəmizə uğurlar gətirdiyini bildirdi. Mehriban xanımın mədəniyyətin,sosial sahənin inkişafı ilə bağlı gördüyü işlərin,xüsusilə valideyn himayəsindən məhrum olmuş uşaqlar üçün evlər tikdirməsinin böyük mənəvi əhəmiyyətinin olduğunu deyən Əmirxan Zeynalov onun deputat olduğu dövrdə**





**Xəzər rayonunda gördüyü böyük miqyaslı quruculuq işlərindən danışdı. O, Mehriban Əliyevanın xalqa bağlılığının təsadüfi olmadığını, bunun xalqımızın ümummilli lideri Heydər Əliyevin siyasətindən qaynaqlandığını vurğuladı.**

Əmirxan Zeynalov son illərdə Prezident İlham Əliyevin və birinci xanım Mehriban Əliyevanın rəhbərliyi ilə ölkəmizin mötəbər beynəlxalq tədbirlərə ev sahibliyi etdiyini,Azərbaycanın dünyada tanındığını,ölkəmizdə əsrlərdir mövcud olan xeyriyyəçilik ənənələrinin bu gün də yaşadıldığını bildirdi . İşğal olunmuş torpaqlarımıza qayıdacağımıza əminliyini ifadə edərək dedi:

-Aprel döyüşlərində şəhid verdik. Heç vaxt torpağı şəhidsiz azad etmək mümkün deyil. Bu, müharibənin qanunudur. Döyüşün qızğın vaxtında Siz Prezidentimiz İlham Əliyevlə birlikdə döyüş bölgəsinə getdiniz, ordumuza ilham, güc, qürur verdiniz. Onlar daha da qüdrətləndilər, ermənilərə ağır zərbə endirdilər. Nəhayət, ən kövrəldici bir hadisəni də deməliyəm. Siz qəhrəman şəhidlərimizin ailələri ilə görüşdünüz. O görüş heç vaxt yaddaşlardan silinməyəcəkdir. Dövlət o şəhid ailələrinə hər cür diqqət və qayğı göstərdi, onları hər tərəfli şəraitlə təmin etdi. Amma

bunlar Sizin göz yaşlarınız qədər onlara təmkin, qüvvət vermədi. Siz doğrudan da xalqın qədrini bilən, dərdinə şərik olan, anaları, bacıları, kimsəsizləri qiymətləndirən qeyrətli, vüqarlı, təşkilatçı, iradəli ,tədbirli bir xanımsınız. Arzum odur ki, Prezident İlham Əliyevlə çiyin-çiyinə yeni-yeni uğurlara, yeni-yeni qələbələrə doğru gedəsiniz. Qarabağın azad olunmasını və Sizin orada Prezident İlham Əliyevlə, bizlərlə birlikdə qələbə bayrağını ucaltmağınızı diləyirəm...

Onun fəaliyyətinə verilən yüksək qiymətə görə minnətdarlığını bildirən Birinci vitse-prezident Mehriban Əliyeva dedi:

-Əziz bacılarım, əziz qardaşlarım. Mənim barəmdə və fəaliyyətim haqqında dediyiniz bu xoş sözlərə görə sizə dərin minnətdarlığımı bildirirəm. Qeyd etmək istəyirəm ki, istər Heydər Əliyev Fondunda mənim fəaliyyətimdə, istər bugünkü çox məsuliyyətli vəzifəmdə məhz sizlər mənim güc mənbəyimsiniz. Çünki mən atdığım hər addımda, hər bir insanla, çox sevdiyim Azərbaycan xalqı ilə ünsiyyətdə olanda doğrudan da sizin sevginizi, dəstəyinizi, inamınızı hiss edirəm. Mənim üçün bu ,çox vacibdir.





Azərbaycanın müstəqilliyi bərpa olunandan bəri tarix baxımından çox da uzun bir müddət keçməyib. Amma Azərbaycan bütün sahələrdə- iqtisadiyyatda , siyasətdə , sosial , idman , mədəniyyət sahələrində əldə etdiyi nailiyyətlərlə bu gün dünya xəritəsində öz layiqli sözünü deyir. Əminəm ki, bütün bu uğurların təməlində Azərbaycan xalqı durur.

Siz bu gün xatırlatdınız ki, son illər ölkəmizdə çox böyük beynəlxalq tədbirlər keçirilib. Təbii ki , ölkəmizə dünyadan gələn qonaqların , turistlərin sayı artır. Biz bu insanlarla görüşürük , ünsiyyətdə oluruq. Əlbəttə , onların hamısı Bakının gözəlliyindən , ölkəmizin inkişafından , Azərbaycanın mətbəxindən danışırlar. Amma xüsusi vurğulayırlar ki , burada çox gözəl , ürəyiaçıq , istiqanlı , qonaqpərvər insanlar yaşayırlar. Düzdür , gözəllik , abadlıq çox vacibdir. Amma əgər gözəl bir yerə gəlirsən və insanların simasında , necə deyərlər , nifrət , hirs görürsənsə , heç vaxt insan orada özünü rahat hiss etmir. Bütün qonaqlar məhz bunu deyirlər ki , siz xoşbəxtsiniz , sizin insanlarınız nə qədər gözəl və mərhəmətlidirlər. Mən buna çox inanıram və bununla fəxr edirəm. Fəxr edirəm ki , bizim xalqımız doğrudan da belə böyük ürəyə malikdir. Mən inanıram ki , qarşınızda duran məsələlərin , problemlərin ,- onlar var və çoxdur , biz çox

çətin bir dünyada yaşayırıq ,-həlli üçün insanın xoş niyyəti , mərhəməti , insanlığı çox vacibdir və bunlar bizim xalqda var. Ona görə də biz mütləq bütün arzularımıza çatacağıq , ədalət bərpa olunacaq , Qarabağ problemi həllini tapacaq , siz hamınız öz doğma yurdlarınıza qayıdacaqsınız və biz bunu orada bir yerdə qeyd edəcəyik.

Mən bir daha sizə öz dərin hörmətimi və məhəbbətimi çatdırıram. Çox sağ olun...





## MEHRİBAN ƏLİYEVA: "UŞAQLARA YAXŞILIQ NƏ QƏDƏR ÇOX OLSA , YENƏ AZDIR"

Azərbaycanın Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın böyük himayədarlığı və şəfqəti sayəsində kimsəsiz uşaqlar artıq özlərini yalqız hiss etmirlər…

Bakıda bir uşaq evi var: çox rahat, isti, səliqəli, yataqları yumşaq, yeməkləri ləzzətli… O qədər oyuncaq var ki, elə bil nağıl dünyasının içərisindəsən.Uşaqların ehtiyacı olan hər şey var burada. Amma yenə də nə isə çatmır…

Bu evin balaca sakinləri hər gələn zəngin obaşında anasının, hər açılan qapının arxasında atasının olacağını ümid edir, bunu çox istəyirlər.

**Hər il noyabr ayının 20-si Ümumdünya Uşaqlar günü kimi qeyd olunur. BMT Baş Məclisi 1954-cü ildə bütün ölkələrdə Ümumdünya Uşaqlar Gününün dünya uşaqlarının qardaşlığı və həmrəyliyi günü kimi bayram edilməsini tövsiyə edib. BMT-**

**nin Baş Məclisi tərəfindən 1959-cu il noyabrın 20-də Uşaq Hüquqları Bəyannaməsi, 1989-cu ilin həmin tarixində isə Uşaq Hüquqları Konvensiyası qəbul olunub.**
**Uşaq hüquqlarının təmin edilməsi ölkəmizdə həyata keçirilən dövlət siyasətinin prioritet istiqamətlərindən biridir. Bu siyasətin uğurla reallaşdırılmasına Azərbaycan Respublıkasının Birinci vitse-prezidenti Mehriban Əliyeva hərtərəfli dəstək verir.**

Mehriban Əliyeva "Uşaqlara yaxşılıq nə qədər çox olsa, yenə azdır" devizini rəhbər tutaraq, çox dəyərli bir mərama söykənib: Azərbaycan uşaqlarını bəxtəvər görmək. O həm də kimsəsizlərin ən böyük himayədarıdır. Çünki ulu öndərin adını daşıyan fond yarandığı ilk gündən valideyn himayəsindən məhrum olan, dövlət müəssisələrində tərbiyə edilən uşaqların taleyini diqqət mərkəzində saxlayır. Uşaqların hərtərəfli inkişafı, keyfiyyətli təhsil, yüksək standartlara cavab verən tibbi xidmətlərlə təmin olunması istiqamətində önəmli layihələr həyata keçirilir. "Uşaq evləri və internat məktəblərinin inkişafı proqramı" və "Məktəbəqədər





uşaq tərbiyə müəssisələrinin yenidən qurulması" layihəsi çərçivəsində yüzədək körpələr evi, bağça və internat məktəbləri əsaslı təmir olunub.

Böyük qürur hissilə deyə bilərik ki, nəcib və ali məqsədlər, bəşəri ideyalar naminə çalışan insan amilini daim uca tutan xoşməramlı şəxsiyyətlər arasında Mehriban Əliyevanın adı xüsusi çəkilir. Bu istiqamətdə həyata keçirdiyi nəcib missiya onu bütün Azərbaycan uşaqlarının ən yaxın dostuna, qayğıkeşinə çevirib.

Mehriban xanım Əliyevanın mərhəmət və humanistlik nümunəsi, milli-mənəvi dəyərlərimizin qorunmasında misilsiz fəaliyyəti ümummilli liderin siyasi məktəbindən, ideyalarından bəhrələnir.

Azərbaycanın birinci xanımının, Birinci vitse-prezidentinin gündəlik fəaliyyətini bu prinsiplər təşkil edir: Vətənə bağlılıq, millətinə sonsuz məhəbbət, xəstə və kimsəsiz uşaqlara qayğı, zəngin mədəniyyətimizə dərin hörmət, bir sözlə, insanlıq və bəşəri duyğular naminə fədakarlıq.

Mehriban xanım Əliyevanın diqqətində olan belə uşaq evlərindən biri də Bakının Nizami rayonundakı 1 saylı uşaq evidir. Bu uşaq evinin 1959-cu illərdə tikilmiş və uzun zaman təmir edilmədiyindən yararsız vəziyyətə düşmüş binasında 2005-ci ildə Heydər Əliyev Fondunun vəsaiti hesabına əsaslı təmir və yenidənqurma işləri aparılmışdır. Mehriban xanım Əliyeva binanın açılışında iştirak etmişdir

Hazırda 1 saylı uşaq evinin 110 sakini var. Burada 3 yaşdan 18 yaşadək uşaqlar yaşayır, təhsil və tərbiyə alırlar. Həmin uşaqların təhsili ailələrdə böyüyən uşaqlardan heç nə ilə fərqlənmir. Onlar yaxınlıqda yerləşən 220 nömrəli məktəbdə oxuyurlar.Uşaq evinin rəhbərliyi fərdi şəkildə hər bir uşağın təhsili ilə maraqlanır. Bununla yanaşı, burada təcrübəli müəllimlər uşaqlarla xüsusi proqram əsasında məşğul olurlar. Aralarında əlaçılar da çoxdur. Məsələn, 11-ci sinfi əla qiymətlərlə bitirən Elvin artıq Azərbaycan Diplomatiya Akademiyasının IV kursunda oxuyur. Elbrus adlı gənc Rəssamlıq Akademiyasının III, Təbriz isə Kooperasiya Universitetinin II kursunda təhsil alır.

**Burada uşaqlara peşə qabiliyyətinin öyrədilməsi və əl işləri ilə bağlı inkişaf etmələri üçün də hər cür şərait yaradılmışdır.Kompüter, dülgərlik, xalçaçılıq, tikiş, rəssamlıq,rəqs və digər dərnəklər uşaqların müxtəlif peşələrə yiyələnmələrinə imkan yaradır. Nənələrimizin əl işi olan iynənin arxası ilə naxış vurma sənətinə isə qızlarla yanaşı, oğlanların da xüsusi marağı var və çox gözəl naxış vururlar.**

Uşaq evindəki akt, oxu, idman, rəqs zalları, hər yaş qrupunun öz yataq otağı, rəsm, tikiş, məşğələ, istirahət və kompüter otaqları, uşaqların





əl işləri muzey-sərgisi, bərbərxana, müasir səviyyədə təchiz olunmuş tibb kabineti, hamam, üzgüçülük hovuzu, həyət yay konsert meydançası,yaşıllıqlar, stadion uşaqların fiziki və əqli cəhətdən sağlam inkişafı üçün hər cür şərait yaradıldığının bariz nümunəsidir.

Oxu zalındakı rəflərdə uşaqların müxtəlif fənn olimpiadalarında, idman və əyləncəli yarışlarda qazandıqları mükafatlar da nümayiş etdirilir.

2016-cı ildə Müasir İncəsənət Muzeyində uşaqların əl işlərindən ibarət sərgi təşkil edilib və orada 500 adda əl işi sərgilənib. Sərginin üç gün davam etməsi planlaşdırılsa da, Mehriban xanım Əliyeva baxışdan sonra bu əl işlərinin daha 15 gün sərgilənməsini məqsədə müvafiq saymışdır.

**Uşaq evinin 2003-cü ildən fəaliyyətə başlamış "Azəri" mahnı və rəqs ansamblı dəfələrlə respublika müsabiqələrinin qalibi olub, xarici ölkələrə səfərlər edib. Kollektiv Heydər Əliyev Fondunun maliyyə dəstəyi ilə hər ilin aprelində İstanbulda keçirilən ənənəvi uşaq bayramında fəal iştirak edir.Festivalda 16-17 ölkə şıxış edir və Azərbaycan yeganə ölkədir ki, orada uşaq evinin qrupu ilə təmsil olunur.**

Rəqs qrupunun üzvü Səbinə deyir ki, rəqsi çox sevir və gələcəkdə də bu sənəti davam etdirmək fikrindədir.Sevinc isə həkim olacağam deyir.

Heydər Əliyev Fondunun layihəsi əsasında bu uşaq evi xarici ölkələrdə yerləşən uşaq evləri ilə mübadilə aparır. Məsələn, Rusiyanın Moskva şəhərindəki "Bizim ev" adlı uşaq evinin kollektivi bir həftə ərzində 1 saylı uşaq evində olublar.

1 saylı uşaq evinin Xəzər rayonunun Şüvəlan qəsəbəsindəki düşərgəsinin fəaliyyəti də fondun uşaqlarla bağlı reallaşdırdığı layihələr silsiləsinə daxildir. Belə ki, 2006-cı ildə Heydər Əliyev Fondu tərəfindən inşa olunan bu düşərgə 2013-cü ildə əsaslı təmir edilib, həyətyanı sahə abadlaşdırılıb. Burada yeni, müasir stadion inşa olunub, hovuz yenidən qurulub, uşaqların asudə vaxtlarını səmərəli keçirmələri üçün gözəl şərait yaradılıb. Görülən bütün bu işlərin hamısı Heydər Əliyev Fondunun, şəxsən Mehriban xanım Əliyevanın adı ilə bağlıdır:Elə bir şey olmayıb ki. Heydər Əliyev Fondu bunu etməsin,Yetər ki, bu barədə məlumat verilsin. Ümumiyyətlə bu müəssisə Mehriban xanım Əliyevanın şəxsi nəzarətindədir.

**Həyat adlı qiz 3 yaşından burada yaşayır.Yalnız görüş günlərində və tətillərdə anasını görə bilir. Buradakı uşaqların hamısı ona dogma olsa da, ən yaxın rəfiqəsi**





**Gülzardır. Hər ikisi anasından ötrü çox darıxır. Gecələr anası yuxusuna gəlir. Onu öpür, nəfəsi ilə isidir, Həyat isə balaca əlləri ilə onu bərk-bərk qucaqlayır, istəmir ki, ondan ayrılsın, amma hər dəfə də üzünü çevirib tələsik addımlarla uzaqlaşır, qaranlıqda yox olur... Öz ağlamasının səsinə oyanır və 11 ildir təkrarlanan bu yuxu və reallıq arasında nə edəcəyini bilmir...**

**Bayramla Ruslan qardaşdırlar və onlar da lap kiçik yaşlarından bu uşaq evinin sakininə çevriliblər. Tətillərdə analarının gəlib onları öz dogma evlərinə aparacağı günü səbirsizliklə gözləyirlər...**

**Hər həftənin bazar günü 1 saylı uşaq evində "açıq qapı" günü keçirilir və uşaqların valideynlərinin, yaxınlarının gəlib onlarla zaman keçirmələri, söhbət etmələri üçün hər cür şərait yaradılır.**

Uşaq evində böyüyüb məzun olan tam kimsəsiz qızlar müvəqqəti olaraq uşaq evinin yataqxanasında qalırlar.Bəziləri isə Heydər Əliyev Fondunun Abşeron rayonu Masazır qəsəbəsində uşaq evləri və internat məktəblərinin məzunları üçün tikilmiş binada evlə təmin olunurlar. Həmçinin fond 2016-cı ildə toyu olan uşaq evinin məzunları İbrahim və

Yasəmənə iki otaqlı ev bağışlayıb.Hətta onların toy mərasimində Mehriban xanım Əliyevanın adından avtomobil də hədiyyə olunub...

**1 saylı uşaq evində valideyn himayəsindən məhrum uşaqların mənəvi sıxıntı keçirməmələri üçün dövlətimizin və Heydər Əliyev Fondunun xətti ilə bütün lazımi addımlar atılır. Yalnız belə rahat şərait və cəmiyyətin bütün təbəqələrinin xoş, qayğıkeş münasibəti uşaqların ata-anasızlıq dərdini azalda bilər...**





## HUMANİZM VƏ XEYİRXAHLIQ ETALONU

Mehriban xanım Əliyeva sadə və təmkinlidir. Nəcib və nəzakətlidir. Mərhəmətli və səxavətlidir. Humanist və xeyirxahdır. Onun əməllərinin mayasında böyük ürək, işıqlı təfəkkür, zəngin intellekt dayanır. Tanrı hər yaratdığı bəndəsinə böyük ürək vermir. Allah o kəslərin təfəkkürünü işıqlandırır ki, onlar buna layiqdirlər.

Zəngin intellekt də yaradanın böyük sevgi və səxavətlə bəxş etdiyi istedadın cilalanmasıdır. Azərbaycan qadını tarixən azad düşüncəli, təmiz qəlbli, nikbin ruhlu olmuş, mənsub olduğu ailənin, elin-obanın yükünü kişilərlə bərabər paylaşmaqla cəmiyyətin inkişafına önəmli töhfələr vermişdir. Türklərin qadına nəcib münasibətini aydın şəkildə ortaya qoyan "Kitabi Dədə Qorqud" dastanında da qadının cəmiyyətdə tutduğu üstün mövqe özünün real əksini tapmışdır.

Burla Xatun, Banu Çiçək, Selcan Xatun kimi qəhrəman qadın obrazları, onların mübariz həyat tərzi, cəsur və mərdanə davranışları cəmiyyətdə qadınların hələ yüz illər bundan öncə kişilərlə bərabər hüquqlara, hətta daha mötəbər statusa malik olduqlarının əyani təzahürüdür.

Mehriban Əliyeva haqqında yazmaq, üstəlik onun barəsində öz fikrini söyləmək olduqca ciddi və məsuliyyətli vəzifədir. Məsələ burada onun ədalətli və xeyirxah davranışlarının təsviri üçün hər hansı söz çatışmazlığında deyil, oxucunun onun haqqında təsəvvürünü formalaşdırmaq şansı əldə edə biləcəyi incə detalı, məğzi unutmaq əndişəsidir. Son 50 ildə qadınların siyasətdə rolunun artması müşahidə olunur. Ölkəsinin sosial-humanitar və mədəni modernləşməsinin ilhamvericisi olan Azərbaycanın birinci xanımı da müasir dünyanın görkəmli lider qadınları sırasındadır.

**Mehriban xanım Əliyeva özünün peşəkar fəaliyyəti, zəngin təcrübəsi, böyük humanizmi və hadisələrə genişmiqyaslı baxış bucağı ilə Azərbaycan tarixində qadın hərəkatının yeni bir səhifəsini başlamışdır. Mehriban xanım Əliyeva bu hərəkat tarixində ilk şəxsiyyətdir ki, onun fəaliyyəti təhsildən səhiyyəyə, idmandan mədəniyyətimizin təbliğinə, xeyriyyəçilikdən ətraf mühitin qorunmasına qədər geniş bir fəaliyyət arealını əhatə edir. Onun çox istiqamətli fəaliyyətinin əsasında xalq sevgisi, vətənpərvərlik, bəşəri ideallara sadiqlik, zərif humanizm dayanır.**





Mehriban Əliyevanın təşəbbüsü ilə həyata keçirilən tədbirlər təkcə Azərbaycanla məhdudlaşmır, eyni zamanda, beynəlxalq sülh və sabitliyin təmin edilməsində önəmli rol oynayan sivilizasiyalararası dialoq mühitinin formalaşdırılması, dünya mədəni irsinin qorunması üzrə aktual sahələri də əhatə edir. Mehriban xanım Əliyevanın malik olduğu üstün mənəvi məziyyətlərin nəcib ailə köklərinə dərin bağlılıqdan qayqanlanması, onun vətənimizə, dövlətçiliyimizə və xalqımıza sadiqlik əzmini şərtləndirən əsas amildir. Mehriban Əliyeva ölkənin birinci xanımı olmaqla bərabər, həm də, nümunəvi anadır, məsuliyyətli vətəndaşdır, dünyəvi və dini dəyərlərimizə sadiq olan Azərbaycan qadınının yeni simasıdır, ictimai-siyasi xadimdir.

Mehriban xanım Əliyeva Cənubi Qafqazın ən nüfuzlu və müdrik xanımı, Azərbaycanın Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti, UNESCO-nun xoşməramlı səfiri və İSESCO-nun isə ilk xoşməramlı qadın səfiri, Azərbaycan Gimnastika Federasiyasının prezidentidir. Mehriban Əliyeva Azərbaycanın və postsovet məkanının ayrılıqda götürülən tarixi baxımından müstəsna, amma qlobal proseslər baxımından obyektiv qanunauyğun fenomendir.

Söhbət son əlli ildə qadınların siyasətdə rolunun artmasından gedir. Bu prosesin başlanğıcını Srimavo Bandaranaike qoyub. O, 1960-cı il iyulun 21-də Şri-Lankada dünyada ilk qadın Baş nazir olub.

Onun rəhbərliyi ilə ada müstəmləkə asılılığından və müharibədən xilas olub. Sonra o, daha iki dəfə Baş nazir seçilib.

**Qadınların siyasətə gəlişi nəticəsində Asiyada və bütövlükdə dünyada çoxsaylı maraqlı və mütərəqqi dəyişikliklər baş verib: Hindistanın Baş naziri İndira Qandi; ən yeni tarixdə müsəlman əhalinin üstünlük təşkil etdiyi bir ölkədə- Pakistanda ilk qadın hökumət başçısı Bınəzir Bhutto; Filippində Asiyada ilk qadın prezident Kori Akino. Yəni, Asiya qitəsində siyasətin feminizasiyası məlum prosesdir. 2004-cü ildə Mehriban Əliyevanın prezidenti olduğu Heydər Əliyev Fondunun təsis edilməsi müasir Azərbaycan tarixinin əlamətdar hadisələrindən biridir. Heydər Əliyev Fondu Azərbaycanın dövlətçilik tarixini zənginləşdirmiş ümummilli liderimizin xatirəsinə Azərbaycan xalqının ehtiramını ifadə etmək məramı ilə, ulu öndərin zəngin mənəvi-siyasi irsinin öyrənilməsi, milli dövlətçilik ideyalarının nəsildən-nəsilə ötürülməsi zərurətindən yaranmışdır.**





Heydər Əliyev Fondu ölkəmizin və müasir dünyanın yeni və qabaqcıl ideyalarla hərəkət edən ən innovativ təsisatlarından biri olaraq təhsil, mədəniyyət, səhiyyə, idman, elm və texnologiya, ekologiya və sosial sahələrdə cəmiyyət və dövlətimiz üçün aktual olan layihələrin həyata keçirilməsində təşəbbüskar və təşkilatçı qurum kimi çıxış edir. Xüsusi qayğıya ehtiyacı olan insanlara yardım göstərilməsi, Azərbaycan vətəndaşlarının yaradıcı potensialının üzə çıxarılmasına və inkişaf etdirilməsinə, mənəvi dəyərlərimizin qorunmasına dəstək verilməsi, azərbaycançılıq ideologiyasının təbliği Heydər Əliyev Fondunun əsas fəaliyyət istiqamətləridir.

Ölkəmizin birinci xanımı Mehriban Əliyevanın ictimai-siyasi-mədəni sahələrdə çoxsaylı təşəbbüslərin müəllifi kimi önə çıxması Azərbaycan qadınının inkişafı üçün yeni üfüqlər açmışdır. Bu ənənənin davamı olaraq, Heydər Əliyev Fondunun vitse-prezidenti və Rusiya Nümayəndəliyinin rəhbəri, İslam Əməkdaşlıq Təşkilatı Gənclər Forumunun Mədəniyyətlərarası Dialoq üzrə baş əlaqələndiricisi, Rusiya Azərbaycanlı Gənclər Təşkilatının sədri, Ətraf Mühitin Mühafizəsi üzrə Beynəlxalq Dialoq təşəbbüsünün (İDEA) təsisçisi Leyla Əliyevanın təşəbbüsü ilə hə-

yata keşirilən tədbirlər artıq gənc Azərbaycan xanımının cəmiyyət üçün aktual olan məsələlərin həllində söz sahibinə çevrildiyini göstərir.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 2015-ci il 29 iyun tarixli sərəncamı ilə ölkəmizin birinci xanımı Mehriban Əliyeva Azərbaycan Respublikasında mədəniyyətin, təhsilin, səhiyyənin və idmanın inkişafında səmərəli fəaliyyətinə, Azərbaycan xalqının mədəni irsinin beynəlxalq miqyasda geniş təbliğinə və birinci Avropa Oyunlarının təşkilində böyük xidmətlərinə görə "Heydər Əliyev Ordeni" ilə təltiv edilmişdir. Mehriban xanım Əliyevanın ölkəmizin ali mükafatı olan "Heydər Əliyev Ordeni" ilə təltif olunması Azərbaycanın birinci xanımının fəaliyyətinə verilmiş ən yüksək dəyərdir. Bu mükafatla dövlət başçısı Mehriban xanım Əliyevanın təşəbbüsü ilə həyata keçirilən tədbirlərin Azərbaycan xalqı və dövləti üçün nə qədər əhəmiyyətli olduğunu göstərmişdir.

Prezident İlham Əliyev birinci Avropa Oyunları ilə əlaqədar keçirilən mükafatlandırma mərasimindəki çıxışında Mehriban xanım Əliyevanın fəaliyyətinə səmimiyyətlə dəyər verir: "Təşkilat Komitəsinə rəhbərlik etmiş Mehriban xanım Əliyevanın böyük fəaliyyətini xüsusilə yüksək qiymətləndirirəm. O, bu Oyunların keçirilməsinə çox böyük töhfə ver-





mişdir.Deyə bilərəm ki, bu Oyunların bu səviyyədə keçirilməsinə öz canını qoymuşdur".

**Mehriban xanım Əliyevanın təşəbbüsü ilə idman, mədəniyyət, təhsil sahəsində və ümumiyyətlə, dünyada Azərbaycanın müsbət imicinin formalaşdırılması istiqamətində həyata keçirilən tədbirlər ölkə ictimaiyyəti tərəfindən də yüksək qiymətləndiilir. İdmandan təhsilə qədər, mədəniyyətdən səhiyyəyə qədər,xeyriyyəçilikdən multikulturalizm təşəbbüskarlığına qədər əhatəli fəaliyyət potensialına malık olan Mehriban Əliyevanın ölkəmizin bütün ictimai, siyasi, mədəni dairələri tərəfindən işgüzar və görkəmli Azərbaycan qadını kimi tanınması cəmiyyətimizdə Azərbaycan qadınına verilən yüksək dəyərin ifadəsidir.**

Mehriban xanımın ölkə və qlobal səviyyədə gördüyü işlər beynəlxalq aləmdə də yüksək qiymətləndirilməkdədir. 2016-cı ildə Avropada idmanın inkişafına göstərdiyi xüsusi xidmətlərə görə Avropa Olimpiya Komitəsinin ən yüksək mükafatı olan Ali Ordenlə təltif edilmişdir...

Əslində o, insanları sevməklə özünü sevdirdi. Sadəliyi və xeyirxahlığı ilə az zamanda Azərbaycan sevgisini qazandı, amma təkcə bu məm-

ləkətə sığmadı, dünyanın da diqqətini özünə cəlb etdi. Dünya bu zərif, incə xanımın insan sevgisi ilə dolu ürəyinə heyran qaldı, onun təəssübkeşliyi, xeyir-duası, dəstəyi ilə həyata keçirilən qlobal layihələri alqışladı. O, indi dünyada zəif və zərif cinsin ən güclü, ən qüdrətli simalarından biri kimi tanınır və qəbul olunur.

O, indi dünyanın ən gənc və sevilən, hörmətlə yanaşılan birinci ledisidir. Ölkədə birinci Ledi İnstitutunu formalaşdıran Mehriban Əliyeva az zamanda Azərbaycan qadınının kimliyini dünyaya göstərdi.

Bu gün xalqımız Mehriban Əliyevanın fəaliyyətinə layiqli qiymət verərək onun bütün təşəbbüslərini dəstəkləyir və onun şəxsində Azərbaycan xanımına ən yüksək hörmət və ehtiramını ifadə edir.Sonsuz xalq sevgisinə sahib olan Mehriban Əliyevaya milli maraqlarımızın müdafiəsinə, dövlətçiliyimizin möhkəmləndirilməsinə  və xüsusən, Azərbaycan qadınının mənəvi yüksəlişinə xidmət edəSn yorulmaz fəaliyyətində davamlı uğurlar arzu edirik.





## *KİTABIN İÇİNDƏKİLƏR:*


BİR İNSANIN TALEYİ ........ 9
MEHRİBAN ƏLİYEVA HEYDƏR ƏLİYEV FONDUNUN PREZİDENTİ KİMİ ........ 24
MEHRİBAN ƏLİYEVA AZƏRBAYCAN GİMNASTİKA FEDERASİYASININ PREZİDENTİ KİMİ ........ 66
AZƏRBAYCAN RESPUBLİKASININ BİRİNCİ VİTSE-PREZİDENTİ MEHRİBAN ƏLİYEVA ........ 73
MEHRİBAN XANIM ƏLİYEVA HƏM DƏ ANADIR ........ 81
MEHRİBAN XANIM ƏLİYEVA MİLLƏT VƏKİLİ KİMİ ........ 88
AZƏRBAYCANDA TOLERANTLIQ VƏ MULTİKULTURAL SİYASƏTİN İNKİŞAFINDA MEHRİBAN ƏLİYEVANIN ROLU ........ 92
MEHRİBAN ƏLİYEVANIN RƏSMİ XARİCİ SƏFƏRLƏRİ ........ 115
HEYDƏR ƏLİYEV FONDUNUN AZƏRBAYCANIN XARİCİ SİYASƏTİNDƏ OYNADIĞI ROL ........ 138
AZƏRBAYCAN MƏDƏNİYYƏTİNİN HAMİSİ MEHRİBAN ƏLİYEVA ........ 149
XARİCİ MƏTBUAT MEHRİBAN ƏLİYEVADAN YAZIR ........ 163
DAR GÜNÜN HƏMDƏMİ ........ 195
"İNSANIN VƏ İNSANLIĞIN ÖZÜ- MEHRİBAN ƏLİYEVA" ........ 210
ƏTRAF MİHİTİN QORUNMASINDA

MEHRİBAN ƏLİYEVANIN ROLU ........................................ 218
HEYDƏR ƏLİYEV
MƏKTƏBİNİN YETİRMƏSİ ........................................ 228
AZƏRBAYCAN QADININA YENİ NÜFUZ
QAZANDIRAN XANIM LİDER ........................................ 238
MEHRİBAN ƏLİYEVA QƏLBİNİN SİYASƏTİ ........................................ 248
MƏCBURİ KÖÇKÜNLƏRİN YAXIN DOSTU ........................................ 256
MEHRİBAN ƏLİYEVA: "UŞAQLARA YAXŞILIQ
NƏ QƏDƏR ÇOX OLSA , YENƏ AZDIR" ........................................ 271
HUMANİZM VƏ XEYİRXAHLIQ ETALONU ........................................ 279

"Elm və təhsil" nəşriyyatının direktoru:
*professor* Nadir MƏMMƏDLİ

**Dizayner:** Kamran İbrahimov
**Texniki redaktor**: Rövşanə Nizamiqızı

Çapa imzalanmış 08.09.2020
Şərti çap vərəqi 24. Sifariş № 489
Kağız formatı 70x100 1/12. Tiraj 500
Kitab "Elm və təhsil" nəşriyyat-poliqrafiya
müəssisəsində səhifələnib, çap olunmuşdur
E-mail: elm.ve.tehsil@mail.ru
Tel: 497-16-32; 050-311-41-89
Ünvan: Bakı, İçərişəhər, 3-cü Maqomayev 8 /4